İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## İYİRMİ ALTINCI KİTAB

## AVQUST 2007 - OKTYABR 2007

AZƏRNƏŞR
BAKI - 2015

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2015

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2015, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Vilnüsdə «Energetika Sahəsində Təhlükəsizliyə dair» konfransda və Azərbaycan–Xorvatiya biznes-forumunda çıxışı, GUAM-ın üzv ölkələrinin dövlət başçılarının bu təşkilatın yaranmasının 10 illiyinə həsr olunmuş görüşdə nitqi verilmişdir.

Kitabda prezident İlham Əliyevin Litvaya rəsmi, Rumıniya, Tacikistan və İrana işgüzar səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə danışıqları, ölkələrimiz arasında ikitərəfli əlaqələrin, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsinə, eyni zamanda, Bakıya rəsmi səfərə gəlmiş Xorvatiya prezidenti Stepan Mesiç və Qətər dövlətinin əmiri Şeyx Həməd bin Xəlifə əl-Tani və onların başçılıq etdiyi nümayəndə heyəti ilə keçirdiyi görüşlərə, danışıqlara dair materiallar dərc olunmuşdur.

Burada regionların sosial inkişaf proqramının həyata keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasına səfəri, Naxçıvanın sosial, iqtisadi və mədəni cəhətdən inkişafına həsr olunmuş çıxışları, nitqləri öz əksini tapmışdır.

Bu cilddə, həmçinin Bakıya səfərə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri və s. yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

Ə **0801000000** / **M – 651(07) – 2015**   **BBK - 32**

© Azərnəşr, 2015

## QARA DƏNİZ TƏŞƏBBÜS QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 avqust 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 24-də Prezident sarayında Qara Dəniz Təşəbbüs qrupunun üzvlərini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bu səfərin Qara Dəniz Təşəbbüs qrupunun üzvlərinə ölkəmizdə gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq və regional səviyyədə əməkdaşlığın perspektivlərini qiymətləndirmək üçün yaxşı imkanlar yaratdığını bildirdi. Prezident İlham Əliyev həyata keçirilmiş bir çox əhəmiyyətli layihələrin Qara dəniz ilə Xəzər dənizini bir-birinə birləşdirdiyini nəzərə çatdırdı və Azərbaycanın bu iki region arasında mühüm körpü rolunu oynadığını vurğuladı.*

*«The Global Panel Foundation» təşkilatının sədri Mark Ellenboqen Qara Dəniz Təşəbbüs qrupunun sədrlik etdiyi təşkilatın qurumlarından biri olduğunu bildirərək onun fəaliyyəti barədə prezident İlham Əliyevə məlumat verdi. Qonaq ölkəmizdə olduqları müddətdə artıq bir sıra nazirlik və komitələrdə səmərəli görüşlər keçirdiklərini söylədi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «BAKI–RUSİYA FEDERASİYASI İLƏ DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN YENİDƏN QURULMASI» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*24 avqust 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 24-də «Bakı–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun yenidən qurulması» layihəsi çərçivəsində Dəvəçi rayonu ərazisində çəkilən əsas yolun 111 – 134-cü kilometrləri arasında aparılan tikinti işləri ilə tanış olmuşdur.*

*Əraziyə gələn dövlətimizin başçısı İlham Əliyevi inşaatçılar böyük hörmət və ehtiramla, alqışlarla qarşıladılar.*

*Azərbaycanın şimalında yerləşən, ümumi uzunluğu 208 kilometr olan Bakı–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolu (layihələndirilən hissənin uzunluğu 198 kilometrdir) əsası 2000-ci ildə qoyulmuş Şimal–Cənub nəqliyyat dəhlizinin bir hissəsini təşkil edir. Bu yol Cənubi Asiya ölkələri, İran, Rusiya və Qərbi Avropa dövlətləri arasında iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi baxımından strateji əhəmiyyətə malikdir.*

*Dövlətimizin başçısına yolun əsas texniki göstəriciləri barədə məlumat verildi.*

*Bildirildi ki, bu layihənin təsir dairəsinə Abşeron iqtisadi rayonunun bir hissəsi olan Xızı rayonunun ərazisi və beş rayonu özündə birləşdirən Quba–Xaçmaz iqtisadi rayonu daxildir. Ümumilikdə layihənin təsir dairəsi Azərbaycan ərazisinin 10 faizini əhatə edir. Magistral yolun işçi layihəsi Belçikanın EKO*

*məsləhətçi şirkəti tərəfindən hazırlanmışdır. Yolun 28–89 kilometrlik hissəsində yenidənqurma işlərinin maliyyələşdirilməsi üçün Azərbaycan Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında 2005-ci ilin sentyabrında 100 milyon ABŞ dolları məbləğində kreditin ayrılmasını nəzərdə tutan saziş imzalanmışdır. Magistralın 6–45 kilometrlik (Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən keçməklə) və 89–198 kilometrlik hissəsinin maliyyələşdirilməsi üçün isə Azərbaycan Hökuməti ilə Çex İxrac Bankı arasında 2005-ci ilin iyununda 180 milyon ABŞ dolları məbləğində kreditin ayrılmasını nəzərdə tutan saziş bağlanmışdır.*

*Layihə üzrə texniki nəzarət işlərini İsveçrənin SGS məsləhətçi şirkəti, yolun bu hissəsində texniki nəzarət işlərini «Təməlsu–EKO–AY Consufing» konsorsiumu həyata keçirəcəkdir. Podrat müqaviləsinin yaxın zamanlarda imzalanacağı gözlənilir.*

*Məlumat verildi ki, indi tikinti işləri yolun 89–111-ci və 111–134-cü kilometrliyində aparılır. Hər iki sahə üzrə yolun ümumi uzunluğu 46,2 kilometrdir. Burada 8 hərəkət zolağı, 5 yol qovşağı yaradılacaqdır. Layihənin 89–111-ci kilometrləri üzrə dəyəri 58,27 milyon dollar, 111–134-cü kilometrləri üzrə isə 65,53 milyon dollardır. Hər iki hissə üzrə bir kilometr yol 4,8 milyon dollara başa gələcəkdir.*

*Qeyd olundu ki, İB texniki dərəcəli yolun bu hissəsində 2 qovşaqda 2 yolötürücü, 3 körpü, 5 yükqəbuledici qurğu olacaqdır. Bundan əlavə, 4 yeraltı piyada və nəqliyyat keçidi də nəzərdə tutulmuşdur. Dörd hərəkət zolağı olacaqdır ki, onun da hər birinin eni 3,75 metr təşkil edəcəkdir. Magistralın əsas xüsusiyyətlərindən biri də odur ki, burada avtomobillərin hərəkətini çoxsaylı yol qovşaqları tənzimləyəcəkdir. Rusiya sərhədinə qədər uzanacaq yol boyu ötürücülər də tikiləcəkdir. Bunlar su və digər kommunikasiya xətləri üçün nəzərdə tutulmuşdur. Tikinti işlərinin 2008-ci ilin sonunadək başa çatdırılması planlaşdırılır.*

**İ l h a m  Ə l i y e v:** Mən gəlmişəm ki, özüm görüm, işlər necə gedir. Görürəm ki, yaxşı gedir. Artıq işə başlanılıb və

ümid edirəm ki, yol müəyyən olunmuş vaxtda istismara veriləcəkdir. Beləliklə, bizi Rusiya sərhədi ilə birləşdirən yol tam yüksək standartlara cavab verəcəkdir.

Eyni zamanda, Bakı–Gürcüstan sərhədi yolunda işlər gedir, Bakı–Astara yolunda, yəni bizi üç ölkə ilə birləşdirən yolların tikintisi ümid edirəm ki, vaxtında başa çatacaqdır.

**Ziya Məmmədov** (*Nəqliyyat naziri*): Cənab Prezident, Sizin tapşırığınızla Şamaxı istiqamətində də işlərə başlanılıbdır.

**İlham Əliyev:** Bəli, o, artıq daxili yollardır. O da lazımdır.

**Ziya Məmmədov:** Cənab Prezident, orada magistral yolun tikintisi də başlanıbdır və intensiv iş gedir.

**İlham Əliyev:** Bakıdan Şamaxıya, ondan sonra Qəbələ, İsmayıllı və axıra qədər.

*Bildirildi ki, Bakı–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolu boyunca ən çox qovşaq və ötürücülər magistralın 111–134-cü kilometrliyində inşa olunacaqdır.*

*Dövlətimizin başçısı yol boyu mövcud olan körpülərin də təmirinin vacibliyini vurğuladı.*

**İlham Əliyev:** Bu yolun tikintisi zamanı gərək köhnə körpüləri də bərpa edək.

**Ziya Məmmədov:** Bəli, nəzərdə tutulubdur.

**İlham Əliyev:** Sumqayıt ərazisində, Sumqayıtın çıxışında bir neçə körpü var. Həm də onların xarici görünüşü çox bərbaddır.

**Cavid Qurbanov** (*«Azəryolservis» ASC-nin sədri*): Cənab Prezident, Sumqayıt ərazisindəki dairədə 7 körpü olacaqdır.

**Ziya Məmmədov**: Cənab Prezident, Xırdalan dairəsi, post-patrul xidməti yerləşən ərazidə də qovşaq vardır.

**İlham Əliyev**: Bəli, yəni gərək bütün körpülər təmir olunsun.

*Azərbaycan prezidentinə məlumat verildi ki, Bakı–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yoluna alternativ olaraq*

*dəniz sahili boyunca sərhədə qədər yeni avtomobil yolunun çəkilməsi üçün texniki imkanlar vardır. Abşeron rayonu ərazisindən başlayacaq alternativ yol magistral boyunca nəqliyyat vasitələrinin hərəkətini tənzimləyəcək, bölgədə turizmin inkişafı üçün əlavə imkanlar yaradacaqdır.*

*Prezident İlham Əliyev paytaxt daxilində də alternativ yolların çəkilməsinin zəruriliyini diqqətə çatdırdı. Qeyd olundu ki, Heydər Əliyev prospektində bərpa işləri aparmaq üçün alternativ yol hazır olmalıdır. Yeni yolun layihəsi, demək olar ki, artıq hazırdır və son tamamlama işləri gedir.*

**Ziya Məmmədov:** Cənab Prezident, Sizin tapşırığınızla Mehdiabad qəsəbəsindən Pirşağı istiqamətinə gedən ikixətli yol hazırdır.

**İlham Əliyev:** Bəli, onu etmisiniz. Onu o vaxt məndən xahiş etmişdilər ki, o yolu axıradək davam etdirək.

**Ziya Məmmədov:** Cənab Prezident, məruzə edirik ki, o yolun çəkilişi tamamilə başa çatdırıldı.

* * *

*Prezident İlham Əliyev strateji əhəmiyyətə malik bu yolun dünya standartlarına uyğun tikilməsinin zəruriliyini vurğuladı, işlərin vaxtında və keyfiyyətlə başa çatdırılması üçün müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

*Sonra prezident İlham Əliyev Dəvəçidə aparılan abadlıq-quruculuq işləri ilə maraqlandı.*

*Dəvəçi Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov Taxtakörpü su anbarının tikintisində yerli işçi qüvvəsindən istifadə olunduğunu, rayonda yeni iş yerlərinin açıldığını bildirdi. Qeyd etdi ki, Pirəbədil kəndində 12 hektar ərazidə yeni şəhərciyin salınması planlaşdırılmışdır. Bu şəhərcik Yazıçılar Birliyi, Bəstəkarlar və Rəssamlar ittifaqları üçün nəzərdə tutulmuşdur. Yeni şəhərciyin salınması rayonda 18 kilometr uzunluğunda yeni yolun çəkilməsi deməkdir. Bununla da 10 kəndin yol problemi həll olunacaqdır.*

*Dövlətimizin başçısı rayonun turizm potensialını nəzərə alaraq, burada genişmiqyaslı tədbirlərin həyata keçirilməsinin vacibliyini bildirdi.*

**İ l h a m Ə l i y e v:** Bu rayonun turizm potensialı çox güclüdür. Firmaları bu işə cəlb edin, amma baxın ki, keyfiyyətli tiksinlər. Bəzən turizm obyektləri bir az keyfiyyətsiz tikilir. Amma gərək bu obyektlərin həm xarici görünüşü, həm rəngləri, həm də oradakı şərait müasir səviyyədə olsun.

**N o v r u z N o v r u z o v:** Cənab Prezident, burada Çıraqqala var.

**İ l h a m Ə l i y e v:** Bilirəm, mən orada dəfələrlə olmuşam.

**N o v r u z N o v r u z o v:** Çox gözəl yerdir. Amma primitiv formada tikiblər.

**İ l h a m Ə l i y e v:** Bəli, primitivdir.

**N o v r u z N o v r u z o v:** Ancaq məsələ qaldırmışıq ki, ora tamamilə böyüməli, yeniləşdirilməlidir.

**İ l h a m Ə l i y e v:** Mən bilirəm, o layihə var. Mənə məruzə olunubdur. Orada dünya səviyyəli bir kurort yaratmaq lazımdır. Çünki o suyun keyfiyyəti çox yüksəkdir. O, müalicəvi sudur.

Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 24-də respublikamızın şimal bölgəsinə səfəri çərçivəsində Dəvəçi rayonu ərazisində turizmin inkişafı ilə əlaqədar bir sıra ərazilərə baxmışdır.*

*Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov dövlətimizin başçısına dəniz sahilində, Dəvəçi limanında yerləşən ərazinin göstəriciləri barədə məruzə etdi.*

*Prezident İlham Əliyev burada turizmin inkişafı barədə tapşırıq və tövsiyələrini verdi.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva dəniz sahilində kvadrosikllə gəzintiyə çıxdılar.*

*Daha sonra dövlətimizin başçısı və xanımı çay süfrəsinə qonaq oldular.*

## CƏNUBİ KOREYANIN TİCARƏT, SƏNAYE VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ Lİ ÇJE HUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Prezident sarayında Cənubi Koreyanın Ticarət, Sənaye və Energetika nazirinin müavini Li Çje Hunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan prezidenti iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri zamanı ikitərəfli əlaqələrimizin genişləndirilməsinə dair səmərəli fikir mübadiləsinin aparıldığını və bu səfərlərin nəticəsi olaraq hazırda Azərbaycan ilə Cənubi Koreya arasında əməkdaşlığın çox fəal mərhələsinə başlandığını bildirdi. O, siyasət, iqtisadiyyat, energetika və digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi üçün qarşılıqlı marağın olduğunu və əməkdaşlığımızın getdikcə daha geniş sahələri əhatə etdiyini məmnuniyyətlə vurğuladı. Prezident İlham Əliyev Cənubi Koreya nümayəndə heyətinin Azərbaycana bu səfərinin ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən iqtisadiyyat sahəsində əlaqələrin genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Li Çje Hun Cənubi Koreya prezidenti Roh Mu-Hyunun salamlarını prezident İlham Əliyevə çatdıraraq dedi ki, Cənubi Koreya prezidenti Sizin Azərbaycana çox uğurlu rəhbərliyiniz sayəsində yüksək iqtisadi artımın əldə olunması ilə bağlı öz ehtiramını ifadə edir. Qonaq qeyd etdi ki, Cənubi Koreya pre-*

*zidenti ölkəsi ilə Azərbaycan arasındakı səmərəli əməkdaşlığın daha geniş sahələri əhatə etməsini arzulayır. Prezident İlham Əliyevin Cənubi Koreyaya səfəri çərçivəsində rəsmi ziyafət zamanı etdiyi çıxışın onda dərin təəssürat yaratdığını qeyd edən qonaq Azərbaycan prezidentinin ölkəsini iqtisadi inkişaf yolu ilə irəliyə doğru aparmaq qətiyyətini gördüklərini vurğuladı.*

*Sonda Li Çje Hun Cənubi Koreya prezidenti Roh Mu-Hyunun məktubunu dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Cənubi Koreya prezidenti Roh Mu-Hyunun salamlarına və məktubuna görə minnətdarlığını bildirdi və onun da salamlarını Cənubi Koreyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Türkiyə Cümhuriyyətinin Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Təmsil etdiyiniz Ədalət və İnkişaf Partiyasının keçən ay Türkiyə Böyük Millət Məclisinə seçkilərdə qazandığı inamlı qələbə siyasi xəttinizin qardaş Türkiyə xalqı tərəfindən dəstəkləndiyinin bariz sübutu oldu. Bu gün isə Türkiyə Cümhuriyyətinin Prezidenti seçilməyiniz Sizin şəxsinizə böyük inamın, hörmət və etimadın parlaq ifadəsidir.

Azərbaycan və Türkiyə əsrlərdən bəri bir-birinə qırılmaz tellərlə bağlıdır. Qardaş xalqlarımızın iradə və məramından qaynaqlanan bugünkü dövlətlərarası münasibətlərimiz isə strateji tərəfdaşlığın, müttəfiqliyin zirvəsindədir.

Əminəm ki, ən böyük sərvətimiz olan birliyimizi qoruyub saxlamaq və daim möhkəmləndirmək, bütün sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığımızı daha da inkişaf etdirmək, regional və beynəlxalq qurumlar çərçivəsində birgə fəaliyyətimizi indiki yüksək səviyyədə davam etdirmək üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə, cənab Prezident, ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkiyənin yüksəlişi naminə qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2007-ci il*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 avqust 2007-ci il*

*Avqustun 28-də Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə əl-Tani Azərbaycana rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Qətərin dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Qətər Dövlətinin Əmirini və onun xanımı şeyxa Moza bint Nasir əl-Misnədini təyyarənin pilləkəni yanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Xarici İşlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər qarşıladılar.*

*Sonra hava limanının ali qonaqlar üçün ayrılmış salonunda Şeyx Həməd bin Xəlifə əl-Tani və Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol söhbəti oldu.*

*Azərbaycan prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Qətər Əmirinin xanımı şeyxa Moza bint Nasir əl-Misnədi də qısa söhbət etdilər.*

*Qətər Əmiri hava limanından Fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə şəhərə yola düşdü.*

* * *

*Avqustun 28-də Prezident sarayında Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə əl-Taninin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın qarşısındakı rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Qətər Əmiri Şeyx Həməd bin Xəlifə əl-Tanini səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Qətər dövlətinin başçısına raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Qətərin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Qətər Dövlətinin Əmiri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın rəsmi şəxsləri Qətər Əmiri Şeyx Həməd bin Xəlifə əl-Taniyə, Qətər nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim edildi.*

*Dövlət başçıları Prezident sarayında xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Avqustun 28-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyev ilə Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə əl-Taninin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycanla Qətər arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı. Prezident İlham Əliyev Qətərə rəsmi səfərini xatırlatdı, həmin səfərin iki ölkə arasında əməkdaşlığın inkişafına təkan verdiyini bildirdi.*

*Dövlətimizin başçısı Qətərdə Azərbaycanın səfirliyinin fəaliyyətə başlayacağını söylədi, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi üçün bir sıra layihələrin mövcudluğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycanla Qətər arasında siyasi münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğuladı, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini bildirdi.*

*Qətərin Əmiri Şeyx Həməd bin Xəlifə əl-Tani də ölkəsinin BMT-də Azərbaycanı dəstəklədiyini vurğuladı. İki dövlət arasında münasibətlərin əla səviyyədə olduğunu bildirən Əmir tezliklə Azərbaycanda Qətərin səfirliyinin fəaliyyətə başlayacağını söylədi.*

*Prezident İlham Əliyev iki ölkə arasında bir sıra sahələrdə, o cümlədən neft-qaz sənayesində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar olduğunu, Azərbaycanın mühüm neft və qaz ixracatçılarından birinə çevrildiyini vurğuladı. Qətərin də bu baxımdan dünyada öncül yerlərdən birini tutduğunu deyən dövlətimizin başçısı qarşılıqlı surətdə faydalı*

*iqtisadi və investisiya layihələrinin reallaşdırılması üçün hərtərəfli potensial imkanlar olduğunu bildirdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

**Sənədlərin imzalanma mərasimi**

*Avqustun 28-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə əl-Taninin iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Qətərin Ticarət və Sənaye Palatası arasında Müştərək Biznes Şurasının (MBŞ) təsis edilməsi barədə sazişi və palatalar arasında anlaşma memorandumunu Azərbaycanın Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Tatlıyev və Qətərin Maliyyə naziri Yusif Hüseyn Kamal imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hava daşımalarına dair sazişi «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərov və Qətərin Maliyyə naziri Yusif Hüseyn Kamal imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycanın Vergilər naziri Fazil Məmmədov və Qətərin Maliyyə naziri Yusif Hüseyn Kamal imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Azərbaycanın İqtisadi İnkişaf naziri Heydər Babayev və Qətərin Maliyyə naziri Yusif Hüseyn Kamal imzaladılar.*

## Ali qonağın şərəfinə

*Avqustun 28-də «Şəfəq» iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə əl-Taninin və xanımı şeyxa Moza bint Nasir əl-Misnədinin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Rəsmi qəbuldan əvvəl dövlət başçıları və xanımları xatirə şəkli çəkdirmişlər.*

## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qətər Əmirinin xanımı şeyxa Moza bint Nasir əl-Misnədi ilə görüşmüşdür

*Avqustun 28-də Prezident sarayında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Qətər Əmirinin xanımı şeyxa Moza bint Nasir əl-Misnədi ilə görüşmüşdür.*

## Səfər başa çatdı

*Avqustun 28-də Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə əl-Taninin Azərbaycana rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Qətərin dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Qətər Dövlətinin Əmirini və onun xanımı Şeyxa Moza bint Nasir əl-Misnədini təyyarənin pilləkəni yanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Xarici İşlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər yola saldılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PAYTAXTDA TİKİLMƏKDƏ OLAN ÇOXMƏRTƏBƏLİ YAŞAYIŞ BİNASININ UÇDUĞU YERƏ GƏLMİŞDİR

*Yasamal rayonu, Murtuza Muxtarov küçəsi*

*29 avqust 2007-ci il*

*Avqustun 29-da Azərbaycan prezidenti İlham Əliyev Bakının Yasamal rayonunun ərazisində, Murtuza Muxtarov və Məhəmməd Naxçıvani küçələrinin kəsişməsində tikilməkdə olan çoxmərtəbəli yaşayış binasının uçması ilə əlaqədar hadisə yerinə gəlmişdir.*

*Dövlətimizin başçısı qəza yerində xilasetmə işlərinin gedişi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, yaşayış üçün nəzərdə tutulmuş çoxmərtəbəli binanın uçması nəticəsində tikintidə çalışanlar arasında ölən və yaralananlar var. Uçmuş binanın yaxınlığında vətəndaşlara məxsus nəqliyyat vasitələrinə də ziyan dəymişdir. Hadisə baş verdikdən dərhal sonra Fövqəladə Hallar Nazirliyinin, Bakı Şəhər Prokurorluğunun və Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşlarının iştirakı ilə əraziyə baxış keçirilmiş, zəruri texniki vasitələrdən istifadə edilməklə dağıntılar altında qalması ehtimal olunan şəxslərin xilas edilməsi ilə bağlı tədbirlər görülməyə başlanmışdır. Faktla bağlı avqustun 28-də Cinayət Məcəlləsinin 222.1.2 və 222.2 maddələri ilə Bakı Şəhər Prokurorluğu tərəfindən cinayət işi açılıb və istintaq qrupu yaradılıbdır. Tikintini aparan «Mütəfəkkir» MMC-nin rəhbərliyi həbs olunub və cinayət işi üzrə şahidlər dindirilir. Yaralılar xəstəxanalarda yerləşdirilib, onlara təcili tibbi yardım göstərilibdir.*

*Dövlətimizin başçısı xilasetmə işlərinin sürətləndirilməsi, qəzanın səbəblərinin araşdırılması, habelə həlak olanların ailələrinə və yaralılara lazımi kömək göstərilməsi barədə tapşırıqlar vermişdir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*Heydər Əliyev adına saray*

*30 avqust 2007-ci il*

*Avqustun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev adına sarayda aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə binanın fasadına baxdı, burada işlərin gedişi ilə maraqlandı. Prezident İlham Əliyevə məlumat verildi ki, binada söküntü işləri, demək olar ki, başa çatdırılmışdır. «Azəraqrartikinti» və «Pim Proje» Türkiyə–Azərbaycan birgə müəssisəsinin həyata keçirdiyi əsaslı təmir və bərpa işlərinin 2008-ci ilin mayında tamamlanması nəzərdə tutulur. Almaniyada sifariş olunan xüsusi dam örtükləri bu yaxınlarda Bakıya gətiriləcəkdir.*

*Dövlətimizin başçısı sarayın fasadında istifadə olunacaq mərmər nümunələrinə də baxdı. Mərmərlər İtaliya istehsalıdır və yüksək keyfiyyətlidir. Prezident İlham Əliyev fasadda açıq-qəhvəyi rəngli mərmərdən istifadə olunmasını tövsiyə etdi. Dövlətimizin başçısı sarayın daxilini əks etdirən eskizlərlə tanış oldu, səhnəyə də baxdı. Bildirildi ki, burada da işlər sürətlə davam etdirilir. 2128 yerlik salonda rahatlıq üçün bütün şərait yaradılacaqdır. Səhnənin akustikası ilə bağlı layihə işləri tezliklə başa çatdırılacaqdır. Sarayda işıq, istilik, səsləndirmə və kommunikasiya sistemləri tamamilə dəyişdiri-*

*ləcək, salonda oturacaqlar yeniləri ilə əvəz olunacaqdır. Prezident İlham Əliyev səhnədə yüksək standartlara cavab verən müasir avadanlığın quraşdırılması barədə tapşırıq verdi. Dövlətimizin başçısı foyedə görülən işlərlə də maraqlandı.*

*Heydər Əliyev adına sarayda aparılan əsaslı təmir və yenidənqurma işlərinin daha bir özəlliyi binanın qarşı tərəfində quraşdırılacaq şüşələrlə bağlı olacaqdır. ABŞ istehsalı olan şüşələr içəridə keçiriləcək tədbirləri birbaşa sarayın qarşısından izləməyə imkan yaradacaqdır. Gecələr isə bu şüşələr ətrafa yaraşıq verəcək, onlardan reklam roliklərinin nümayiş etdirildiyi nəhəng monitorlar kimi də istifadə ediləcəkdir.*

*Dövlətimizin başçısı xüsusi havalandırma sisteminin yerləşəcəyi yerə də baş çəkdi. İtaliyadan alınan avadanlığın yaxın gələcəkdə quraşdırılmasına başlanacaqdır.*

*Dövlətimizin başçısı sarayda əsaslı təmir və yenidənqurma işlərinin ən yüksək tələblər səviyyəsində və keyfiyyətlə görülməsi barədə tapşırıq və tövsiyələrini verdi.*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİ APARATININ RƏHBƏRİ – HÖKUMƏT SƏDRİNİN MÜAVİNİ SERGEY NARIŞKİN İLƏ SÖHBƏT

*Prezident sarayı*

*31 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Prezident sarayında Rusiya Federasiyası Hökuməti Aparatının rəhbəri – hökumət sədrinin müavini Sergey Narışkini qəbul etmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti Rusiya ilə Azərbaycan arasında siyasi və iqtisadi əlaqələrin dinamik inkişaf etdiyini, Rusiya Federasiyası Hökuməti sədrinin müavininin ölkəmizə ilk səfərinin də əməkdaşlığın gələcək inkişafına xidmət edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev iqtisadi sahədə daha sıx inteqrasiyaya nail olunması üçün hökumətlərarası komissiyanın fəal işləyəcəyinə ümidvar olduğunu söylədi.*

**İlham Əliyev:** İndi biz əmtəə dövriyyəsinin səviyyəsinə görə çox yüksək həddəyik. Son illərin dinamikası da çox müsbətdir, müştərək layihələrə böyük maraq göstərilir. Bütün bunlar məhz bizim münasibətlərimizin çox möhkəm siyasi bazasına əsaslanır.

Biz qonşuyuq və bu da ikitərəfli münasibətlər üçün mühüm amildir. Digər tərəfdən də ikitərəfli formatlı məsələlərin geniş spektri mövcuddur. Təbii ki, bu, ikitərəfli formatın çərçivələrindən kənara çıxır, regional problemləri, regional təhlükəsizliyin möhkəmləndirilməsi, regional əməkdaşlıq məsələlərini də əhatə edir. Bu baxımdan Rusiyanın və Azər-

baycanın Qafqaz regionundakı fəaliyyətindən çox şey asılıdır. Bir sözlə, biz fəal təmasları davam etdirmək əzmindəyik və əminəm ki, bu baxımdan sizin səfəriniz çox mühüm rol oynayacaqdır.

*Bakıya ilk dəfə səfər etməsindən və Azərbaycan prezidenti ilə görüşündən məmnunluğunu bildirən Rusiya Federasiyası Hökuməti sədrinin müavini Sergey Narışkin Azərbaycan xalqının ümummilli liderinin məzarını ziyarət etdiyini bildirərək dedi ki, Heydər Əliyevin əziz xatirəsi Rusiyada daim ehtiramla yad olunur. O, hökumətlərarası komissiyanın Rusiya tərəfindən yeni təyin olunmuş həmsədri kimi, Rusiya–Azərbaycan münasibətlərinə töhfə verəcəyini söylədi. Sergey Narışkin may ayında azərbaycanlı həmkarları ilə Rusiya paytaxtında keçirdikləri görüş və müzakirə edilən məsələlər barədə Azərbaycan prezidentinə məlumat verdi və bildirdi ki, komissiyanın növbəti iclası da noyabrın ortalarında Moskvada olacaqdır.*

## BEYNƏLXALQ HƏVƏSKAR BOKS ASSOSİASİYASININ PREZİDENTİ ÇİNQ-KUO VUN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Prezident sarayında Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti cənab Çinq-Kuo Vunu qəbul etmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti cənab Çinq-Kuo Vunu Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti seçilməsi münasibətilə təbrik etdi, gələcək fəaliyyətində ona uğurlar arzuladı. Azərbaycan prezidenti İlham Əliyev respublikamızda idmana böyük diqqət göstərildiyini qeyd edərək, digər idmançılarla yanaşı, boksçularımızın da beynəlxalq yarışlarda yüksək nailiyyətlər əldə etdiyini vurğuladı. O, Avropa, dünya çempionatlarının və bir sıra nüfuzlu beynəlxalq yarışların ölkəmizdə uğurla keçirildiyini bildirdi.*

*Cənab Çinq-Kuo Vun Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti seçilməsi münasibətilə Azərbaycan prezidentinin təbriklərinə görə minnətdarlığını bildirdi. O, ölkəmizdə dövlət tərəfindən idmana, o cümlədən boksun inkişafına göstərilən yüksək diqqətin şahidi olduğunu söylədi və rəhbərlik etdiyi assosiasiyanın Azərbaycanla uğurlu əməkdaşlıq etdiyini vurğuladı.*

## YENİYETMƏLƏRİN IX AVROPA OLİMPİYA FESTİVALININ QALİBLƏRİ VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Milli Olimpiya Komitəsinin inzibati binası*

*3 sentyabr 2007-ci il*

*Azərbaycan prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev sentyabrın 3-də MOK-un inzibati binasında yeniyetmələrin IX Avropa olimpiya festivalının qalibləri və onların məşqçiləri ilə görüşmüşdür.*

**İlham Əliyev**: Milli Olimpiya Komitəsində idmançılarla görüşlərimiz ənənəvi xarakter daşıyır. Uzun illər ərzində biz burada müxtəlif vaxtlarda görüşmüşük, söhbət eləmişik, idmançıların uğurlarına sevinmişik və əlbəttə ki, gələcək fəaliyyət haqqında danışmışıq. Bu gün də biz çox gözəl hadisə münasibətilə buraya yığışmışıq. Bizim gənc idmançılarımız beynəlxalq yarışda, mötəbər Avropa yarışında çox böyük qələbə qazanmışlar. IX Avropa olimpiya festivalında, yeniyetmələr arasında keçirilən festivalda bizim milli komandamız 6-cı yeri tutmuşdur. Bu çox böyük göstəricidir, çox böyük qələbədir. Nəzərə alsaq ki, bu yarışda 50-yə yaxın ölkənin komandaları iştirak edib, 6-cı yeri tutmaq, sözün əsl mənasında, çox böyük nəticədir.

Bu festivalda bizim idmançılarımız yeddi qızıl medal qazanmışlar. Bu da çox böyük göstəricidir. Mənə verilən məlumata görə, bizdən irəlidə ancaq Rusiya, Böyük Britaniya, İtaliya, Almaniya və Ukrayna komandalarıdır. Bildiyiniz kimi, bunlar əhalisinin sayına görə Azərbaycandan bir neçə dəfə çox olan ölkələrdir.

Əlbəttə ki, 6-cı yeri tutmaq onu göstərir ki, Azərbaycanda yeniyetmə idmanı çox yüksək səviyyədədir. Bu məni çox sevindirir. Azərbaycanda uşaq və yeniyetmə idmanına həmişə böyük diqqət göstərilmişdir. Bu bizim gələcəyimizdir. İlk növbədə, gənc kadrlar, gənc nəsil yetişir. Digər tərəfdən, bu onu göstərir ki, gənclərimiz idmana çox böyük maraqla yanaşırlar. Bizim də məqsədimiz bundan ibarətdir ki, sağlam gənc nəsil yetişsin. Bunu etmək üçün həm idman bölmələrində iş yüksək səviyyədə təşkil olunmalıdır, həm də federasiyalar, Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, müxtəlif qurumlar, bir sözlə, bütün idman ictimaiyyəti bir nöqtəyə vurmalıdır.

İndi Azərbaycanda idmanla məşğul olmaq üçün çox gözəl imkanlar var. Ölkəmizin müxtəlif bölgələrində müasir idman kompleksləri tikilib istifadəyə verilibdir. 10-dan çox kompleks artıq fəaliyyətdədir. 20-yə qədər müasir olimpiya kompleksinin tikintisi ya başlanmışdır, yaxud da başlanmaq ərəfəsindədir. Beləliklə, Azərbaycanın hər bir bölgəsində müasir idman qurğuları tikilir.

Azərbaycanda indi müxtəlif beynəlxalq yarışlar da keçirilir. Uzun illər ərzində artıq Azərbaycanda bir neçə dəfə həm gənclər arasında, yeniyetmələr arasında, həm də böyüklər arasında dünya və Avropa çempionatları keçirilmişdir. Bu da onu göstərir ki, beynəlxalq idman ictimaiyyətinin Azərbaycana çox böyük hörməti, inamı var və bizdə təşkilatçılıq səviyyəsi çox yüksəkdir.

Onu da qeyd etmək istəyirəm ki, yeniyetmələr arasında Avropa olimpiya festivalında bizdən sonrakı yerləri tutmuş ölkələrin komandaları çox böyük idman potensialına malik ölkələrdəndir. Misal üçün, bizdən sonrakı yerləri tutan ölkələr Belçika, Rumıniya, Polşa, Fransa, Hollandiya, Macarıstan, Serbiya, Latviya, Xorvatiya, Gürcüstan, Slovakiya, İsveç, Sloveniya, İspaniya, Türkiyə, Portuqaliya, İsveçrə, Danimarka, Litva, Bolqarıstan, Estoniya, İrlandiya, Avstriya, Belarus, İsrail, Finlandiya, Norveç, Bosniya, Çexiya, Yu-

nanıstan və Lüksemburqdur. Sonuncu yerdə Ermənistan komandasıdır. Ermənistan komandası nə bir qızıl, nə bir gümüş, nə də bir bürünc medal qazana bilmişdir. Budur bizim üstünlüyümüz, budur bizim fəaliyyətimizin nəticəsi.

*Azərbaycan Respublikasının Prezidenti gənc idmançılarımızın beynəlxalq yarışlarda, Olimpiya oyunlarında da yüksək nəticə göstərəcəklərinə ümidvar olduğunu söylədi.*

**Rəşad Həsənov** (*Cüdo üzrə yeniyetmələrdən ibarət milli komandamızın məşqçisi*): Cənab Prezident, biz bu qələbəni Sizin Olimpiya Komitəsinin prezidenti seçilməyinizin 10 illiyinə həsr etmişik. Biz çox sevinirik, indiyəcən Avropa olimpiya festivalında belə nəticələr olmamışdır. Siz qeyd etdiyiniz kimi, biz 6-cı yerə layiq görülmüşük. Bizdən sonrakı yerləri tutan, sadaladığınız ölkələrin komandaları çox güclü rəqiblər idi. Bizim qələbə Sizin idmana göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Sizə öz minnətdarlığımızı bildiririk.

*Görüşdə yeniyetmə idmançılarımızın gələcək beynəlxalq yarışlara da səylə hazırlaşdıqları vurğulandı. Gənc atlet Ramil Quliyevin Pekin Olimpiya oyunlarina ölkəmizdən ilk lisenziya qazandığı bildirildi. Dövlətimizin başçısına yaxın gələcəkdə idmançılarımızın bir çox mötəbər yarışlarda iştirak edəcəyi barədə də məlumat verildi. Artıq Azərbaycanın da dünyanın idman mərkəzlərindən birinə çevrildiyi, ölkəmizdə beynəlxalq yarışları qəbul edən möhtəşəm idman komplekslərinin – Heydər Əliyev adına İdman-Konsert Kompleksinin, Bakı İdman sarayinin və Atletika manejinin dünya standartlarına uyğun şəkildə yenidən qurularaq idmançıların istifadəsinə verildiyi vurğulandı.*

*Görüşün sonunda yeniyetmə idmançılar və onların məşqçiləri prezident İlham Əliyev ilə xatirə şəkli çəkdirdilər.*

## GÜLƏŞ VƏ TAEKVONDO ÜZRƏ MİLLİ KOMANDALARIN ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Milli Olimpiya Komitəsinin inzibati binası*

*3 sentyabr 2007-ci il*

*Azərbaycan prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev sentyabrın 3-də MOK-un inzibati binasında son vaxtlar beynəlxalq yarışlarda uğurlar qazanmış güləş və taekvondo üzrə milli komandaların üzvləri və məşqçiləri ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev son vaxtlar Azərbaycanda dövlət səviyyəsində idmana göstərilən qayğının Beynəlxalq Olimpiya Komitəsinin və dünya idman federasiyalarının rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini söylədi.*

**İlham Əliyev:** Azərbaycanda idman çox sürətlə inkişaf edir. Gənc nəsil və təcrübəli idmançılar bizi həm sevindirirlər, həm də Azərbaycanın idman bayrağını həmişə yüksəkdə saxlayırlar. Sizin də uğurlarınız bizi çox sevindirir, xüsusilə də nəzərə alsaq ki, gələn il Pekində Yay Olimpiya oyunları keçiriləcək və biz bu oyunlara çox ciddi hazırlaşırıq. Bilirik ki, rəqabət çox böyük olacaq, bəlkə də keçən Olimpiya oyunlarına nisbətən daha da kəskin mübarizə aparılacaqdır. Çünki indi idman müxtəlif ölkələrin diqqət mərkəzindədir. Əvvəllər belə deyildi. Mən idman hərəkatında 10 ildir iştirak edirəm və bilirəm ki, yeddi – on il bundan əvvəl bəzi ölkələrdə idmanın inkişafına böyük diqqət göstərilmirdi. Amma indi vəziyyət dəyişibdir. Hər bir ölkə çalışır ki, Olimpiya oyunlarında yüksək nəticə göstərsin. Çünki Olimpiya oyunları yeganə idman yarışıdır ki, orada bütün ölkələr iştirak edir və müxtəlif yerləri tutur. Bundan sonra cədvəldə göstərilir ki, hansı ölkə hansı yerdədir. Hamı çalışır ki, yüksək yer tutsun.

Azərbaycan son iki Olimpiya oyunlarında çox yaxşı iştirak etmişdir. İdmançılarımız Sidneydə 3, Afinada isə 5 me-

dal qazanmışlar. Biz ümid edirik ki, Pekin Olimpiya oyunlarında da nəticələr yaxşı olacaq. Bu sizdən – idmançılardan, məşqçilərdən, federasiyaların rəhbərliyindən, klubların və bütün idman ictimaiyyətinin fəaliyyətindən asılıdır.

Azərbaycan indi beynəlxalq idman yarışlarını da uğurla keçirir. İki həftədən sonra dünya güləş çempionatı keçiriləcəkdir. Bu çox böyük göstəricidir. Bütün dünya güləş ictimaiyyəti Azərbaycana yığışacaqdır.

Bu, Azərbaycana çox böyük inamın, çox böyük hörmətin əlamətidir ki, güləş federasiyası dünya çempionatını məhz Azərbaycanda keçirir.

*Sərbəst güləş üzrə milli komandanın Baş məşqçisi Yaqub Məmmədov Azərbaycan prezidenti İlham Əliyevin olimpiya hərəkatının inkişafına göstərdiyi qayğı nəticəsində respublikamızın dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrildiyini vurğuladı. O dedi ki, Sizin 10 il bundan əvvəl Milli Olimpiya Komitəsinə başçılıq etməyiniz, demək olar ki, Azərbaycan idmanının irəliləməsinə böyük təkan verdi. Mən elə bilirəm ki, bizim güləşçilərimiz bu imtahandan da alnıaçıq çıxmalıdırlar. Çalışacağıq ki, maksimum lisenziyalar qazanaq.*

*Yunan-Roma güləşi üzrə milli komandanın Baş məşqçisi Elçin Cəfərov dövlət səviyyəsində onlara göstərilən qayğıya qarşıdakı dünya çempionatında parlaq qələbələr qazanmaqla cavab verəcəklərini bildirdi və qeyd etdi ki, biz çalışacağıq Azərbaycan idmanına göstərilən bu qayğı və diqqəti dünya çemypionatında lazımınca doğruldaq. Bilirsiniz ki, bu çempionatda 100-dən artıq ölkənin idmançıları iştirak edəcəklər. Bu yarış həm də ona görə ağır və çətin olacaq ki, 1–8-ci yerləri tutan idmançılar Pekin Olimpiya oyunlarına lisenziya qazanacaqlar. Hesab edirəm ki, Sizin dəstəyiniz, köməyiniz, qayğınız nəticəsində biz bunun öhdəsindən gələcəyik.*

*Görüşdə idmançılarımızın güləş üzrə dünya çempionatında da uğur qazanaraq Pekin Olimpiya oyunlarına lisenziya əldə edəcəkləri vurğulandı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVADA ÇIXAN «VERSLO ZİNİOS» /«BUSİNESS NEWS» QƏZETİNİN VƏ «VERSLO KLASE» / «BUSİNESS CLASS» JURNALININ MÜXBİRLƏRİNƏ MÜSAHİBƏSİ

*Prezident sarayı*

*3 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Prezident sarayında Litvada çıxan «Verslo zinios»/«Business news» qəzetinin və «Verslo klase»/«Business class» jurnalının müxbirləri R.Staselisə və V.İvanovasa müsahibə vermişdir.*

**– Bizə məlumdur ki, Siz Litvaya gələcəksiniz və təxminən bir həftədən sonra biz Sizi Vilnüsdə görəcəyik. Siz bu səfərə nə kimi ümidlər bəsləyirsiniz?**

– Ölkələrimiz arasında çox yaxşı münasibətlər yaranır. Biz bir sıra istiqamətlərdə əməkdaşlıq edirik və son vaxtlar əməkdaşlığımız kifayət qədər intensiv xarakter daşıyır. Bunu demək kifayətdir ki, keçən il sizin ölkənin prezidenti cənab Valdas Adamkus Azərbaycanda rəsmi səfərdə olmuşdur. Bu, Litva prezidentinin Azərbaycana ilk rəsmi səfəri idi. Sonra, bir neçə ay bundan əvvəl GUAM-ın zirvə toplantısında prezident Adamkus da bizim qonaqlar arasında idi və ikitərəfli münasibətlərlə bağlı məsələləri onunla bir daha müzakirə etməyə imkanımız oldu.

Biz hər iki ölkədə diplomatik nümayəndəliklər yaradırıq. Litva səfiri artıq burada işləyir, lap yaxın vaxtlarda bizim

səfirlik açılacaqdır. Yəni, bu amillər iqtisadi inteqrasiyaya, siyasi proseslərə və daha geniş kontekstdə regional problemlərə qarşılıqlı marağın və daha sıx əməkdaşlıq üçün imkanların mövcud olmasına dəlalət edir. Buna görə də sizin ölkənizə mənim səfər etməyim bizim bu cür intensiv əlaqələrimizin təbii yekunudur.

**– Təxminən bir aydan sonra Vilnüsdə energetika sammiti keçiriləcəkdir. Siz həmin sammitin işində iştirak etməyə hazırlaşırsınızmı?**

– Bəli, mən artıq prezident Valdas Adamkusdan dəvət almışam və həmin sammitdə məmnuniyyətlə iştirak edəcəyəm. Mən Polşada keçirilmiş birinci sammitdə də iştirak etmişəm. Orada iştirakçıların dairəsi daha məhdud idi. Bildiyimə görə, bu dəfə prezident Adamkus çoxsaylı xarici qonaqları, dövlət rəhbərlərini və hökumət başçılarını dəvət edir. Əlbəttə, dünya bazarlarına, o cümlədən Avropa bazarlarına enerji ehtiyatları göndərən mühüm bir ölkə kimi, Azərbaycan bu proseslərdə fəal iştirak edir.

Biz öz energetika siyasətimizi milli mənafelərimizə əsaslanmaqla, eləcə də bizə dost ölkələrlə tərəfdaşlıq ruhunda həyata keçiririk. Əminəm ki, bu zirvə görüşü də regionun enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm mərhələ olacaqdır.

**– Cənab Prezident, Siz özünüz deyirsiniz ki, bu, artıq ikinci zirvə görüşüdür. Şəxsən Siz bu prosesə, onun Cənub-Şərqi Avropaya, Azərbaycana, Qafqaz regionu ölkələrinə real xeyir gətirə biləcəyinə inanırsınızmı?**

– 90-cı illərin ortalarında biz özümüzün fəal energetika siyasətinə başlayanda skeptiklər – müxtəlif ölkələrdə bizim uğurumuza inanmayan insanlar, təşkilatlar, dairələr lap çox idi. Xəzər dənizinin Azərbaycan sektorunun ehtiyatları çox zəngindir. Lakin Xəzər qapalı məkandır. Bizim dünya bazarlarına çıxışımız yoxdur. Məbləği milyard dollarlarla ölçülən çox böyük, ilk növbədə xarici investisiyaların cəlb edilməsi, neft və qaz boru kəmərlərinin tikintisi çoxlarına qeyri-

real görünürdü. Amma biz buna inanırdıq. Nəticədə indi elə vəziyyət yaranmışdır ki, Azərbaycan özünün bütün enerji problemlərini artıq həll etmişdir.

Biz planlaşdırdığımız işlərin hamısını həyata keçirmişik. Neft və qaz hasilatına on milyardlarla dollar cəlb etmişik. İndi Azərbaycan gündə təqribən 1 milyon barrel neft çıxarır. Bu, əsas ixrac boru kəmərinin gücünə də müvafiqdir. Biz ehtiyatlarının həcmi bir trilyon kubmetrdən çox olan ən iri «Şahdəniz» qaz yatağında hasilata başlamışıq. Bütövlükdə isə, bizdə təkcə 2-3 yatağın təsdiqlənmiş qaz ehtiyatlarının həcmi 1,5 trilyon kubmetrə bərabərdir. Azərbaycandan Gürcüstana, Türkiyəyə qaz kəməri çəkilmişdir, gələcəkdə o, Avropaya çıxacaqdır. Bütün bunlar reallıqdır. Bir daha demək istəyirəm ki, biz öz ölkəmizlə bağlı bütün məsələlərimizi həll etmişik. Bizim üç ölkəyə – Türkiyəyə, Gürcüstana, Rusiyaya gedən üç neft kəmərimiz, bir qaz kəmərimiz, çox böyük neft və qaz ehtiyatlarımız, güclü neft və neft-qaz infrastrukturumuz vardır.

Hazırda biz Krakovda keçirilmiş birinci energetika sammiti çərçivəsində də əməkdaşlıq edirik və əminəm ki, oktyabrda bu məsələ Litvada müzakirə olunacaqdır. Energetika məsələlərinin daha geniş kontekstində əməkdaşlıq edirik. Ötən ilin noyabrında energetika sahəsində Avropa İttifaqı ilə strateji tərəfdaşlıq haqqında memorandum və Amerika Birləşmiş Ştatları ilə analoji sənəd imzalamışıq. Ümidvaram ki, artıq bu il Avropa İttifaqı bazarlarında Azərbaycan qazı olacaqdır. Bildiyiniz kimi, neft-qaz kəmərlərinin müxtəlif yeni layihələri bizim ölkəmizlə bağlıdır. Əgər söhbət Nabucco layihəsindən gedirsə, əvvəlcədən bu planlaşdırılmasa da, indi həmin layihə Azərbaycanla bağlıdır. Əgər Türkiyə, Yunanıstan, İtaliya qaz kəmərindən danışsaq, o da Azərbaycanla bağlıdır. Odessa–Brodi neft kəmərindən danışsaq, yenə Azərbaycanla bağlıdır. Beləliklə, biz öz milli mənafelərimizə uyğun şəkildə, regionda tərəfdaşlarımız haq-

qında öz anlayışımıza müvafiq olaraq konstruktiv əməkdaşlıq edirik.

**– Cənab Prezident, Siz deyirsiniz ki, ölkənizin problemlərinin əksəriyyəti və yaxud hamısı həll edilmişdir. Belə bir vaxtda Azərbaycanın energetika müstəqilliyi ölkənin siyasi müstəqilliyi üçün nə kimi imkanlar yaradır?**

– Bilirsiniz ki, bütün bu amilləri bir-birindən ayırmaq mümkün deyildir. Onlar hamısı bir-birilə əlaqəlidir, xüsusən SSRİ-nin dağılması nəticəsində öz müstəqilliyini bərpa etmiş ölkələrdə. Siyasi müstəqillik ilk növbədə iqtisadi müstəqilliyə əsaslanır. Siz bunu da çox gözəl bilirsiniz. Biz sizinlə bir dövlətdə yaşayırdıq. Həmin dövlət parçalananda hər bir ölkə öz suverenliyini qoruyub saxlamaq, onu möhkəmlətmək üçün yollar axtarırdı. Təbii ki, iqtisadi amillər olmadan buna nail olmaq mümkün deyildi. Lakin indiki mərhələdə iqtisadiyyat energetika ilə də çox sıx bağlıdır. Buna görə də energetika təhlükəsizliyi, energetika müstəqilliyi, əslində, elə ölkənin müstəqilliyi deməkdir. Təbii ki, biz enerji resursları idxalından asılı olan ölkələrin narahatlığını başa düşürük. Müəyyən vaxta qədər biz də qazın bir hissəsini idxal edirdik. Lakin indi özümüzü tamamilə təmin edirik. Biz Gürcüstanın qaza tələbatının təxminən 75 faizini təmin edirik, Türkiyə, Yunanıstan və başqa ölkələrin bazarlarına da çıxırıq.

**– Keçən il Siz Brüsseldən qayıdanda yolüstü Moskvaya getdiniz. Hətta Rusiya prezidenti Vladimir Putin də Sizi uğurlu səfər münasibətilə təbrik etmişdi. Deyə bilərsinizmi, «uğur» dedikdə, o nəyi nəzərdə tuturdu?**

– Bilirsinizmi, Rusiya ilə bizim çox konstruktiv münasibətlərimiz vardır və biz bir-birimizin uğurlarına sevinirik. Biz qonşuyuq, bizi bir-birimizə bağlayan amillər çoxdur və energetika məsələləri ölkələrimiz arasında diskussiya mövzusu deyildir. Biz bir-birimizdən asılı olmayan ölkələrik və bununla fəxr edirik, ona görə də münasibətlərimizi ancaq milli mənafelərimiz əsasında, mehriban qonşuluq və əməkdaşlıq ruhunda qururuq.

**– Keçən il Azərbaycan Rusiya qazının idxalından ilk dəfə imtina etmişdir. Bu münasibətlər gələcəkdə necə olacaq və Azərbaycan hansısa şərtlər daxilində Rusiyadan qaz alacaqmı və Novorossiyskə neft satacaqmı?**

– Rusiyadan qaz alınması ilə bağlı vəziyyət 2001-ci ilin əvvəlindən yaranmışdır. O vaxta qədər biz Rusiyadan qaz almırdıq. 2001-ci ildə bu əməkdaşlıq başlandı və o, qarşılıqlı surətdə sərfəli idi. Əvvələn, o vaxt Azərbaycan MDB-nin üzvləri arasında yeganə ölkə idi ki, qazın haqqını nağd pulla, gecikdirmədən və heç bir borc yaranmadan ödəyirdi. İkincisi, alınan qazın həcmi hər il artırdı – biz 1 milyard kubmetrdən başlayaraq 4,5 milyard kubmetrə çatmışdıq. Bizim üçün sərfəlisi o idi ki, həmin qazı elektrik stansiyalarına göndərir, bununla da mazuta qənaət edirdik, xam nefti emal edərək mazuta çevirmir, onu Bakı–Novorossiysk boru kəməri vasitəsilə ixrac edirdik. Beləliklə də boru kəməri dolurdu. Biz bu əməkdaşlıqdan razı idik. Bu, necə deyərlər, yaxşı iqtisadi layihə idi.

Lakin Rusiya qazının qiyməti tədricən artmağa başladı: biz əməkdaşlığa başlayanda 1000 kubmetr qazın qiyməti 48 dollar olduğu halda, əvvəlcə bu qiymət iki dəfədən çox artırılaraq 110 dollara çatdırıldı. Yeri gəlmişkən, inişil qışda biz çox böyük problemlərlə üzləşmişdik. Çünki yanvarın 1-dən etibarən Azərbaycana qaz göndərilməsi dayandırılmışdı, biz isə öz energetika balansımızda hər hansı ehtiyat nəzərdə tutmamışdıq. Bununla belə, biz vəziyyətdən çıxdıq. Lakin bizim üçün qazın qiyməti artırılaraq 235 dollara çatdırılanda, hesab etdik ki, bu qiymət lap çoxdur və Rusiya qazından imtina etdik.

Əlbəttə, biz də başa düşürdük, Rusiya tərəfinin də məlumatı vardı ki, bu halda bizim neftin Rusiya boru kəməri ilə nəql edilməsi əhəmiyyətli dərəcədə azalacaqdır, çünki bu neft emal edilmək üçün bizim özümüzə lazım olacaqdı. Belə də oldu. Eyni zamanda, biz qaz hasilatının artırılması üzrə çox geniş proqram işləyib hazırladıq, bir neçə yüz milyon

dollar sərmayə qoyduq. İndi, Rusiya qazından imtina edəndən 8 ay sonra deyə bilərik ki, biz nəinki özümüzü qazla təmin etmişik, hətta qaz anbarlarımızı tamamilə doldurmuşuq və üstəlik, artıq dediyim kimi, Gürcüstanı, Türkiyəni də qazla təchiz edirik, Yunanıstanla memorandum imzalamışıq. Ümidvaram ki, gələn il qaz hasilatının həcmini ən azı 17-18 milyard kubmetr səviyyəsinə çatdıracağıq. Bu, o ölkədir ki, hələ 2006-cı ildə Rusiyadan 4,5 milyard kubmetr qaz satın almışdı.

**– Necə bilirsiniz, energetika məsələləri sahəsində Rusiya ilə ünsiyyət təcrübənizə əsasən, Rusiya ilə yaxşı münasibətlərə malik olmaq üçün müəyyən meylin olduğunu nəzərə almaqla, Avropa İttifaqına prinsip etibarilə alternativlər lazımdırmı, yoxsa enerji resurslarının alınması üçün alternativ yollar axtarmaq lazım deyil?**

– Yəqin ki, bu suala Avropa İttifaqının nümayəndələri daha yaxşı cavab verər. O ki qaldı bizə, qaz layihələrimizi başlayanda Avropanı bizim qaz üçün bazar kimi nəzərdən keçirmirdik. O vaxt vəziyyət, ümumiyyətlə, başqa idi. Hətta Türkiyə bazarı da müəyyən suallar doğururdu ki, o, Azərbaycandan 6 milyard kubmetr qaz qəbul edə biləcəkmi? Çünki 90-cı illərin axırı – 2000-ci illərin əvvəli Türkiyədə müəyyən iqtisadi çətinliklər dövrü idi. Ona görə də biz qaz hasilatına dair öz iş proqramımızı məhz Türkiyə bazarını əsas götürməklə planlaşdırırdıq. Biz hətta Gürcüstanı da bazar kimi nəzərdən keçirmirdik, çünki Gürcüstan Rusiyadan sabit şəkildə qaz alırdı, bizdən isə qazın yalnız müəyyən hissəsini tranzit kimi almalı idi.

Lakin sonradan vəziyyət dəyişdi. Rusiyadan Ukraynaya, Gürcüstana qaz satışı barədə diskussiyalar yarandı. Biz Avropa İttifaqı tərəfindən layihələrimizə böyük maraq göstərildiyini hiss etdik və təbii ki, qaz hasilatını necə artıra biləcəyimiz barədə düşünməyə başladıq. Biz ilk növbədə özümüzü təmin etməli idik, lakin digər tərəfdən, qonşu ölkələrin bazarı da bizim üçün cəlbedici idi. Təbii ki, yaxşı

qarşılıqlı şərtlər olduqda, bu, iqtisadiyyatımıza ciddi töhfə ola bilərdi və biz əlavə vəsait əldə edərdik.

Deməliyəm ki, hətta bu gün də biz özümüzü kiməsə alternativ hesab etmirik. Ümumiyyətlə, prinsip etibarilə biz heç kimlə rəqabət aparmırıq. Biz nə ediriksə, yalnız ölkəmizin inkişafını təmin etmək naminə edirik. Bizə Aralıq dənizinə çıxan neft kəməri lazım idi və onu tikdik. İndi başqaları kimi, həmin kəmər də çox yaxşı fəaliyyət göstərir. Bizə qaz kəməri lazım idi, onu inşa etdik. Yəni, bunlar rəqabət aparmaq arzusu deyildir. Biz bütövlükdə səylərimizi əsasən Azərbaycanın daxili işləri ilə əlaqədar məsələlər üzərində cəmləşdiririk. Biz hansısa başqa ölkələrin işlərinə qarışmırıq, bizim xarici siyasətimiz milli mənafelərimizin təmin edilməsinə yönəlmişdir. Biz hansısa sahədə kiminləsə rəqabət aparmağa hazırlaşmırıq. Biz özümüzü təmin edən ölkəyik, iqtisadiyyatımız son 3 ildə, demək olar ki, iki dəfə artmışdır, yəni iqtisadiyyat hər il orta hesabla 30 faiz artır. Biz özümüzü neft və qazla təmin etmişik, yəni prinsip etibarilə bizə daha heç nə lazım deyildir.

Lakin bir daha deyirəm, Avropa İttifaqı ilə, Avropa İttifaqı ölkələri ilə, qonşularımızla münasibətlər, əlavə enerji ehtiyatları mənbələrinin zəruri olmasını başa düşməyimiz bizi bu sahədə daha sıx əməkdaşlığa sövq edir.

**– Mümkündürsə, ruh yüksəkliyi doğuran iki layihə barədə bir qədər danışın. Bunlar Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələridir. Televiziya üç nəfəri tez-tez göstərirdi: Sizin mərhum atanız Heydər Əliyevi, Eduard Şevardnadzeni və Süleyman Dəmirəli. Bu layihələrin ideyası onlardan hansına məxsus idi və bütün bunlar necə həyata keçirilirdi?**

– Bu energetika layihələrinin uğuru məhz Azərbaycan, Türkiyə və Gürcüstan arasında energetika siyasətinə dair səylərin sıx əlaqələndirilməsi sayəsində mümkün olmuşdur. Həmin layihələrin işlənilməsinə, onları həyata keçirməyin mümkün olmasına bu üç dövlətin liderləri çox böyük töhfə

vermişlər. Bu çox böyük siyasi müdriklik, böyük cəsarət tələb edirdi və bunun necə risklərlə müşayiət olunması da aydın idi. Mən sizə belə bir misal gətirə bilərəm: 1994-cü il sentyabrın 20-də Azərbaycanda bütün energetika layihələrinin əsası olan «Əsrin müqaviləsi» imzalandı. Bundan bir neçə gün sonra Azərbaycanda silahlı dövlət çevrilişi cəhdi oldu. Yəni, biz öz taleyimizdə Azərbaycanın müstəqil energetika siyasəti və bütövlükdə müstəqil siyasət yeritmək, öz suverenliyimizi qorumaq arzusu ilə əlaqədar çox çətinliklərlə üzləşmişik. Beləliklə, hər üç ölkə və onların liderləri bu layihələrə çox böyük töhfə vermişlər.

Lakin təbii ki, bütün bu layihələr Azərbaycandan başlanır. Bu, Azərbaycanın neftidir və xarici şirkətlərin cəlb edilməsi, müqavilənin bağlanması, Bakı–Tbilisi–Ceyhan boru kəməri marşrutunun seçilməsi və sonrakı layihələrin təşəbbüsü, əlbəttə, Heydər Əliyevə məxsus idi. Təsadüfi deyil ki, indi Bakı–Tbilisi–Ceyhan neft kəməri, eləcə də Ceyhandakı neft terminalı Heydər Əliyevin adını daşıyır. Bunlar bizim layihələrdir, onların təşəbbüsçüsü biz olmuşuq və çox şadıq ki, məhz üç ölkənin birgə səyləri belə uğura gətirib çıxarmışdır.

Sonra, 1996-cı ildə «Şahdəniz» layihəsi imzalandı, Ərzuruma qaz kəməri çəkildi. İndi biz ölkələrimizi və bununla da Avropa ilə Asiyanı birləşdirməli olan Bakı–Tbilisi–Qars dəmir yolunun layihəsi üzərində işləyirik. Beləliklə, biz üç ölkə arasında nadir regional əməkdaşlıq nümunələrini göstəririk, bu ölkələr artıq regiondakı siyasi prosesləri də bir çox cəhətdən qabaqcadan müəyyənləşdirir.

**– Ümid etmək olarmı ki, Gürcüstan, Azərbaycan və Türkiyənin əməkdaşlığı regionda siyasi və iqtisadi sabitliyin əsası ola bilər?**

– Sözsüz. Bizim əməkdaşlığımız və layihələrimiz artıq regional çərçivələrdən kənara çıxmışdır. İndi Şərqi Avropa, keçmiş SSRİ, Mərkəzi Asiya ölkələrində bizim layihələrə böyük maraq olduğunu görəndə, öz seçimimizin düzgünlü-

yünə daha çox əmin oluruq. Axı Xəzər və Qara dəniz regionları, bu iki region indi çox fəal şəkildə inteqrasiya edir. Avropa İttifaqı artıq bizim sərhədlərə yaxınlaşmışdır. Bolqarıstan, Rumıniya – bunlar Qara dəniz hövzəsi ölkələridir. Deməli, biz artıq Avropa İttifaqı ilə qonşu olmuşuq. Eyni zamanda, Xəzərin şərq sahilindəki tərəfdaşlarımızla münasibətlərimiz inkişaf edir. Yəni 1994-cü ildə Bakıda, Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə başlanmış işlər bu gün artıq qitə miqyası almışdır və söz yoxdur ki, gələcəkdə regionun geosiyasi konfiqurasiyasında, siyasi proseslərin və inteqrasiyanın inkişafında çox mühüm rol oynayacaqdır.

**– Bir siyasətçi və Azərbaycanın prezidenti kimi, lütfən bir məsələ barədə fikrinizi deyin. Artıq neçə illərdir ki, Xəzər dənizinin dibi ilə çəkiləcək boru kəmərindən söhbət gedir. Nə üçün o hələ də yoxdur? Buna pul çatışmır, siyasi əzmkarlıq, əməkdaşlıq çatışmır, yoxsa nə isə başqa səbəb var?**

– Bəli, siz haqlısınız. Bu mövzu 90-cı illərin axırlarında çox fəal müzakirə olunurdu. Hətta tədqiqatlar aparılır, texniki layihələr hazırlanırdı, sonra fasilə yarandı. Lakin yaxın keçmişdə bu mövzu yenidən müzakirə olunmağa başladı. Mən bu barədə bir söz deməyə çətinlik çəkirəm, çünki bütün bu illər ərzində biz öz yataqlarımızın işlənilməsi, öz neft və qazımız üçün boru kəmərlərinin tikintisi ilə məşğul olmuşuq. Xəzərin dibi ilə çəkiləcək borunun şərqdən qərbə doğru gedəcəyi aydındır, lakin bu boru Azərbaycan neftinin nəql edilməsi üçün deyil. Təbii ki, bu vəziyyətdə Azərbaycan heç bir təşəbbüs göstərmirdi. Müzakirə edilən bu layihədə Xəzərin şərqindən enerji ehtiyatlarının bizim ərazidən keçməklə nəql olunması nəzərdə tutulurdu. Bizim ölkəmiz Enerji Xartiyasını imzalamışdır və əgər hər hansı tranzit yollar ölkəmizin ərazisindən keçərsə, biz, əlbəttə, həmin yolların fəal işləməsinə şərait yaradacağıq. Lakin biz bu layihələrə təşəbbüs göstərməyə hazırlaşmırıq və bunu heç vaxt etməmişik. Yeri gəlmişkən, fürsətdən istifadə edib demək istəyirəm, bəzən mətbuatda bildirilir ki, Azərbaycan

Transxəzər neft-qaz kəmərləri çəkilməsinin təşəbbüskarıdır. Bu belə deyildir. Biz təşəbbüsçü deyilik. Biz bu prosesin iştirakçısıyıq. Bu məsələyə dair bizimlə Qazaxıstan arasında hökumətlərarası saziş bağlanmışdır. Əgər neft hasilatçıları, bu neftin və qazın sahibi olan ölkələr və şirkətlər həmin nefti və qazı Azərbaycandan keçməklə nəql etmək istəsələr, biz, əlbəttə, öz imkanlarımızı təqdim edəcəyik.

**– Daha bir mövzu barədə. Onun Sizdən ötrü ağrılı olduğunu bilirəm, lakin həmin mövzuya toxunmaya bilmərəm. Mən Ermənistan, Qarabağ mövzusunu nəzərdə tuturam. Bu ilin yayında Sizin iki bəyanatınızı oxumuşam. Əvvəlcə bildik ki, Azərbaycan 2016-cı ilin Olimpiya oyunlarinin təşkil edilməsi üçün ərizə vermişdir, bundan təqribən bir ay sonra isə Siz bəyanat vermişdiniz ki, Qarabağ ətrafında danışıqlar sonsuz davam edə bilməz. Mənim fikrimcə, bu iki bəyanat bir-birini istisna edir. Amma hər halda, Qarabağ məsələsi necə inkişaf edəcək? Sizdən ötrü nə daha çox əhəmiyyətlidir – olimpiada, yoxsa Qarabağ?**

– Sözsüz ki, Azərbaycandan ötrü ən əsas məsələ ərazi bütövlüyünün bərpa edilməsidir. Biz də maksimum konstruktivlik göstərməklə, danışıqlar yolu ilə buna nail olmağa çalışırıq. Razılaşın ki, 10 ildən artıq müddətdə Ermənistan tərəfinin konstruktivlik nümayiş etdirmədiyini görə-görə, danışıqlar prosesinin uğurla nəticələnəcəyini səbirlə gözləmək bizim münaqişəni dinc yolla həll etməyə tərəfdar olmağımızın göstəricisidir. Lakin digər tərəfdən, sizin dediyiniz kimi, mən dəfələrlə bəyan etmişəm ki, bizim səbrimiz hüdudsuz deyildir. Danışıqlar prosesinin öz çərçivəsi, o cümlədən zaman çərçivəsi olmalıdır. Əgər biz 100 faiz əmin olsaq ki, danışıqlar heç bir nəticə verməyəcək, beynəlxalq hüquq normalarına əsaslanaraq, öz ərazi bütövlüyümüzü hərbi vasitələr də daxil olmaqla, istənilən yollarla bərpa etməyə tam haqqımız var və biz bunu gizlətmirik. Biz buna hazır olmalıyıq və hazırlaşırıq. Axı belə ədalətsizliyə daha dözmək mümkün deyil. Etnik təmizləmə siyasətinin həyata

keçirilməsi nəticəsində Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan, Ermənistandan bütün azərbaycanlılar qovulmuşlar. Ərazilərimizin 20 faizi işğal altındadır, Ermənistan qoşunlarının çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə əməl edilmir, Avropa Şurasının qətnamələrinə əməl edilmir. Ermənistan danışıqlar prosesində vasitəçiləri aldatmağa çalışır – indi bu, artıq hamıya aydındır – öz rəhbərliyinin bəzi şəxsi siyasi ambisiyaları naminə prosesi uzadır. Hərçənd prosesi uzatmaq onların xeyrinə deyildir.

2003-cü ilin axırlarında mən danışıqlar prosesinə qoşulanda bizim aramızda az-çox paritet vardısa, bu gün o yoxdur. İndi biz müdafiə işlərinə Ermənistanın bütün ölkəyə sərf etdiyi qədər vəsait sərf edirik. Bu reallıqdır. İqtisadiyyatın həcminə görə də Azərbaycanı və Ermənistanı müqayisə etmək mümkün deyildir. Bu il bizdə iqtisadiyyatın həcminin təqribən 25–30 milyard dollar olacağı gözlənilir, Ermənistanda isə bu göstərici çətin ki, 4-5 milyard dollardan çox olsun. Yəni, onlar bizimlə yarışa bilməzlər. Biz öz iqtisadi potensialımızı ilbəil artıracağıq. Dünya Bankının hesablamalarına görə, yaxın 20 ildə Azərbaycan təkcə neft satışından 200 milyard dollardan çox gəlir əldə edəcəkdir. Dağlıq Qarabağ problemindən başqa, bizim, əslində, ciddi problemlərimizin olmadığını nəzərə alsaq – sosial məsələlər həll edilir, yoxsulluğun və işsizliyin kökünü kəsirik – biz torpaqlarımızı geri qaytarmaq üçün nə lazımdırsa edəcəyik. Ermənistanda, sadəcə olaraq, başa düşməlidirlər ki, onlar Azərbaycan möhkəmləndikcə yaranacaq nəticələri öz üzərlərində hiss etməkdənsə, özlərinə məxsus olmayan torpaqlardan xoşluqla çıxıb getsələr yaxşıdır.

Beləliklə, sizin dediyiniz iki tezis bir-birini istisna etmir. 2016-cı ilə hələ çox vaxt var. Ümidvaram ki, o vaxta qədər münaqişə ya sülh yolu ilə, yaxud da başqa şəkildə həll ediləcəkdir, çünki Azərbaycan xalqı bu ədalətsizliklə və bu vəziyyətlə heç vaxt barışmayacaqdır.

**– Cənab Prezident, Siz zaman çərçivəsindən danışdınız. Siz bu barədə qərara gəlmisinizmi? Azərbaycan tərəfinin fikrincə, möhlət nə vaxt başa çatacaq?**

– Bilirsinizmi, əlbəttə, zaman çərçivələri barədə mənim öz təsəvvürüm var, lakin indi bu haqda açıq danışmaq istəməzdim. Bu, son dərəcə əhəmiyyətli məsələ olsa da, daha vacibi prosesin mahiyyətidir. Biz 2004-cü ildən bəri müəyyən tənzimləmə mexanizmləri nəzərdə tutan Praqa prosesi deyilən prosesdəyik. Bu vaxta qədər bütün başqa variantlar dönə-dönə yoxlanılmış, lakin heç bir nəticə verməmişdir. Əgər Praqa formatı da uğursuz olarsa, onda prinsip etibarilə daha heç nə barədə danışmağa dəyməz. Onda danışıqlar aparmaq üçün mövzu qalmır. Biz isə yalnız görüntü yaratmaq xatirinə danışıqlar aparmayacağıq, bu bizə lazım deyildir. Ona görə də biz danışıqları konstruktiv məcrada aparırıq. Biz ümid edirik ki, hələ hər şey itirilməyib və beynəlxalq miqyasda tanınmış bütün normalara müvafiq həlli tapmaq olar. Eyni zamanda, biz iqtisadiyyatı möhkəmləndiririk, ordumuzu möhkəmləndiririk. Təbii ki, bir daha demək istəyirəm, zaman heç də Ermənistanın xeyrinə işləmir, əksinə. İnanın ki, bu dəfə onlara heç bir xarici yardım kömək etməyəcəkdir.

**– Lütfən deyin, Sizin fikrinizcə, Minsk qrupu tənzimləmə strukturu kimi, öz siyasi potensialını tükətmişdir, ya yox?**

– Xeyr, mən belə deyə bilmərəm. Nəticə olmadığına baxmayaraq, mən Minsk qrupu və onun həmsədrləri barədə heç bir pis fikir söyləyə bilmərəm. Onlar çox yaradıcı şəkildə işləyir, həqiqətən mövqeləri yaxınlaşdırmağa çalışırlar. Çox fəal işləyir, tez-tez səfərlər edir, çox çətinliklə razılaşdırıla biləcək bəndləri razılaşdırmağa çalışırlar. Buna görə də mən indi onların fəaliyyətinə tənqidi şəkildə yanaşmazdım. Düzdür, Minsk qrupunun fəaliyyətinin başlanğıc mərhələlərində Azərbaycanın ona qarşı çox böyük iradları vardı. Lakin indiki mərhələdə, onlar artıq mövcud prinsiplər əsasında mövqeləri bir növ yaxınlaşdırmağa cəhd göstərdikləri bir vaxtda, mənim fikrimcə, onların fəaliyyətini dəstəkləmək la-

zımdır. İndiki halda əgər Ermənistan tərəfi konstruktivlik nümayiş etdirərsə, sağlam düşüncənin səsinə və Minsk qrupunun təkliflərinə qulaq asarsa, münaqişə həll oluna bilər.

**– Bu mövzuda axırıncı sual. Kosovo problemi ilə əlaqədar Ahtisaari modeli müzakirə edilirdi. Bütün bunların nə ilə başa çatacağı məlum deyil, lakin Kosovo problemi nə isə təhlükəli presedentdir. Sizin fikrinizcə, Qarabağ üçün və Qafqaz problemi üçün presedent nə ola bilər?**

– Bilirsinizmi, biz bu məsələyə sakit yanaşırıq, çünki Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT, həmsədrlərin şəxsində Minsk qrupu məşğul olur. Bütün həmsədr ölkələrin rəsmi mövqeyi Azərbaycanın ərazi bütövlüyünün qeyd-şərtsiz bərpa edilməsindən ibarətdir. Bütün dünya birliyi də Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının mümkünlüyü ideyasını, yaxud gələcəkdə nə vaxtsa Dağlıq Qarabağın müstəqil statusunun mümkünlüyünü qəbul etmir. Yəni, bu məsələ, ümumiyyətlə, müzakirə edilmir. Dağlıq Qarabağda keçirilmiş qondarma referenduma beynəlxalq ictimaiyyətin reaksiyası buna parlaq misaldır. Onu nə ATƏT tanımışdır, nə onun Minsk qrupu, nə Avropa İttifaqı, nə də Avropa Şurası. Heç kim tanımamışdır.

Erməni separatçıları və onların əlaltıları dünya ictimai fikrinin nəzərində özlərini bir daha rüsvay etdilər. Buna görə də Kosovo probleminin tənzimlənməsinin nə ilə nəticələnəcəyindən asılı olmayaraq, bu, Dağlıq Qarabağ münaqişəsinin həllinə heç bir şəkildə təsir göstərməyəcəkdir. Bu münaqişə yalnız ərazi bütövlüyünün bərpa edilməsi, bütün qaçqın-köçkünlərin – onların sayı isə bir milyondan çoxdur – daimi yaşayış yerlərinə qaytarılması, Dağlıq Qarabağdan da qovulmuş azərbaycanlıların oraya qaytarılması, bu gün Dağlıq Qarabağda yaşayanlara və oraya qayıdacaq şəxslərə geniş muxtariyyət verilməsi yolu ilə tənzimlənə bilər. Bu, sivilizasiyalı yanaşmadır. Bu, hüquqi normalara, normal insan davranışına əsaslanan yanaşmadır.

Ermənistan tərəfi XXI əsr üçün yox, daha çox orta əsrlər üçün səciyyəvi olan mövqelərdən çıxış edir. Biz isə XXI əsrdə yaşayırıq. Onlar sivilizasiyalı dünyanın bir hissəsi olmaq istəyirlər. Hər halda, bunu bəyan edirlər. Lakin bu siyasətlə onlar buna necə nail olacaqlar? Ona görə də mən burada əlaqə görmürəm və bunu əsas götürürəm ki, Azərbaycanın ərazi bütövlüyü istənilən şəraitdə bərpa ediləcəkdir. Əlbəttə, istərdik ki, bu, sülh yolu ilə olsun. Heç kəs yeni qurbanlar və zorakılıq istəmir. Lakin eyni zamanda, belə vəziyyətlə də barışmaq olmaz.

**M ü x b i r: Müsahibə üçün çox sağ olun.**

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ERMƏNİSTANIN ÖLKƏMİZƏ HƏRBİ TƏCAVÜZÜ NƏTİCƏSİNDƏ DOĞMA TORPAQLARINDAN DİDƏRGİN DÜŞMÜŞ SOYDAŞLARIMIZIN PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ*

*Prezident sarayı*

*4 sentyabr 2007-ci il*

Bugünkü müşavirə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində öz doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemləri ilə bağlı olacaqdır. Bu məsələlər daim diqqət mərkəzindədir. Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Uzun illərdir ki, bu ədalətsizlik hökm sürür. Azərbaycan dövləti məsələnin həlli üçün müxtəlif yollar axtarır. İlk növbədə, siyasi-diplomatik səylər gücləndirilir. Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənir, iqtisadi

---

* Müşavirədə Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Həsən Sarıyev, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Nəbi Muxtarov, Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Mahmud Quliyev, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov, Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Vidadi Məhərrəmov, Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Vəli Quliyev, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Nizami Bəhmənov, Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov və Laçın Rayon İcra Hakimiyyətinin başçısı Elbrus Təhməzov çıxış etdilər.

potensialı güclənir və sülh danışıqlarında artıq həlledici məqam yaşanır.

Praqa prosesi adlandırdığımız çərçivələr əgər nəticə verməsə, ümidlər tükənə bilər. Ona görə Praqa prosesinin uğur qazanması məsələnin sülh yolu ilə həllinə güclü dəstək verəcəkdir. Ümid edirəm ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi dəyişdiriləcək və məsələ beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnən həllilə sonuclanacaqdır. Bunu deməyə əsaslar var. Çünki son illər ərzində Azərbaycanın beynəlxalq müstəvidə artan mövqeləri, uğurlu iqtisadi siyasəti, enerji siyasəti, bölgədə və dünyada artan nüfuzu bizə əlavə imkanlar yaradır. Bizim iqtisadi gücümüz artır, eyni zamanda, hərbi potensialımız da çox böyük dərəcədə artmışdır.

Bir daha demək istəyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək arzusundayıq. Amma bununla bərabər, heç bir başqa variant istisna olunmur və biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı istənilən yolla, o cümlədən müharibə yolu ilə azad edək. Bunu etmək üçün güclü ordu lazımdır. Biz də bu güclü ordunu yaradırıq. Bunu etmək üçün güclü iqtisadi potensial lazımdır. Amma bununla bərabər, biz görürük ki, məsələnin həllinin uzanması böyük fəsadlara gətirib çıxara bilər. Ermənistanın rəhbərliyi bunu nə qədər tez anlasa, başa düşsə, onlar üçün o qədər də yaxşı olacaqdır. Azərbaycan dövləti heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq və gec-tez öz ərazi bütövlüyünü bərpa edəcəkdir.

Qaçqın-köçkün soydaşlarımızın problemlərinin həlli isə daim diqqət mərkəzindədir və belə də olmalıdır. Biz çalışırıq ki, onların həyatını maksimum dərəcədə yüngülləşdirək və atılan bütün addımlar bu məqsədi güdür. Bildiyiniz kimi, ilk illərdə bizim maliyyə imkanlarımız o qədər də geniş deyildi və daha çox beynəlxalq yardıma güvənirdik. Deyə bilərəm ki, ilk illərdə beynəlxalq humanitar təşkilatlar Azərbaycana kifayət qədər yardımlar etmişdir və biz bu yardıma görə minnətdarıq. Çünki

həmin illərdə qaçqın və köçkün soydaşlarımızın yaşaması üçün o yardım həlledici rol oynayırdı. Amma biz sonra müşahidə etməyə başladıq ki, bu yardımlar tədricən azalır. Yəqin ki, bunun da təbii səbəbləri vardır. Eyni zamanda, Azərbaycanın öz iqtisadi imkanları genişlənir.

Heydər Əliyev tərəfindən başlanmış və uğurla davam etdirilən neft strategiyamızın ilkin bəhrələrini məhz bizim soydaşlarımız, məcburi köçkünlər və qaçqınlar görmüşlər. Azərbaycanda yaradılmış Dövlət Neft Fondundan ilk xərclər, ilk ödəmələr yeni qəsəbələrin tikintisinə yönəlmişdir və beləliklə, qaçqın və məcburi köçkünlərin yaşayış problemlərinin həlli üçün çox ciddi addımlar atılmışdır. Deyə bilərəm ki, 2001–2007-ci illərdə 47 yeni qəsəbə salınmışdır. O qəsəbələr çox yüksək səviyyədə tikilmişdir. O qəsəbələrdə 100-dən artıq məktəb, onlarla xəstəxana, mədəniyyət ocaqları tikilmişdir və bu infrastrukturun yaranması, əlbəttə ki, soydaşlarımızın vəziyyətini yüngülləşdirir. Amma biz onu da başa düşməliyik ki, bunlar müvəqqəti tədbirlərdir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra biz orada yeni şəhərlər, yeni qəsəbələr salacağıq. Çünki, bildiyiniz kimi, orada hər şey dağıdılıbdır.

Azərbaycanın artan iqtisadi potensialı, əlbəttə, bizə əlavə imkanlar yaradır. Qəsəbələrin tikintisinə həm Neft fondundan, həm də dövlət büdcəsindən yüz milyonlarla manat vəsait xərclənmişdir və bu proses uğurla davam edir. Yeni salınmış qəsəbələrdə 70 min nəfər qaçqın-köçkün soydaşımız məskunlaşmışdır və qəsəbələrin tikintisi davam edir.

2003-cü ildə prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, növbəti illərdə bütün çadır şəhərcikləri ləğv ediləcək və onların yerinə yeni müasir qəsəbələr salınacaqdır. Onu da qeyd etmək istəyirəm ki, çadır şəhərcikləri tamamilə Azərbaycan xalqının dəyərlərinə zidd olan bir addım idi. Antimilli iqtidar 90-cı illərin əvvəllərində bu addımı atmaqla öz doğma vətəndaşlarına o mənfi münasibəti göstərmişdi. Mən çadır şəhərciklərində dəfələrlə olmuşam və orada

dözülməz vəziyyətlə özüm tanış olmuşam. Məhz buna görə qərar qəbul olunmuşdur ki, bütün çadır şəhərcikləri ləğv edilsin və bu proses uğurla davam edir. Artıq üç il ərzində 9 çadır şəhərciyi ləğv edilib və qalan 3 şəhərciyin ləğvi də ilin sonuna qədər başa çatmalıdır. Təxminən 19 min insan – Saatlı, Sabirabad rayonlarında, İmişli rayonunun ərazisində yük vaqonlarında yaşayan insanlar yeni qəsəbələrə köçürüləcəkdir. Beləliklə, bu ilin sonuna qədər bizim Dövlət Proqramının əsas istiqamətləri öz həllini tapacaq və Azərbaycanda daha bir dənə də çadır şəhərciyi qalmayacaqdır.

2004-cü ildə qaçqınların və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması, məşğulluğunun artırılması üçün Dövlət Proqramı qəbul edilmişdir. Bu proqram uğurla icra edilir. Orada müxtəlif istiqamətlər vardır və bu proqram vaxtaşırı təhlil edilir. Həm müşavirələrdə, həm də mənim qaçqın-köçkünlərlə görüşlərimdə bu məsələlərlə biz daim maraqlanırıq və görürük ki, proqramın icrası artıq başa çatmaq üzrədir. Bununla belə, zərurət yarandı ki, bu proqrama əlavələr edilsin və bu əlavələr məsələlərin çox geniş spektrini əhatə etsin. Bu əlavələrin icra olunması nəticəsində, hesab edirəm ki, məcburi köçkünlərin əsas problemləri, yəni məişət problemləri öz həllini tapacaqdır. Mən bu proqramın hazırlanmasında səylər göstərmiş Dövlətqaçqınkomun fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Bu məsələlərlə mütəmadi qaydada çox ciddi məşğul olurlar və əllərindən gələni edirlər ki, bizim vətəndaşların yaşayışının, məişət problemlərinin həlli üçün vacib olan məsələləri həll etsinlər və buna nail olurlar.

İndi Azərbaycanın iqtisadi gücü artır və gərək biz, ilk növbədə, ölkəmizin ən ağrılı probleminə diqqətimizi yönəldək. Biz bunu edirik və əminəm ki, gələcəkdə böyük həcmdə vəsaitin təmin olunması məişət problemlərinin həllinə öz dəstəyini verəcəkdir.

Biz siyasətimizi bütün istiqamətlərdə çox açıq şəkildə aparırıq. Bizim uğurlarımızın da əsas səbəbi ondadır ki, işi-

mizdə çox böyük şəffaflıq var, verilən bütün vədlər, qəbul edilmiş bütün proqramlar vaxtlı-vaxtında icra olunur. Onların icrasına həm dövlət orqanları tərəfindən, həm də müvafiq strukturlar, ictimaiyyət tərəfindən çox güclü nəzarət var. Çünki bu problem bizim üçün bir nömrəli problemdir. Mən bunu dəfələrlə demişəm, bir də demək istəyirəm ki, Azərbaycanın indiki inkişafında bir nömrəli problem öz doğma torpaqlarımızı qaytarmaq və etnik təmizləmə siyasətindən əziyyət çəkən insanların həyat səviyyəsini yaxşılaşdırmaqdır. Biz hər iki problemi həll etməyə çalışırıq və bundan sonra da bunu edəcəyik.

Bir daha demək istəyirəm ki, Azərbaycan dövləti öz iqtisadi imkanlarını səfərbər edib qaçqın-köçkün soydaşlarımızın problemlərinin həlli üçün lazım olan bütün tədbirləri görəcəkdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün isə siyasi-diplomatik səylər davam etdirilməlidir, eyni zamanda, qüdrətli ordu potensialının yaradılması prosesi daha da gücləndirilməlidir. Biz son bir neçə il ərzində orduya ayrılan xərcləri bir neçə dəfə artırmışıq. 2007-ci ilin dövlət büdcəsində bu xərclər 1 milyard dollar səviyyəsindədir. İndi 2008-ci ilin büdcəsi müzakirə edilir və yəqin ki, bu yaxınlarda təqdim olunacaqdır. Mənim tərəfimdən verilən göstərişlərə əsasən, orada hərbi xərclərin artırılması nəzərdə tutulur. Baxmayaraq ki, 1 milyard dollar çox böyük vəsaitdir və deyə bilərəm ki, MDB ölkələrində biz yəqin ki, birinci sıralardayıq. Amma biz müharibə şəraitində yaşayırıq. Bizim torpaqlarımız işğal altındadır. Ona görə istənilən vəsaiti biz bu sahəyə yönəltməliyik. Bu məqsədlə ordu gücləndirilir, peşəkarlıq artır, texnika, silah-sursat alınır. Məhz bu məqsədlə Müdafiə Sənayesi Nazirliyi yaradılmışdır və digər tədbirlər görülür ki, onların bir hissəsi geniş ictimaiyyət üçün bəlli deyildir. Digər tədbirlər də görülür ki, biz öz doğma torpaqlarımızı işğalçılardan azad edək.

Bir daha demək istəyirəm, bugünkü müşavirədə qaçqın-köçkün bacı-qardaşlarımızın sosial məsələlərinin həlli müzakirə olunacaqdır.

* * *

*Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması ilə bağlı son dörd ildə hazırlanıb həyata keçirilən tədbirlərə dair məlumat toplusunu, Dövlət Proqramına əlavə olaraq hazırlanmış tədbirlər planının layihəsini və videomaterialı dövlətimizin başçısına təqdim etdi.*

* * *

*Sonra prezident İlham Əliyev 2003-cü ilin oktyabrından 2007-ci ilin avqust ayına qədər qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması ilə əlaqədar görülmüş işləri əks etdirən fotostendlə tanış oldu.*

*Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov məcburi köçkünlər üçün tikilmiş yeni qəsəbələrdə yaradılan infrastruktur barədə dövlətimizin başçısına məlumat verdi.*

*Stendlərdəki fotoşəkillərdə məcburi köçkün qəsəbələrinin elektrik enerjisi ilə təchizatı, suvarma sistemlərinin quruluşu ayrı-ayrı bölgələr üzrə toplanmışdır. Fotolarda sonuncu çadır şəhərciklərində, vaqonlarda, yataqxanalarda müvəqqəti məskunlaşmış məcburi köçkünlərin vəziyyəti təsvir olunmuşdur. Hazırda tikilməkdə olan qəsəbələrin sxemi də dövlətimizin başçısına təqdim edildi.*

## YEKUN NİTQİ

Bu gün səslənən çıxışlarda həm görülmüş işlərə qiymət verildi, bizim gördüyümüz işlər təhlil olundu, eyni zamanda, mövcud problemlər də qeyd edildi. Bu çox vacibdir. Çünki ilk növbədə, əlbəttə ki, görülən bütün işlərə düzgün qiymət verilməlidir. Ancaq bununla bərabər, müşavirənin əsas məqsədi növbəti illərdə görəcəyimiz işlər haqqında fikir

mübadiləsi aparmaq, məsələləri araşdırmaq və düzgün qərarlar qəbul etməkdir.

Deyə bilərəm ki, qaçqınların və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə 2004-cü ildə qəbul edilmiş Dövlət Proqramının icrası bütövlükdə təmin olunubdur. Məhz buna görə indi ehtiyac yaranıb ki, bu proqrama əlavələr edilsin. Düzdür, biz proqramı qəbul edəndə orada hansısa bir vaxt çərçivələri qoymurduq. Hesab edirdik ki, bunu işin gedişatı göstərəcəkdir. Ancaq eyni zamanda, əlbəttə, istəyirdik ki, maksimum qısa müddət ərzində proqramın əsas məsələləri öz həllini tapsın. Mən çox şadam ki, çox qısa müddət ərzində, cəmi üç il ərzində faktiki olaraq, proqramın bütün müddəaları həyatda öz əksini tapıbdır. Bu məsələlər bu gün səslənən çıxışlarda, burada nümayiş etdirilən stendlərdə, fotoşəkillərdə, səslənən rəqəmlərdə də öz əksini tapdı.

Doğrudan da, qısa müddət ərzində çox böyük işlər görülübdür. Onlarca yeni qəsəbə salınıbdır. On minlərlə soydaşımız öz yaşayış səviyyəsini yaxşılaşdırmışdır. 70 min nəfər artıq müasir, yeni qəsəbələrdə yaşayır və ilin sonuna qədər istifadəyə veriləcək qəsəbələrdə də təxminən 20 min nəfər məskunlaşacaqdır.

Məni sevindirən odur ki, işğal altında olan, əhali baxımından ən böyük rayonlar arasında Ağdam və Füzuli rayonlarında əhalinin böyük bir hissəsi öz rayonlarının ərazisində məskunlaşmışdır. Burada verilən məlumata görə, Ağdamda 85 min, Füzulidə isə 60 min nəfər yaşayır və növbəti mərhələdə daha 10 min insan məskunlaşacaqdır. Bu çox gözəl göstəricidir. Bu bizim arzularımızın təzahürüdür. Mən istəyirdim ki, işğaldan azad olunmuş rayonlara məhz vaxtilə orada yaşamış insanlar qayıtsınlar. Düzdür, onların hamısı öz kəndlərinə qayıda bilmir, çünki o kəndlər işğal altındadır, amma yenə də ağdamlılar Ağdamda məskunlaşır, Füzulidən olanlar Füzulidə məskunlaşır və artıq bu böyük sosial problemlərin bir hissəsi öz həllini tapır.

Çadır şəhərciklərinin ləğvi böyük tarixi nailiyyətdir. Burada qeyd olundu ki, 1992-93-cü illərdə antimilli iqtidar tərəfindən salınmış və uzun illər ərzində insanlar üçün yaşayış məntəqəsinə çevrilmiş çadır şəhərciklərinin yaranması Azərbaycan xalqına çox böyük təhqir olmuşdur. Azərbaycan xalqına hörmətsizliyin əlaməti olmuşdur, mənfi münasibətin əlaməti olmuşdur. Mən hesab edirəm ki, çadır şəhərciklərinin Azərbaycan tarixindən silinməsi çox böyük göstəricidir. Qısa müddət ərzində, 3-4 il ərzində biz buna nail oluruq. Bundan sonra yaşayış üçün o qədər də yararlı olmayan digər yerlərdən də biz soydaşlarımızı normal qəsəbələrə köçürməliyik.

Hesab edirəm ki, müşavirənin nəticəsi kimi, yeni sərəncam imzalanmalı və Dövlət Proqramına əlavələr edilməlidir. Bu gün səslənən bütün təkliflər, bütün fikirlər o proqramda öz əksini tapmalıdır. İlk növbədə, qlobal məsələlər ki, onların haqqında Əli Həsənov danışmışdır. Fin tipli qəsəbələrdə 25 min insan yaşayır. Onlar ləğv olunmalıdır və orada yaşayan 25 min məcburi köçkün üçün yeni qəsəbələr salınmalıdır. Bu, proqrama əlavələrdə öz əksini tapmalıdır.

262 məktəbdə 11 min köçkün yaşayır. Onlar da oradan çıxmalıdırlar, çünki bunlar yararsız vəziyyətdə olan məktəblərdir. Onlar üçün də yeni qəsəbələr salınacaqdır. Məktəblərə baxmaq lazımdır, əgər onlar təmir oluna bilərsə, təmir edərik, əgər yox, yararsız vəziyyətdədirsə, onda sökülüb onların yerində yeni məktəblər tikilməlidir. Müdafiə Nazirliyinin hərbi hissələrində məskunlaşmış 6 min insan da yeni qəsəbələrə köçürülməlidir.

Bizi ən çox narahat edən məsələ 239 yataqxanada on minlərlə insanın yaşamasıdır. Bu çox böyük problemdir və buna da baxmaq lazımdır. O yataqxanalar ki, bərpa oluna bilər, orada təmir işləri aparılmalıdır. Harada ki, təmir etmək mümkün deyil, fikirləşməliyik, köçkünləri başqa yerlərə köçürməliyik. Biz bunu həll etsək, demək olar ki, yaşayış problemlərinin əsas hissəsi öz həllini tapacaqdır. Digər tə-

rəfdən, icra hakimiyyəti başçıları tərəfindən qaldırılmış məsələlərə də biz böyük diqqətlə yanaşmalıyıq. Artezian quyularının qazılması, yolların salınması, qaz xətlərinin çəkilməsi və digər məsələlər.

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən verilən təklifi də mən dəstəkləyirəm. Horadiz qəsəbəsinə şəhər statusu verilməlidir. Müvafiq qərar layihəsi hazırlansın. Burada qeyd olunduğu kimi, Füzuli rayonunda yeni müasir müalicə-diaqnostika mərkəzi də tikilməlidir. Bu barədə mən bir müddət bundan əvvəl bütün göstərişləri verdim. Müalicə-diaqnostika kompleksinin təməl daşının qoyulması üçün təşkil olunacaq mərasimdə şəxsən iştirak edəcəyəm.

Səhiyyə Nazirliyinə göstəriş verirəm ki, ciddi xəstəliklərə düçar olmuş insanlara kömək göstərilsin. Əgər Azərbaycanda onlara kömək göstərmək mümkün deyilsə, fikirləşmək lazımdır, onları başqa ölkələrə göndərmək lazımdır. Yeni salınmış qəsəbələrdə – indi mən bu şəkillərdən də görürəm, ondan sonra məlumat da verilmişdir – çox böyük işlər aparılır. Yəni o ərazilər abadlaşır, ağaclar əkilir, əkin sahələri yaradılır. İnsanlar kənd təsərrüfatı ilə məşğul olurlar və yaşayış üçün lazım olan vəsaiti əldə edirlər.

Amma bununla bərabər, o qəsəbələrdə kiçik müəssisələrin yaradılması da çox vacib olardı. Çörək sexləri, meyvə-tərəvəz emalı müəssisələri, süd sexləri yaradılmalı, yəni məşğulluq üçün və əlavə qazancın əldə edilməsi üçün lazımi tədbirlər görülməlidir. Sahibkarlığa Kömək Milli Fondundan kreditlər ayrılmalıdır. İqtisadi İnkişaf Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə bu məsələlərə baxsınlar və lazımi təkliflər versinlər ki, bunlar da proqrama daxil olunsun.

Bildiyiniz kimi, hər bir məcburi köçkünə aylıq yemək xərcləri verilir. 2004 və 2006-cı illərdə o məbləğlər artırılmışdır. Əvvəlcə 5 manatdan 6 manata, ondan sonra 6 manatdan 9 manata çatdırılmışdır. Hesab edirəm ki, biz buna yenidən baxmalıyıq. Maliyyə Nazirliyinə göstəriş verirəm ki,

o məbləğ də artırılsın. O, böyük məbləğ deyil, amma hər bir vətəndaşa verilir. Misal üçün, 5-6 nəfərdən ibarət olan ailəyə hazırda hər ay haradasa 50–60 manat əlavə vəsait verilir. Əgər biz bu məbləği artırsaq – hesab edirəm ki, bunu ciddi şəkildə artırmaq lazımdır – hər bir ailə üçün kifayət qədər yaxşı maddi dəstək olacaqdır.

Bütövlükdə, bir daha demək istəyirəm ki, Dövlət Proqramının qəbul olunması çox mühüm və tarixi bir hadisə idi. Onun uğurla icra olunmasında həm Dövlətqaçqınkom, həm də aidiyyəti idarələr, nazirliklər, icra hakimiyyətinin başçıları fəal iştirak etmişlər. Ümid edirəm ki, növbəti illərdə qarşıya qoyduğumuz məsələlər də öz həllini tapacaq və işğaldan əziyyət çəkmiş insanlar daha da yaxşı yaşayacaqlar.

Amma onu da bilməliyik ki, bunlar müvəqqəti tədbirlərdir. Mən əminəm ki, torpaqlarımız işğalçılardan azad olunandan sonra biz həmin ərazilərdə böyük işlər görəcəyik. Orada bütün infrastrukturlar, bütün binalar dağıdılıbdır. Bunu həm oraya gedən insanlar, eyni zamanda, beynəlxalq müşahidəçilər deyirlər. Bir müddət bundan əvvəl ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş bölgələrə səfər etmişdir. Onların hazırladığı məlumatda və məruzədə açıq şəkildə göstərilmişdir ki, orada bütün infrastruktur dağılıbdır. Erməni vandalları orada talançılıqla məşğul olurdular. Onlara lazım olan bütün şeyləri oradan oğurlamışlar, talan etmişlər, qalan binaları da dağıtmışlar. Ona görə böyük təmir-bərpa, yenidənqurma işləri lazımdır. Faktiki olaraq, biz bu qəsəbələri, şəhərləri yenidən yaratmaq üçün bütün gücümüzü səfərbər etməliyik və bunu edəcəyik. Bizim iqtisadi imkanlarımız buna imkan verir. Növbəti illərdə Azərbaycan zəngin ölkəyə çevriləcəkdir. Əminəm ki, biz torpaqlarımızı işğaldan azad edəndən sonra qısa müddət ərzində o rayonlarda da bütün lazımi infrastrukturu yaradacağıq.

O ki qaldı danışıqlar prosesinə, mən bu barədə vaxtaşırı xalqa məlumat verirəm və öz fikirlərimi çatdırıram. Burada qeyd olundu ki, son dəfə Ramanada salınmış qəsəbənin

açılışında danışıqlar prosesi haqqında öz fikirlərimi demişəm. Bir də demək istəyirəm ki, danışıqların gedişatı bütövlükdə müsbət istiqamətdə davam edir. Üç ildən bir az çoxdur ki, mən bu məsələ ilə bilavasitə məşğul oluram.

Deyə bilərəm ki, danışıqlar prosesində çox böyük irəliləyiş əldə edilmişdir. Bu həqiqətdir və onu da deyə bilərəm ki, Azərbaycan maraqlarını təmin edən istiqamətdə irəliləyiş müşahidə olunur. 2003-cü ilin sonunda və 2004-cü ilin əvvəlində danışıqlarda ancaq bir neçə işğal olunmuş rayonun azad edilməsi haqqında söhbət aparılırdı. İlk mərhələdə dörd rayondan söhbət gedirdi. Ondan sonra artıq beş rayondan söhbət gedirdi. Amma bu da bizi heç vaxt qane edə bilməzdi. Baxmayaraq ki, o mərhələlərdə beynəlxalq müşahidəçilər, beynəlxalq vasitəçilər hesab edirdilər ki, beş rayonun qaytarılması ilə məsələ öz həllini tapa biləcək. Hətta təəccüb edirdilər ki, nə üçün Azərbaycan tərəfi buna razı olmur? Nə üçün İlham Əliyev beş rayonun qaytarılmasına razılıq vermir? Hətta mənə izah etməyə çalışırdılar ki, bu, böyük bir nailiyyət olacaq və beş rayonun qaytarılması özlüyündə böyük hadisə olacaqdır. Həqiqətən də belədir, müharibəsiz, dinc yolla beş rayonu qaytarmaq – əlbəttə, kim bunu istəməz? Ancaq nəyin bahasına?! Məsələ bundadır! Dağlıq Qarabağa müstəqilliyin verilməsi bahasınamı? Biz heç vaxt buna getməyəcəyik! Yaxud da, tutaq ki, beş rayonu qaytardıq. Bəs Kəlbəcər, Laçın nə olacaq?! Bəs Şuşa nə olacaq?! Məsələ bundadır. Ona görə, mən hesab edirəm ki, bizim mövqeyimiz çox düzgün mövqedir. Biz hamımız başa düşürük ki, işğal olunmuş ərazilərdən didərgin düşmüş əhalinin ən böyük hissəsi məhz o beş rayonda cəmləşmişdi. Beş rayonun qaytarılması, demək olar ki, köçkünlərin sosial problemlərinin həlli deməkdir. Bunu da biz bilirik.

Ancaq yenə də deyirəm, Azərbaycanın mövqeyi ondan ibarətdir ki, bütün işğal olunmuş rayonlar Azərbaycana qayıtmalıdır. Danışıqlar nəticəsində, çox çevik diplomatik

səylər nəticəsində, siyasi addımlar nəticəsində və əlbəttə, Azərbaycanın son 3-4 il ərzində güclənməsi nəticəsində artıq danışıqların müəyyən mərhələsində altı rayondan söhbət getməyə başladı. Yalnız Laçın rayonunu ermənilər, elə bil ki, girov kimi saxlamaq istəyirdilər. Ancaq biz buna da getmədik. Baxmayaraq ki, bu, böyük bir irəliləyiş idi. Biz haradan başlamışıq, haraya gəlmişik.

Onu deyə bilərəm ki, bu danışıqların bütün xronologiyası, bütün təfərrüatı Minsk qrupunun həmsədr ölkələri tərəfindən qeydə alınır. Amma buna baxmayaraq, biz yenə də öz səylərimizi göstərdik və ilk növbədə, həmsədr olan ölkələrin rəhbərliyinə izah etməyə müvəffəq olduq ki, Azərbaycanın bütün rayonları işğalçılardan azad edilməlidir. Əks təqdirdə, istənilən sülh müqaviləsinin ömrü uzun olmayacaqdır. Sülh müqaviləsi elə olmalıdır ki, ədalətli olsun. Ədalət bərpa edilməlidir. Beynəlxalq hüquq normaları öz yerində, bütün beynəlxalq davranış normaları öz yerində, amma eyni zamanda, ədalət bərpa olunmalıdır. Ədalət bərpa olunmasa, imzalanacaq o saziş hər an pozula bilər.

Ona görə müəyyən mərhələdə Minsk qrupu tərəfindən bizim təkidimizlə verilən təkliflərdə artıq yeddi rayonun işğalçılardan azad olunması məsələləri öz həllini tapmağa başladı. Amma o da bizi qane etmir. Çünki aydındır ki, Dağlıq Qarabağın inzibati ərazilərindən kənarda yeddi rayon yerləşir. Ancaq Dağlıq Qarabağın inzibati ərazisinin içində Şuşa şəhəri yerləşir. Nizami Bəhmənov burada ulu öndərin sözlərini çox yaxşı xatırlatdı. Şuşasız Dağlıq Qarabağ probleminin həlli mümkün deyildir. Bu bizim qətiyyətli mövqeyimizdir, bunu Ermənistan tərəfi də bilir, həmsədr ölkələr də bilir. Bu bizim mövqeyimizdir – azərbaycanlılar Şuşaya qayıtmalıdırlar.

Bir sözlə, münaqişədən əvvəl kim harada yaşayıbsa, oraya da qayıtmalıdır. Biz demirik ki, ermənilər kimi durub etnik təmizləmə siyasəti aparaq, erməniləri Dağlıq Qarabağdan qovaq. Baxmayaraq ki, Dağlıq Qarabağ əzəli Azər-

baycan torpağıdır. Biz deyirik ki, vətəndaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Ermənilər Xankəndidə yaşayıblar, orada da yaşasınlar. Biz buna etiraz etmirik. Azərbaycanlılar isə Şuşada yaşayıblar, Kəlbəcərdə, Laçında və başqa rayonlarda yaşayıblar. Onlar oraya qayıtmalıdırlar. Əgər biz sülh müqaviləsi bağlamaq istəyiriksə, sülh müqaviləsi o deməkdir ki, artıq müharibə sona çatır, sülh yaranır. Tarixdən bilirik ki, ölkələr bir-biri ilə uzun illər ərzində müharibə şəraitində olublar, dava aparıblar, böyük itkilər veriblər. Amma sonra barışıblar, sülh müqaviləsi bağlayıblar və ondan sonra normal münasibətlər də mümkündür.

Hətta İkinci dünya müharibəsində hər iki tərəfdən 50 milyondan artıq insan həlak olubdur. Amma bir neçə ildən sonra, 10–15 ildən sonra müharibədə ən fəal iştirak edən Sovet İttifaqı ilə Almaniya Federativ Respublikası bir-biri ilə münasibətləri yaxşılaşdırıb və indi bir çox hallarda vahid mövqedən çıxış edirlər. Tarix bizə bunu öyrədir. Əfsuslar olsun ki, Ermənistanın rəsmi siyasəti məhz sağlam olmayan əsaslar üzərində qurulubdur. Onlar öz təbliğatını azərbaycanlılara qarşı aparırlar və gənc nəsli də bu ruhda tərbiyə edirlər. Təsadüfi deyil, Ermənistan bəlkə də Avropada yeganə ölkədir ki, monodövlətdir. Orada heç bir başqa millət yaşamır, yaşaya bilmir, yəqin ki, o şəraitə dözə bilmir.

Ona görə həm beynəlxalq hüquq normaları, həm də ədalət bərpa olunmalıdır və biz münaqişənin həlli yollarını bu istiqamətdə görürük. Birinci və ən əsası, Dağlıq Qarabağ heç vaxt müstəqil dövlət olmayacaqdır. Bu bizim prinsipial mövqeyimizdir. Bu, dəyişməz olaraq qalır və qalacaqdır. Artıq bu tezis bütün beynəlxalq aləm tərəfindən qəbul olunur. Halbuki deyə bilərəm ki, – lap dərinə getmək istəmirəm – bu heç də hər zaman belə deyildi. Başqa təkliflər də olmuşdu, bəzi hallarda təzyiqlər də olmuşdu ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir, onlar nə vaxtsa öz müstəqilliyinə nail olmalıdırlar. Heç vaxt olmayacaqlar! Heç vaxt – nə bu gün, nə sabah, nə yüz ildən sonra. Danışılan

mövzu da ondan ibarətdir ki, müzakirə predmeti olan sənəddə Dağlıq Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur və olmayacaqdır.

O ki qaldı xalqların öz müqəddəratını təyin etməsinə, mən bunu dəfələrlə demişəm və bir də demək istəyirəm ki, erməni xalqı öz müqəddəratını təyin edib, onların öz Ermənistan dövləti var. Hansı ki, Azərbaycanın tarixi torpaqlarının üzərində qurulubdur və Azərbaycan ikinci erməni dövlətinin yaradılmasına heç vaxt razılıq verməyəcəkdir.

Dağlıq Qarabağda yaşayan insanlara, ermənilərə və oraya qayıdacaq azərbaycanlılara yüksək özünüidarə statusu verilə bilər. Bu barədə də danışıqlar zamanı bütün mərhələlərdə – 90-cı illərdə, indiki zəmanədə dəfələrlə Azərbaycan rəhbərliyi öz sözünü demişdir. Dünyada və Avropada olan ən yüksək muxtariyyət statusu öyrənilə bilər – daha doğrusu, biz bunu bilirik – və tətbiq oluna bilər. Əgər belə bir razılaşma variantı olarsa, əlbəttə ki, biz buna hazırıq, biz buna gedəcəyik və Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, eyni zamanda, nəhayət, bölgədə sülh yaranacaq və iki ölkə arasında gələcəkdə münasibətlər normallaşa bilər.

Mən qeyd etmək istəyirəm ki, bu prinsiplər bizim üçün dəyişməz olaraq qalır və qalacaqdır. Burada heç bir dəyişiklik mümkün deyil və olmayacaqdır. Bölgədə vəziyyət dəyişir, dünyada vəziyyət dəyişir. Beş-altı il bundan əvvəl Ermənistanla Azərbaycan arasında bəlkə də həm iqtisadi potensialda, həm də hərbi hazırlıq səviyyəsində o qədər də böyük fərq yox idi. Düzdür, Ermənistan bunu daha çox xarici ianələr hesabına, Azərbaycan isə öz xalqının istedadı ilə, gücü ilə əldə etmişdi. Reallıq bundan ibarət idi. Amma indi bu tarazlıq tamamilə pozulubdur. İqtisadi göstəricilərə baxmaq kifayətdir ki, hər kəs onu görsün: Azərbaycan iqtisadiyyatının həcmi nə qədərdir, Ermənistan iqtisadiyyatının həcmi nə qədərdir. Azərbaycanın iqtisadiyyatı tam müstəqil iqtisadiyyatdır və eyni zamanda, bu, imkan verir ki, müstəqil siyasət aparaq. Ermənistanın iqtisadiyyatı asılı

iqtisadiyyatdır. Onlar başqa ölkələrdən çox böyük dərəcədə asılıdırlar. Əlbəttə ki, bu, ümumi siyasi proseslərə də öz təsirini göstərir. Yəni, bu onların seçimidir. Bir var ölkə müstəqilliyə qovuşur və müstəqilliyi qoruyur, möhkəmləndirir və bunu hər şeydən üstün tutur. Bir də var ki, ölkə müstəqilliyə qovuşur və müstəqillik onlar üçün o qədər də böyük əhəmiyyət kəsb etmir, başqa ölkələrin təsiri altına düşür, yaxud da başqa ölkələrin iradəsi ilə idarə olunur. Hər bir xalqın öz seçimi var.

Ancaq bununla bərabər, bu gün bizim aramızda o tarazlıq yoxdur. Hərbi sahədə biz tam hazırıq ki, öz doğma torpaqlarımızı işğalçılardan azad edək. Bundan sonra da hazırlaşacağıq, hərbi qüdrətimizi daha da artıracağıq və elə edəcəyik ki, bizim ordumuz Ermənistanın ordusundan on dəfə güclü olsun. Bu vəzifə qoyulub və biz buna nail olacağıq. Bizim gördüyümüz işlərin tarixi də göstərir, qarşıya hansı vəzifəni qoyuruqsa, onu da həll edirik.

Vaxtilə mən deyəndə ki, bizim hərbi xərclərimiz bir milyard dollar olacaq, bəziləri buna inanmırdı. Amma indi bu reallıqdır və bu da son hədd deyildir. Biz həm peşəkarlığı artırırıq, hazırlığı artırırıq, həm də maddi-texniki bazanı artırırıq və hazırlaşırıq. İqtisadi sahədə, siyasi cəhətdən Azərbaycan bölgənin aparıcı ölkəsidir. Hamı bunu etiraf edir. Azərbaycan böyük ölkələrlə bərabərhüquqlu münasibətlər qura bilib, biz öz enerji siyasətimizi aparmaqla bölgənin və Avropanın enerji təhlükəsizliyinə töhfəmizi verməyə başlayırıq. Yerləşdiyimiz bölgədə gedən proseslərə bizim çox yüksək dərəcədə təsir etmək imkanlarımız var.

Əsas məsələ, bir nömrəli problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Bu, birinci problemdir. Bu problemi həll etmək üçün nə lazımdırsa, onu da edəcəyik.

Son dörd il ərzində biz büdcəmizi təxminən yeddi dəfə artırmışıq, daha da artıracağıq. Nə qədər vəsait lazımdırsa, ayırmalıyıq, nə qədər səfərbərlik lazımdırsa, bunu etməliyik

ki, bu problemi həll edək. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq. Ölkəmizin ümumi iqtisadi inkişafı, siyasi proseslər, ölkədaxili sabitlik, iqtisadi islahatlar, siyasi islahatlar, beynəlxalq mövqelərimizin möhkəmlənməsi, enerji amilinin ön plana, dünya gündəliyinə çıxması – bütün bu amillər bizim xeyrimizədir.

Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Bakı–Tbilisi–Qars layihələri bölgədə vəziyyəti tamamilə dəyişibdir və bu dəyişmədən ən çox siyasi və iqtisadi qazanc əldə edən ölkə Azərbaycandır. Biz bu layihələrin təşəbbüskarı olmuşuq. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bütün bunlar mümkün olmuşdur. Biz isə bu gün əldə edilmiş uğurları daha da möhkəmləndiririk.

Mən hesab edirdim ki, indiki tərkibdə bu məsələlərə bir daha aydınlıq gətirməyim lazımdır. Düzdür, bizim mövqeyimiz xalq üçün tanışdı. Yenə də deyirəm, bir neçə dəfə bu barədə mən xalqa müraciət etmişəm, öz sözlərimi demişəm. Hesab edirəm, bu gün də buna ehtiyac var ki, həm ictimaiyyət bilsin, həm də bizim qaçqın-köçkün soydaşlarımız bilsinlər ki, onların hüquqları bərpa olunacaqdır. Biz istəyirik, mən də istəyirəm ki, o hüquqlar tam şəkildə bərpa edilsin. Biz ədalətin tərəfdarıyıq və öz torpağımızın bütövlüyünü təmin etməliyik.

O ki qaldı, bu gün əsas mövzu olan məsələ ilə bağlı, mən köçkünlərin məişət problemlərinin yaxşılaşdırılmasına dair verilən bütün təklifləri dəstəkləyirəm. Bir daha demək istəyirəm ki, bu təkliflər ümumiləşdirilməlidir, bir də təhlil olunmalıdır. Bəlkə hansısa məsələ var ki, biz bu gün onu eşitmədik, amma o da böyük əhəmiyyət kəsb edir. Burada aidiyyəti dövlət strukturlarının nümayəndələri var – həm nazirlər, eyni zamanda, «Azərenerji», «Azəriqaz», «Azərsu», Meliorasiya və Su Təsərrüfatı səhmdar cəmiyyətlərinin, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin rəhbərləri – onlar da bu işlərlə bilavasitə məşğul olan şəxslərdir. Bir daha baxın, əgər hansısa məsələ bu gün diqqətdən kənarda

qalıbsa, onu əlavə edək. Qısa müddət ərzində proqrama əlavələr edək və onları icra etməyə başlayaq. Biz buna nail olsaq -– mən heç şübhə etmirəm – demək olar ki, soydaşlarımızın əsas məişət problemləri həll edilmiş olur.

Bir də demək istəyirəm ki, mən bu sahədə görülən işlərə çox böyük diqqət yetirirəm, böyük qiymət verirəm. Bütün orqanlardan da tələb edirəm ki, bu istiqamətdə işlər bundan sonra da bu ardıcıllıqla, bu sürətlə, bu keyfiyyətlə davam etdirilsin.

Sağ olun.

## CƏNUBİ KOREYANIN «GS E&S» ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Prezident sarayında Cənubi Koreyanın «GS E&S» şirkətinin nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti Qaradağ rayonunun Ələt qəsəbəsində inşa olunacaq yeni dəniz limanı ilə bağlı məsələlərin müzakirə olunduğu görüşü açaraq dedi:* «Beləliklə, təqdimata başlaya bilərik. Artıq xeyli vaxtdır ki, bu layihə müzakirə olunur. Biz şəhərin mərkəzindəki dəniz limanını oradan köçürməyi planlaşdırırıq. O, yeni, daha geniş sahəyə köçürüləcəkdir. Mən çox şadam ki, «GS E&S» şirkəti belə gözəl layihə hazırlamışdır. Ümid edirəm ki, layihənin həyata keçirilməsi çox qısa müddətdə başa çatdırılacaqdır. Nəqliyyat və daşıma imkanlarımızın genişləndirilməsi bizim üçün əhəmiyyətlidir. Ölkəmiz vasitəsilə bir çox mallar daşınır. Azərbaycanı Avropa ilə birləşdirəcək yeni dəmir yolu xətti istifadəyə veriləndə daşınan yüklərin həcmi gözəçarpan dərəcədə artacaqdır. Bundan əlavə, bu limanın başqa yerə köçürülməsinin məqsədlərindən biri də Dənizkənarı Milli Parkın genişləndirilməsidir. Biz buna qısa müddət ərzində nail olmalıyıq. Gəlin hazırlanmış materiala baxaq».

*Sonra layihənin kompyuter qrafikası ilə hazırlanmış variantı nümayiş etdirildi.*

*Şirkətin vitse-prezidenti Azərbaycanda həyata keçirmək istədikləri layihənin əhəmiyyətindən danışarkən, özlərinin bu sahədəki təcrübəsindən də bəhs etdi. Bildirildi ki, şirkət artıq*

*bir neçə ildir dünyanın bir çox ölkələrində bu tipli layihələrin icrasında yaxından iştirak edir. Hazırda dünyanın 28 ölkəsində şirkətin nümayəndəlikləri fəaliyyət göstərir və 6 min peşəkar mühəndis heyəti çalışır. Şirkətin layihələri beynəlxalq standartlara uyğundur. Ələt qəsəbəsində inşa olunacaq yeni dəniz limanı həm kommersiya, həm istehsalat, həm də daşıma əməliyyatlarının həyata keçirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Bu layihə ekoloji cəhətdən də yüksək tələblərə cavab verir.*

*Ölkəmizin layihənin icrasına cəlb olunmuş müvafiq qurumlarının rəhbərləri də öz təkliflərini verdilər. Bildirildi ki, layihə bir çox özəlliklərinə görə diqqəti cəlb edir. Bu, ilk növbədə, Azərbaycanda gəmiçiliyin inkişafına öz töhfəsini verəcəkdir. Bundan əlavə, ölkəmizin sənaye potensialının güclənməsində də bu layihənin öz rolu var. Ələt qəsəbəsinə yaxın ərazidə öz imkanlarına görə dünyada məşhur olan Səngəçal neft terminalı yerləşir. Orada yeni elektrik stansiyası da tikilir. Bütün bunlar nəzərə alınmaqla, dəniz limanının tikilməsi Ələt qəsəbəsinin inkişafında yeni mərhələ olacaqdır. Layihənin icrası həm də Qaradağ rayonunun sosial-iqtisadi tərəqqisinə, xüsusilə də Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafına öz töhfəsini verəcəkdir. Layihənin icrası nəticəsində yüzlərlə yeni iş yerləri açılacaqdır. Əvvəlkindən fərqli olaraq, yeni liman daha böyük ərazidə yerləşəcək və yüksək beynəlxalq standartlara cavab verəcəkdir. Köhnə limanın fəaliyyətini dayandırması ilə Dənizkənarı Milli Parkın ərazisi genişləndiriləcək, burada ekoloji vəziyyət yaxşılaşacaq, geniş abadlıq-quruculuq işləri aparılacaq, paytaxt sakinlərinin istirahətinin daha yaxşı təşkili üçün hər cür şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev Cənubi Koreya ilə Azərbaycan arasında qarşılıqlı səfərlərin əhəmiyyətini bir daha vurğuladı, bildirdi ki, siyasi və iqtisadi sahədə əməkdaşlıq əlaqələri inkişaf edir. Bu ilin aprelində Cənubi Koreyaya dövlət səfərini xatırladan prezident İlham Əliyev həmin vaxtdan ikitərəfli əmək-*

*daşlıq əlaqələrinin yeni mərhələyə daxil olduğunu dedi. Dövlətimizin başçısı bildirdi ki, Ələt qəsəbəsində yeni dəniz limanının inşası Koreya–Azərbaycan iqtisadi əlaqələrinin inkişafına öz töhfəsini verəcəkdir.*

*Dövlətimizin başçısı layihənin icrası, işlərin yüksək səviyyədə yerinə yetirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## AVROPA ŞURASININ İNSAN HÜQUQLARI ÜZRƏ KOMİSSARI TOMAS HAMMARBERQİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Prezident sarayında Avropa Şurasının insan hüquqları üzrə komissarı Tomas Hammarberqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Tomas Hammarberq Azərbaycana səfərinin uğurla keçdiyini bildirərək, səfəri çərçivəsində ölkəmizin müxtəlif nazirliklərində çox səmimi və səmərəli müzakirələr apardığını qeyd etdi.*

*Dövlətimizin başçısı bu səfərin Azərbaycanda gedən demokratikləşmə prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası əməkdaşlığına dair fikir mübadiləsi aparıldı.*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Meksika arasındakı münasibətlərin inkişafı dostluq əlaqələrimizin və əməkdaşlığımızın genişlənməsi üçün yeni-yeni perspektivlər açacaqdır.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2007-ci il*

**ÇİLİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MİŞEL BAÇELETƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Çili arasında dövlətlərarası münasibətlər xalqlarımızın rifahı naminə daim inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2007-ci il*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB EDVARD FENEK ADAMİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Malta münasibətləri daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir xoş məqamda Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2007-ci il*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, qardaş xalqlarımızın istək və iradəsi ilə ölkələrimiz arasında yaranmış möhkəm dostluq münasibətlərini qoruyub saxlamaq, əməkdaşlığımızı daha da inkişaf etdirmək, əlaqələrimizi hərtərəfli genişləndirmək üçün bundan sonra da birgə səylərimizi davam etdirəcəyik.

Belə bir xoş fürsətdən istifadə edərək Sizə ən səmimi arzularımı yetirməkdən məmnunluğumu bildirir, xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2007-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən xoş arzularımı yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı dostluq və qardaşlıq münasibətləri daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2007-ci il*

**MALİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB AMADU TUMANİ TUREYƏ**

Hörmətli cənab Prezident!

Mali Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2007-ci il*

## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Prezident sarayında MDB-nin üzvü olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir.*

**İlham Əliyev:** Bu gün MDB-nin üzvü olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının iclası Bakıda öz işinə başlamışdır. Mən bütün nazirləri Bakıda salamlayıram. Əminəm ki, iclas uğurla keçəcək, qəbul ediləcək qərarlar və əldə olunacaq razılaşmalar həm ölkələrimizin daha da inteqrasiyasına, həm də onların hüquq-mühafizə orqanları arasında əməkdaşlığına xidmət edəcəkdir.

İndi, müasir dünyada bu çox vacibdir. Müsbət meyillərlə yanaşı, təəssüf ki, təhlükələr də artmaqdadır. Ona görə də ölkələrimizin və vətəndaşlarımızın təhlükəsizliyi hüquq-mühafizə orqanlarının, daxili işlər orqanlarının qarşılıqlı fəaliyyətindən, onların işinin əlaqələndirilməsindən asılıdır. Mən bu əməkdaşlığın indiki şəkildə inkişaf etməsindən razıyam.

Azərbaycana gəldikdə isə, bizim MDB-nin üzvü olan ölkələrlə qarşılıqlı əlaqələrimizin səviyyəsi kifayət qədər yüksəkdir. Biz bu işdə regional səviyyədə də və öz tərəfimizdən də çalışırıq ki, vəziyyət daha çox proqnozlaşdırılan, sabit, təhlükəsiz olsun.

Təhlükəsizlik və sabitlik ölkələrimizin uğurlu iqtisadi və siyasi inkişafının əsas amilləridir. Bizim ölkələrin, onların müstəqil dövlətlər kimi təşəkkülünün tarixi heç də sadə olmamışdır. Bəzi ölkələrdə bu proses çox gərgin hadisələrlə, sabitliyin pozulması, hərc-mərclik, vətəndaş müharibəsi ilə müşayiət olunurdu. Ölkələrimizin çoxu bütün bunları görmüşdür. Ona görə də indi biz sülhün və sabitliyin bərqərar olmasının, insanların təhlükəsizlik şəraitində yaşamasının qədrini daha çox bilirik. Əlbəttə, biz yeni hədələrə, yeni təhlükələrə də hazır olmalıyıq. Mən terrorizmə, separatizmə, kriminal əməllərə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizəni nəzərdə tuturam. Burada dəqiq qarşılıqlı fəaliyyət olmadan təkbaşına uğur qazanmaq əslində mümkün deyildir. Hətta dünyanın ən çox inkişaf etmiş ölkələrinin, ilk baxışda ən çox müdafiə olunmuş ölkələrinin təcrübəsi də göstərir ki, heç kəs özünü tam təhlükəsiz şəraitdə hesab edə bilməz. Ona görə də terrorizmə qarşı mübarizə seçmə xarakterli deyil, qlobal xarakterli olmalıdır.

Bütün terrorçu təşkilatlar pislənməli və məsuliyyətə cəlb olunmalıdır. Separatizmə qarşı mübarizə də seçmə üsulu ilə yanaşılmadan aparılmalı, bütün dünyada qlobal xarakter daşımalıdır, əks halda, bu mübarizə heç bir nəticə verməyəcək, vəziyyəti yalnız gərginləşdirəcəkdir.

Azərbaycanda biz MDB çərçivəsində əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bizim bu görüşümüzdən bir az əvvəl mən Vladimir Borisoviç Ruşaylo ilə görüşdüm. Biz MDB-nin qarşıdakı zirvə toplantısının məsələlərini və ümumən işlərimizin hamısını müzakirə etdik. Biz iqtisadi inteqrasiyaya, siyasi əlaqələrə çox böyük əhəmiyyət veririk. Deməliyəm ki, artıq MDB-nin bütün ölkələrində, təbii ki, Ermənistan istisna olmaqla, səfirliklərimiz yaradılmışdır. Bu yaxınlarda daha iki ölkədə – Qırğızıstanda və Tacikistanda səfirliklər təsis etmişik. Beləliklə, MDB-nin hər bir ölkəsində bizim daimi diplomatik missiyamız var. Son illərdə biz dünyada çoxlu səfirliklər açırıq. Lakin bizim siyasətimizin

məhz MDB ölkələri çərçivəsində inteqrasiyaya yönəlməsi bütün ölkələrdə daimi diplomatik missiyalarımızın olması zərurətini yaratmışdır. Bu həm ikitərəfli əlaqələrin möhkəmlənməsinə, həm də regional xarakterli və birlik çərçivəsində bir sıra məsələlərin həllinə kömək edəcəkdir.

Bildiyiniz kimi, MDB-nin gələcəyi barədə, bu təşkilatda islahatlar barədə, onun daha təsirli olması barədə çox söhbətlər gedir. Lakin mən hesab edirəm ki, indi MDB çərçivəsində inteqrasiyanın səviyyəsi kifayət qədər yüksəkdir. Nəzərə alsaq ki, başqa təşkilatların əksəriyyətindən fərqli olaraq, bu təşkilat, necə deyərlər, Sovetlər Ölkəsinin dağılması nəticəsində yaranmışdır, 15 ildən artıq müddətdə bu təşkilat mövcuddur, onun təsisatları işləyir, müxtəlif formatlı çərçivələrdə – həm sizin idarələrin xətti ilə, həm sərhəd xidməti, təhlükəsizlik orqanları, iqtisadi şura, xarici siyasət idarələri başçıları şurasi xətti ilə fəal əməkdaşlıq prosesi gedir, bütün bunlar real müsbət göstəricilərdir, biz bütün bunları yüksək qiymətləndirməliyik. Bu təşkilatda islahat məsələsinə gəldikdə, mən hesab edirəm ki, biz bu məsələyə çox ehtiyatla yanaşmalıyıq, elə etməliyik ki, islahatlar onun zəifləməsinə gətirib çıxarmasın. Bütövlükdə, islahatlar ağrılı prosesdir, onlar hər bir sahədə zəruridir, lakin bəzən müəyyən çətinliklərlə bağlıdır.

Biz MDB çərçivəsində fəal əməkdaşlıq etmək əzmindəyik. Elə bu gün humanitar sahədə əməkdaşlıq məsələlərini Vladimir Borisoviçlə müzakirə etdik. O yenə də rus dilində minlərlə kitab gətirmişdir. Artıq ikinci dəfədir ki, çox nəcib bir missiya həyata keçirilir. Bizim oxucuların müasir müəlliflərin əsərləri ilə tanış olması üçün imkan yaradılır.

Bir sözlə, biz inteqrasiyada, bütün istiqamətlər üzrə əməkdaşlıqda maraqlıyıq. Bir daha bugünkü iclasın mövzusuna qayıtmaq istəyirəm. Biz bu iclasa və bütövlükdə daxili işlər orqanlarının qarşılıqlı fəaliyyətinə, əməkdaşlığına və işlərinin əlaqələndirilməsinə çox böyük əhəmiyyət veririk. Mən bilirəm ki, nazirlər arasında yaxşı şəxsi dostluq münasibətləri var, bu da çox vacibdir.

Mən sizə yaxşı işləmək, eləcə də istirahət etmək, vaxtınızı xoş keçirmək, şəhərimizə tamaşa etmək və ünsiyyətdə olmaq imkanı arzulayıram.

Bir daha xoş gəlmisiniz.

**R ə ş i d  N u r q a l i y e v** (*Rusiya Federasiyasının Daxili İşlər naziri*): Sizin sözlərinizə qüvvət olaraq, deyə bilərəm ki, Daxili İşlər Nazirləri Şurası MDB-nin orqanları arasında ən təsirli və icraçı orqandır. Bu gün burada biz əldə etdiyimiz nəticələri birlikdə göstəririk. Siz çox düzgün dediniz ki, indi cinayətkarlıq sərhəd tanımır, o, transmilli xarakter daşıyır. Biz bu gün birinci məsələni müzakirə edərkən XXI əsrdə hansı təhlükələrin mövcud olması, konkret tədbirlərimizin hansı məqsədlərə yönəlməli olması barədə geniş informasiya aldıq. Biz başa düşdük ki, həqiqətən əlbir olmaqla biz terrorizm, ekstremizm, qeyri-leqal miqrasiya kimi mürəkkəb problemləri, cinayətkarlığın mütəşəkkil formaları – insan alveri, narkotrafiklər ilə əlaqədar məsələləri həll edə bilərik. Bütün bunlar həqiqətən elə problemlərdir ki, MDB-nin hər bir dövləti, hər bir ölkəsi öz məkanında birmənalı olaraq bunu həll edə bilməz. Bunlar kompleks məsələlərdir və bu gün biz bir daha yəqin etdik ki, Sizin dediyiniz istiqamətlərə daim diqqət yetirməli, səylərimizi birləşdirməliyik.

Bu gün biz deyə bilərik ki, bölmələrimiz arasında yüksək etimad və peşəkarlıq səviyyəsi mövcuddur. Bizim başlıca vəzifəmiz MDB ölkələrində yaşayan vətəndaşların hüquq və azadlıqlarına riayət edilməsidir.

Bizim birgə işimizi səciyyələndirmək üçün daha bir məqamı vurğulamaq istərdim. Mart ayında biz «Rozısk» («Axtarış») əməliyyatı keçirdik. Bu əməliyyat bütün MDB məkanında keçirilmiş və cəmi üç gün ərzində uğurlu nəticələr əldə edilmişdir: Rusiyanın 172 vətəndaşı MDB ölkələrinin ərazisində aşkar olunmuş, həmkarlarımız beynəlxalq axtarışda olan 123 nəfəri aşkar etmişlər. Qısa müddət ərzində apardığımız əməliyyat cəzalandırmanın zəruri olduğunu da göstərdi. Bu bizim fəaliyyətimizin təməlini təşkil edən amildir.

Təzəcə həyata keçirilmiş «Kanal» əməliyyatı barədə də danışmaq istərdim. Bu həqiqətən çox yaxşı nəticədir, bu da bizim birgə əməyimizin məhsuludur. Bu onu göstərir ki, Daxili İşlər Nazirləri Şurası hansısa bir siyasiləşdirilmiş qurum deyildir. Rəhbərlərimizin bizim qarşımıza qoyduqları və onların, habelə vətəndaşların da həllini gözlədiyi əsas məsələ sabitlik, hüquq qaydaları və daxili təhlükəsizlik məsələsidir. Biz öz işimizi bu prinsip üzərində qururuq. Çox şadam ki, MDB-nin bütün ölkələrinin nümayəndələri məhz burada, Bakıda toplaşmışlar. Cənab Prezident, biz bu gün burada belə gözəl şərait yaradıldığına görə Sizə və Daxili İşlər naziri Ramil İdrisoviçə təşəkkür edirik.

İclasımızın gündəliyi çox genişdir, 11 məsələni əhatə edir. Onlar hamısı aktual olub konkret praktik həllər tapmağa yönəlmişdir. Burada bundan ötrü şərait yaradılmışdır. Bizdən ötrü yaradılmış yaxşı şəraitə görə Daxili İşlər Nazirləri Şurası adından Sizə və Daxili İşlər nazirinə minnətdarlıq bildirmək istərdim. Zənnimcə, bu gün biz yaxşı ovqatla işləyəcəyik.

*Prezident İlham Əliyev MDB-nin üzvü olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının iclasının hazırlanması üçün böyük iş görüldüyünü bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar olmuşdur, hüquq qaydalarına lazımi səviyyədə riayət edilir. Azərbaycanda asayişi mühafizə qüvvələri 1991-ci ildən 1993-cü ilin birinci yarısınadək ölkədə hökm sürmüş hərc-mərcliyin bir daha təkrarlanmasına yol verməmək üçün öz vəzifələrini layiqincə yerinə yetirirlər. Prezident həmçinin dedi ki, dövlət daim hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, onların əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlər görür.*

*Dövlətimizin başçısı DİNŞ-in Bakıda keçirilən iclasının qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində böyük əhəmiyyətini vurğuladı, iclas iştirakçılarına uğurlar arzuladı.*

## «CİTİGROUP»UN AVROPA REGİONU ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU UİNFRED BİŞOFUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında «Citigroup»un Avropa regionu üzrə Baş icraçı direktoru Uinfred Bişofun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Uinfred Bişof Azərbaycana ilk dəfə səfər etdiyini və bu səfərindən məmnun olduğunu bildirdi. O, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş uğurlu siyasətin prezident İlham Əliyevin rəhbərliyi altında bu gün də davam etdirildiyini vurğuladı.*

*Azərbaycan Respublikasının Prezidenti son on ildə ölkəmizin bütün sahələrdə böyük nailiyyətlər əldə etdiyini dedi. Hazırda ümumi daxili məhsulda özəl sektorun payının 80 faiz olduğunu xatırladan prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının yüksək sürətlə inkişaf etdiyini bildirdi.*

## MDB-nin İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri Vladimir Ruşaylonu qəbul etmişdir.*

*Vladimir Ruşaylo MDB Daxili İşlər Nazirləri Şurasının Bakıdakı iclasının yüksək səviyyədə təşkil olunduğunu vurğuladı.*

*Dövlətimizin başçısı iclasın Azərbaycanda keçirilməsinin əhəmiyyətini qeyd edərək, bu tədbirin MDB-nin üzvü olan ölkələrin hüquq mühafizə orqanları arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyini bildirdi.*

*Görüşdə MDB çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM CAVAD HEYƏT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Prezident sarayında məşhur soydaşımız, görkəmli alim və ictimai xadim, İranda nəşr olunan «Varlıq» jurnalının Baş redaktoru, Fransa Beynəlxalq Cərrahlar Akademiyasının üzvü, Bakı Dövlət Universitetinin və Azərbaycan Tibb Universitetinin Fəxri doktoru Cavad Heyəti qəbul etmişdir.*

*Doktor Cavad Heyət Bakıya növbəti səfərindən, Azərbaycan prezidenti ilə yenidən görüşməsindən böyük məmnunluq duyduğunu bildirdi və ölkəmizin sürətli inkişafının, tərəqqisinin şahidi olduğunu söylədi.*

*Ümummilli lider Heydər Əliyev ilə görüşlərini həmişə məhəbbətlə xatırladığını deyən doktor Cavad Heyət onun siyasətinin bu gün də uğurla davam etdirilməsinin əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyev doktor Cavad Heyətin çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirdi və ona möhkəm cansağlığı, gələcək işlərində uğurlar dilədi.*

## BAKIDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ NİTQ

*Bakı, Nərimanov rayonu*

*10 sentyabr 2007-ci il*

*Sentyabrın 10-da Bakıda, Nərimanov rayonu ərazisində Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasimi keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə mərkəzin maketi ilə tanış oldular, mərkəzin məqsəd və vəzifələrini, eləcə də gələcək görünüşünü nümayiş etdirən filmə baxdılar.*

*Prezident İlham Əliyev ulu öndərin adını daşıyacaq mərkəzin baş planını, gecə görünüşünü, muzeyin, 1284 yerlik konfrans salonunun, daxili məkanın, səhnənin, kitabxananın, mətbuat mərkəzinin və digər bölmələrin görünüşünü əks etdirən fotostendlərlə tanış oldu.*

*Layihənin müəllifi, tanınmış memar xanım Zaha Hadid və «DİA Holdinq» şirkətinin nümayəndəsi dövlətimizin başçısına ətraflı məlumat verdilər. Bildirildi ki, ümumi ərazisi təxminən 9 hektar olacaq, müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin adını daşıyan memarlıq abidəsi kimi ucaldılacaq bu mərkəz ən son texnologiyalarla təchiz ediləcəkdir. Tikinti üslubuna görə Yaxın Şərq bölgəsində ilk belə layihə olan Heydər Əliyev Mərkəzi dünya memarlığında layiqli yerini tutacaqdır. Mərkəzin əsas binasının fasadının qarşısındakı maili landşaft buraya gələnlər üçün elit bir keçid yolu olmaqla bərabər, həm də şəhər əhalisinin mədəni istirahəti üçün ən gözəl yerlərdən birinə çevriləcəkdir. Xüsusi dizayna malik əra-*

*zidə yaşıllıq zonası, istirahət meydançaları, fəvvarələr, eskalatorlar və müasir işıqlandırma sistemlərinə malik geniş və yaraşıqlı park salınacaqdır.*

*Bildirildi ki, Türkiyənin «DİA Holdinq» şirkəti tərəfindən iki ilə tikiləcək mərkəzin əsas binasının daxili və xarici görünüşü vəhdət yaradacaqdır. Mərkəzin landşaft ərazisindən muzeyin və konfrans salonunun girişi Heydər Əliyev prospektindən görünəcəkdir. Bu tərəf günəş şüalarını tənzimləyən şüşə və alüminium konstruksiyalardan düzəldiləcəkdir. Landşaft ərazisinin altında 1350 yerlik avtomobil dayanacağı yerləşəcəkdir.*

*Ümumi sahəsi 20,5 min kvadratmetr, hündürlüyü isə 22 metrə bərabər konfrans salonunda müasir texnologiyanın bütün imkanlarından istifadə ediləcəkdir. Əsas səhnənin hərəkət edən ön hissəsinin hündürlüyü 7–14 metr, ümumi sahəsi isə 315 kvadratmetr olacaqdır.*

*Tanışlıqdan sonra dövlətimizin başçısı içərisində «Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müasir Azərbaycan dövlətçiliyinin banisi, dahi siyasətçi, ulu öndər, xalqımızın ümummilli liderinin adını daşıyan Heydər Əliyev Mərkəzinin təməli qoyulmuşdur.*

*İnşası nəzərdə tutulan Heydər Əliyev Mərkəzi dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması və hərtərəfli inkişaf etdirilməsi baxımından ölkənin ictimai-siyasi və mədəni həyatında böyük rol oynayacaqdır.*

*Mərkəz beynəlxalq səviyyəli tədbirlərin, konfransların, müsabiqələrin, festivalların, sərgi, konsert və ziyafətlərin təşkilinə imkan verən müasir texnologiyalarla təchiz olunmuş və bir məkanda konfrans zalı, muzey və mədəni irs mərkəzi, açıq foye, kitabxana və digər məqsədlər üçün nəzərdə tutulan salonları özündə birləşdirən çoxşaxəli struktura malik olacaqdır. Bu möhtəşəm tikili Heydər Əliyevin adını daşıyan memarlıq abidəsi kimi ucaldılacaqdır. 10 sentyabr 2007-ci il» sözləri yazılmış kağız olan gilizi təmələ qoydu və beton qarışığı tökdü.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

**İ l h a m   Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür. Bu gün biz Heydər Əliyev Mərkəzinin təməl daşını bərabər qoyduq. Əminəm ki, qısa müddət ərzində bu mərkəz tikilib istifadəyə veriləcək və ondan sonra bizim xalqımızın xidmətində olacaqdır. Bu gözəl bina, əminəm ki, şəhərimizə əlavə yaraşıq verəcəkdir. Bu gün burada nümayiş etdirilən təqdimatda binanın həm xarici görünüşü, həm də daxili tərtibatı kifayət qədər geniş şəkildə göstərilmişdir. Bu binanın nəinki bölgədə, dünyada analoqu yoxdur. Bu çox gözəl memarlıq abidəsi, müasir memarlıq abidəsi olacaqdır. Bu fürsətdən istifadə edib bizimlə bərabər bu mərasimdə iştirak edən məşhur memar, xanım Zaha Hadidə binanın layihəsini hazırladığına görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Binanın xarici gözəlliyi, eyni zamanda, funksional keyfiyyəti çox yüksəkdir. Bu binada həm böyük toplantı, konsert salonu, müxtəlif ölçüdə olan böyük konfrans, sərgi salonları, həm də muzey, ən müasir kitabxana, rəsmi mərasim salonları, elmi-tədqiqat mərkəzi cəmləşəcəkdir. Əminəm ki, binanın istifadəyə verilməsindən sonra burada çox fəal həyat başlayacaqdır. Mən istəyirəm ki, binanın qapıları, Heydər Əliyev Mərkəzinin qapıları daim açıq olsun, insanlar burada işləsinlər, istirahət etsinlər, tədbirlərini keçirsinlər. Bir sözlə, bu mərkəz beynəlxalq elmi, mədəni mərkəzə, tədqiqat və konfranslar mərkəzinə çevriləcəkdir.

Bununla bərabər, bu böyük ərazidə bir neçə hektardan ibarət olan çox böyük park salınacaqdır və ətraf binalarda yaşayan sakinlər də bundan istifadə edə biləcəklər. Əminəm ki, Bakının və Azərbaycanın müxtəlif yerlərindən gələn insanlar bu parkda istirahət edəcəklər. Bu həm şəhərin infrastrukturuna çox böyük bir töhfədir, ulu öndər Heydər Əliyevin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir, eyni

zamanda, Bakıda yeni, dünyada analoqu olmayan nadir memarlıq abidəsinin yaradılmasıdır.

Azərbaycanın inkişafı, ölkəmizdə əldə edilmiş uğurlar indi bizə imkan verir ki, belə binaları yaradaq. Əminəm ki, bu bina onilliklər və əsrlər boyu yaşayacaq və Bakının növbəti simvoluna çevriləcəkdir. Eramızın ilk əsrlərində yaradılmış «Qız qalası» Bakının qədim simvoludur. Heydər Əliyev Mərkəzi növbəti simvol olacaq və bütün dünya miqyasında öz gözəlliyi ilə, nadirliyi və funksional keyfiyyətləri ilə seçiləcəkdir.

Mən çox şadam ki, bu gün biz mərkəzin təməlqoyma mərasimində birlikdə iştirak edirik. Mərkəzin yaradılması haqqında bir müddət bundan əvvəl mən xüsusi sərəncam imzalamışam. Bütövlükdə, Heydər Əliyev Mərkəzinin yaradılması ideyası məndə çoxdan yaşayır. Mən artıq bir neçə il idi bu barədə fikirləşirdim. Çox şadam ki, həm memarlıq baxımından, həm də müasirlik, funksional tərtibat baxımından bu bina ən yüksək standartlara cavab verəcəkdir.

Ulu öndərimiz Heydər Əliyev bütün dövrlərdə – həm 1970–80-ci illərdə, həm də müstəqillik dövründə Azərbaycan xalqının inkişafında, ölkəmizin inkişafında, potensialın möhkəmlənməsində çox mühüm rol oynamışdır. 1970–80-ci illərdə Azərbaycanda güclü sənaye potensialının yaradılması, sosial məsələlərin həlli ilə bərabər, Bakının gözəlləşməsində də çox böyük işlər görmüşdür. O illərdə Bakıda tikilmiş binalar bu gün də öz gözəlliyi ilə seçilir.

Heydər Əliyev tərəfindən tikilmiş və onun adını daşıyan saray, İdman-Konsert Kompleksi, «Gülüstan» sarayı və başqa memarlıq abidələri bu gün də öz gözəlliyi ilə çox fərqlənir. Onu da yəqin bilirsiniz ki, ulu öndərimizin memarlıq sənətinə çox böyük marağı var idi. O, 1939-cu ildə Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olmuşdu və bu sənəti çox sevirdi. Həmişə memarların işinə, onların fəaliyyətinə həm böyük diqqət göstərirdi, həm də onlara kömək edirdi. Burada oturan insanların böyük əksə-

riyyəti bilir ki, o illərdə Azərbaycanda, Bakıda gözəl binaların müəllifi, eyni zamanda, Heydər Əliyevin özü idi. O, memarlarla vaxtaşırı görüşürdü, öz fikirlərini deyirdi, onların fikirləri ilə hesablaşırdı. Onun dövründə tikilən bütün gözəl binaların həmmüəllifi də ulu öndərin özü idi. 1970–80-ci illərdə belə idi, müasir dövrdə də belə olmuşdur.

Bu gün Bakıya çox böyük gözəllik verən Heydər Əliyev Fondunun da memarı və müəllifi məhz Heydər Əliyev özü olmuşdur. Bəlkə də çox adam bunu bilmir, amma mən yaxşı bilirəm. Həmin binanın konturlarını o özü çəkmişdi, xarici görünüşünü, daxili tərtibatını özü seçmişdi və bütün memarlara və inşaatçılara tövsiyələrini vermişdi.

Ona görə mən çox şadam ki, Bakıda onun adını daşıyacaq mərkəz, sadəcə, bir mərkəz deyil, eyni zamanda, dünya səviyyəli memarlıq abidəsi olacaqdır. Onun adını daşıyacaq mərkəz həm onun həyat və fəaliyyətini, siyasi irsini tədqiq edəcək, həm də xarici görünüşü ilə fərqlənəcəkdir.

Bu gün Azərbaycan çox sürətlə inkişaf edir, bizim imkanlarımız genişlənir. Azərbaycanda çox güclü iqtisadi və sənaye potensialı yaradılır. İqtisadiyyatımız dünyada analoqu olmayan sürətlə inkişaf edir. Son üç il ərzində bizim iqtisadiyyatımız ən azı 95 faiz artacaqdır və heç bir başqa ölkədə tarix boyu belə yüksək nailiyyətlər olmamışdır. Bakının infrastruktur problemləri öz həllini tapır. Bu məsələyə çox böyük diqqət göstərilir, yeni yollar salınır, yeni körpülər salınır. Bu ərazidə də yeni yol qovşaqları, körpülər salınır, onlar şəhərimizə əlavə gözəllik və eyni zamanda, insanlara rahatlıq verəcəkdir.

Bizim uğurlu iqtisadi fəaliyyətimiz ölkəmizin güclənməsinə xidmət edir. Bütün bu uğurların təməli də məhz ulu öndər tərəfindən qoyulmuşdur. Azərbaycanda məhz onun uzaqgörənliyi, rəhbərliyi ilə başlanmış uğurlu neft strategiyası nəticəsində yeni imkanlar yaranır, ölkəmiz qarşısında yeni üfüqlər açılır. Bakı–Tbilisi–Ceyhan neft kəməri Heydər Əliyevin adını daşıyır. Ona görə ki, bunun təşəbbüskarı məhz o olmuşdur. Eyni səbəbə görə, Ceyhan terminalı da

Heydər Əliyevin adını daşıyır. Onun təşəbbüsü ilə Azərbaycanda Bakı–Tbilisi–Ərzurum qaz kəməri və başqa böyük layihələr də həyata keçirilir. İndi biz Bakı–Tbilisi–Qars dəmir yolu layihəsini nəinki müzakirə edirik, onun yaradılmasına başlayırıq.

Bütün bu məsələlər həm ölkəmizi gücləndirir, beynəlxalq mövqelərimizi artırır, həm də bütövlükdə regional və coğrafi-siyasi vəziyyətə çox böyük təsir göstərir. Bu təsir Azərbaycandan gəlir. Çünki bütün bunlar bizim layihələrimizdir. Biz bunların təşəbbüskarı olmuşuq, biz onları irəliyə aparırıq və layihələrin icrası nəticəsində, ilk növbədə, Azərbaycan xalqı xeyir görəcəkdir. Həm iqtisadi imkanlar artacaq, insanların həyat səviyyəsi yaxşılaşacaq, həm də ölkəmizin qüdrəti artacaq və Azərbaycan çox qüdrətli ölkəyə çevriləcəkdir.

Ona görə biz bu məsələlərə çox böyük diqqət veririk. İstəyirik ölkəmiz iqtisadi cəhətdən daha da güclü olsun. Amma eyni zamanda, Bakının xarici görünüşünün yaxşılaşmasına da böyük diqqət göstərilir. Bir müddət bundan əvvəl mənim tərəfimdən imzalanmış sərəncama əsasən, Bakının bütün tarixi binaları bərpa olunmalı, təmizlənməli, çox gözəl şəkildə, müasir səviyyədə işıqlandırılmalıdır. Bu proses artıq başlanmışdır. Mən bilirəm ki, Bakı sakinləri buna çox böyük diqqət yetirir, çox böyük qiymət verirlər. Çünki Bakının hər bir sakini istəyir ki, onun doğma şəhəri daha da gözəl olsun. Tarixi binalar öz əvvəlki görüntüsünü almalı, bəlkə ondan da gözəl olmalıdır. Bütün bu tarixi irsimizi saxlamaq şərti ilə biz şəhərimizə və bütövlükdə, ölkəmizə müasirlik gətirmişik.

Bizim çox böyük tariximiz var, zəngin mədəniyyətimiz var və bu tarix, bu mədəniyyət bizi bir xalq kimi, millət kimi, qoruyub saxladı və bu gün biz müstəqil ölkə kimi yaşayırıq. Amma bununla bərabər, biz gələcəyə baxmalıyıq, müasir ölkəyə çevrilməliyik. Həm infrastruktur baxımından, həm dünyagörüşü baxımından, həm təhsil baxımından – bütün parametr baxımından biz müasir dövlət olmalıyıq ki, dün-

yada və bölgədə öz yerimizi daha da möhkəmləndirək. Çünki müasirlik, tərəqqi ölkəni gücləndirən amillərdir. Bu amillər insanların daha da yaxşı yaşaması üçün imkanlar yaradır.

Şəhərimizin abadlaşdırılması, gözəlləşdirilməsi işləri paytaxtın bütün rayonlarında aparılmalıdır. Əlbəttə ki, Bakının əsrlər boyu yaranmış tarixi mərkəzi vardır. İlk növbədə, diqqət oraya yönəldilməlidir. Amma digər rayonlara da böyük diqqət verilməli, yollar salınmalı, infrastruktur yaradılmalı, binalar təmir olunmalı, yeni binalar tikilməlidir. Ölkəmiz böyüyür, bu da təbiidir, çünki Azərbaycanda əhali artımı müşahidə olunur. Bu da iqtisadi inkişafın əlamətidir. Biz hamımız yaxşı xatırlayırıq ki, Azərbaycan üçün ən çətin olan dövrdə – 80-ci illərin sonunda, 90-cı illərin əvvəllərində ölkə faktiki olaraq dağılanda əhalinin artımı da müşahidə edilmirdi. Yəni insanlar bütün bu amillərə reaksiya verir. Sabitlik, təhlükəsizlik, əmin-amanlıq, iqtisadi inkişaf, maddi rifah – bu amillər ölkənin ümumi inkişafını təmin edir. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.

Mənim göstərişimə əsasən, Bakıda bir dənə də yöndəmsiz, xarici görünüşü yaxşı olmayan bina tikilməməlidir. Bütün binalar öz memarlığı ilə seçilməlidir. Şərt deyil ki, bu memarlıq hansısa üsluba mənsub olmalıdır. Həm müasir üslubda, həm də qədimi üslubda, bizim üçün ənənəvi olan üslubda tikilməlidir. Amma keyfiyyətli, gözəl, yaraşıqlı, insanların yaşaması üçün rahat binalar. Mən əminəm ki, biz buna nail olacağıq. Bu günə qədər görülən bütün işlər öz bəhrəsini verir, Azərbaycan həm öz imkanlarını artırır, həm güclənir, həm də insanların yaşaması üçün yeni imkanlar yaranır. Mən istəyirəm ki, bütün bu makroiqtisadi göstəricilərlə yanaşı, əlbəttə, bizim şəhərlərimiz daha da gözəlləşsin. Təkcə Bakıda deyil, Azərbaycanın müxtəlif rayonlarında indi çox güclü abadlıq, quruculuq işləri aparılır. Köhnə binalar təmir olunur, yeni binalar tikilir, yeni yollar salınır. Yəni bu inkişaf bütün ölkəmizi əhatə edir və Azərbaycan xalqının yaxşı yaşaması üçün şərait yaradır.

Bu gün, ulu öndərin adını daşıyacaq mərkəzin təməlqoyma mərasimində isə mən istəyirəm ki, biz onun bütün xidmətlərini bir daha yada salaq. Yada salaq ki, 1982-ci ilin sonundan, onun Azərbaycandan getməsindən sonra və yenidən siyasi rəhbərliyə qayıtmasına qədər, demək olar, Bakıda və Azərbaycanda bir dənə də yaddaqalan bina, bir dənə də böyük müəssisə tikilməmişdi. Tikilənlər də o binalar və müəssisələr idi ki, onların təməli onun vaxtında qoyulmuşdu, sonra onların bəzilərində isə işlər heç tamamlanmamışdı. Onun vaxtında beynəlxalq aeroportun təməli qoyulmuşdu və demək olar ki, daş işi qurtarmışdı. O, Bakıdan gedəndən sonra və qayıdana qədər isə daş daş üstə qoyulmamışdı. Çünki Azərbaycanın o vaxtkı antimilli rəhbərliyinin əqidəsi tam başqa idi. O vaxt ancaq talançılıqla məşğul olurdular. Hamımızın yaxşı yadındadır ki, hətta trolleybus xətlərini də kəsirdilər, onda mis olduğuna görə xaricə satırdılar. Yəni talançılıq, dağıdıcı fəaliyyət o vaxt bütün ölkəmizi bürümüşdü.

Onun Azərbaycanın siyasi rəhbərliyinə qayıdışından sonra vəziyyət tamamilə dəyişildi. Sabitlik yarandı, qanunsuz hərəkətlərə son qoyuldu, iqtisadi inkişaf başladı, Azərbaycana böyük həcmdə xarici sərmayə gəlməyə başladı. 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»nə görə 10 milyard dollarlıq sərmayə qoyuluşu nəzərdə tutulurdu. O ölkəyə ki, hələ vətəndaş müharibəsi təzə qurtarmışdı və ümumiyyətlə, gələcəyi şübhə altında idi. Ancaq o, nail oldu ki, bütün dünya diqqətini Azərbaycana yönəltdi. Sabitlik yaranandan, ictimai-siyasi asayiş möhkəmlənəndən sonra sərmayə də qoyuldu, islahatlar da başlandı. Bu gün Azərbaycanın iqtisadiyyatına ən çox sərmayə qoyan Azərbaycan dövlətidir və Azərbaycan şirkətləridir.

Mən bu yaxınlarda Nazirlər Kabinetinin toplantısında bunu qeyd etdim. İlk dəfədir ki, müstəqillik əldə olunandan sonra, 2007-ci ildə yerli investisiyalar xarici investisiyaları üstələyibdir. Bu nəyi göstərir?! Həm Azərbaycan dövlətinin

gücünü, Azərbaycanda sahibkarlıq sinfinin yaranmasını, həm də ölkədə mövcud olan çox gözəl investisiya mühitinin olmasını. Mən heç şübhə etmirəm ki, növbəti illərdə yerli investisiyalar xarici investisiyalardan daha da çox olacaqdır. Artıq buna imkanımız var və biz bunu edirik. İldən-ilə artan büdcə xərcləri bu imkanları yaradır.

Son üç-dörd il ərzində Azərbaycanda büdcə xərcləri təxminən 5-6 dəfə artıbdır. Bu da reallıqdır. Bu, imkan verir ki, bizə lazım olan, insanları narahat edən bütün məsələlər öz həllini tapsın. Sosial məsələlər, infrastruktur layihələri, sənaye potensialının güclənməsi üçün lazım olan tədbirlərin görülməsi, neft strategiyamızın uğurla davam etdirilməsi üçün bütün imkanlar var. Sadəcə olaraq, qəbul edilmiş bütün qərarlar vaxtlı-vaxtında və keyfiyyətlə yerinə yetirilməlidir, qarşımıza qoyduğumuz bütün məqsədlər həyatda öz əksini tapmalıdır. Belə olan halda, əlbəttə ki, Azərbaycanda problemlərin tam əksəriyyəti həll ediləcəkdir.

Əziz dostlar, mən Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasiminin iştirakçılarına bu sözləri bir daha demək istəyirəm. Mən çox şadam ki, bu gün biz bu təməl daşını birlikdə qoyduq. Əminəm ki, qısa müddət ərzində gözəl, əzəmətli bina tikiləcəkdir və bu bina həm xarici görünüşünə görə, həm daxili keyfiyyətlərinə görə Heydər Əliyevin adına layiq olacaqdır. Onun kimi gözəl, onun kimi əzəmətli, onun kimi əyilməz olacaqdır.

Sağ olun.

* * *

*Prezident İlham Əliyev xanım Zaha Hadid və mərasimdə iştirak edən Azərbaycanın görkəmli memarları ilə görüşüb söhbət etdi. Memarlar bu layihəni yüksək səviyyədə hazırladığına görə Zaha Hadidə minnətdarlıqlarını bildirdilər.*

* * *

*Sonra prezident İlham Əliyev Heydər Əliyev Mərkəzinin inşa ediləcəyi və onunla qonşu ərazilərin mövcud planı ilə tanış*

*oldu. Dövlətimizin başçısı ətraf ərazilərin müasir standartlara uyğun abadlaşdırılmasının, yaşayış və istehsalat binalarının təmirinin zəruriliyini vurğuladı, bu ərazinin kompleks şəkildə müasirləşdirilməsi üçün müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və memar Zaha Hadid xatirə şəkli çəkdirdilər.*

## MƏŞHUR MEMAR XANIM ZAHA HADİD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10–da Prezident sarayında məşhur memar xanım Zaha Hadidi qəbul etmişdir.*

*Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasiminin əhəmiyyətindən danışan dövlətimizin başçısı bunun Azərbaycan dövlətinin və xalqının həyatında əlamətdar hadisə olduğunu vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, yüksək beynəlxalq standartlar səviyyəsində inşa ediləcək bu mərkəz təkcə Azərbaycan xalqı üçün deyil, eləcə də ölkəmizə gələn xeyli sayda xarici qonaqlara Azərbaycan haqqında daha ətraflı məlumat almaq işinə xidmət edəcəkdir.*

*Azərbaycan prezidenti İlham Əliyev dünyanın bir sıra məşhur tikinti komplekslərinin arxitektura müəllifi olan xanım Zaha Hadidin layihəyə rəhbərliyini yüksək qiymətləndirdi.*

*Xanım Zaha Hadid Azərbaycana gəlişindən və Heydər Əliyev Mərkəzinin arxitektura layihəsinə rəhbərlik etməsindən məmnun olduğunu bildirdi. O, müəllifi olduğu kitabı prezident İlham Əliyevə təqdim etdi.*

# DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ DAVAMLI İNKİŞAF SEKTORUNUN DİREKTORU PETER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə Davamlı inkişaf sektorunun direktoru Peter Tomsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycanın Dünya Bankı ilə uğurlu əməkdaşlıq etməsinə böyük əhəmiyyət verdiyini deyən dövlətimizin başçısı bu əməkdaşlığın ölkəmizin ümumi inkişafındakı rolunu xüsusi qeyd etdi. Prezident İlham Əliyev ölkəmizdə iqtisadi inkişafın sürətlə getdiyini vurğulayaraq bu sahədə çoxlu yeni planların olduğunu da məmnunluqla bildirdi.*

*Azərbaycanda iqtisadi sahədə əldə olunan nailiyyətlərin Dünya Bankı tərəfindən maraqla izlənildiyini deyən qonaq ölkəmizlə əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

## BEYNƏLXALQ ENERJİ AGENTLİYİNİN İCRAÇI DİREKTORUNUN MÜAVİNİ UİLYAM RAMSEYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Beynəlxalq Enerji Agentliyinin icraçı direktorunun müavini Uilyam Ramseyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə son zamanlar Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal enerji layihələri, Xəzər hövzəsi regionunda enerji təhlükəsizliyinin bəzi aspektləri, Azərbaycanın beynəlxalq enerji əməkdaşlığındakı rolu və gələcək perspektivləri müzakirə olunmuşdur.*

## GƏNCƏ XANI CAVAD XAN NƏSLİNİN NÜMAYƏNDƏSİ RZA CAVADXANİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Gəncə xanı Cavad xan nəslinin nümayəndəsi Rza Cavadxanini qəbul etmişdir.*

*Cavad xanın Azərbaycan tarixindəki xidmətlərindən danışan dövlətimizin başçısı onun nəslinin nümayəndəsinin Bakıya gəlməsindən məmnun olduğunu bildirdi.*

*Prezident İlham Əliyev dünyada yaşayan azərbaycanlıların öz vətənləri ilə daim əlaqə saxlamalarının əhəmiyyətini vurğuladı.*

*Rza Cavadxani öz ata-baba yurduna gəlməsindən şərəf duyduğunu, Azərbaycan prezidenti İlham Əliyevlə görüşündən böyük qürur hissi keçirdiyini məmnunluqla qeyd etdi. Rza Cavadxani uzun illər ölkəmizdə olmadığını bildirərək dedi ki, hazırda prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi böyük uğurlar, onun beynəlxalq aləmdə mövqeyinin günü-gündən artması dünya azərbaycanlılarında böyük fərəh hissi doğurur. O, Azərbaycana səfəri zamanı bütün sahələrdə çox böyük inkişafın şahidi olduğunu bildirdi.*

*Rza Cavadxani xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini vurğulayaraq, dünya Azərbaycan diasporunun yaranması və təşəkkülündə ulu öndərin müstəsna rolunu qeyd etdi.*

## AZƏRBAYCANIN YƏHUDI İCMASINA

Əziz həmvətənlər!

Yəhudi xalqının qədim milli mərasimlərindən olan Roş-Ha-Şana – Yeni il bayramı münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, milli-dini tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti bizim tarixi nailiyyətimizdir. Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan milli-mədəni özünəməxsusluğunu günümüzədək qoruyub saxlamışdır. Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir və müasir demokratik prinsiplərə uyğun olaraq ölkədə insan haqlarının təminatı, milli azlıqların qorunması, onların dil və mədəniyyətinin inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Tarixən Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icması bu gün cəmiyyətimizin ayrılmaz hissəsinə çevrilmişdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, yəhudi vətəndaşlarımız respublikamızda gedən tarixi quruculuq işlərində, ictimai-siyasi proseslərdə yaxından iştirak edir, müstəqil dövlətimizin daha da möhkəmləndirilməsində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirirlər.

Roş-Ha-Şana yeniləşmə, tövbə və mənəvi saflıq bayramıdır. Qoy bu əziz gün həyatınıza xoş müjdələr, ailələrinizə sevinc və səadət gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 sentyabr 2007-ci il*

## İRAN–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ ƏHƏD QƏZAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Prezident sarayında İran–Azərbaycan Dostluq qrupunun sədri Əhəd Qəzainin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Əhəd Qəzai ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirdi və qeyd etdi ki, İran parlamentində fəaliyyət göstərən İran–Azərbaycan Dostluq qrupu parlamentlərarası əməkdaşlığın genişlənməsinə öz töhfəsini verir. Qonaq İran prezidenti Mahmud Əhmədinejadın Azərbaycana sonuncu səfərinin uğurla keçdiyini və bu səfərin ölkəsində böyük maraqla izlənildiyini dedi.*

*Prezident İlham Əliyev Azərbaycan–İran ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirdi. O, İran prezidenti Mahmud Əhmədinejadın Azərbaycana səfərinin əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, İran–Azərbaycan Dostluq qrupu sədrinin ölkəmizə bu səfəri parlamentlərarası əməkdaşlığımızın daha da inkişafına xidmət edəcəkdir.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN HƏMSƏDRİ XANIM MARİ ANN İSLER BEQƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri xanım Mari Ann İsler Beqənin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Avropa İttifaqı əlaqələri, parlamentlərarası əməkdaşlıq məsələlərinin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVAYA RƏSMİ SƏFƏRİ

*13 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Litva Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Litvaya rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Litvanın dövlət bayraqları ilə bəzədilmiş Vilnüs Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Litvanın Xarici İşlər naziri Pyatras Vaytekunas və digər rəsmi şəxslər qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Azərbaycan prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Sentyabrın 13-də Vilnüsdə Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Burada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Sarayın önündə Litva prezidenti Valdas Adamkus və xanımı Azərbaycan prezidenti İlham Əliyevi və onun xanımını böyük hörmət və ehtiramla qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Hərbi orkestrin ifasında Azərbaycanın və Litvanın dövlət himnləri səsləndi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər və dövlət bayraqlarına təzim etdilər.*

*Litvanın rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycanın nümayəndə heyəti isə prezident Valdas Adamkusa təqdim olundu. Prezident İlham Əliyevə Litvada akkreditə olunmuş diplomatik korpusun rəhbərləri də təqdim edildi.*

*Sonra dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA RESPUBLİKASININ PREZİDENTİ VALDAS ADAMKUSUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Litva prezidentinin sarayı*

*13 sentyabr 2007-ci il*

*Sentyabrın 13-də Litva prezidentinin sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Litva prezidenti Valdas Adamkusun təkbətək görüşü olmuşdur.*

*Dövlət başçıları Litva–Azərbaycan əlaqələrinin bütün sahələrdə uğurla inkişafını qeyd edərək, münasibətlərin genişlənməsində iki ölkənin prezidentlərinin qarşılıqlı səfərlərinin mühüm rolunu vurğuladılar. Azərbaycanla Litva arasında Avropa və Şimali Atlantika strukturlarına inteqrasiya sahəsində əlverişli əməkdaşlığın yarandığı, iqtisadi layihələrin reallaşdırılmasında qarşılıqlı marağın olduğu bildirildi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edildi.*

## AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Litva prezidentinin sarayı*

*13 sentyabr 2007-ci il*

*Sentyabrın 13-də, Azərbaycan və Litva prezidentlərinin təkbətək görüşündən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*Görüşdə ikitərəfli əlaqələrin, o cümlədən energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinə dair ətraflı fikir mübadiləsi aparıldı.*

*Litva prezidenti Valdas Adamkus Azərbaycan prezidenti İlham Əliyevin Vilnüsə ilk rəsmi səfərini yüksək qiymətləndirərək dedi ki, ölkələrimiz arasında münasibətlər qısa müddətdə intensiv inkişaf etməyə başlamışdır. Ölkələrimiz arasında hansısa fikir ayrılığı yoxdur.*

*Litva rəhbəri vurğuladı ki, budəfəki dialoq oktyabr ayında Vilnüsdə keçiriləcək və Azərbaycanın dövlət başçısının da iştirak edəcəyi energetika sammitində davam etdiriləcəkdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Litva Respublikasına ilk rəsmi səfərinin gedişində göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirərək dedi ki, biz Litva ilə münasibətlərə böyük əhəmiyyət veririk və bu münasibətlər son vaxtlar xeyli inkişaf etmişdir. Litva və Azərbaycan vahid mövqelərdən çıxış edirlər, ölkələrimiz arasında heç bir problem yoxdur və əlaqələrimiz yüksələn xətlə inkişaf edəcəkdir. Avroatlantik strukturları ilə Azərbaycanın münasibətləri yüksək səviyyədədir. Litva Avroatlantik strukturlarına inteqrasiyada Azərbaycanı dəstəkləyir və bizə kömək edir.*

*Görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün siyasi iradənin olduğu vurğulandı, eyni zamanda,*

*bildirildi ki, bu əlaqələr, o cümlədən ticarət dövriyyəsinin həcmi tərəflərin mövcud potensialına uyğun gəlmir. Bu baxımdan səfər çərçivəsində keçiriləcək biznes-forumun əhəmiyyətli olacağı bildirildi. Səfirliklərin fəaliyyətə başlaması da iqtisadi əlaqələrin genişlənməsində müsbət rol oynayacaqdır.*

## Sənədlərin imzalanma mərasimi

*Sentyabrın 13-də dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Litva prezidenti Valdas Adamkusun iştirakı ilə rəsmi sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Litva prezidenti Valdas Adamkus Azərbaycan Respublikası və Litva Respublikası arasında tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında birgə bəyannamə imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Litva tərəfindən Mədəniyyət naziri Yonas Yuças imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Litva tərəfindən Xarici İşlər naziri Pyatras Vaytekunas imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Litva tərəfindən Mədəniyyət naziri Yonas Yuças imzaladılar.*

*Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Litva Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi arasında vergi məsələləri üzrə informasiya mübadiləsi haqqında sazişi Azərbaycan tərəfindən Vergilər naziri Fazil Məmmədov, Litva tərəfindən Dövlət Vergi Müfəttişliyinin sədri Modestas Kaselyauskas imzaladılar.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA RESPUBLİKASININ PREZİDENTİ VALDAS ADAMKUSUN BİRGƏ MƏTBUAT KONFRANSI

*Litva prezidentinin sarayı*

*13 sentyabr 2007-ci il*

*Sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri çərçivəsində ikitərəfli sənədlərin imzalanmasından sonra dövlət başçıları Litva prezidentinin sarayında birgə mətbuat konfransı keçirmişlər.*

*Prezidentlər əvvəlcə bəyanatlarla çıxış etdilər.*

## Litva Respublikasının Prezidenti Valdas Adamkusun bəyanatı

Hörmətli cənab Prezident!

Sizi Litvada görməkdən olduqca məmnunam. Xüsusi olaraq mən bildirmək istəyirəm ki, ölkələrimiz arasındakı belə intensiv əməkdaşlıq nəinki Litvada, həm də beynəlxalq miqyasda müşahidə olunur.

Qısa müddət ərzində bir neçə dəfə görüşlərimiz olmuş və regional siyasətə aid məsələləri nəzərdən keçirmişik. Biz enerji məsələlərini müzakirə etdik ki, bunlar da bizim üçün böyük əhəmiyyət daşıyır. Bizim ilkin görüşlərimiz zamanı ölkənizin bu sahədəki imkanları haqqında danışmışdıq. Bilirik ki, ölkənizin enerji ehtiyatları böyükdür və regiondakı bu siyasətin ümumi strategiyasına ölkənizin hansı yolla, necə töhfə verəcəyini müzakirə etdik. Beləliklə, biz artıq danışıqlarımızı kifayət qədər realist bir məcraya salmışıq. İndi isə

artıq buna beynəlxalq şəbəkəni qoşuruq. Bununla sizin regionunuz Avropaya daha da yaxınlaşır.

Mən xüsusi vurğulamaq istəyirəm ki, xalqlarımız arasında nəinki enerji və iqtisadi sahələrdə əməkdaşlıq mövcuddur, eyni zamanda, bu, beynəlxalq səviyyədə də çox gözəçarpan dərəcədə artmışdır. Avropa İttifaqı və NATO ilə əməkdaşlıq sahəsində əlaqələr böyük əhəmiyyət kəsb edir. Biz bu məsələləri Sizinlə müzakirə etdik və Azərbaycanın beynəlxalq qurumlara qoşulmasında Litva hər zaman mümkün olan dərəcədə yardım göstərəcək və biz öz təcrübəmizi sizinlə bölüşməyə hazırıq.

Bu gün çox mühüm hadisə odur ki, əməkdaşlıq haqqında beş saziş imzalandı. Onlar iqtisadi və mədəni məsələlərə aiddir. Mən Sizə bir daha minnətdarlığımı bildirirəm və olduqca məmnunam ki, bizim mövqelərimiz üst-üstə düşür. Hətta razılıq olmayan məsələni tapmaq da çətindir, münasibətlərimizdə bütün məsələlər üzrə mövqelərimiz eynidir, heç bir mübahisəli məsələ yoxdur. Biz bilirik ki, gələn ay Vilnüsdə enerji sammiti keçiriləcək və Sizin iştirakınızı səbirsizliklə gözləyəcəyik.

Biz çox şadıq ki, bu gün Sizinlə bir çox iş adamlarından ibarət böyük nümayəndə heyəti gəlibdir. Onlar da həmkarları ilə müzakirələr aparacaqlar.

Bir daha xoş gəlmisiniz!

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu mənim Litvaya ilk rəsmi səfərimdir. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Son illər ərzində iki ölkə arasında münasibətlər çox sürətlə

inkişaf edir. Biz Sizinlə son bir il ərzində bir neçə dəfə görüşmüş, müxtəlif məsələləri – həm ikitərəfli münasibətlərin inkişafını, həm də regional məsələləri, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətləri müzakirə etmişik. Biz müzakirə olunan bütün məsələlərə vahid mövqedən yanaşırıq.

Biz bu gün Sizinlə söhbət əsnasında çox çalışırdıq ki, hansısa problem yaradan məsələləri tapaq, amma xoşbəxtlikdən, buna müvəffəq olmadıq. Əminəm ki, gələcəkdə də bizim aramızda münasibətlər ancaq və ancaq yüksələn xətlə davam edəcəkdir. Biz çox güclü tərəfdaşlıq etmək niyyətindəyik. Bu gün bu tərəfdaşlığın əsas konturları müəyyən olunubdur. Avropa İttifaqı–Azərbaycan münasibətlərində biz Litvanın və cənab Prezident, şəxsən Sizin dəstəyinizi həmişə hiss etmişik. Azərbaycanın Avroatlantik inteqrasiya arzularının həyata keçirilməsində də biz Litvanın mövqeyinə həmişə söykənirik. Bilirik ki, həm Avropa İttifaqında, həm də NATO-da siz ölkəmizi dəstəkləyirsiniz və məhz bunun nəticəsində NATO ilə Azərbaycan arasında münasibətlər çox yüksək pilləyə qalxıbdır. Biz artıq fərdi tərəfdaşlıq planının icrası ilə məşğuluq. Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər isə hazırda «Yeni qonşuluq siyasəti» proqramı çərçivəsində həll olunur. Bununla bərabər, keçən ilin sonunda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanmışdır. İndiki zamanədə bizim bölgəmizdə və Avropa qitəsində enerji məsələləri gündəliyin ön planına çıxır. Əlbəttə ki, neft-qaz hasil edən ölkə kimi, Azərbaycan enerji təhlükəsizliyinə öz töhfəsini verir və bundan sonra da verəcəkdir. Bu gün biz Sizinlə bu məsələləri çox geniş şəkildə təhlil və müzakirə etdik, gələcək əməkdaşlıq perspektivlərini də müəyyən etmişik.

Fürsətdən istifadə edərək, məni Vilnüsdə keçiriləcək energetika sammitinə dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Gələn ayda da böyük məmnuniyyətlə Sizin gözəl ölkənizə səfər edəcəyəm. Şübhə etmirəm ki,

Vilnüs sammiti bütün bu vaxta qədər bu məsələlərlə bağlı müzakirələrimizə, məsələlərin həllinə çox böyük dəstək olacaqdır.

Azərbaycan öz siyasətini çox açıq şəkildə aparır. Bizim Avroatlantik inteqrasiya arzularımız çox açıq şəkildə bəyan olunur. Bu sahədə ölkəmiz artıq böyük uğurlar əldə edibdir. Bizim ölkə kimi, sizin ölkəniz də vaxtilə bir ölkədə, bir ittifaqda yaşamışdır. Sizin uğurunuz, qısa müddət ərzində həm NATO-ya, həm Avropa İttifaqına üzv olmağınız bizə imkan verir ki, təcrübənizi dərindən öyrənək və öz proqramlarımızı buna uyğun şəkildə müəyyən edək.

Bizim aramızda iqtisadi əlaqələr genişlənir. Bu gün və keçən il Sizin Azərbaycana səfəriniz zamanı imzalanmış sənədlər, demək olar ki, əməkdaşlığın bütün sahələrini əhatə edir. Artıq Litvanın Azərbaycanda, Azərbaycanın isə Litvada səfirlikləri də təsis olunmuşdur. Bu da qarşılıqlı marağın təzahürüdür və onu göstərir ki, biz ikitərəfli münasibətlərin inkişafına çox böyük diqqət veririk. Əminəm ki, səfirliklər iki ölkənin daha da yaxınlaşmasına öz töhfələrini verəcəklər.

Bu gün başqa məsələlərlə yanaşı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də müzakirə edilmişdir. Bizim imzaladığımız birgə bəyannamədə həm Litvanın, həm Azərbaycanın mövqeləri əks olunmuşdur. Ədalətli, beynəlxalq hüquq normalarına söykənmiş mövqeyə görə mən Azərbaycan dövləti tərəfindən Sizə bir daha təşəkkür etmək istəyirəm. Əminəm ki, geniş beynəlxalq diqqətin nəticəsində, beynəlxalq hüquq normalarının bərpası nəticəsində bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər.

Hörmətli cənab Prezident, məni ölkənizə dəvət etdiyinizə və göstərilən diqqətə görə Sizə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu səfər və gələcək əməkdaşlığımız ölkələrimizi daha da yaxınlaşdıracaqdır. Bizim aramızda əməkdaşlıq daha da yüksək pilləyə qalxacaqdır.

Təşəkkür edirəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Mənim sualım hər iki dövlət başçısınadır. Həm Azərbaycanın, həm də Litvanın strateji coğrafi mövqeyini nəzərə almaqla, nəqliyyat və tranzit imkanlarından qarşılıqlı istifadə perspektivlərini necə görürsünüz?**

**İ l h a m  Ə l i y e v:** Bizim əməkdaşlığımız müxtəlif sahələri əhatə edir. Əlbəttə ki, nəqliyyat məsələlərinə də böyük diqqət veririk. Bütövlükdə bu gün Xəzər dənizi, Qara dəniz, Baltik dənizi əməkdaşlığı yeni pilləyə qalxır. Azərbaycanın iştirak etdiyi transmilli layihələrdə – istər enerji, istərsə də nəqliyyat layihələrində, əlbəttə ki, bu bölgənin birləşməsi və regional əməkdaşlığın artması məsələləri də öz həllini tapır.

Dəmir yolunun tikintisi Azərbaycanı Avropa ilə birləşdirəcəkdir. Bildiyiniz kimi, yaxın vaxtlarda biz Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlayacağıq. Bu tikinti başa çatandan sonra Azərbaycan vasitəsilə Asiyanı Avropa ilə birləşdirən yeni dəmir yolu, Yeni İpək Yolu olacaqdır. Nəqliyyat məsələləri, adətən, enerji məsələləri ilə bağlı olur. Bu sahədə də böyük perspektivlər var. Enerji daşıyıcılarının nəqli məsələləri gündəlikdə mühüm yer tutur. Neft, qaz hasil və ixrac edən çox mühüm ölkə kimi, Azərbaycan, əlbəttə ki, nəqliyyat infrastrukturunun möhkəmlənməsinə də çox böyük diqqət göstərir. Bu yaxınlarda Azərbaycanda yeni böyük nəqliyyat infrastrukturu layihələri öz həllini tapacaq, yeni dəniz limanı tikiləcəkdir. Yeri gəlmişkən demək istəyirəm ki, sabah mən Klaypeda şəhərinə səfər edəcək və orada nəqliyyat infrastrukturu ilə, limanla tanış olacağam. Bu sahədə əməkdaşlıq üçün çox böyük imkanlar var və biz bu imkanları nəzərdən keçiririk.

**V a l d a s  A d a m k u s**: Sadəcə, bunu əlavə edə bilərəm ki, cənab prezidentin dediyi kimi, mən də məmnunam ki,

prezident Əliyev sabah Klaypedaya səfər edəcək və bu imkanlardan necə istifadə edildiyini şəxsən özü görəcəkdir.

Bakı–Odessa–Brodı–Qdansk layihəsi təbii ki, bir neçə ildən sonra baş tutacaqdır. Həmin strateji xəttin tikintisinə başlanılacaq, kəmər nefti Litvaya çatdıracaqdır. Lakin biz bu məsələyə realist baxımdan yanaşmalıyıq.

**S u a l: Sualım Azərbaycan prezidentinədir. Cənab Prezident, Azərbaycanın Odessa–Brodı–Qdansk boru kəmərinin çəkilməsində gələcək iştirakı ilə bağlı Litva tərəfinə hər hansı zəmanət verdinizmi? Həmin boru kəməri ilə hansı həcmdə Azərbaycan nefti nəql oluna bilər?**

**İkinci sualım isə Litva prezidentinədir. Bilirik ki, Azərbaycan nə NATO-nun, nə Avropa İttifaqının üzvüdür. Litva Dağlıq Qarabağ probleminin həllində iştirak etmir. Deyə bilərsinizmi, Litva bu məsələdə Azərbaycana necə yardım edə bilər?**

**İ l h a m  Ə l i y e v:** Krakovda keçirilmiş son enerji sammitində həmin məsələlər müzakirə edildi. Bundan başqa, Odessa–Brodı–Qdansk boru kəməri layihəsi bir neçə il ərzində nəzərdən keçirilmişdir. Azərbaycanda hasilatın cari həcmi yeni variantlar və nəqliyyat yolları üzərində düşünməyə imkan yaradır. Azərbaycan hazırda gündə 1 milyon barrel nefti hasil edir və bu, mövcud olan Bakı–Tbilisi–Ceyhan boru kəmərinin buraxıcılıq qabiliyyətinə tam bərabərdir. Biz hasilatın artımını planlaşdırırıq. Bu səbəbdən də yeni bazarlar bizim üçün çox cəlbedicidir. Hazırda Azərbaycan neftini nəql etmək üçün bizim üç boru kəmərimiz var: onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Əlbəttə, Ukrayna, Polşa və Baltikyanı ölkələrin bazarları bizim üçün olduqca cəlbedicidir. Krakovdakı ötən zirvə görüşü zamanı biz gələn ay keçiriləcək növbəti sammit üçün ideya və təkliflərin hazırlanması ilə məşğul olacaq işçi qrupunun yaradılması barədə razılığa gəldik. Hesab edirəm ki, geniş müzakirələr zamanı bizim iqtisadi ölçülər haqqında artıq hazır ideyalarımız olacaqdır. Biz bu layihəyə olduqca güclü siyasi dəstək veririk. Lakin eyni zamanda, biz çox

əlverişli iqtisadi mühit yaratmalıyıq ki, Azərbaycan neftinin həmin boru kəməri vasitəsilə nəqli faydalı olsun. Bu mümkündür. Mütəxəssislərimiz həmin nəqliyyat yolunun imkanlarını lazımi dərəcədə nəzərdən keçirirlər. Əminəm ki, gələn aylar və görüşlər ərzində bizim bu məsələ ilə bağlı daha çox ideyalarımız olacaqdır. Bu gün həmin marşrutla nəql olunacaq Azərbaycan neftinin həcmi haqqında bir söz demək çətindir. Bir daha qeyd edirəm ki, bizim hasilatı artırmağa potensialımız var. Lakin biz onu o vaxt artıra bilərik ki, nefti nəql etməyə imkanlarımız da olsun. Ölkəmiz hər tərəfdən quru sərhədləri ilə əhatə olunub, yəni bizim dəniz yolu ilə beynəlxalq bazarlara çıxışımız yoxdur.

Əgər münasib daşıma təklifi olarsa, əlbəttə ki, biz onda hasilatı artıracağıq. Bu hasilat tərəfdaşlarımızın ehtiyaclarını ödəyəcək və Baltik dənizi bazarlarına çıxış əldə etmək imkanı yaradacaqdır.

**V a l d a s A d a m k u s:** Dağlıq Qarabağa aid sual verilmişdir. Mənə belə gəlir ki, bu məsələ hazırda kiçik və böyük dövlətlərin diqqət mərkəzindədir. Səylər göstərilir ki, bu münaqişə aradan qaldırılsın və regionda sabitlik bərqərar olunsun. İndi Avropa İttifaqı, NATO və digər beynəlxalq təşkilatlarda bu məsələnin həllinə diqqət yetirirlər. Biz bu məsələ haqqında kifayət qədər danışdıq. Əgər beynəlxalq tərkibdə bizim vasitəçiliyimizə ehtiyac olarsa, bu rolu üzərimizə götürməyə hazırıq və vasitəçi kimi fəaliyyət göstərə bilərik. Bu, Dağlıq Qarabağ məsələsinə aiddir. Biz bu gün Azərbaycan prezidenti cənab İlham Əliyevlə bu barədə danışdıq. Azərbaycan Respublikası bu məsələnin prinsipial şəkildə həllinə sadiqdir və biz erməni tərəfindən onların cavabını gözləyirik.

Neftlə bağlı sualınıza gəldikdə, prezident çox aydın və düzgün formada cavab verdi ki, neftin nəqli məsələsi nəzərdən keçirilə bilər və artıq Azərbaycan buna hazırdır. Azərbaycan bunu edərsə, Avropaya daha da yaxınlaşacaqdır. Təbii ki, Litva regiona xam neftin nəql olunacağı marşrutlara qoşulmağa çalışacaqdır.

## DÖVLƏT BAŞÇILARININ AZƏRBAYCAN–LİTVA BİZNES-FORUMUNDA ÇIXIŞLARI

*13 sentyabr 2007-ci il*

*Sentyabrın 13-də Vilnüsdə Azərbaycan prezidenti İlham Əliyevin və Litva prezidenti Valdas Adamkusun iştirakı ilə Azərbaycan–Litva biznes-forumu keçirilmişdir. Forumun işində Azərbaycanın 50-dək və Litvanın 100-ə yaxın şirkətinin nümayəndələri iştirak edirdi. Forumun təşkilatçıları Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi və Litva Sahibkarlar Konfederasiyası idi.*

*Açılış mərasimində çıxış edən Litva Sahibkarlar Konfederasiyasının prezidenti Bronislovas Lubis iki ölkənin işgüzar adamları arasında əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd etdi və bildirdi ki, bu prosesdə Litvadakı Azərbaycan diasporu da mühüm rol oynamalıdır. O dedi ki, qarşılıqlı surətdə faydalı əlaqələrin əhatə dairəsi genişdir, Litva Azərbaycana mebel, yeyinti və toxuculuq sənayesi məhsulları satmaqda maraqlıdır. Bundan əlavə, Rusiya və Avropa limanlarından fərqli olaraq, Klaypeda dəniz limanının daha sərfəli və daha aşağı tarifləri, Litvadakı neftayırma zavodlarının imkanları da Azərbaycanı cəlb edə bilərdi.*

*Sonra dövlət başçıları forumda çıxış etdilər.*

### Litva Respublikasının Prezidenti Valdas Adamkusun çıxışı

Hörmətli cənab Prezident!

Azərbaycan nümayəndə heyətinin üzvləri və biznes-forumun iştirakçıları!

İlk növbədə, Azərbaycan prezidentinə və onu müşayiət edən böyük nümayəndə heyətinə, iş adamlarına Litvaya

səfər etdiklərinə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu səfər sübut edir ki, ümumi məqsəd və maraqlar bizi biri-birimizə daha yaxın edir. Son bir neçə ildə iki dövlət arasında həm işgüzar ünsiyyət var, həm də eyni məqsədlərə nail olmaq üçün çox sıx əməkdaşlıq mövcuddur.

Bu gün Azərbaycan prezidenti ilə söhbət zamanı biz həm beynəlxalq məsələləri, həm işgüzar münasibətlərin genişləndirilməsi, həm də mədəniyyət sahəsində əməkdaşlığın intensivləşdirilməsi üçün real imkanları nəzərdən keçirdik. İfadə olunan fikir və planlar çox aydın və çox konkretdir, çünki Azərbaycan öz enerji ehtiyatlarını təkcə Litvaya deyil, ümumiyyətlə, bütün Avropa İttifaqının bazarına çıxarmaq arzusundadır.

Əlbəttə, şərt o deyil ki, bu iş sabah və ya o biri gün reallaşsın – belə məsələlərdə 5 və hətta 10 il böyük müddət deyildir. Lakin bu məsələlərin hamısı çox vacibdir. Aydındır ki, Azərbaycan ümumavropa bazarına çıxmaqla Litvaya da çıxış əldə edəcəkdir. Mən həm də məmnun olduğumu bildirmək istəyirəm ki, prezident İlham Əliyev Klaypedaya da gedəcəkdir. Bu daha sıx əməkdaşlıq, işgüzar adamların ünsiyyəti və birbaşa əlaqələrin yaranması üçün yol açacaqdır. Bu da öz növbəsində ölkəmizin həyatı və inkişafı üçün vacib olan enerji daşıyıcıları ilə təmin olunmağımıza kömək edər.

Lakin biz təkcə bu məsələləri müzakirə etməmişik. Mədəni və elmi əməkdaşlığın da genişlənməsinin vaxtı çatmışdır.

Bu forumun iştirakçılarını bir daha təbrik edirəm, qonaqlarımıza hörmət və ehtiramımı bildirmək istəyirəm. Əminliklə deyə bilərəm ki, bir neçə il bundan öncə başlanan bu əməkdaşlığın möhkəm təməli var və gələcəyə inamla baxmaq olar. Bu forumda hamınıza uğurlar arzulayıram!

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, bütün nümayəndə heyətimizin üzvlərinə göstərilən qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu gün bizim aramızda çox geniş fikir mübadiləsi aparılmışdır. Bütün məsələlər – həm ikitərəfli əməkdaşlıq məsələləri, iqtisadi məsələlər, həm də regional məsələlər mehribanlıq şəraitində müzakirə olunmuşdur. Bizim aramızda siyasi dialoq son illər ərzində çox sürətlə inkişaf edir. İkitərəfli görüşlərimiz, qarşılıqlı rəsmi səfərlər, beynəlxalq konfranslardakı əməkdaşlığımız Litvanı Azərbaycanla daha da sıx birləşdirir. Biz buna çox sevinirik. Biz ikitərəfli münasibətlərə çox böyük əhəmiyyət veririk. Bu əhəmiyyətin təzahürüdür ki, qısa müddət ərzində hər iki ölkədə səfirliklərimiz işə başlayıbdır. Bizim siyasətçilərimiz, parlament üzvləri, iş adamları bir araya gəlirlər, müzakirələr aparır, gələcək perspektivlər haqqında öz fikirlərini söyləyirlər.

Siyasi əlaqələr güclü olduqda, əlbəttə ki, bütün başqa sahələrdə də işlər sürətlə getməlidir. Siyasi münasibətlər bütün başqa münasibətlərə güclü təkan verir. Biz çox istəyirik ki, iqtisadi əlaqələr siyasi əlaqələrin səviyyəsinə qalxsın. Hələlik bu belə deyildir. Bunun da müəyyən təbii səbəbləri var. Ancaq əminəm ki, keçirilən biznes-forumun nəticələri iqtisadi əlaqələrin güclənməsinə çox böyük təkan verəcəkdir. Bunu etmək üçün çox böyük potensial var. Hər iki ölkənin iqtisadi uğurları göz qabağındadır. Hər iki ölkədə çox əsaslı və ciddi, cəsarətli iqtisadi islahatlar həyata keçirilib və indi də davam etdirilir.

Bizim iqtisadiyyatımız şaxələnib, özəl sektorun xüsusi çəkisi kəskin şəkildə artıbdır. Sovet İttifaqı dağılanda həm Litvada, həm də Azərbaycanda özəl sektor, faktiki olaraq,

mövcud deyildi. İndi Azərbaycan iqtisadiyyatının tam əksəriyyəti – 81 faizi özəl sektordadır. Bu bizim üçün çox böyük nəticədir, çox böyük nailiyyətdir. İqtisadi islahatların həyata keçirilməsi, iqtisadiyyatın liberallaşması, dünya iqtisadiyyatına inteqrasiya, Avropa İttifaqı ilə əlaqələrin, o cümlədən iqtisadi əlaqələrin inkişafı bizə imkan verir ki, iqtisadi islahatlarda çox böyük nailiyyətlər əldə edək.

Azərbaycan qədim neft diyarıdır, neft ölkəsidir. Dünyada sənaye üsulu ilə neft ilk dəfə Azərbaycanda hasil edilmişdir. Dəniz neft yataqlarından da neft ilk dəfə Azərbaycanda çıxarılmışdır. Bu gün Azərbaycan nefti müstəqil ölkəmizin inkişafına xidmət göstərir. Biz neft strategiyasını elə həyata keçiririk ki, Azərbaycanın maraqları tam şəkildə təmin olunsun. Azərbaycandan dünya bazarlarına çıxan üç neft və bir qaz kəməri çəkilib və onlar fəaliyyət göstərir. Biz bu gün prezident Adamkusla enerji sahəsində əməkdaşlıq haqqında çox geniş fikir mübadiləsi aparmışıq. Əminəm ki, gələn ay Vilnüsdə keçiriləcək energetika sammitinin də bu baxımdan çox önəmli rolu olacaqdır. Azərbaycan neft-qaz hasilatını artıraraq, həm özünü enerji resursları ilə tam şəkildə təmin edir, həm də Avropa və dünya üçün çox etibarlı tərəfdaşa çevrilibdir. Bu sahədə bizim siyasətimiz tam açıqdır və bütün bu vaxta qədər gördüyümüz işlər öz səmərəsini veribdir. Elə bir layihə olmayıb ki, biz onu icra etmək istəyək, amma buna nail ola bilməyək. Yəni bizim artıq çox gözəl təcrübəmiz var. Biz istəyirik ki, bu sahədə səylərimizi birləşdirək və bundan sonra Litva ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq münasibətləri yeni səviyyəyə qalxsın. Bunun üçün imkanlar var. Əminəm ki, Azərbaycanda neft-qaz hasilatı artdıqca, biz Baltik dənizi bazarlarına da çıxacağıq. Mövcud infrastruktur və gələcək infrastruktur layihələrinin həyata keçirilməsi bu imkanları yaradacaqdır.

Siyasi iradə var, siyasi niyyətlər var. Avropa İttifaqı ilə Azərbaycan arasında keçən ilin sonunda enerji sahəsində strateji əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Bu da münasibətlərin çox gözəl çərçivəsidir. Bir sözlə, biz bu məsələyə çox ciddi yanaşırıq və əminəm ki, birgə səylərlə istəyimizə nail olacağıq.

Bugünkü forumda Azərbaycandan qeyri-neft sektorunu təmsil edən iş adamları iştirak edirlər. Bu bizim üçün çox vacibdir, çünki istəyirik ki, iqtisadiyyatımız neft-qaz amilindən asılı olmasın. Neft amilindən asılılıq bizə imkan verməyəcək ki, iqtisadiyyatımız çoxsahəli şəkildə inkişaf etsin. Məhz buna görə, qeyri-neft sektorunun inkişafı, investisiyaların təşviqi, xarici investorlar üçün çox gözəl mühitin yaradılması, investisiyaların qorunması və şəffaflıq bizim üçün prioritet məsələlərdir. Biz görürük ki, Azərbaycanda qeyri-neft iqtisadiyyatı ildən-ilə çox sürətlə artır. Son üç il yarım ərzində ölkəmizdə təxminən 600 min yeni iş yeri yaranmışdır ki, onların da mütləq əksəriyyəti qeyri-neft sektorunda açılmışdır. Azərbaycanda yeni müəssisələr, dünya səviyyəli şirkətlər yaranır. Biz özəl sektoru dəstəkləyirik, hər il dövlət tərəfindən ona çox əlverişli və güzəştli kreditlər verilir. Həm də Dövlət İnvestisiya Şirkətinin xətti ilə Azərbaycana yüz milyon dollar həcmində investisiya qoyuluşu nəzərdə tutulubdur. Fürsətdən istifadə edib Litva iş adamlarını bu imkanları nəzərdən keçirməyə dəvət edirəm. Çünki Dövlət İnvestisiya Şirkəti xarici investorlarla birlikdə Azərbaycan üçün lazım olan və iqtisadi cəhətdən səmərəli olan layihələr üzərində işləyəcəkdir.

Mən ümid edirəm ki, bugünkü biznes-forum və iş adamları arasında yaranan əlaqələr imkan verəcəkdir ki, yaxın zamanlarda bizim aramızda ticarət dövriyyəsi də artsın. İndiki səviyyə, əlbəttə ki, bizi qane edə bilməz.

Hər iki ölkənin potensialı daha böyükdür. Biz gərək sadəcə olaraq, mümkün olan imkanları birgə təhlil edək, birgə fəaliyyət planı hazırlayaq. Orada, əlbəttə ki, dövlət orqanları, müvafiq nazirliklər və əlbəttə ki, iş adamları öz üzərinə düşən vəzifələri icra etməlidir, çünki bizim iqtisadiyyatımız bazar iqtisadiyyatıdır. Bazar münasibətləri yeganə

uğurlu prinsipdir ki, ən inkişaf etmiş ölkələrin iqtisadiyyatı bu prinsiplə idarə olunur.

Əziz dostlar, mən sizin gözəl ölkənizdə olmağımdan öz məmnunluğumu bir daha ifadə etmək istəyirəm. Şübhə etmirəm ki, bu səfərin nəticələri, imzalanmış sənədlərin icrası bizim ölkələri daha da sıx birləşdirəcək, o cümlədən iqtisadi sahədə əməkdaşlıq çox yüksək zirvələrə qalxacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

## LİTVADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2007-ci il*

*Sentyabrın 13-də prezident İlham Əliyev Litvada fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin nümayəndələri ilə görüşmüşdür.*

*Diaspor nümayəndələri fəaliyyətləri və apardıqları təşkilatlanma işləri barədə prezidentə məlumat verdilər. Dövlətimizin başçısı diaspor quruculuğu istiqamətində görülən işlərdən danışdı və bildirdi ki, Azərbaycan dövləti xaricdə yaşayan soydaşlarımızla əlaqələrin güclənməsinə xüsusi diqqət göstərir və bu sahədə işlər bundan sonra da davam etdiriləcəkdir.*

**İlham Əliyev**: Yəqin ki, bilirsiniz, bu gün burada Litva–Azərbaycan biznes-forumu öz işinə başlayıbdır. Burada yerli həmkarları ilə iş qurmaq üçün Bakıdan çoxlu iş adamları gəliblər. Əlbəttə, mən çox istərdim ki, burada yaşayan azərbaycanlılar bu işlərdə çox fəal iştirak etsinlər. İndi Azərbaycanda iqtisadi vəziyyət yaxşılaşır, çoxlu özəl şirkətlər yaranır, onların imkanları artır. Ümumiyyətlə, ölkənin maddi imkanları artır. Biz hesab edirik ki, Azərbaycan şirkətləri buraya investisiya qoymalıdır. Buna böyük maraq var. Siz də, burada yaşayan azərbaycanlılar da bu işlərdə iştirak etməlisiniz. Artıq səfirlik də var, Azərbaycanın rəsmi nümayəndəliyi var. Bu da ikitərəfli münasibətlər üçün çox vacib amildir. Yəni ki, hərtərəfli münasibətlərin inkişafı bizə lazımdır. Bizim aramızda çoxlu sənədlər imzalanıbdır. Siz bu gün turizm haqqında söhbət açırsınız. O cümlədən, turizm sahəsində əməkdaşlıq haqqında bu gün sənəd imzalanıbdır. Yəqin ki, gələn il həm burada, həm də Bakıda mədə-

niyyət günləri keçiriləcəkdir. Çox əhatəli birgə bəyannamə imzalanmışdır. Litva Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini tam dəstəkləyir və bu, bəyannamədə öz əksini tapmışdır. Yəni biz müttəfiqik və prezident Adamkusla mənim aramda imzalanmış bəyannamədə göstərilir ki, bizim münasibətlərimiz strateji tərəfdaşlıq münasibətləridir. Burada yaşayan azərbaycanlılar bu münasibətlərə öz töhfəsini verməlidirlər. Siz həm buranın vətəndaşlarısınız, həm də azərbaycanlısınız, yəni bu işlərdə siz də çox fəal iştirak etməlisiniz. Demək olar ki, biz müstəqillik əldə edəndən bəri son bir neçə il ərzində münasibətlər belə sürətlə inkişaf edir və yeni imkanlar yaranır.

Xaricdə yaşayan azərbaycanlılar bizim səfirlərimizdir, ictimai əsaslarla işləyirlər. Həm Azərbaycanı möhkəmləndirirlər, həm də ki, qüdrətlənən Azərbaycana arxalanırlar, söykənirlər. Azərbaycan dövləti nə qədər güclü olsa, sizin buradakı imkanlarınız da bir o qədər genişlənəcəkdir. Xüsusilə indiki şəraitdə ki, Azərbaycan biznesi Litvaya gəlir və burada böyük işlər görmək niyyətindədir. Mən sizi bu işlərə fəal qoşulmağa dəvət edirəm. Bilirəm ki, siz çox fəalsınız. Burada çoxdan Azərbaycan qurumları, cəmiyyətləri fəaliyyət göstərir. Demək olar ki, hər bir ölkədə Azərbaycan təşkilatları fəaliyyət göstərir. Bu bizim gücümüzü artırır. Siz burada nə qədər zəngin olsanız, siyasi sahədə, iqtisadi sahədə cəmiyyətə nə qədər sıx inteqrasiya etsəniz, o qədər də Azərbaycanın maraqları təmin olunacaqdır.

Bu işlərdə sizə uğurlar arzulayıram. Həmişə Azərbaycan dövlətinə arxalana bilərsiniz.

**M a h i r H ə m z ə y e v** (*Azərbaycan Cəmiyyətinin sədri*): Damarında azərbaycanlı qanı olan hər bir insanın ürəyi vətənlə döyünür. Siz bu gəlişinizlə Litva dövləti ilə Qarabağ haqqında da danışıqlar apardınız. Litva dövləti bu problemə necə baxır? Bizi bu işdə dəstəkləyirlərmi?

**İ l h a m Ə l i y e v:** Bəli, tam şəkildə dəstəkləyirlər. Bunu biz həm bugünkü görüşdə eşitdik və ən əsası – indi mən

deyəcəyəm və mətbuatda dərc olunacaq, mənimlə prezident Adamkus arasında imzalanmış siyasi bəyannamədə bu məsələ birmənalı şəkildə öz ifadəsini tapmışdır. Litva Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü tanıyır və məsələnin, münaqişənin ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini mümkün sayır. Bu təkcə Litva dövlətinin mövqeyi deyildir. Bilirsiniz ki, Litva Avropa İttifaqının üzvüdür və Avropa İttifaqının vahid xarici siyasət konturları artıq müəyyən olunubdur. Avropa İttifaqının mövqeyi bundan ibarətdir, Birləşmiş Millətlər Təşkilatının mövqeyi bundan ibarətdir. Bütün mütərəqqi dünyanın mövqeyi bundan ibarətdir ki, bu məsələ ədalətli, ərazi bütövlüyü çərçivəsində həll olunsun. Biz nə qədər çox dəstək alsaq, gücümüz o qədər də artır. Ancaq o da həqiqətdir ki, bu məsələni gərək biz özümüz həll edək. Özümüz. İqtisadi qüdrəti artırmaqla, hərbi gücü artırmaqla, qüvvələrimizi səfərbər etməklə və bütün azərbaycanlıları bir araya yığmaqla. Əgər bütün azərbaycanlılar bir araya gəlsələr, vahid bir qüvvə kimi çıxış etsələr, məsələ daha da asanlıqla öz həllini tapar. Amma ilk növbədə, bu bizim işimizdir. Biz də bunu həll edəcəyik. Mən buna şübhə etmirəm. Əlbəttə ki, Litva–Azərbaycan münasibətlərində bu amil həmişə mövcuddur. Biz Litvanın mövqeyini bəyənirik.

Bir halda ki, birlikdən söhbət gedir, artıq burada səfirlik də var. Səfirlik dövlətin rəsmi nümayəndəliyidir, prezidentin birbaşa elçisidir, nümayəndəsidir. Səfirlik də gərək bütün diaspor təşkilatlarında olan münasibətləri tənzimləsin və xahiş edirəm, siz də öz fəaliyyətinizi səfirliklə razılaşdırın. Səfirliyə Xarici İşlər Nazirliyindən göstərişlər verilib ki, biz burada siyasəti belə dolğun şəkildə, birlik əsasında aparaq. Heç bir ayrı-seçkilik olmamalıdır. Nairə xanım da təcrübəli siyasətçidir. Uzun illər ərzində Avropa Şurası Parlament Assambleyasında Milli Məclisin nümayəndəsi olubdur. Xahiş edirəm ki, burada bu işləri razılaşdırın. Mən gələn ay buraya energetika sammitinə gələcəyəm.

* * *

*Prezident İlham Əliyev görüşün sonunda diasporun üzvləri ilə xatirə şəkli çəkdirdi.*

* * *

*Sentyabrın 13-də Azərbaycan prezidenti İlham Əliyev Litvanın azadlığı uğrunda mübarizədə, o cümlədən 1991-ci ilin yanvar hadisələrində həlak olanların xatirə memorialını ziyarət etmişdir.*

*Dövlətimizin başçısı burada ucaldılmış abidə önünə əklil qoydu, həlak olanların xatirəsini yad etdi.*

## LİTVA RESPUBLİKASININ PREZİDENTİ VALDAS ADAMKUSUN VƏ XANIMI ALMA ADAMKİENENİN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*13 sentyabr 2007-ci il*

*Sentyabrın 13-də Litva prezidenti Valdas Adamkusun və xanımı Alma Adamkienenin adından Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir. Rəsmi ziyafətdən əvvəl dövlətimizin başçısı və xanımı Prezident sarayının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar. Sonra xatirə şəkli çəkdirildi.*

*Dövlət başçıları ziyafətdə nitq söylədilər.*

### Litva Respublikasının Prezidenti Valdas Adamkusun nitqi

Zati-aliləri prezident İlham Əliyev!

Hörmətli xanım Mehriban Əliyeva!

Hörmətli nümayəndə heyəti üzvləri!

Mən xanımım Alma ilə birlikdə Sizi ölkəmizdə qəbul edib, xalqlarımızın dostluğu naminə qapını üzünüzə daha geniş aça bildiyimiz üçün çox məmnunuq. Yüz ildən artıq tarixi kökləri olan və bu gün yeni əlaqə formaları, yeni təşəbbüslər sayəsində daha da möhkəmlənən bu dostluğu mən olduqca yüksək qiymətləndirirəm.

Hörmətli cənab Prezident!

Sizin bu səfəriniz tarixi səfərdir. Azərbaycanın dövlət başçısının Litvaya bu ilk rəsmi səfəri dinamik surətdə inkişaf

edən yaxın tərəfdaşlıq əlaqələrimizin genişlənməsinə, şübhəsiz ki, yeni təkan verəcəkdir.

Keçən il Azərbaycana rəsmi səfərimi və bu ilin iyun ayında GUAM ölkələrinin Bakıda keçirilmiş zirvə görüşündə iştirakımı böyük məmnuniyyətlə xatırlayıram. Əldə etdiyiniz iqtisadi uğurlar, xalqınızın zəhmətkeşliyi, ölkənizin mədəniyyəti və təbiətinin gözəlliyi məni məftun etdi.

Mən füsunkar ölkənizə valeh olmuş ilk litvalı deyiləm. Litva ədəbiyyatının klassiki və Bakı Universitetinin müəllimi Vintsas Kreve-Mitskyaviçyus təxminən 100 il bundan əvvəl yazdığı «Azəristan ölkəsi» adlı əsərində ölkənizin gözəlliyini tərənnüm etmiş, litvalıları xalqınızın mədəniyyəti, mifologiyası və əfsanələri ilə tanış etmişdir. Vintsas Kreve-Mitskyaviçyus bu gözəl əsəri yazan dövrdə bir çox litvalılar müstəqil Azərbaycan Cümhuriyyətinin quruculuq işlərində və ölkənizin ictimai-siyasi həyatında yaxından iştirak edirdilər. XX əsrdə baş verən tarixi itkilərin Litva və Azərbaycanda da ötüb keçməsinə baxmayaraq, bu çətinliklər bizim azadlıq eşqimizi söndürə bilmədi. İstiqlal eşqi həmin keşməkeşli əsrin sonunda xalqlarımızı dirçəlişə gətirib çatdırdı və müstəqillik uğrunda mübarizə şəklində üzə çıxdı. Bu mübarizədə Azərbaycan xalqının və Litva Azərbaycanlıları Cəmiyyətinin bizə verdiyi dəstəyi heç vaxt unutmarıq.

Ölkələrimiz arasındakı münasibətlərin son illərdə intibah dövrünü yaşadığını və xalqlarımız arasında getdikcə daha yaxın əlaqələrin yaranmasını görəndə, bir-birimizi daha yaxşı tanıyıb, daha da yaxın olmaq səylərimizi müşahidə etdikdə ürəkdən sevinirəm. Sevindirici haldır ki, son bir il ərzində dörd mədəniyyət layihəsini həyata keçirməyə nail olmuşuq. Keçən ilin payızında Azərbaycanda Litva rəssamlarının sərgisi təşkil edilmişdi. Bu ilin baharında isə Litva tamaşaçıları Azərbaycan kino ustalarının yaradıcılığı ilə tanış olmaq imkanı əldə edə biliblər. Litva şifahi xalq ədəbiyyatının ən qədim və ən gözəl nümunələrindən biri olan «Su ilanları kraliçası Eqle» nağılı və yazıçı Vintsas Kreve-

Mitskyaviçyusun Şərq mövzusunda yaratdığı gözəl əsərlərin bir qismi ən yaxın vaxtda Azərbaycan dilində çap ediləcəkdir. Xalqlarımız arasındakı qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi üçün Litvadakı Azərbaycan diasporu çox səylər göstərir, fəal mədəni və akademik fəaliyyəti bu işi daha da şövqləndirir. Sizin ölkənizin qədim tarixi və milli-mənəvi sərvətləri ilə litvalıları bu cür tanış etmək cəhdləri, eyni zamanda, bizim ölkəmizin də mədəniyyətini mənəvi cəhətdən zənginləşdirir.

Hörmətli cənab Prezident!

2007-ci il əlaqələrimizin intensivliyi və yeni imkanların yaradılması baxımından xalqlarımızın əməkdaşlığı tarixində müstəsna yer tutur. Belə ki, biz Bakıda səfirliyimizi açdıq. Bir həftə bundan əvvəl isə mən Sizin səfirinizin etimadnaməsini qəbul etdim. Yüksək səviyyədə qarşılıqlı rəsmi səfərlərimiz oldu. Odur ki, bu il əlaqələrimizdə sürətli irəliləyiş ilidir. Bizim vəzifəmiz isə bu sürəti qoruyub saxlamaqdır. Çalışmalıyıq ki, bu cür fəal siyasi əlaqələr nəticəsində yaranmış imkanlar genişlənsin, ölkələrimiz və xalqlarımız arasında konkret iqtisadi və mədəni əməkdaşlıq layihələri ilə zənginləşsin.

Baltik və Qafqaz regionlarını, ölkələrimizin əhalisini bir-biri ilə yalnız sıx nəqliyyat və energetika şəbəkələri ilə birləşdirdikdən sonra biz tarixin müəyyən etdiyi vəzifəni yerinə yetirmiş olarıq. Krakovda başladığımız və gələn ay Vilnüsdə davam etdirəcəyimiz regional energetika dialoqu ölkələrimizin təhlükəsizliyini möhkəmləndirir və ticarət əlaqələrimizi inamla aparmaq üçün əlverişli şərait yaradır. Litva ilə Azərbaycan arasındakı yaxın tərəfdaşlıq münasibətləri Avropanı Asiya ilə birləşdirən yolları bərpa etmək üçün nadir bir imkan açır. Mən bunu deyəndə, ilk növbədə, İpək Yolunun bərpasını və onun Litvadan keçib Baltik dənizinə çıxan hissəsini nəzərdə tuturam. «Kəhrəba qolu» adlanan bu qol Klaypeda limanını Qara dəniz ilə birləşdirən «Vikinq» dəmir yolunun timsalında artıq fəaliyyət göstərir.

Sizin nümayəndə heyətinizin tərkibində iş adamlarından ibarət böyük bir dəstəni görmək mənim üçün xoşdur. İnanıram ki, bu səfəriniz ticarət əlaqələrimizə və qarşılıqlı investisiya qoymaq işinə təkan verəcəkdir. Eləcə də, inanıram ki, bizim əlaqələrin gələcəyi ticarət sahəsində istifadə edilməmiş imkanlarımızda əks olunubdur. Litva özünün tarixi əlaqələri və gözəl siyasi münasibətləri sayəsində ölkənizin iş adamları üçün yarım milyard istehlakçısı olan Avropa İttifaqı bazarına çıxışı təmin edə bilər.

Hörmətli cənab Prezident!

Ölkələrimizin tərəfdaşlıq əlaqələri təkcə bir-birinə uyğun gələn maraqlara yox, həm də gələcəyimizin oxşarlığına əsaslanır. Azərbaycanın Avropa İttifaqı ilə daha yaxın əlaqələr qurmaq istədiyi bir dövrdə Litva Azərbaycanın Brüsseldə sadiq dostu olaraq qalır. Biz gələcəkdə də Avropadakı tərəfdaşlarımızı Azərbaycan ilə ən yaxın əlaqələr saxlamaq üçün həvəsləndirəcəyik. Axı Avropa Azərbaycana nə qədər yaxın olarsa, qapısını bir o qədər sizin ölkənizin üzünə açar və bunun sayəsində hamımız daha təhlükəsiz və daha firavan olarıq.

Sizin bu səfəriniz zamanı Litva və Azərbaycan arasında mədəniyyət və turizm sahəsində əməkdaşlıq barədə imzalanmış sazişlər, şübhə etmirəm ki, xalqlarımızın daha da yaxınlaşmasına və daha dərin qarşılıqlı anlaşmaya xidmət edəcəkdir.

Hörmətli cənab Prezident!

Sizin bu səfəriniz xalqlarımızı əməkdaşlığın daha yeni formalarını axtarmağa sövq edir. Ümidvaram ki, bu səfəriniz əsnasında tələbə və gənclərin qarşılıqlı mübadiləsi barədə irəli sürülmüş ideya ən yaxın vaxtda öz həllini tapacaqdır.

Xanımlar və cənablar!

Badələrinizi prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın sağlığına, Azərbaycan xalqının firavanlığı naminə, xalqlarımızın azadlığı, dostluğu və tərəqqisi şərəfinə qaldırmağa dəvət edirəm!

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!
Hörmətli xanım Alma Adamkiene!
Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, məni ölkənizə rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edirik. Litva torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu, son bir il ərzində bizim dördüncü görüşümüzdür. Azərbaycana 2006-cı ildə rəsmi səfərinizdən sonra 2007-ci ildə Krakov enerji sammiti çərçivəsində və Bakıda GUAM ölkələri dövlət başçılarının sammiti zamanı görüşmüşük. İndi isə mənim Litva Respublikasına ilk rəsmi səfərimdir.

Litva və Azərbaycan xalqları arasındakı əlaqələr sabit və genişdir. Ötən əsrin əvvəllərində Bakıda yaşayan litvalılar Azərbaycanın ictimai həyatında fəal rol oynamışlar. Litva ədəbiyyatının klassiki, Azərbaycanda dərc olunmuş əsərlərin müəllifi Vintsas Kreve-Mitskyaviçyus o dövrdə Bakı Universitetinin professoru olmuş, Azərbaycan Xalq Cümhuriyyətinin quruculuğu işlərində fəal çalışmış və Litvanın Azərbaycandakı ilk konsulu olmuşdur. Həmin dövrdə xalqlarımız arasında ədəbi-mədəni əlaqələr də genişlənmişdir. Azərbaycan xalqının məşhur qəhrəmanlıq dastanı «Kitabi-Dədə Qorqud», dahi Azərbaycan şairi Nizaminin və digər görkəmli simaların əsərləri Litva dilinə, görkəmli Litva ediblərinin əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir.

Sovet İttifaqının süqutu ərəfəsində milli azadlıq hərəkatının önündə getmiş Litva və Azərbaycan xalqlarının həmrəyliyi, Bakı və Vilnüs faciələri  xalqlarımızın azadlıq mübarizəsinin parlaq qəhrəmanlıq səhifələrindəndir.

Xalqlarımızın yenidən müstəqillik əldə etməsi hər iki ölkə arasında tarixi əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksəltmiş, müntəzəm diplomatik əlaqələr yaradılmış, səfirliklər

təsis olunmuş, siyasi-iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığa dair müqavilə və sazişlər imzalanmışdır.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin səviyyəsi yüksəkdir. Ötən il Azərbaycana rəsmi səfəriniz, səfər zamanı apardığımız danışıqlar, imzalanmış sənədlər əlaqələrimizin inkişafı üçün perspektivlər açmışdır.

Ölkələrimiz beynəlxalq terrorizmin, nüvə silahlarının yayılması və digər müasir təhdid və təhlükələrə qarşı mübarizə sahəsində uğurlu əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlar, o cümlədən Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» proqramı və NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı» çərçivəsində sıx əlaqələrimiz məmnunluq doğurur. GUAM-ın Bakı sammitində digər həmkarlarınızla birgə iştirakınız bu təşkilata beynəlxalq dəstəyin təzahürüdür. Bu, Baltik dənizi, Qara dəniz və Xəzər dənizi regionu ölkələrinin Avropaya inteqrasiyasına, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə tərəfdaşlıqda mühüm rol oynayacaq və daha geniş məkanda əməkdaşlığımız üçün yeni üfüqlər açacaqdır. Biz Litvanın Avropa İttifaqının enerji siyasətinə həsr olunmuş sammitinə ev sahibliyi etmək niyyətini alqışlayırıq. Əminəm ki, sammitdə Krakovda aparılan səmərəli danışıqların davam etdirilməsi və qarşılıqlı surətdə faydalı əməkdaşlığın yeni yollarının müəyyənləşdirilməsi prosesinə öz töhfəsini verəcəkdir.

Mən Azərbaycanın, eləcə də regionun ən aktual problemlərindən biri olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun şəkildə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli məsələsində Litvanın və cənab Prezident, şəxsən Sizin ədalətli və əsaslandırılmış mövqeyinizi yüksək qiymətləndirirəm.

Cənab Prezident!

İcazə verin, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə bir daha öz minnətdarlığımı bildirim və bu badəni Sizin sağlığınıza, xanımınız Alma Adamkienenin sağlığına, Litva xalqının xoşbəxtliyi və rifahı şərəfinə qaldırım.

* * *

*Sentyabrın 13-də axşam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Vilnüs şəhərinə gəzintiyə çıxmışlar. Ali qonağa və xanımına Litva paytaxtının tarixi yerləri barədə ətraflı məlumat verildi.*

## Klaypeda Dövlət Dəniz Limanı ilə tanışlıq

*Litvada rəsmi səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 14-də Palanqa şəhərinə gəlmişdir.*

*Azərbaycan dövlətinin başçısını hava limanında şəhərin meri Alvidas Kristukas qarşıladı.*

*Sonra avtomaşın korteji Klaypedaya yola düşdü. Azərbaycan prezidenti İlham Əliyevi Klaypedada şəhərin meri Rimantas Tataskyaviçus, Dövlət Dəniz Limanı Administrasiyasının və Dəniz Limanları Assosiasiyasının rəhbərləri səmimiyyətlə qarşıladılar. Azərbaycan prezidenti Klaypeda Dövlət Dəniz Limanının fəaliyyəti ilə tanış oldu. Limanın inzibati binasında görüş zamanı dövlətimizin başçısına Baltik dənizinin bu donmayan limanı barədə məlumat verildi. Bildirildi ki, Litvanın mühüm nəqliyyat mərkəzi olan bu limanda Şərqdən Qərbə və daha sonra Cənub-Şərqi Asiyaya və Amerika qitəsinə gedən mühüm dəniz yolları və dəmir yol xətləri qovuşur.*

*Klaypeda limanı çoxfunksiyalı limandır. Burada gəmi təmiri və gəmiqayırma şirkəti, karqobiznes sahəsində servis xidməti fəaliyyət göstərir. Limandakı 19 iri kranın köməyi ilə hər il təqribən 30 milyon ton yük emal edilir.*

*Prezident İlham Əliyev və Azərbaycanın nümayəndə heyətinin üzvləri limanın ərazisini gəzdilər, «Klaypedos nafta» şirkətinin neft terminalında oldular.*

*Dövlətimizin başçısı limanın Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ VALDAS ADAMKUSUN AZƏRBAYCANIN DÖVLƏT BAŞÇISININ LİTVAYA RƏSMİ SƏFƏRİNİN YEKUNLARINA DAİR MƏTBUAT ÜÇÜN BƏYANATLARI

*14 sentyabr 2007-ci il*

*Sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Klaypeda Dövlət Dəniz Limanı ilə tanış olduqdan sonra Palanqaya qayıtmışdır.*

*«Palanqa» hotelində Litva Respublikasının Prezidenti Valdas Adamkusun və xanımı Alma Adamkienenin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə lanç verildi.*

*Palanqa şəhərində prezidentlər İlham Əliyev və Valdas Adamkus Azərbaycanın dövlət başçısının Litvaya rəsmi səfərinin yekunlarına dair mətbuat üçün bəyanatlarla çıxış etdilər.*

### Litva Respublikasının Prezidenti Valdas Adamkusun bəyanatı

Cənab Prezident!

Çox qısaca onu demək istəyirəm ki, burada bizimlə görüşdüyünüzə görə Sizə olduqca minnətdarıq. Zənnimcə, biz nəinki bəzi beynəlxalq siyasi məsələləri, eləcə də – ən vacibi isə – iqtisadi münasibətləri şəxsən nəzərdən keçirmək imkanını əldə etdik. Ölkənizdə gözəl iqtisadi inkişaf gedir. Hesab edirəm ki, əldə etdiyiniz nailiyyətlər bu sahədə işlərin davam etdirilməsində bizim üçün nümunədir.

Mən eyni zamanda, bildirmək istəyirəm ki, bizim klassik yazarımız, cəmiyyətinizin görkəmli üzvü olmuş Vintsas Kreve-Mitskyaviçyusun anadan olmasının 125-ci ildönümü mü-

nasibətilə Bakı şəhərində xatirə lövhəsinin açılmasına verdiyiniz razılığa görə Sizə olduqca minnətdaram. Bu bizim nəinki siyasi və beynəlxalq sahələrdə əlaqələrimizi, həm də xalqlarımız arasında mədəni sahədə münasibətlərimizi möhkəmləndirəcəkdir.

Mən qısa, lakin gələcək əməkdaşlığımız üçün çox geniş perspektivlər açan səfərinizə görə Sizə bir daha öz təşəkkürümü bildirirəm.

Sağ olun.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyevin bəyanatı**

Çox sağ olun, cənab Prezident!

Gözəl ölkənizə səfərim zamanı mənə və nümayəndə heyətimizə göstərilmiş qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Biz ikitərəfli münasibətlərə aid bir çox məsələləri əhatə etdik, siyasi, iqtisadi və mədəni sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığımızın gələcək perspektivlərini təfərrüatı ilə müzakirə etdik. Bu gün mən Klaypeda limanına səfər etmək və ölkənin malik olduğu böyük infrastruktur avadanlığını görmək imkanına malik oldum. Bu, yükdaşımaları sahəsində yeni perspektivlər açır. Bütün bu sahələrdə biz uğurla əməkdaşlıq edə və ölkələrimizin qarşılıqlı fayda götürməsinə töhfə verə bilərik.

Siyasi münasibətlərimiz çox yüksək səviyyədədir. Buna çox səbəblər var, o cümlədən rəsmi səfərlərin mübadiləsi. Əminəm ki, mənim Litvaya səfərimdən sonra rəsmilərimiz, nazirlərimiz və parlament üzvlərimiz daha çox səfərlər edəcəklər. Biz mədəniyyət işçilərindən ibarət nümayəndə heyətlərinin mübadiləsi barədə razılığa gəldik. Bütün bunlar bizim əməkdaşlığı daha da zənginləşdirəcək.

Əlbəttə ki, xalqlarımız mövcud olan qarşılıqlı irsimizi qorumalıdır. Bugünkü razılaşmaya uyğun olaraq, Litvanın

tanınmış dövlət xadimi Kreve-Mitskyaviçyusun anadan olmasının 125-ci ildönümü münasibətilə Bakı şəhərində vaxtilə onun yaşadığı binaya xatirə lövhəsi vurulacaqdır. Bu, ölkələrimiz arasında səmimiliyə və tarixi münasibətlərimizə dəlalət edən işarədir. Bu gün iki müstəqil ölkə – Litva və Azərbaycan uğurla inkişaf edir. Son illər ərzində əldə etdiyiniz iqtisadi göstəricilərə və səfər etdiyim Vilnüs, Klaypeda, Palanqa kimi şəhərlərə nəzər salsaq kifayətdir. Əminəm ki, ölkənin digər yerləri də həmin üç şəhər kimi gözəldir. Biz burada olduqca yüksək inkişafı, mədəniyyəti gördük. Burada əsl Avropanı hiss etdik. Biz çox şadıq ki, ölkəniz öz köklərinə, Avropa ailəsinə qayıdır. Siz Avroatlantik strukturlarına tam inteqrasiya olmusunuz və Azərbaycan kimi ölkələrin atdığı addımları dəstəkləyirsiniz. Biz Avropa İttifaqı və NATO ilə həyata keçirdiyimiz proqramlara verdiyiniz dəstəyi çox yüksək qiymətləndiririk. Bu bizim ölkə üçün və Xəzər dənizi – Qara dəniz – Baltik dənizi regionunda ümumi əməkdaşlıq üçün çox dəyərli və vacibdir. Bu əməkdaşlıq artıq görünür. Hesab edirəm ki, ikitərəfli münasibətlərimiz həmin geniş beynəlxalq tərəfdaşlığa ciddi şəkildə töhfə verir.

Əfsuslar olsun ki, biz artıq yola düşməliyik. Lakin bildiyiniz kimi, biz bir aydan sonra yenidən ölkənizə qayıdacağıq və Vilnüs enerji sammitində iştirak edəcəyik. Bu çox vacib beynəlxalq tədbir olacaqdır. Gələcəkdə bizim burada və Bakıda çox təmaslarımız olacaq və tərəfdaşlığımız uğurla davam etdiriləcəkdir.

Səmimiliyinizə, qonaqpərvərliyinizə görə bir daha minnətdaram və mən Sizə və bütün Litva xalqına uğurlar və tərəqqi arzulayıram.

## Səfər başa çatdı

*Sentyabrın 14-də prezident İlham Əliyevin Litvaya rəsmi səfəri başa çatdı.*

*Palanqa şəhərinin hava limanında Azərbaycan dövlətinin başçısını Litvanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün axşam Bakıya qayıtdı.*

*Dövlətimizin başçısını Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «BİLİK GÜNÜ» MÜNASİBƏTİ İLƏ BAKININ BUZOVNA, ŞÜVƏLAN, BİNƏ QƏSƏBƏLƏRİNDƏ VƏ YASAMAL RAYONUNDA BİR NEÇƏ MƏKTƏBDƏ OLMUŞDUR

*15 sentyabr 2007-ci il*

### Albalılıq yaşayış sahəsində tikilmiş 322 nömrəli orta məktəbin açılış mərasimində nitq*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də «Bilik günü» münasibətilə Bakının Əzizbəyov rayonunun Buzovna, Şüvəlan, Binə qəsəbələrində və Yasamal rayonunda bir neçə orta məktəbdə olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Buzovna qəsəbəsinin Albalılıq yaşayış sahəsində inşa olunmuş 322 nömrəli orta məktəbin təntənəli açılış mərasimində iştirak etmək üçün buraya gəldi. Qəsəbə sakinləri, təhsil işçiləri, şagirdlər, valideynlər prezidenti və xanımı Mehriban Əliyevanı gül-çiçəklə, böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev müasir standartlara uyğun, təxminən doqquz aya tikilmiş məktəbin rəmzi açılışını bildirən lenti kəsdi, ümumi sahəsi 25 min kvadratmetr olan bu təhsil ocağının ayrı-ayrı sinif, kompyuter otaqlarına, idman zalına və yeməkxanasına baxdı. 64 sinif otağından ibarət 1296 şagird yerlik məktəbdə 70-dək müəllim çalışır və burada hər cür şərait yaradılmışdır. Heydər Əliyev Fondu məktəbin iki*

---

* Mərasimdə məktəbin direktoru Mürvət Mirzəyev və valideyn Təranə Rəhimova çıxış etdilər.

*informatika otağına 16 ədəd müasir tipli kompyuter hədiyyə etmiş və bunlar internet şəbəkəsinə qoşulmuşdur. Məktəbin qazanxanası, su anbarları, nasos və transformator stansiyaları da vardır.*

*Təməli 2006-cı ilin dekabrında qoyulmuş məktəb Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə, Bakı şəhəri qəsəbələrinin 2006–2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramı çərçivəsində inşa edilmişdir. 24 min sakini olan Buzovna qəsəbəsinin bu yaşayış sahəsində fəaliyyət göstərən 1176 yerlik məktəbdə 3 min şagirdin təhsil alması böyük çətinlik yaradırdı. Ona görə də yeni məktəbin tikilməsi barədə Mehriban xanıma müraciət olunmuşdu.*

*Sonra təhsil ocağının açılışı və yeni dərs ilinin başlanması münasibətilə mərasim keçirildi.*

**İlham Əliyev:** Əziz uşaqlar!

Əziz müəllimlər!

Əziz dostlar!

Mən sizin hamınızı yeni dərs ilinin başlanması və «Bilik günü» münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

Keçən ilin sonunda, yeni il ərəfəsində biz burada birlikdə bu yeni, gözəl məktəbin təməl daşını qoyduq və indi onun açılışına toplaşmışıq. Bu çox sevindirici bir haldır, çox gözəl, əlamətdar bir gündür. Bu onu göstərir ki, bizim qəbul etdiyimiz bütün proqramlar, hər bir qərar qısa müddət ərzində və yüksək keyfiyyətlə həyatda öz əksini tapır. Hələ 7-8 ay bundan əvvəl burada bu gözəl məktəb yox idi. Amma indi bu reallıqdır. Uşaqlar bu gözəl şəraitdə oxuyacaqlar, müəllimlər bu gözəl şəraitdə işləyəcəklər. Azərbaycanda həm təhsilin səviyyəsi artacaq, həm bizim qəsəbələrimiz, kəndlərimiz abadlaşacaq, həm də bütün sahələrdə səviyyə daha da yüksələcəkdir.

Azərbaycanda təhsil sahəsinə çox böyük diqqət, qayğı göstərilir. Çünki bu, ölkəmizin, millətimizin gələcəyi məsələsidir. Məhz buna görə təhsil sahəsinə ayrılan xərclər ildən-ilə artır. Müqayisə üçün deyə bilərəm ki, son 3-4 il ərzində təhsilə ayrılan büdcə xərcləri 3,3 dəfə artmışdır və indi, 2007-ci ildə bu məbləğ təxminən 900 milyon manat təşkil edir. Bu çox böyük rəqəmdir, çox böyük vəsaitdir. Bu vəsaitlə yeni məktəblər tikilir, müəllimlərin maaşları qaldırılır. Deyə bilərəm ki, son 4 il ərzində Azərbaycanda 1200 məktəbin tikintisi tarixi nailiyyətdir.

Azərbaycanda bütövlükdə 4500 məktəb var və bunların böyük bir hissəsi, əfsuslar olsun ki, uzun illər təmirsiz qalmışdır. Baxmayaraq ki, 1200 məktəb tikilib, yenə də təxminən 700 məktəbin tikintisinə böyük ehtiyac var. 1000-dən çox məktəbdə təmir işləri aparılmalıdır. Biz bütün bu işləri görəcəyik. Necə ki, son illər ərzində gördük. Təkcə bu il Azərbaycanda 200 yeni məktəb və əlavə korpus istifadəyə verilibdir, 50-dən çox məktəb təmir olunubdur. Bu, deməyə əsas verir ki, növbəti illərdə də məktəb tikintisi sürətlə gedəcək, Azərbaycanda yararsız vəziyyətdə olan bir dənə də məktəb qalmayacaqdır. Bütün məktəblər müasir, gözəl, təmiz, bütün lazımi avadanlıqla təchiz olunmuş vəziyyətə gətiriləcəkdir. Beləliklə, biz məktəb infrastrukturunun yaranmasını təmin edəcəyik. Yeni tikilən bütün məktəblərdə istilik sistemi quraşdırılır. Əvvəllər tikilən məktəblərdə də istilik sistemi quraşdırılır ki, qışda uşaqlar üşüməsinlər və oxumaq üçün hər cür şərait olsun.

Oxumaq hamıya lazımdır. Azərbaycanda təhsilin səviyyəsi artır və biz buna çox sevinirik. Biz istəyirik ki, gənc nəsil bilikli, savadlı olsun, eyni zamanda, vətənpərvərlik ruhunda tərbiyə alsın. Gələcəkdə həm özlərini təmin etsinlər, cəmiyyətdə özlərinin yerini tutsunlar, eyni zamanda, ölkəmizin ümumi inkişafına öz töhfələrini versinlər. Çünki ölkənin inkişafı təkcə iqtisadi amillərlə ölçülmür, iqtisadi amillər də

öz növbəsində insanların cəmiyyətə verdiyi töhfədən asılıdır. Bizim çox gözəl imkanlarımız var, iqtisadi potensialımız ildən-ilə artır. Dünyada elə bir ikinci ölkə yoxdur ki, üç il ardıcıllıqla iqtisadi artımın belə yüksək sürəti müşahidə olunsun. Bu, əlbəttə, bizə yeni imkanlar yaradır, büdcəmiz artır. Bu məktəblərin böyük əksəriyyəti dövlət xətti ilə tikilibdir.

Ancaq onu da qeyd eləmək istəyirəm ki, Azərbaycanda bu təşəbbüsü ilk olaraq Heydər Əliyev Fondu irəli sürmüşdür və fondun təşəbbüsü ilə «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi uğurla icra olunur. Fondun xətti ilə 200-ə qədər yeni məktəb tikilibdir. Yəni bu, ümumi işimizdir, deyə bilərəm ki, ümumxalq işidir. Çünki hər bir ölkənin iqtisadi-siyasi potensialının möhkəmlənməsində təhsil birinci rol oynayır.

Azərbaycanda indi çox gözəl perspektivlər var. Biz gərək hazırlıqlı kadrlar yetişdirək, uşaqlar gənc yaşlarından bütün müasir texnologiyalara bələd olmalıdır. Bu məqsədlə bütün məktəblərdə kompyuterlər quraşdırılır. Kompyuter müasir dünyada əvəzolunmaz bir vasitədir. Hər bir uşaq, hər bir gənc bunu bilməlidir, xarici dilləri bilməlidir. Dünyada baş verən bütün hadisələri, bütün yenilikləri bilməlidir ki, həyatda öz yerini tutsun. Azərbaycanda bütövlükdə bu sahədə bu vaxta qədər görülən işlər qənaətbəxşdir. Növbəti illər üçün yeni proqramlar hazırlanır. 2008–2013-cü illərdə bütün sadaladığım məsələlər – həm məktəblərin tikintisi, təmiri, müasir avadanlıqla təchiz olunması və həm də təhsilin keyfiyyətinin yüksəldilməsi tam şəkildə öz həllini tapmalıdır. Hesab edirəm ki, Azərbaycan bu sahədə postsovet məkanında ön sıralardadır. Bizim bütün başqa istiqamətlərdə olduğu kimi, təhsil sahəsində də böyük uğurlarımız var və bunları daha da möhkəmləndirməliyik.

Burada qeyd olundu ki, təhsilin təşkil olunmasında da islahatlar aparılır. Bildiyiniz kimi, artıq biz dərs ilini sentyabrın 15-dən başlayırıq. Bu da bizim təşəbbüsümüz idi.

Çünki vaxtilə Sovet İttifaqında bütün bölgələrdə – cənub bölgələrində, şimal bölgələrində dərslər sentyabrın 1-dən başlayırdı. Ancaq bizim üçün dərsləri sentyabrın 15-dən başlamaq daha da məqsədəuyğundur. Çünki sentyabrın 15-nə qədər havalar, adətən, çox isti keçir və uşaqlar belə vaxtda məktəbə getməkdə, əlbəttə ki, əziyyət çəkirdilər. Ona görə biz hər bir məsələyə ayrıca yanaşmalıyıq. Eyni zamanda, məktəblərin beşgünlük dərs həftəsinə keçirilməsi məsələsi. Bu da bizim təşəbbüsümüzlə olmuşdur.

Mən fikirləşdim ki, necə ola bilər, böyüklər həftədə beş gün işləyir, iki gün istirahət edirlər, amma uşaqlar, inkişaf edən orqanizm altı gün dərs keçirlər. Bu ədalətsizlikdir. Biz istəyirik ki, uşaqlarımız sağlam böyüsünlər. Əlbəttə ki, bilik lazımdır, oxumaq lazımdır. Eyni zamanda, sağlamlığa da diqqət verilməlidir. Bununla bərabər, bizdə, Azərbaycanda uşaqların tərbiyə olunmasında ailənin çox böyük rolu var. Ailə Azərbaycan cəmiyyətinin özəyidir. Həftənin altıncı və bazar günləri – valideynlərin istirahət etdiyi günlərdə uşaqlar məktəbə gedir, ailədən ayrı olurdular. Ona görə biz qərar qəbul etdik ki, biz beşgünlük həftəyə keçək. Hesab edirəm ki, bu da çox düzgün addımdır və uşaqlar, valideynlər bunu alqışlayırlar.

Məktəb formasının tətbiq olunması da çox düzgün bir addımdır. Vaxtilə bu praktika olub, amma sonra nədənsə aradan götürülübdür. Biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq və hər bir insanın maddi rifahı onun özündən asılıdır. İndi bütün imkanlar var. Bazar iqtisadiyyatı, liberal iqtisadiyyat, iqtisadi artım, yəni işləmək üçün, pul qazanmaq üçün, yaxşı vəzifə tutmaq üçün bütün imkanlar var. Beləliklə, insanlar arasında müxtəlif həyat səviyyəsi mövcuddur. Amma məktəbdə hamı eyni olmalıdır. Kiminsə imkanı daha çoxdur, o öz uşağına daha da bahalı əşyalar alır. Ancaq kiminsə buna imkanı çatmır. Ona görə məktəbdə qeyri-bərabərlik meydana gəlir. Bu da düzgün hal deyildir. Çünki uşaqların hamısı valideynlərindən asılıdır. Nə vaxt ki, onlar

böyüyəcəklər, yaxşı oxuyacaqlar, yaxşı təhsil alacaqlar, yaxşı işlə təmin olunacaqlar, onda, əlbəttə, hərənin özünə görə imkanları da olacaqdır. O imkanlar istənilən formada özünü büruzə verə bilər. Amma məktəb illərində biz buna yol verə bilmərik. Ona görə bütün məktəblərdə məktəbli forması tətbiq olunmalıdır. Hər bir məktəb özü o formanın parametrlərini seçməlidir.

Beləliklə, biz bütün sahələrə, o cümlədən təhsil sahəsinə çox böyük diqqət göstərməklə burada da islahatların sürətlənməsini təmin edirik. Amma bütün bu islahatlar müsbət dəyişikliklərə gətirib çıxarmalıdır. Bu vaxta qədər görülən işlər bunu göstərir.

Qeyd etdiyim kimi, Azərbaycanda təhsil sahəsinə çox böyük vəsait ayrılır, büdcənin 14 faizi təhsil məsələlərinə sərf olunur. Amma buna baxmayaraq, bildiyiniz kimi, mənim tərəfimdən imzalanmış sərəncama əsasən, prezidentin ehtiyat fondundan 14 milyon manat ayrılmışdır. Bu vəsait də yalnız qəza vəziyyətində olan məktəblərin təmirinə yönəldiləcəkdir. Çünki qəza vəziyyətində kifayət qədər məktəb var. Biz onları təcili surətdə təmir etməliyik ki, uşaqlar çox rahat şəkildə oxuya bilsinlər və müəllimlər də gözəl şəraitdə işləyə bilsinlər.

Müəllimlərin sosial problemlərinin həlli də həmişə gündəlikdədir. Maaşlar mütəmadi qaydada artırılır. Növbəti ildə, 2008-ci ildə müəllimlərin əməkhaqlarının yenə qaldırılması nəzərdə tutulur. Artıq gələn ilin büdcəsi müzakirə olunmağa başlanacaq, onun ilkin variantı mənə təqdim edilibdir.

Mən xüsusi qeyd etmişəm ki, büdcə təşkilatlarında işləyənlərin, o cümlədən müəllimlərin əməkhaqları qaldırılsın. Müəllimlərin üzərinə çox böyük vəzifə düşür. Gələcək nəslin yetişdirilməsi, onların tərbiyə olunması, Azərbaycana bacarıqlı kadrların hazırlanması çox böyük vəzifədir və ölkəmizin inkişafı məhz bilik səviyyəsindən asılı olacaqdır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onların inkişafını təmin edən amillərdən bəlkə də birincisi bilik,

intellektual potensial olubdur, savad olubdur. Əlbəttə ki, təbii ehtiyatlarla zəngin olan ölkələr əlavə üstünlük əldə ediblər. Çünki təbii ehtiyatlar ölkənin iqtisadi gücünə çox böyük müsbət təsir göstərir. Amma bu, kifayət deyildir.

Ölkəni irəliyə aparan, inkişaf etdirən birinci növbədə, insanların intellektual potensialıdır. Bu da ki, Azərbaycanda var. Azərbaycan xalqı çox istedadlı xalqdır. Bizim xalqımızın nümayəndələri bütün sahələrdə çox böyük uğurlar əldə etmişlər. Mən çox istəyirəm ki, indiki səviyyədə, indiki şəraitdə, Azərbaycanın müstəqillik dövründə ölkəmiz daha da güclənsin, qüdrətlənsin, bölgədə və dünyada öz yerini möhkəmləndirsin. İndi bu proses gedir və sürətlə gedir. Həm iqtisadi artım, həm siyasi proseslərin müsbət məcrada inkişaf etməsi və həm də ilk növbədə, peşəkar kadrların hazırlanması. Bu proses orta məktəbdən başlayır, ondan sonra ali məktəblərdə davam etdirilir.

Bildiyiniz kimi, indi biz ən istedadlı, layiqli tələbələri dövlət xətti ilə xaricə, aparıcı ali məktəblərə oxumağa göndəririk ki, onlar dünyanın ən qabaqcıl təhsil səviyyəsinə çata bilsinlər. Bütün bunlara böyük vəsait lazımdır və bu vəsaiti biz təmin edirik. Çünki bilirik ki, bu, Azərbaycan xalqının gələcəyi, Azərbaycan dövlətinin möhkəmlənməsi məsələsidir. Biz bunu təmin etmək üçün əlimizdən gələni əsirgəmirik ki, doğma vətənimiz daha da güclənsin, daha da qüdrətlənsin və Azərbaycan öz milli maraqlarını tam şəkildə təmin edə bilsin. Bütün bu işlər məhz məktəbdən başlayır və məktəbə, təhsilə diqqət, müəllimə qayğı həmişə olmalıdır. Bütün dövlət orqanları bu tövsiyələri eşitməli və praktik həyatda bunu təmin etməlidir.

Mən bir daha demək istəyirəm ki, bu gün çox böyük sevinc hissi içindəyəm. Çünki cəmi bir neçə ay bundan əvvəl burada heç nə yox idi, boş yer idi. Biz gəldik, burada müəllimlərlə birlikdə olduq, təməl daşını qoyduq. O vaxt demişdim ki, məktəb tikilib istifadəyə veriləndə mən özüm onun açılışına gələcəyəm. Belə də oldu. Necə ki, bu vaxta

qədər olub, bundan sonra da bizim bütün vədlərimiz, sözlərimiz, atılan addımlarımız keyfiyyətlə, yüksək sürətlə həyatda öz əksini tapacaq və Azərbaycan inamla irəliyə gedəcəkdir.

Sağ olun!

* * *

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva müəllim və uşaqlarla xatirə şəkli çəkdirdilər.*

**Şüvəlan qəsəbəsindəki 156 nömrəli orta məktəbin əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş binası ilə tanışlıq**

*Azərbaycan prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva sentyabrın 15-də Şüvəlan qəsəbəsindəki 156 nömrəli orta məktəbin əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş binasının açılış mərasimində iştirak etmişlər.*

*Məktəblilər, müəllimlər və valideynlər prezidenti və xanımını böyük sevinclə, gül dəstələri ilə qarşıladılar.*

*1935-ci ildə tikilmiş orta məktəb son vaxtlar lazımi standartlara cavab vermirdi. Ona görə də Heydər Əliyev Fondunun təşəbbüsü ilə «Yeniləşən Azərbaycana yeni məktəb» proqramının ikinci mərhələsi çərçivəsində fondun vəsaiti hesabına tamamilə yenidən qurulmuşdur. Fondun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva ötən ilin sentyabrında burada yenidənqurma işlərinin başlanması mərasimində iştirak etmiş, bu ilin iyununda isə məktəbə gələrək, işlərin gedişi ilə maraqlanmışdır.*

*1140 şagird üçün nəzərdə tutulmuş, 50 sinif otağı olan üçmərtəbəli bina indi müasir standartlara tam cavab verir. Məktəbin həyətində gözəl bağ salınmışdır, futbol, basketbol meydançaları var. Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi. Foyedə ulu öndər Heydər Əliyevin büstü qoyulmuş, stendlərdə isə ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun*

*prezidenti Mehriban xanım Əliyevanın təhsilə və uşaqlara göstərdiyi qayğını əks etdirən fotoşəkillər nümayiş etdirilir.*

*Prezident İlham Əliyev və Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən birinci sinif şagirdlərinin hər birinə hədiyyə edilən, lazımi məktəb ləvazimatları ilə dolu məktəbli çantalarına baxdılar.*

*İbtidai sinif müəllimәsi Sevil Haşımova dedi ki, çantalarda birinci sinif şagirdinə lazım olan hər bir ləvazimat, habelə Azərbaycan, eləcə də dünya xalqlarının nağıllarından ibarət kitabçalar, disklər var. Mehriban xanım, Sizə təşəkkür edirəm, Fondun hədiyyələri uşaqlara çox böyük sevinc bəxş etmişdir. İndi biz müəllimlərin üzərinə daha böyük məsuliyyət düşür. Biz də əlimizdən gələni əsirgəməyəcəyik.*

*Uşaqlar da hədiyyələrə görə təşəkkür etdilər, əla oxuyacaqlarına söz verdilər. Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkür edərək, məktəbin Heydər Əliyev Fondunun xətti ilə faktiki olaraq yenidən tikildiyini və burada gözəl müasir şərait yaradıldığını vurğuladı və uşaqlara yaxşı oxumalarını tövsiyə etdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu ildən məktəbə 5 yaşından olan uşaqlar da qəbul edilərək, hazırlıq keçəcəklər. Onlar üçün xüsusi istirahət otağı tikilmişdir. Balacalar özlərinin dünyagörüşünə uyğun oyunlar vasitəsilə təhsil alacaqlar. Uşaqlar burada qala da bilərlər. Bu sistem hələlik digər məktəblərdə yoxdur.*

*Prezident İlham Əliyev məktəbin kitabxanası, müasir standartlara cavab verən 100 nəfərlik yeməkxanası, kompyuter otaqları, kimya və fizika kabinetləri, idman zalı ilə tanış oldu.*

*Dövlətimizin başçısı dərs ilinin başlanması, «Bilik günü» və yeni binanın açılışı münasibətilə müəllim və şagirdləri təbrik etdi. Prezidentə məktəbin əvvəlki vaxtlarını əks etdirən fotoalbom təqdim olundu.*

*Müəllimlər minnətdarlıq edərək dedilər ki, cənab Prezident, bizim üçün yaratdığınız bu gözəl şəraitə, gözəl Azərbaycanımıza görə, ümummilli liderimiz Heydər Əliyevin azərbaycançılıq ideyasının davamçısı olduğunuza görə Sizə çox*

*sağ olun deyirik. Bütün bunlar bizim də məsuliyyətimizi artırıbdır. Söz veririk ki, bu məktəbdə Azərbaycanımıza layiq gənclər yetişdirəcəyik. Çünki onlar sabahkı Azərbaycanımızın layiqli vətəndaşları olmalıdırlar. Biz bunu dərk edirik və əlimizdən gələni əsirgəməyəcəyik. Heydər Əliyev Fondunun əməkdaşları bizimlə daim əlaqə saxlayıblar, bütün problemlərimizlə maraqlanıblar. Mehriban xanım, buna görə Sizə dərin təşəkkür edirik.*

*Prezident İlham Əliyev dedi ki, bu, son illər ərzində Azərbaycanda ən gözəl məktəblərdən biridir. Mənə məktəbin əvvəlki şəkillərini göstərdilər. O tamamilə yararsız vəziyyətdə idi, uşaqlar, müəllimlər üçün çətin idi. İndi gözəl şərait var, dünya səviyyəli bir məktəbdir. Ona görə gərək uşaqları yaxşı oxudasınız.*

*Sonra dövlətimizin başçısı və xanımı müəllimlər və uşaqlarla xatirə şəkli çəkdirdilər.*

## Binə qəsəbəsindəki 218 nömrəli məktəbin yeni binasının açılış mərasimində

*Əzizbəyov rayonunun Binə qəsəbəsindəki Rəşid Baxışov adına 218 nömrəli orta məktəbin yeni binası sentyabrın 15-də, «Bilik günü»ndə öz qapılarını şagirdlərin üzünə açmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva bu münasibətlə keçirilən mərasimdə iştirak etmişlər. Bu təhsil ocağının kollektivi ali qonaqlarını böyük səmimiyyətlə qarşıladı.*

*1978-ci ildən fəaliyyət göstərən məktəbdə oxuyan şagirdlər indiyə qədər natamam orta təhsil alırdılar. Bu ildən isə məktəb tam orta təhsil verəcəkdir. Bakı şəhəri qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramına uyğun olaraq, Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində tikilən məktəbin təməli 2006-cı il iyunun 15-də prezident İlham Əliyev və*

*fondun prezidenti Mehriban xanım Əliyeva tərəfindən qoyulmuşdur.*

*Prezident İlham Əliyev məktəbin rəmzi açılışını bildirən qırmızı lenti kəsdi. Bu təhsil ocağı ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, müasir standartlara tam cavab verən, yaraşıqlı üçmərtəbəli bina 1176 şagird üçün nəzərdə tutulmuşdur. 51 sinif otağı, 8 laboratoriyası var, həyətdə mini futbol meydançası inşa olunmuşdur.*

*Məktəbin foyesindəki «Təhsil millətin gələcəyidir», «Heydər Əliyev Fondu» stendlərində ulu öndərin, dövlətimizin başçısının təhsilə və gənc nəslə diqqət və qayğısını əks etdirən fotoşəkillər diqqəti cəlb edir.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva ibtidai sinif otaqları, idman zalı və kitabxana, akt zalı ilə tanış oldular. Kitabxanada 3 mindən çox bədii ədəbiyyat və 5 minə yaxın dərslik vardır. Kompyuter otağındakı 20 kompyuterin hər biri internetə qoşulmuşdur. Ən müasir standartlara uyğun 80 nəfərlik yeməkxana da şagirdlərin ixtiyarına verilmişdir.*

*Prezident İlham Əliyev yaradılmış şəraitdən razılığını bildirərək, bunu xalqımızın gələcəyi olan uşaqlara göstərilən qayğının konkret təzahürü kimi qiymətləndirdi.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva pedaqoji kollektivin üzvləri, şagirdlər və valideynlərlə xatirə şəkli çəkdirdilər.*

## 20 nömrəli məktəb-liseydə aparılmış yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 15-də daha bir təhsil ocağında, Bakının Yasamal rayonundakı 20 nömrəli məktəb-liseydə olmuşdur.*

*Burada ehtiramla qarşılanan prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məktəb-liseydə aparılmış yenidənqurma işləri ilə tanış oldular.*

*Son vaxtlar məktəbin əsaslı təmirinə böyük ehtiyac vardı. Bunu nəzərə alaraq, prezident İlham Əliyev müvafiq göstəriş vermiş və bu ilin iyunundan məktəbdə əsaslı təmir işlərinə başlanmışdı. Hər biri dördmərtəbəli olan dörd korpusun hamısında təmir işləri görülmüş, bina yeni görkəm almışdır. 2900 şagird yerlik bu məktəbdə 106 sinif var. Burada iki növbədə 341 müəllim işləyir. Əsas korpusun girişində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən guşə yaradılmışdır. Burada prezident İlham Əliyevin fəaliyyətindən, onun təhsilə göstərdiyi diqqət və qayğıdan, təhsildən, şagirdlərin hüquq və vəzifələrinə aid müxtəlif maarifləndirici materiallardan bəhs edən fotoguşə də vardır.*

*Prezident İlham Əliyev əsas korpusda yerləşən 8-ci və 11-ci siniflərdə dərslərin gedişi ilə maraqlandı. Respublikanın digər məktəblərində olduğu kimi, burada da hərbi hazırlıq fənni tədris edilir və bunun üçün lazımi dərs və tədris ləvazimatları var. Dövlətimizin başçısı uşaqların məktəb yaşlarından hərbi vətənpərvərlik ruhunda böyüməsinin vacibliyini söylədi.*

*Azərbaycan prezidentinin respublikada orta məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi və kompyuter texnologiyaları ilə təchiz olunmasına dair sərəncam və tapşırıqlarına uyğun olaraq, bu məktəbdə də kompyuter sinfi yaradılmış, internetə qoşulmuşdur.*

*Kompyuter otağına baş çəkən prezident İlham Əliyev müəllimlərlə görüşüb onlarla söhbəi etdi.*

**İlham Əliyev:** Bu, Azərbaycanın ən gözəl məktəbidir. Həm ən böyük məktəb olub, həm də indi ən gözəl məktəbdir. Xarici və daxili görünüşünə görə fərqlənir. Mən həmişə deyirəm ki, uşaqlar yaxşı məktəbdə oxumalıdırlar və müəllimlər də yaxşı şəraitdə işləməlidirlər.

Bakı əvvəllər də çox gözəl şəhər olub, amma indi daha da gözəldir. Biz səhər Buzovnanın Albalılıq yaşayış sahəsində, Şüvəlanda, Binədə olmuşuq və indi buraya gəlmişik. Hər yerdə – həm kəndlərdə, həm də şəhərlərdə məktəblər belə olmalıdır. Özü də təkcə təhsildə yox, bütün sahələrdə olmalıdır.

İndi biz Bakının tarixi binalarını təmir etdiririk. Təkcə Bakıda deyil, bütün rayonlarda olan məktəblər təmir olunur. Respublika üzrə son illərdə 1200 məktəb tikilibdir. Bu bizim gələcəyimizə qayğı deməkdir. Sizə cansağlığı arzulayıram. Mən çox şad oluram ki, işlər yaxşı gedir, insanların üzü gülür. Çalışıram ki, ölkəmiz daha da inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar.

*Müəllimlər dövlətimizin başçısına təşəkkür edərək dedilər ki, Siz müəllimlərə, təhsilə böyük qayğı göstərirsiniz. Bütün kollektiv Sizə minnətdardır. İndi hər yan abadlaşır, yeni görkəm alır. Biz çox sevinirik, şad oluruq.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva pedaqoji kollektivin üzvləri ilə xatirə şəkli çəkdirdikdən sonra idman kompleksi ilə tanış oldular. Məktəbin 7800 kvadratmetr ərazisi olan həyatində mini futbol və basketbol meydançaları da yaradılıbdır. Örtülü idman zalı bütün zəruri avadanlıqla təchiz olunubdur. Həyətdə geniş abadlıq işləri aparılmış, yaşıllıq zonası salınmışdır.*

*Prezident İlham Əliyev məktəbin kollektivi ilə səmimiyyətlə sağollaşdı, işlərində uğurlar arzuladı.*

## BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYALARI ASSOSİASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Prezident sarayında Beynəlxalq Güləş Federasiyaları Assosiasiyasının prezidenti Rafael Martinettini qəbul etmişdir.*

*Dövlətimizin başçısı sərbəst və yunan-Roma güləşi üzrə dünya çempionatının ölkəmizdə keçirilməsinin əhəmiyyətinə toxunaraq, bunun Azərbaycanda idmanın inkişafına və bu sahədə beynəlxalq əlaqələrimizin daha da genişləndirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev son illər ərzində ölkəmizdə idman infrastrukturunun sürətli inkişafından, onlarca yeni, bütün müasir standartlara cavab verən idman komplekslərinin inşa edilməsindən danışdı.*

*Rafael Martinetti Azərbaycanda güləş üzrə keçirilən dünya çempionatının yüksək səviyyədə təşkil edildiyini vurğuladı və prezident İlham Əliyevə bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. O, ölkəmizdə idmana göstərilən böyük diqqəti yüksək qiymətləndirdi və Azərbaycanda gənclərin, onların təhsilinin inkişafı istiqamətində görülən böyük işləri maraqla izlədiyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanda güləşin inkişafında və beynəlxalq əlaqələrin genişləndirilməsində xidmətlərinə görə Rafael Martinettiyə «Şöhrət» ordenini təqdim etdi.*

*Rafael Martinetti bu ali mükafata layiq görülməkdən şərəf hissi keçirdiyini dedi və buna görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Mətyu Brayzəni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.*

*Görüş zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti ilə bağlı məsələlər müzakirə edilmişdir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA VƏ OLİMPİYA ÇEMPİONU FƏRİD MANSUROVU VƏ AZƏRBAYCANIN YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ MİLLİ KOMANDASININ BAŞ MƏŞQÇİSİ ELÇİN CƏFƏROVU QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*18 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Prezident sarayında yunan-Roma güləşi üzrə Bakıda keçirilən dünya çempionatının qızıl medalına layiq görülmüş olimpiya çempionu Fərid Mansurovu və Azərbaycanın yunan-Roma güləşi üzrə milli komandasının Baş məşqçisi Elçin Cəfərovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Bakıda keçirilən dünya çempionatının qızıl medalçısı Fərid Mansurovu tarixi qələbə münasibətilə təbrik etdi. Prezident İlham Əliyev bildirdi ki, bu yarış Azərbaycanda güləş üzrə keçirilən ilk dünya çempionatıdır və Siz bu çempionatın ilk azərbaycanlı qalibi kimi, böyük qəhrəmanlıq nümayiş etdirdiniz. Ağır zədədən sonra belə bir qələbə qazanmağı yüksək dəyərləndirən dövlətimizin başçısı Fərid Mansurovu bu münasibətlə bir daha təbrik edərək, bu nailiyyəti Azərbaycan idmanının böyük uğuru və xalqımızın sevinci kimi qiymətləndirdi.*

*Yunan-Roma güləşi üzrə milli komandanın baş məşqçisi Elçin Cəfərov Azərbaycan prezidenti İlham Əliyevə minnətdarlıq edərək dedi ki, Sizin bizə göstərdiyiniz etimadı doğrultduğumuza görə sevincimizin həddi-hüdudu yoxdur. Məşqlər zamanı ağır zədə almış Fərid Mansurov məhz Sizin qayğınız sayəsində əməliyyat olunaraq sağlamlığını bərpa etdi, indi isə xalqımızı qələbəsi ilə bir daha sevindirdi. Sizin yarışlara hər gəlişiniz həmişə bizə və xalqımıza böyük qələbə sevinci yaşadır.*

## AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN TƏDRİS-TERAPEVTİK KLİNİKASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ NİTQ*

*18 sentyabr 2007-ci il*

*Sentyabrın 18-də Bakıda Azərbaycan Tibb Universitetinin tədris-terapevtik klinikasının təməlinin qoyulması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Universitetin həyatinə toplaşmış tələbələr və müəllimlər dövlətimizin başçısını və xanımını böyük hörmət və ehtiramla qarşıladılar.*

*ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov tikiləcək klinika barədə Azərbaycan prezidentinə məlumat verdi. Bildirildi ki, Fövqəladə Hallar Nazirliyinin «Azərdövlətlayihə» İnstitutu tərəfindən layihələşdirilən, podratçısı «Azərinşaatqranit» MMC olan 14 mərtəbəli binanın sahəsi 6552 kvadratmetr, onun ətrafındakı yaşıllıqların ərazisi 957,46 kvadratmetr olacaqdır.*

*Çoxprofilli klinikanın tikintisi Azərbaycan prezidentinin bu il sentyabrın 11-də imzaladığı sərəncama müvafiq olaraq həyata keçirilir. Belə bir klinikanın yaradılması zərurəti onunla əlaqədardır ki, hazırda universitetin klinik fənlər tədris edilən kafedralarının çoxu Bakının müxtəlif rayonlarının ərazisindəki xəstəxanalarda yerləşir. Bu, tədris prosesinin təşkilinə mənfi təsir göstərməklə yanaşı, bir sıra başqa narahatlıqlara*

---

* Mərasimdə Azərbaycan Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov və Tibb Universitetinin tələbəsi, Prezident təqaüdçüsü Nümunə Əliyeva çıxış etdilər.

*da səbəb olur. Həmin kafedraların vahid mərkəzdə cəmləşməsi ümdə zərurətdir. Bu, tədrisin keyfiyyətini və maddi-texniki təminatını yaxşılaşdırmağa imkan verəcək, elmi-tədqiqat işlərinin aparılması üçün əlavə imkanlar yaradacaqdır.*

*Tikintinin başlanması üçün Azərbaycan prezidentinin ehtiyat fondundan tibb universitetinə 3 milyon manat məbləğində vəsait ayrılmışdır.*

*Dövlətimizin başçısı xüsusi kapsulu klinikanın özülünə qoyaraq beton qarışığı tökdü.*

*Sonra Azərbaycan prezidenti və onun xanımı tədris-terapevtik klinikanın baş planının təsvir edildiyi fotostendlərlə tanış oldular.*

**İ l h a m  Ə l i y e v:** Əziz tələbələr, əziz müəllimlər!

Əziz həkimlər, əziz dostlar!

Bu gün Azərbaycan Tibb Universitetinin həyatında çox əlamətdar bir gündür. Bu gün biz birlikdə yeni tədris-terapevtik korpusunun təməl daşını qoyduq. Əminəm ki, nəzərdə tutduğumuz vaxtda bu gözəl bina inşa ediləcək və istifadəyə veriləcəkdir. Əhliman müəllimin qeyd etdiyi kimi, bir müddət bundan əvvəl mənə müraciət daxil olmuşdu ki, terapevtik korpusun, klinikanın tikintisinə böyük ehtiyac var. Ancaq 2007-ci ilin büdcəsində bu məqsədlər üçün vəsait nəzərdə tutulmamışdır. Məhz buna görə mən öz sərəncamimla prezidentin ehtiyat fondundan bu ilin sonuna qədər 3 milyon manat ayrılmasına dair göstəriş vermişəm və əminəm ki, ilin sonuna qədər müəyyən işlər görüləcəkdir. Biz 2008-ci ili də gözləyə bilərdik, yəni çox vaxt qalmayıb. Ancaq mən bilirdim ki, bu klinikanın yaradılmasına çox böyük ehtiyac var və istəmirdim ki, hətta bir neçə ayı itirək. Mən əminəm ki, klinika ən yüksək dünya standartlarına cavab verəcək, burada çox gözəl müalicə imkanları yaranacaqdır. Tələbələr üçün çox gözəl imkanlar yaranacaqdır. Tələbələr bu şəhərcikdə oxuyacaqlar, öz biliklərini artıracaqlar. Beləliklə, oxumaq üçün daha da yaxşı imkanlar yara-

nacaqdır. Bununla bərabər, ölkəmizdə yeni müasir klinikanın yaranması da çox böyük əhəmiyyətə malik hadisədir.

Bildiyiniz kimi, son illər ərzində bu sahəyə çox böyük diqqət göstərilir. İndi Azərbaycanda həm regionlarda, həm də Bakıda yeni gözəl tibb müəssisələri yaranır. Bakının ən iri tibb müəssisəsi olan Klinik Tibbi Mərkəz əsaslı təmir olunub, faktiki olaraq, yenidən qurulub, ən yüksək dünya standartlarına cavab verəcəkdir. Tikintisi 20 il yarımçıq qalmış Milli Onkoloji Mərkəzdə yeni korpus inşa olunub və əminəm ki, gələn il biz onun açılışında iştirak edəcəyik. Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun yeni binası tikilir. O da ən yüksək dünya səviyyəsində olacaqdır. Travmatologiya İnstitutunun yeni inzibati korpusunun tikintisinə bu ilin sonuna qədər başlanmalıdır. Bir müddət bundan əvvəl yenə də mənə daxil olan müraciətə əsasən, Respublika Uroloji Xəstəxanasında böyrəkköçürmə mərkəzi tikiləcəkdir. Bu məqsədlər üçün də yaxın zamanlarda vəsait ayrılacaqdır. Böyrəkköçürmə mərkəzinin yaradılması ilə yanaşı, bütövlükdə uroloji xəstəxana tamamilə yenidən qurulacaqdır.

Bu onu göstərir ki, biz bu məsələlərə çox böyük diqqət göstəririk, bu məqsədlərə qısa müddət ərzində çox böyük vəsait ayırırıq. Beləliklə, Azərbaycanda çox müasir səhiyyə infrastrukturu yaradılır. Bir müddət bundan əvvəl Müdafiə Nazirliyinin hospitalı istifadəyə verilibdir. O da ən yüksək standartlara cavab verir. İndi Daxili İşlər Nazirliyinin hospitalı tikilir. Yəni, bütün bunlar Azərbaycanın səhiyyə potensialını çox yüksək dərəcədə artırır. Nəzərə alsaq ki, bölgələrdə də buna oxşar proseslər gedir, mən əminəm ki, yaxın zamanlarda Azərbaycanda səhiyyə infrastrukturu ən yüksək dünya səviyyəsinə çatacaqdır. İndi Dövlət Neft Şirkətinin xətti ilə Azərbaycanın bölgələrində müxtəlif yeni, müasir diaqnostika-müalicə mərkəzləri tikilir. İlkin mərhələdə müxtəlif bölgələrdə 12 mərkəzin tikintisi nəzərdə tutulubdur. Artıq onlardan ikisi – Lənkəranda və Naxçıvanda istifadəyə

verilibdir. Deyə bilərəm ki, həm Lənkəranda, həm də Naxçıvanda artıq ürək əməliyyatları aparılır. Hər bir müalicə-diaqnostika mərkəzində süni böyrək aparatları quraşdırılır və hemodializ üçün imkanlar yaranır. Çünki indi insanlar müxtəlif rayonlardan Bakıya axışırlar. Həftədə 2-3 dəfə 300, 400, 500 kilometr məsafə qət edib Bakıya gəlirlər. Bu həm böyük əziyyətdir, həm böyük xərcdir, həm də, əlbəttə ki, xəstələrin tam müalicəsi üçün bu rayonlarda imkan azdır. Yəni, biz bütün bu məsələlərə kompleks şəkildə yanaşırıq. Azərbaycanda həm regionların sosial-iqtisadi inkişafı Dövlət Proqrami çərçivəsində yeni tibb müəssisələrinin yaradılması nəzərdə tutulub, eyni zamanda, Bakının qəsəbələrinin inkişafı proqramına əsasən, bu yaxınlarda 25 tibb müəssisəsi tikiləcəkdir.

Bununla bərabər, bu il, 2007-ci ildə 50-dək tibb müəssisəsi tikilib və təmir olunubdur. Bu çox böyük vəsait tələb edir və biz də bu vəsaiti artırırıq. Bir faktı demək kifayətdir ki, son 4 il ərzində səhiyyəyə ayrılan xərclər 5,4 dəfə artıbdır. 69 milyon manatdan 371 milyon manata çatıb və növbəti illərdə biz bu vəsaiti daha da artıracağıq. Çünki buna böyük ehtiyac var. Azərbaycanın sürətli inkişafı bizə bu imkanları verir. İldən-ilə artan büdcəmiz, ildən-ilə artan iqtisadiyyatımız bizə əlavə imkanlar yaradır. Bu imkanları ilk növbədə sosial məsələlərin həllinə yönəltməliyik. Təhsilə, səhiyyəyə, elmə, mədəniyyətə – bütövlükdə humanitar sahəyə. Çünki bu sahə hər bir ölkənin inkişafı üçün çox lazımdır, çox vacibdir. Bir də ki, insanlar yüksək mədəni tibbi xidmət almalıdırlar. Xəstəxanalar gözəl olmalıdır, hər yerdə avadanlıq müasir olmalıdır, çox gözəl şərait yaradılmalı, peşəkar kadrlar olmalıdır. Bu baxımdan Azərbaycan Tibb Universitetinin də çox böyük rolu, çox böyük xidməti var. Azərbaycanda peşəkar tibb kadrlarının yetişdirilməsi üçün burada çox böyük işlər görülür. Bildiyiniz kimi, bu yaxınlarda mənim tərəfimdən imzalanmış sərəncama görə, ən istedadlı gənclər prezidentin ehtiyat fondunun hesabına

xarici ölkələrin aparıcı elm və təhsil ocaqlarına göndəriləcəklər. Orada yüksək təhsil alacaq və vətənə qayıdıb burada gözəl işlər görəcəklər.

Bütün bu işləri görmək üçün, əlbəttə ki, iqtisadi potensial möhkəm olmalıdır. Biz də bunu yaradırıq. Bu yaxınlarda imzalanmış digər sərəncama görə, Azərbaycanda, ilk növbədə Bakıda təcili tibbi yardımın bütün infrastrukturu dəyişdiriləcəkdir. Xaricdən alınmış 150 yeni, müasir təcili yardım maşınları gətiriləcəkdir. Yeni rabitə sistemi quraşdırılacaq ki, əhalinin zənglərinə operativ qaydada cavab verilə bilsin. Bütün təcili tibbi yardım sistemi dərmanlarla təchiz olunacaq və beləliklə, insanlara çox gözəl xidmət göstəriləcəkdir.

Yəni, sadaladığım bütün bu işləri görmək üçün çox vaxt lazımdır. Bir şey demək kifayətdir ki, Azərbaycanda aparılan iqtisadi islahatlar, siyasi islahatlar, ulu öndərin siyasi xətti bu gün uğurla davam etdirilir və ölkəmizin iqtisadi inkişafı artdıqca, əlbəttə ki, bütün sosial məsələlər daha da tezliklə öz həllini tapacaqdır. Bir də demək istəyirəm ki, ilk növbədə səhiyyə sahəsinə çox böyük diqqət göstərilir və bundan sonra da göstəriləcəkdir. Mən bu gün çox şadam ki, biz birlikdə bu gözəl, yeni korpusun təməlini qoyduq. Şübhə etmirəm ki, bu bina yaxın zamanlarda tikilib istifadəyə veriləcək, ən yüksək standartlara cavab verəcəkdir. Ondan sonra da nə kimi müraciətlər olarsa, mən onların hamısını yerinə yetirməyə hazıram. Bu korpusun yaranma tarixi bunu əyani şəkildə göstərir. Əhliman müəllim təxminən bir ay bundan əvvəl, bəlkə də, bir az qabaq müraciət etmişdir. Qısa müddət ərzində qərar qəbul olundu, artıq təməl daşı qoyuldu. İndi Əhliman müəllim mənə deyir ki, cərrahiyyə korpusunun tikintisinə də böyük ehtiyac var. Biz bu məsələyə də baxacağıq və sizin bütün problemlərinizi həll edəcəyik. Korpusun təməl daşının qoyulması münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

Sağ olun.

* * *

*Mərasim başa çatandan sonra Azərbaycan prezidenti və xanımı universitetin tədris korpusu ilə tanış oldular.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin tədris korpusunun foyesindəki büstünə, buradakı fotostendlərə baxdılar.*

*Stendlərdəki fotoşəkillər 1998-ci ildə prezident Heydər Əliyevin iştirakı ilə universitetin nəzəri fənlər tədris edilən 5-ci korpusunun açılışından bəhs edir. Ayrıca bir bölmə görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əiyevaya həsr olunmuşdur.*

*Dövlətimizin başçısı universitetin 500 yerlik akt salonu ilə tanış oldu. Burada həmin tədris müəssisəsinin tədbirlərindən əlavə, müxtəlif beynəlxalq tibbi konqreslər də keçirilir. Azərbaycan prezidenti və xanımı immunologiya kafedrasına baş çəkdilər, tibbi biologiya fakültəsinin tələbələrinin dərs prosesinin gedişi ilə maraqlandılar. Dövlətimizin başçısına tədris prosesində immunoloji və biokimyəvi analizlər aparılması üçün istifadə edilən müasir avadanlıq barədə məlumat verildi.*

*Prezident İlham Əliyev universitetin tibbi informasiya mərkəzində də oldu. Bu mərkəzin Moskvadakı mərkəzi tibbi kitabxana, Türkiyənin Hacəttəpə Universiteti ilə əməkdaşlıq əlaqələri var, mərkəz digər ölkələrin təcrübəsini öyrənir, eyni zamanda, xaricdəki həmkarlarını tibb universitetinin həyatındakı yeniliklərlə tanış edir. Burada tələbələrin bilik səviyyələrini yüksəltməsi, onların internet vasitəsilə tibbi ədəbiyyat yenilikləri ilə tanış olması üçün hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev universitetin professor-müəllim heyəti ilə görüşdü. Onlar ölkəmizdə səhiyyəyə və tibb elminin inkişafına göstərdiyi diqqət və qayğıya, habelə yaradılan iş şəraitinə görə dövlətimizin başçısına təşəkkür etdilər.*

## AVSTRİYANIN İQTİSADİYYAT VƏ ƏMƏK NAZİRİ MARTİN BARTENŞTAYNIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında Avstriyanın İqtisadiyyat və Əmək naziri Martin Bartenştaynın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Avstriya arasında iqtisadi əlaqələrin geniş sahələri əhatə etdiyini, bir sıra Avstriya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini qeyd etdi. Prezident İlham Əliyev bu səfərin iki ölkə arasında əlaqələrin bundan sonra da genişləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Martin Bartenştayn Azərbaycana səfəri çərçivəsində artıq bir sıra səmərəli görüşlər keçirdiyini bildirdi. Qonaq səfər zamanı imzalanacaq sənədlərin ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradacağını qeyd etdi.*

## İTALİYA PARLAMENTİ DEPUTATLAR PALATASININ XARİCİ İŞLƏR DAİMİ KOMİSSİYASININ SƏDRİ UMBERTO RANİERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında İtaliya Respublikası parlamenti Deputatlar Palatasının Xarici işlər daimi komissiyasının sədri Umberto Ranierinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla İtaliya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edən prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin ildən-ilə artdığını müsbət hal kimi dəyərləndirdi. İkitərəfli münasibətlərdə parlamentlərarası əlaqələrin böyük önəm daşıdığını vurğulayan dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, İtaliya nümayəndə heyətinin ölkəmizə bu səfəri əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Cənab Umberto Ranieri Azərbaycan–İtaliya münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayaraq dedi ki, İtaliya ticarət sahəsində Azərbaycanın bir nömrəli tərəfdaşıdır, strateji əhəmiyyət daşıyan energetika sahəsində olduğu kimi, əməkdaşlığımızın iqtisadi, mədəni və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar var. Biz eyni zamanda, bir dövlət başçısı kimi, Sizin ölkənizdə davamlı demokratik inkişaf, o cümlədən iqtisadi artım, çox gözəçarpan iqtisadi göstəricilərlə bağlı səylərinizi yüksək qiymətləndiririk.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ**

Hörmətli cənab Federal Prezident!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman birliyi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Almaniya əlaqələrinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlığın inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 sentyabr 2007-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Ölkənizin milli bayramı – Alman birliyi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan ilə Almaniya arasında dostluq və əməkdaşlığın inkişafı sahəsindəki nailiyyətlərimiz bizi sevindirir. Qarşılıqlı münasibətlərimizə dair yürütdüyümüz siyasət, ölkələrimiz arasında imzalanmış sazişlər bütün sahələrdə faydalı əməkdaşlıq üçün geniş imkanlar açaraq, real töhfələr verməkdədir.

Əminəm ki, birgə səylərimiz bundan sonra da istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində işbirliyimizin səmərəli şəkildə davam etdirilməsinə yönələcəkdir.

Belə bir xoş məqamda Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar arzulamaqdan məmnunluq duyur, dost Almaniya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21sentyabr 2007-ci il*

# BÖYÜK BRİTANİYANIN ENERGETİKA ÜZRƏ DÖVLƏT NAZİRİ MALKOLM UİKSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Prezident sarayında Böyük Britaniyanın Energetika üzrə dövlət naziri Malkolm Uiksin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi, o cümlədən energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etdirildiyi bildirildi, Azərbaycanın təşəbbüsü və birbaşa iştirakı ilə həyata keçirilən qlobal neft və qaz layihələrinin reallaşdırılması işində ölkələrimizin uzun illər səmərəli əməkdaşlıq etdiyi vurğulandı, bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminlik ifadə olundu.*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ROH MU-HYUNA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Dövlətin yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Biz dost ölkələrimiz arasında münasibətlərə böyük əhəmiyyət veririk. Əminəm ki, əməkdaşlığımızın daha da inkişaf etdirilməsi, əlaqələrimizin əhatə dairəsinin genişləndirilməsi sahəsində səylərimiz bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 sentyabr 2007-ci il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB XU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Çin Xalq Respublikasının yaranması günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirməkdən məmnunluq duyuram.

Qədim ənənələrə malik Azərbaycan–Çin münasibətləri bu gün müvəffəqiyyətlə inkişaf etməkdədir. Əlaqələrimizin hərtərəfli genişlənməsi, qarşılıqlı maraq doğuran bir çox sahələrdə əməkdaşlığımızın dərinləşməsi prosesləri davamlı və sabit xarakter daşıyır. Əminəm ki, əməkdaşlıq zəminində qazandığımız nailiyyətləri bundan sonra da qoruyub saxlayacaq və daha da inkişaf etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 sentyabr 2007-ci il*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UMARU YARADUAYA**

Hörmətli cənab Prezident!

Nigeriyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Nigeriya arasında yaranmış münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 sentyabr 2007-ci il*

**QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LANSANA KONTEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 sentyabr 2007-ci il*

## POLŞA PREZİDENTİ DƏFTƏRXANASININ RƏHBƏRİ VƏZİFƏSİNİ İCRA EDƏN DÖVLƏT KATİBİ ROBERT DRABA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Prezident sarayında Polşa prezidenti Dəftərxanasının rəhbəri vəzifəsini icra edən Dövlət katibi Robert Drabanı qəbul etmişdir.*

*Robert Draba səmimi qəbula görə prezident İlham Əliyevə təşəkkür edərək dedi ki, Polşa prezidenti hesab edir ki, Azərbaycan ilə əlaqələrimiz çox yaxşı səviyyədədir və biz münasibətlərimizin daha da inkişaf etdirilməsini istəyirik. Qonaq Azərbaycanın ölkəsi üçün strateji tərəfdaş olduğunu vurğuladı. Azərbaycanın dövlət başçısını Polşa prezidentinin adından öz ölkəsinə rəsmi səfərə dəvət edən Robert Draba bu səfərin ikitərəfli əlaqələri daha da yüksək səviyyəyə qaldırmaq üçün növbəti addım olacağını bildirdi. Sonra Robert Draba Polşa prezidenti Lex Kaçinskinin məktubunu prezident İlham Əliyevə təqdim etdi.*

*Dövlətimizin başçısı məktuba və Polşaya rəsmi səfərə dəvətə görə prezident Lex Kaçinskiyə təşəkkürünü çatdırmağı xahiş etdi. O, Polşa prezidenti ilə keçirdiyi görüşləri məmnuniyyətlə xatırlayaraq, qarşılıqlı səfər və görüşlərin iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından mühüm rol oynadığını vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafının, eyni zamanda, ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin daha da genişləndirilməsi üçün əhəmiyyətli olduğunu bildirdi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYAYA İŞGÜZAR SƏFƏRİ

*24 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Rumıniyaya işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Sentyabrın 24-də Azərbaycan prezidenti İlham Əliyev Rumıniyaya işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Rumıniyanın dövlət bayraqları ilə bəzədilmiş Henri Koande adına Buxarest Beynəlxalq Hava Limanında Azərbaycan dövlətinin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi və onun xanımını Rumıniyanın yüksək vəzifəli rəsmi şəxsləri qarşıladılar.*

*Sonra Azərbaycan prezidenti Fəxri kortejin müşayiəti ilə onun üçün ayrılmış «Lak-2» iqamətgahına yola düşdü.*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniya Respublikasının Prezidenti Trayan Besesku ilə görüşü

*Sentyabrın 24-də Buxarestdə «Lak-2» iqamətgahında Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun görüşü olmuşdur.*

*Görüş zamanı Azərbaycan–Rumıniya əməkdaşlığının uğurlu inkişafı, qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələrin geniş-*

*ləndirilməsi məsələləri müzakirə edildi. Hər iki ölkənin beynəlxalq təşkilatlarda, o cümlədən Avroatlantik strukturlarında bir-birinin mövqelərini qarşılıqlı dəstəkləməsi qeyd olundu. Dövlət başçıları bir məqamı xüsusi vurğuladılar ki, Buxarestdə Heydər Əliyev Fondunun nümayəndəliyinin və Azərbaycanın ümummilli liderinin adını daşıyan parkın açılması iki ölkənin xalqları arasında əlaqələrin möhkəmlənməsinə xidmət edir.*

*Söhbət zamanı qarşılıqlı səfərlərin əhəmiyyəti də vurğulandı.*

## Buxarestdə Heydər Əliyev Fondunun nümayəndəliyinin açılış mərasimində

*Sentyabrın 24-də Azərbaycan prezidenti İlham Əliyev və Rumıniya prezidenti Trayan Besesku öz xanımları ilə birlikdə Buxarestin mərkəzində Heydər Əliyev Fondunun nümayəndəliyinin açılış mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin açılması ilə bağlı müvafiq sənədlər toplusu Rumıniyanın Elmi-Tədqiqatlar Agentliyi, Elmlər Akademiyasının Rəyasət Heyəti, səhiyyə, xarici işlər, ədliyyə, mədəniyyət və təhsil nazirliklərinin, Baş nazirin müavininin imzaları ilə təsdiq olunduqdan sonra Nazirlər Kabinetinin tamtərkibli iclasında müzakirə edilərək, Baş nazirin sərəncamı ilə müvafiq qərar qəbul olunmuşdur. Qərar Rumıniyanın rəsmi dövlət bülletenində çap edildikdən və Rumıniya Ali Məhkəməsinin qərarı ilə təsdiq olunduqdan sonra qüvvəyə minmişdir.*

*Nümayəndəliyin humanitar fəaliyyəti ölkə ictimaiyyəti tərəfindən dəstəklənmişdir. Məsələn, nümayəndəlik ahıllar evlərindən birini hamiliyə götürmüşdür. Nümayəndəliyin Buxarestin mərkəzində yerləşən binası XX əsrin əvvəlində tikilmiş memarlıq abidəsidir.*

*Azərbaycan və Rumıniya prezidentləri nümayəndəliyin açılışını bildirən rəmzi qırmızı lenti kəsdilər.*

*Dövlət başçıları fondun nümayəndəliyi ilə tanış oldular və Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Rumıniya prezidenti Trayan Besesku nümayəndəliyin həyətində ağac əkdilər.*

*«Renomed Form» tibb mərkəzinin rəhbəri Dayan Babesku həmin mərkəzin nəzdində fəaliyyət göstərən, Krayova şəhərində yerləşən dializ və nevrologiya klinikasına Heydər Əliyevin adının verilməsi barədə qərarın surətini Azərbaycan prezidentinə təqdim etdi.*

## BUXARESTDƏ HEYDƏR ƏLİYEV ADINA XİYABANIN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*24 sentyabr 2007-ci il*

*Sentyabrın 24-də Buxarestdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan xiyabanın rəsmi açılış mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev, Rumıniya prezidenti Trayan Besesku və onların xanımları mərasimdə iştirak edirdilər.*

*Parkın girəcəyində Azərbaycan prezidenti İlham Əliyevi, Rumıniya prezidenti Trayan Beseskunu və onların xanımlarını Buxarestin ikinci sektorunun meri Nekulai Ontanu və Rumıniya–Azərbaycan Dostluq Cəmiyyətinin sədri İoan Pop de Popa qarşıladılar.*

*Rumıniya paytaxtının türk və tatar diasporunun nümayəndələri Heydər Əliyevin Buxarestdə büstünün qoyulmasını və onun adını daşıyan xiyabanın açılışını əlamətdar hadisə adlandırdılar.*

*Mərasimdə çıxış edən Buxarestin ikinci sektorunun meri, paytaxtın mərkəzində Heydər Əliyev xiyabanının açılışını iki ölkə və xalqlarımız arasında yüksək səviyyədə münasibətlərin daha bir bariz nümunəsi kimi dəyərləndirdi. Rumıniya–Azərbaycan əlaqələrinin inkişafına prezident İlham Əliyevin verdiyi silsilə töhfələri yüksək qiymətləndirən mer rumın xalqının dərin minnətdarlıq hisslərini Azərbaycanın dövlət başçısına yetirdi. O, Azərbaycan–Rumıniya əməkdaşlığının möhkəmlənməsində iki ölkə prezidentlərinin şəxsi dostluğunun da həlledici rol oynadığını vurğuladı.*

**Nekulai Ontanu**: Zati-aliləri cənab prezidentlər Trayan Besesku və İlham Əliyev, hörmətli xanımlar Mariya

Besesku və Mehriban Əliyeva! Biz sevinirik ki, bu gün sizi modern bir mühitdə qarşılayırıq. Elə bir mühit ki, o, Avropa standartlarına uyğun olaraq yaradılmışdır. Burada təbii gözəlliyə malik olan işlər görülmüşdür, fəvvarələr qurulmuşdur və insanların istirahət etməsi, gəzməsi üçün xüsusi yerlər ayrılmışdır, uşaqlar üçün oyun meydançaları yaradılmışdır. Bütün bu işlər Rumıniya və Azərbaycan arasındakı xüsusi dostluq münasibətləri sayəsində mümkün olmuşdur. Eyni zamanda bu, ikinci sektorun meriyası üçün xüsusi bir hadisəyə çevrilmişdir. Fürsətdən istifadə edərək, bir daha zatialiləri cənab prezident Trayan Beseskuya və zati-aliləri cənab prezident İlham Əliyevə hörmətimi, dərin ehtiramımı çatdırmaq, habelə sevinc hisslərimi bildirmək istəyirəm ki, onlar bu gün bizim üçün mühüm olan bir tədbirdə bizimlə, ikinci sektorun ictimaiyyəti ilə birlikdədirlər. Ali qonaqların burada olması, Tei parkında Heydər Əliyev xiyabanının açılışında onların iştirakı bizi xüsusilə şərəfləndirir. Sizə təşəkkür edirəm.

## Rumıniya–Azərbaycan Dostluq Cəmiyyətinin sədri İoan Pop de Popanın çıxışı

Zati-aliləri cənab İlham Əliyev!
Zati-aliləri cənab Trayan Besesku!
Əziz dostlar!

İlk növbədə, icazənizlə, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevi və Rumıniya Respublikasının Prezidenti zati-aliləri Trayan Beseskunu bu parkda görməkdən məmnunluğumu bildirim və Rumıniya–Azərbaycan dostluq münasibətlərinin inkişafı üçün əlamətdar bir tədbirdə iştirakınıza görə hər birinizə öz minnətdarlığımı çatdırım. Sizin hər birinizin burada iştirakının ikitərəfli əlaqələrin inkişafı baxımından böyük əhəmiyyəti vardır.

Mən Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasətçi, dahi şəxsiyyət Heydər Əliyevin büstünün 2004-cü ilin oktyabr ayında açılış mərasimini böyük məmnunluqla

xatırlayıram. O zaman da bu park çox gözəl idi, amma qısa bir müddət keçdikdən sonra bura Rumıniyanın ən gözəl parkı oldu. Bu gün gördüyünüz bu gözəllik yaradıldı.

Heydər Əliyev Rumıniyanın dostu idi. İki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq əlaqələrinin təməlinin qoyulmasında Heydər Əliyevin xüsusi, danılmaz xidmətləri olmuşdur. Rumıniyada Heydər Əliyevin büstünün ucaldılması, onun adını daşıyan xiyabanın açılması bu dahi şəxsiyyətə hörmət və ehtiramın təzahürüdür. Eyni zamanda, bu gözəl parkı Rumıniya sakinlərinin istifadəsinə verdiklərinə və məşhur rumın bəstəkarı Corce Eneskunun Bakı şəhərində büstünün ucaldılmasına görə şəxsən Azərbaycan prezidentinə dərin minnətdarlığımı bildirirəm. Çünki bu xeyirxah təşəbbüs və nəcib əməllər cənab İlham Əliyevə məxsusdur.

Bu gün Azərbaycanın qazandığı nailiyyətlər, iki ölkə arasında daimi qarşılıqlı dəstək və dostluq əlaqələrinin ildən-ilə möhkəmlənməsi bizi sevindirir. Mən 2003-cü ildə Azərbaycanda prezident seçkiləri ərəfəsində Rumıniya və Avropa kütləvi informasiya vasitələrində səsləndirdiyim fikirləri böyük məmnuniyyətlə xatırlatmaq istərdim: «Sağlam məntiq onu diktə edir ki, özünün gələcək taleyini düşünən, dərk edən, səsvermə hüququna malik olan hər bir Azərbaycan vətəndaşı Heydər Əliyev siyasətinin, siyasi xəttinin ən etibarlı davamçısına, ölkənin Avropaya inamlı inteqrasiyası, tərəqqi və demokratiya yolu ilə inkişafının təminatçısına, İlham Əliyevə səs verəcək, dövlətin idarəçilik sükanını ona etibar edəcəkdir».

Mən şadam ki, bu fikirlərimdə haqlı olmuşam. Sevindirici haldır ki, cənab İlham Əliyev prezident seçildikdən sonra üç dəfə Rumıniyada səfərdə olmuş, cənab Trayan Besesku da prezidentliyi dövründə iki dəfə Bakını ziyarət etmişdir. Belə hallar beynəlxalq münasibətlərdə xüsusi əhəmiyyət kəsb edir. Rumıniya və Azərbaycan arasında səfərlərin intensivliyi, dostluq və səmimilik göz önündədir. Biz xalqlarımızın və

prezidentlərimizin bu dostluq münasibətlərindən qürur duyuruq.

Bu gözəl xiyabanın açılması münasibətilə zati-aliləri cənab prezidentləri və xalqlarımızı təbrik edirəm.

Diqqətinizə görə minnətdaram.

**Rumıniya prezidenti Trayan Beseskunun çıxışı**

Cənab prezident Əliyev!

Xanım Əliyeva!

Cənab mer və Rumıniya–Azərbaycan Dostluq Cəmiyyətinin sədri!

İcazə verin, mən öz sevinc hisslərimi ifadə edim ki, bu gün belə bir gözəl formada bizim ölkələrimiz – Rumıniya və Azərbaycan arasındakı yüksək münasibətlərin səviyyəsini bir daha qeyd edirik.

Keçən il mən Bakıya səfər edərkən biz orada dahi rumın bəstəkarı Corce Eneskunun heykəlinin açılışını keçirdik. Bu hadisə ilə Azərbaycan xalqı bir daha göstərdi ki, o, rumın xalqının mədəni dəyərlərini, mədəniyyətini qəbul edir və sevir.

Bu gün Buxarestdə Heydər Əliyev Fondunun yerli nümayəndəliyi açılır. Eləcə də burada Heydər Əliyevin adını daşıyan xiyabanın açılışını keçiririk. Bu isə rumın xalqının Azərbaycanın tarixinə, eləcə də Azərbaycan xalqına artıq 15 il bundan əvvəl böyük bir azadlıq verən ümummilli liderinə olan hörmət hissinin təzahürüdür.

Heydər Əliyev Azərbaycanın bir qəhrəmanı, Rumıniyanın isə dostu idi. Bizim yaxşı yadımızdadır ki, hələ o çətin vaxtlarda Heydər Əliyev Azərbaycanın müstəqillik qazanmasına imkan yaratdı, onun Sovet İttifaqından yaxa qurtarmasına şərait yaratdı. Həmin o çətin vaxtlarda azadlıq uğrunda nümayiş etdirilən cəsarət eynilə Rumıniyada da baş verən hadisələrlə paralellik təşkil edirdi. Çünki həmin vaxtlarda, yəni, bir qədər əvvəl, 1989-cu ildə Rumıniyada da inqilab baş verməkdə idi.

Bakı və Buxarest arasındakı diplomatik əlaqələrin qurulmasından cəmi 15 il vaxt keçib. Amma bu qısa müddətdə ikitərəfli əlaqələrin səviyyəsinə baxdıqda, onların çox sürətlə inkişaf etdiyini və səmərəli olduğunu görürük.

Mən əminəm, Rumıniyanın və Azərbaycanın xarici siyasətində iki mühüm amil olub ki, onlar ikitərəfli əlaqələrin belə sürətlə inkişaf etməsinə imkan veribdir. Birincisi, ona görə ki, həm Rumıniya, həm də Azərbaycan Xəzər dənizi və Qara dəniz regionunun burada yaşayan xalqlar üçün bir təhlükəsizlik zonasına, bölgəsinə çevrilməsinə səy göstərir. İkinci cəhət isə ondan ibarətdir ki, həm Rumıniya, həm də Azərbaycan Xəzər dənizi və Qara dəniz regionunda müxtəlif mədəniyyətlərə məxsus olan xalqların bir-biri ilə anlaşması və sülh şəraitində yaşaması üçün dialoq yolunu tapmalıdır və tapacaqlar. Çünki Rumıniya da, Azərbaycan da beynəlxalq hüququn prinsiplərinə, onların pozulmamasına xüsusi əhəmiyyət verirlər. Bunu deyərkən mən xalqların öz müqəddəratını təyin etməsi hüququnu, ölkələrin sərhədlərinin pozulmaması və ərazi bütövlüyü məsələlərini nəzərdə tuturam. Bu elementlər, bu amillər yalnız ümumi məsələlərdən bir neçəsidir ki, hazırda Rumıniya və Azərbaycan arasında əlaqələrin daha da inkişaf etməsinə şərait yaradır. Bu amillər sayəsində bir tərəfdən, iqtisadi, siyasi əlaqələr, digər tərəfdən, siyasi xadimlər arasında bir-birinə olan inam ölkələr arasındakı münasibətlərin daha da inkişafına səbəb olur. Bu baxımdan, cənab Prezident, mən Sizə dərin təşəkkürümü bildirirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Prezident!

Hörmətli xanım Besesku!

Əziz dostlar, xanımlar və cənablar!

Bu gün Rumıniya–Azərbaycan münasibətlərinin tarixində çox əlamətdar bir gündür. Azərbaycan xalqının ümum-

milli lideri Heydər Əliyevin adını daşıyan xiyabanın açılışına toplaşmışıq. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev öz həyatını doğma xalqına xidmətə həsr etmişdir. Əsrlər boyu müstəqillik həsrətində olmuş Azərbaycan xalqı müstəqillik qazandıqdan sonra çox böyük çətinliklərlə üzləşmişdi. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirdi, onu əbədi, dönməz etdi və bu gün Azərbaycan çox sürətlə inkişaf edən ölkədir.

Rumıniya–Azərbaycan münasibətlərinin inkişafında da Heydər Əliyevin çox böyük rolu olmuşdur. O, Rumıniyaya və rumın xalqına həmişə böyük hörmət və məhəbbətlə yanaşırdı. Hazırda bizim əlaqələrimiz daha da sürətlə inkişaf edir və Rumıniya–Azərbaycan tərəfdaşlığı həm iki ölkənin inkişafına, həm də bölgədə gedən müsbət proseslərə öz təsirini göstərməkdədir.

Mən bu gün hörmətli prezident Beseskunun dəvətini qəbul edib yenidən Rumıniya torpağında səfərdəyəm. Bu imkan bizə yeni üfüqlər açacaqdır. Biz bu gün cənab prezidentlə ikitərəfli münasibətləri təhlil etdik, gələcək inkişaf perspektivlərini müzakirə etdik və bir daha əmin olduq ki, xalqlarımız bir-birinə çox yaxındır, ölkələrimiz çox sıx əməkdaşlıq edir və hər birimiz bu əməkdaşlığın inkişafı üçün bundan sonra da öz səylərimizi göstərəcəyik.

Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olmuşdur. Müstəqillik dövründə biz həmişə Rumıniyanın dəstəyini hiss etmişik, bu gün də bunu hiss edirik. Azərbaycanın Avroatlantik strukturlarına inteqrasiya meyillərini Rumıniya dövləti və şəxsən prezident Besesku həmişə dəstəkləmişdir və bu dəstəyi biz bu gün də hiss edirik. Regional əməkdaşlıq işlərində Rumıniya çox fəal rol oynayır və bu bizi daha da birləşdirir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində və postsovet məkanındakı başqa oxşar münaqi-

şələrin həlli məsələlərində Rumıniyanın birmənalı mövqeyi var. O da ondan ibarətdir ki, beynəlxalq hüquq normalarına əməl edilməli, ölkələrin ərazi bütövlüyü bərpa olunmalıdır.

Amma bizi təkcə siyasi maraqlar, yaxud da ki, iqtisadi əməkdaşlıq layihələri birləşdirmir. Bizi eyni zamanda, humanitar məsələlər birləşdirir. Xalqlarımızın görkəmli şəxsiyyətlərinə hörmətimiz, ehtiramımız birləşdirir. Çox əlamətdar hadisədir ki, Rumıniya torpağında böyük azərbaycanlı Heydər Əliyevin, Azərbaycan torpağında isə böyük rumın Corce Eneskunun abidələri ucaldılmışdır.

Mən Rumıniya–Azərbaycan münasibətlərinin perspektivlərinə çox böyük nikbinliklə baxıram. Biz son iki il ərzində prezident Besesku ilə beş dəfə görüşmüşük və bu görüşlər çox səmimi şəkildə keçir. Növbəti planlarımız da var və mən şübhə etmirəm ki, bizim dövlətlərimiz qarşıda duran bütün vəzifələri çiyin-çiyinə yerinə yetirəcək və əməkdaşlıq daha da möhkəmlənəcəkdir.

Mən bu parka üçüncü dəfədir gəlirəm və hər dəfə burada yeniliklər görürəm. Park daha da gözəlləşir, daha da abadlaşır və bu çox sevindirici haldır. Burada şəhərin, bu sektorun sakinləri üçün də çox gözəl şərait yaradılıbdır. Bu parkın bərpasında və Heydər Əliyev xiyabanının yaradılmasında əməyi olan bütün insanlara öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Xüsusilə prezident Beseskuya və Buxarest şəhərinin ikinci sektorunun merinə və bütün dost rumın xalqına bu münasibətə, bu hörmətə, ulu öndərin xatirəsinə verilən bu qiymətə görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Təşəkkür edirəm.

* * *

*Sonra prezidentlər Trayan Besesku və İlham Əliyev, dövlət başçılarının xanımları Mariya Besesku və Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoydular.*

*Dövlət başçıları parkı gəzdilər, Tei gölünün əsrarəngiz panoramına tamaşa etdilər.*

*Gəzinti zamanı Buxarest Texniki Universitetinin Heydər Əliyev təqaüdçüləri olan azərbaycanlı tələbələr prezident İlham Əliyevə yaxınlaşaraq, ona minnətdarlıqlarını bildirdilər. Buxarestin türk və tatar diasporlarının nümayəndələri Azərbaycan prezidentinə üzərində aşağıdakı sözlər yazılmış plaket təqdim etdilər:* «Azərbaycan türklərinin, bütün türk dünyasının lideri mərhum Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq bu abidənin ucaldılmasına və bu parkın açılışına görə Sizə təşəkkürümüzü bildiririk».

*Xiyabanda Azərbaycan və rumın artistləri konsert proqramı ilə çıxış etdilər.*

*Daha sonra Heydər Əliyev xiyabanının açılışı münasibətilə atəşfəşanlıq oldu.*

*Bütövlükdə bu mərasim Azərbaycan və rumın xalqları arasında ənənəvi dostluq münasibətlərinin yeni inkişaf mərhələsinə qədəm qoymasının bariz nümunələrindən biri idi. Milli mənafelərə xidmət edən dövlət siyasəti ölkələr arasında əlaqələri möhkəmləndirməklə yanaşı, xalqları bir-birinə daha da yaxınlaşdırır.*

## Ployeşti Neft və Qaz Universitetində görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniyaya işgüzar səfərinin ikinci günü, sentyabrın 25-də Ployeşti Neft və Qaz Universitetində olmuşdur.*

*Xatırladaq ki, 2004-cü ilin oktyabrında Rumıniyaya rəsmi səfəri zamanı prezident İlham Əliyevə universitetin Fəxri doktoru adı verilmişdir.*

**Mixay Dimitraşku** (*Universitetin prorektoru*): Bu təhsil ocağı Avropa təhsilinin modernləşdirilməsində yaxından iştirak edir. Universitet Rumıniyanın sosial-iqtisadi sahələri üçün mütəxəssislər hazırlayır. Burada ali təhsilin bakalavr və magistr pillələri üzrə tədris prosesi Avropada məşhur olan kredit sistemi üzrə həyata keçirilir. Univer-

sitetdə yüksək səviyyəli elmi araşdırmalar aparılır. Təhsil ocağında 5 fakültədə 13 min tələbə təhsil alır.

İki beynəlxalq səviyyəli təhsil proqramının tətbiq olunduğu universitetin bu proqramlar üzrə 18 buraxılışı olmuşdur. Təhsil ocağının diplomları Fransa, İsveçrə və digər Avropa ölkələrində tanınır.

**İ l h a m Ə l i y e v:** Mən bu universitet haqqında, əlbəttə ki, ətraflı bilgilərə malikəm. Bilirəm ki, Ployeşti Neft və Qaz Universiteti Avropa qitəsində bu sahədə aparıcı təhsil ocaqlarından biridir. Universitetin böyük tarixi və çox böyük nailiyyətləri var, burada elmi-tədqiqat məsələlərinə böyük diqqət göstərilir, tələbələrin təhsilinə hərtərəfli yanaşılır. Bizim aramızda da münasibətlər çox yaxşıdır, həm ölkələrarası, həm də ki, müxtəlif səviyyələrdə, o cümlədən təhsil səviyyəsində əlaqələr genişlənir. Çox fəxr edirəm ki, artıq üçüncü ildir ki, mən Ployeşti Neft və Qaz Universitetinin Fəxri doktoru adını daşıyıram. Burada müxtəlif sahələrdə fərqlənmiş tələbələr Heydər Əliyev təqaüdünə layiq görülürlər. Mən bu gün Neft muzeyi ilə də tanış oldum və bir daha gördüm ki, Rumıniyanın nə qədər zəngin neft sənayesi olmuşdur. Keçmişdə də olub və bu gün də vardır. Ölkələrimiz arasında çox böyük oxşarlıq var. 1857-ci ildə Rumıniyada sənaye üsulu ilə ilk neft hasil edilibdir, ondan 10 il qabaq isə Azərbaycanda, Bakıda. İndi isə biz – Rumıniya və Azərbaycan, iki ölkə enerji sahəsində çox uğurlu əməkdaşlıq edirik. Xəzər dənizinin neft-qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması işində bizim əməkdaşlığımıza böyük ehtiyac var və əminəm ki, bu əməkdaşlığımız uğurlu olacaqdır.

Bir daha demək istəyirəm ki, universitet haqqında mən çox eşitmişəm. Amma öz gözümlə görməyim də faydalı olacaqdır.

*Sonra dövlətimizin başçısı universitetin auditoriyalarına baş çəkdi, foyedə nümayiş etdirilən faydalı qazıntı nümunələrinə, Azərbaycan pezidentinin təşəbbüsü ilə yenidən qurul-*

*muş və ən müasir avadanlıqla təchiz olunmuş informatika laboratoriyasına baxdı.*

*Universitetin Heydər Əliyev adına təqaüd alan tələbələri Azərbaycan prezidentinə təşəkkür etdilər.*

*Prezident İlham Əliyev universitetin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı, tələbələrlə xatirə şəkli çəkdirdi.*

* * *

*Sentyabrın 25-də Azərbaycan prezidenti Buxarestə qayıtdı. Burada Rumıniya prezidenti Trayan Beseskunun və onun xanımı Mariya Beseskunun adından Azərbaycan prezidenti İlham Əliyevin və onun xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət verildi.*

## Səfər başa çatdı

*Sentyabrın 25-də Azərbaycan prezidenti İlham Əliyevin Rumıniyaya işgüzar səfəri başa çatdı. Azərbaycan dövlətinin başçısını Buxarestin Henri Koande Beynəlxalq Hava Limanında Rumıniyanın yüksək vəzifəli rəsmi şəxsləri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtdı. Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## BAKIDA KEÇİRİLƏN SƏRHƏD MƏSƏLƏLƏRİ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Prezident sarayında Bakıda sərhəd məsələləri üzrə keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.*

**İlham Əliyev:** Sizi Azərbaycanda salamlayıram və görməyimə çox məmnunam. Ölkəmizdə təhlükəsizlik mövzusunda keçirilən beynəlxalq konfrans ilk belə tədbir deyil. Biz öz qonaqlarımız və dostlarımızla görüşməyə hər zaman şadıq. Siz sərhədlərin təhlükəsizliyinə dair olduqca vacib məsələləri müzakirə etmək imkanı əldə etmişdiniz. Bu cür problemlər bizim hamımıza yaxşı məlumdur. Sərhədlərin təhlükəsizliyi ölkənin təhlükəsizliyi deməkdir. Xüsusən də indiki vaxtda, regionda bir çox təhdidlərin, o cümlədən terrorçuluq təhlükəsinin olduğu zaman sərhəd xidmətləri arasında səylərin əlaqələndirilməsi, məsləhətləşmələrin aparılması, eləcə də təhdidlərə çevik reaksiyanın verilməsi olduqca böyük əhəmiyyət daşıyır.

Əvvəllər Azərbaycan başqa bir dövlətin tərkibində idi. Müstəqillik əldə olunduqdan sonra sərhədlərimizin möhkəmləndirilməsi zərurəti yarandı. Biz hər şeyə sıfırdan başladıq və ötən illər ərzində ölkəmizin mükəmməl sərhəd infrastrukturu yarandı, ən müasir texnika və avadanlıqla təchiz olundu.

Azərbaycan potensial təhlükələrə çevik reaksiya vermək üçün qonşu ölkələrlə tərəfdaşlığa xüsusi önəm verir. Re-

gionda hələ də müxtəlif təhdidlər və hədələr mövcuddur. Aydındır ki, heç bir ölkə təhlükəsizlik problemini təkbaşına tam həll etmək iqtidarında deyildir. Buna görə də bütün ölkələr təhlükəsizlik məsələlərində regional əməkdaşlığı möhkəmləndirməlidir.

Avropa İttifaqı genişlənir və sərhədləri regionumuza yaxınlaşır. Bu amil məsuliyyətimizi daha da artırır. İqtisadi inkişaf və enerji təhlükəsizliyi baxımından təkcə regionda deyil, dünyada önəmli mövqe tutan Azərbaycan bütün ölkələrlə fəal əməkdaşlıq edir. Sərhəd məsələlərinə dair mötəbər tədbirin növbəti dəfə Azərbaycanda keçirilməsi də ölkəmizin müxtəlif dövlətlərlə bu sahədə tərəfdaşlığa əhəmiyyət verməsinin təzahürüdür.

**Y o z e f B e n d e k** (*Sərhəd məsələləri üzrə beynəlxalq konfransın sədri, Macarıstan Sərhəd Mühafizəsinin rəisi, general-leytenant*): Belə tədbirin üçüncü dəfə keçirildiyi Bakıda konfransın yüksək səviyyədə təşkilinə görə, cənab Prezident, Sizə təşəkkür edirəm. Sərhəd xidmətlərinin təcrübə mübadiləsi baxımından bu cür tədbirlərin böyük əhəmiyyəti vardır. Azərbaycanın sərhəd xidmətinin qısa müddətdə yüksək səviyyədə qurulmasında prezident İlham Əliyevin xidmətləri barədə konfrans iştirakçıları məlumatlıdırlar. Biz Azərbaycan prezidentinin tez-tez sərhəd zastavalarında olmasından, sərhədçilərlə görüşlərindən, sərhədlərin etibarlı mühafizəsi üçün gördüyü tədbirlərdən, sərhədçilərin sosial-məişət problemlərinin həllinə xüsusi diqqət yetirməsindən xəbərdarıq. Sərhədçilər üçün yeni salınmış istirahət mərkəzində yaradılan şəraiti də yüksək qiymətləndirirəm. Sərhəd xidmətlərinin birgə fəaliyyəti ilə bağlı yeni ideyalar işləmək baxımından Bakı konfransının müstəsna əhəmiyyəti var.

XV sessiyada biz təşkilatımızın 3 dərəcədə – bürünc, gümüş və qızıl ulduzlarını təsis etmişik. Təşkilatın ümumi qərarına əsasən, Azərbaycan prezidenti «Qızıl ulduz»la təltif olunmuşdur.

*General Yozef Bendek mükafatı dövlətimizin başçısına təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Sərhədlərin təhlükəsizliyinə verdiyim töhfəni bu ordenlə qiymətləndirdiyinizə görə Sizə olduqca minnətdaram. Siz tamamilə düzgün qeyd etdiniz ki, mən zabit və əsgər sərhədçilərlə, yəni Azərbaycanın birbaşa sərhədlərində xidmət edənlərlə bir çox görüşlər keçirirəm. Onlar olduqca çətin iqlim şəraitində vətənə qulluq edirlər. Məsələn, dağ yüksəkliklərində şərait çox mürəkkəbdir. Lakin ölkə vətəndaşlarının həyatını qoruyan şəxslərə dövlətin gündəlik qayğı göstərməsi olduqca vacibdir. Biz sərhəd xidmətinin inkişafı proqramını davam etdirəcəyik, sərhədçilərin yaşayış şəraitlərini yaxşılaşdıracağıq, məvaciblərini artıracağıq, istirahət və asudə vaxt yerlərini təkmilləşdirəcəyik.

*Dövlətimizin başçısı daha sonra vurğuladı ki, Azərbaycan bundan sonra da regional və beynəlxalq təhlükəsizlik tədbirlərində yaxından iştirak edəcəkdir. Eyni zamanda, ölkəmiz belə tədbirləri keçirməyə də həmişə hazırdır.*

## KALİFORNİYA SENATI VƏ ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Prezident sarayında Kaliforniya Senatı və Assambleyasının nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimizin siyasi, iqtisadi, regional təhlükəsizlik, energetika sahələrində uğurlu əməkdaşlıq etdiyini bildirdi. Dövlətimizin başçısı ABŞ hökumətinin Azərbaycanın neft strategiyasını həyata keçirdiyi ilk vaxtlardan ölkəmizin təşəbbüskarı və fəal iştirakçısı olduğu qlobal enerji layihələrinin reallaşması işinə daim dəstək verdiyini vurğuladı. Prezident İlham Əliyev bu səfərin Azərbaycan haqqında dolğun məlumatın alınması baxımından əhəmiyyətini qeyd edərək dedi ki, Kaliforniya Senatı və Assambleyası nümayəndə heyətinin səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət göstərəcəkdir.*

*Kaliforniya Senatının Səhiyyə komitəsinin sədri xanım Şeyla Kuel rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin yüksək səviyyədə keçdiyini söyləyərək əminliyini vurğuladı ki, bu günlər ərzində Azərbaycan haqqında əldə etdikləri həqiqətlərdən ikitərəfli münasibətlərimizin bütün sahələrində səmərəli istifadə olunacaqdır.*

**YAPONİYANIN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB YASUO FUKUDAYA**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–Yaponiya münasibətlərinin hazırkı inkişaf səviyyəsi böyük məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq əlaqələri, bir çox sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da müvəffəqiyyətlə davam edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2007-ci il*

## «SİVİLİZASİYALARIN DİALOQU: SİYASİ PARTİYALARIN ROLU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Bakı şəhərində «Sivilizasiyaların dialoqu: siyasi partiyaların rolu» mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayıram. Tarixi İpək Yolu üzərində yerləşən Azərbaycanda belə konfransın keçirilməsi dərin rəmzi məna daşıyır. İrimiqyaslı layihələr çərçivəsində Avropa ilə Asiya arasında kommunikasiya və informasiya dəhlizi təşkil edən ölkəmiz üçün bu konfrans müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə imkanlar yaradır.

Dünyada cərəyan edən mürəkkəb proseslər XXI əsrin əvvəlindən sivilizasiyaların dialoqu problemini alimlərin və filosofların müzakirə obyekti olmaqdan çıxarıb, onun siyasi müstəvidə mövcud bir fenomen kimi səciyyələndirilməsini zəruri etmişdir. Bu, hər bir ölkədə baş verən siyasi proseslərin aparıcı qüvvəsi olaraq siyasi partiyalar üçün də taleyüklü məsələyə çevrilmişdir. Ümidvaram ki, sizin konfrans bu sahədə uğurlu dialoqun qurulması baxımından faydalı olacaqdır.

SSRİ-nin dağılması ilə başlanan yeni geosiyasi dövr qloballaşma və informasiya cəmiyyətinin inkişafı kimi mürəkkəb proseslərlə üst-üstə düşmüşdür. Postsovet məkanına daxil olan ölkələrdə partiya quruculuğu prosesi qısa müddət ərzində çoxpartiyalı sistemin bərqərar olmasına gətirib çıxarmışdır. Siyasi və iqtisadi modernizasiya yolu ilə gedən tranzitar ölkələrin siyasi partiyaları bəşər tarixində analoqu olmayan və bu gün üzləşdikləri problemlərin həlli yollarını

axtarır. Sivilizasiyalararası dialoqun qurulması prosesinə onların da öz layiqli töhfələrini verəcəyinə əminəm.

Şərqlə Qərbin qovuşduğu geosiyasi məkanda yerləşən ölkəmiz tarix boyu yüksək tolerantlığını qoruyub saxlamağa nail olmuşdur. Bu baxımdan bizim tarixi keçmişimiz mədəni faktorların sivilizasiyalar arasında konfliktlər üçün münbit zəmin yaratması ideyası tərəfdarlarının yanıldıqlarını sübut edir.

Müxtəlif ölkələrin siyasi elitalarının iştirakı ilə keçirilən konfransınız həm partiyalar arasında əlaqələrin genişlənməsi, qlobal və regional xarakterli problemlərin həlli ətrafında müzakirələrin aparılması, həm də planetimizdə ümumbəşəri dəyərlərin qorunub saxlanması üçün sivilizasiyalararası dialoqun canlandırılması baxımından təqdirəlayiqdir. Bu nəcib amallar naminə forumunuzun işinə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2007-ci il*

## BAKIDA KEÇİRİLƏN «SİVİLİZASİYALARIN DİALOQU: SİYASİ PARTİYALARIN ROLU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARININ BİR QRUPU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Yeni Azərbaycan Partiyasının təşəbbüsü və təşkilatçılığı ilə Bakıda keçirilən «Sivilizasiyaların dialoqu: siyasi partiyaların rolu» mövzusunda beynəlxalq konfransın iştirakçılarının bir qrupunu qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli dostlar, mən sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm və ümidvaram ki, iştirak etdiyiniz konfrans çox uğurlu olacaq, əməkdaşlıq və tərəfdaşlıq üçün yeni imkanlar açacaq və aranızda əməkdaşlığın qurulmasına zəmin yaradacaqdır. Tədbir zamanı ümumi ideyalar da formalaşa bilər. Çünki konfransın mövzusu olduqca əhəmiyyətlidir. Xüsusən də bu, hazırda ən çox müzakirə olunan məsələdir. Sivilizasiyalar arasında dialoq indiki vaxtda çox geniş müzakirə olunur. Dünyanın müxtəlif guşələrində yaşayan insanlar çətinlikləri aradan qaldırmaq və özlərinin həyatını daha təhlükəsiz etmək üçün bir-birini daha yaxşı anlamalı, əməkdaşlıq etməli və bir-birinə kömək etməlidirlər. Bu mövzunun çox müzakirə olunmasına baxmayaraq, əfsuslar olsun ki, reallıqda bəzən biz dünyanın müxtəlif yerlərində, ayrı-ayrı ölkələrdə müəyyən gərginliyi müşahidə edirik. Milli və dini mənsubiyyəti fərqli olan insanlar arasında gərginlik özünü büruzə verir. Bu, bütün

dünya üçün çox təhlükəlidir. Azərbaycanda biz sivilizasiyalararası dialoqa töhfə verilməsinə çalışırıq. Ölkə daxilində dözümlülük çox yüksək səviyyədədir. Burada olduqca səmimi mühit var. Təmsil etdiyiniz ölkələr kimi, Azərbaycan da çoxmillətli ölkədir. Hamımız yaxşı bilirik ki, yalnız daxildə sülh, xalqlar arasında anlaşma və dostluq münasibətlərinin olması ölkənin uğurlu inkişafına xidmət edir. Ona görə konfransın mövzusu bütün dünya üçün və bizim üçün olduqca əhəmiyyətlidir. Biz bu regionda yerləşirik və əlbəttə ki, insanlar üçün daha yaxşı şərait yaratmaq və qonşularla daha münasib əlaqələr qurmaq məqsədi ilə əlimizdən gələni etməliyik. Potensial tərəfdaşlarımızı əməkdaşlıq və dostluq, eləcə də yaradıcı olmaq kimi ümumi ideyalara qoşmalıyıq.

*Latviya Seymi sədrinin müavini xanım Karina Petersone bu konfransın yüksək səviyyədə təşkilinə görə Yeni Azərbaycan Partiyasına minnətdarlığını bildirdi. O, Azərbaycan və Latviya parlamentləri arasında yaxşı münasibətlərin olduğunu, Avropa Şurası Parlament Assambleyası çərçivəsində də ölkələrimizin səmərəli əməkdaşlıq etdiyini xatırlatdı.*

*Latviyaya uğurlu rəsmi səfərini xatırladan dövlətimizin başçısı daimi fəaliyyət göstərən səfirliklərimizin iki ölkə arasında əlaqələrin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənməsinə töhfələr verdiyini söylədi.*

*Rusiyanın Dövlət Duması Xarici əlaqələr komitəsinin sədri, «Yedinaya Rossiya» Partiyasının üzvü Konstantin Kosaçov Azərbaycanın sivilizasiyalararası dialoqun inkişafına hərtərəfli dəstəyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi, ölkəmizin beynəlxalq imicinin durmadan artdığını vurğuladı. «Yedinaya Rossiya» və YAP arasında əməkdaşlıq sazişinin imzalandığını deyən qonaq, təmsil etdiyi partiyanın bu yaxınlarda keçiriləcək qurultayına azərbaycanlı həmkarlarını da dəvət etdiklərini söylədi.*

*Azərbaycan–Rusiya münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev ölkəmizdə rus*

*icmasına da hərtərəfli şərait yaradıldığını, rus dilinə hörmətlə yanaşıldığını, onun geniş işləndiyini söylədi.*

*Hindistanda dövlətə və hökumətə müxtəlif millətləri təmsil edən şəxslərin rəhbərlik etməsini ölkəsində sivilizasiyalar və dinlər arasında anlaşmanın nümunəsi kimi dəyərləndirən Hindistanın Yerli Özünüidarə, Gənclər və İdman, Şimal-Şərq Regionu naziri Mani Şankar Aiyar Bakıda keçirilən beynəlxalq konfransı yüksək qiymətləndirdi.*

*Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamını prezident İlham Əliyevə yetirən Ədalət və İnkişaf Partiyasından millət vəkili Haluk İpək Yeni Azərbaycan Partiyasının ölkəmizin həyatında oynadığı mühüm rolu xüsusi vurğuladı. O, Bakıda keçirilən beynəlxalq konfransın davamı olaraq Türkiyənin müvafiq tədbir keçirmək istədiyini bildirdi.*

*Prezident İlham Əliyev bu vacib və mühüm marama tərəfdar olduğunu dedi, onun salamlarının Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırılmasını xahiş etdi.*

*İslam dininin zorakılıqla heç bir əlaqəsi olmadığını vurğulayan Misir Milli Demokrat Partiyasının xarici əlaqələr üzrə katibi Məhəmməd Abdullah Azərbaycan prezidenti İlham Əliyevin həmin ölkəyə uğurlu səfərini daim xatırladıqlarını, Bakıda təşkil olunan beynəlxalq konfransın ən vacib dünyəvi problemlərdən birinin aradan qaldırılmasına xidmət etdiyini dedi.*

*Misirə səfərini, prezident Hüsnü Mübarəklə görüşünü, aparılan danışıqları məmnunluqla xatırladan prezident İlham Əliyev islam mədəniyyətinin xüsusi rolunu, islam dinini terrorçuluqla bağlamağın düzgün olmadığını, belə cəhdlərin aradan qaldırılması üçün birgə sıx əməkdaşlığın zəruriliyini vurğuladı.*

*Bakıda keçirilən beynəlxalq konfransda Amerika Birləşmiş Ştatlarının həm Demokratlar, həm də Respublikaçılar partiyalarının təmsil olunduğunu xatırladan Demokratlar Partiyası sədrinin müavini xanım Lotti H.Şeyklford sivilizasiyalararası dialoqun genişlənməsini siyasi partiyaların yaxından dəstəkləməsinin vacibliyini bildirdi.*

*Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq təbliğat idarəsi başçısının müavini Van Qoçin ölkəsinin rəhbəri Hu Szintaonun salamını prezident İlham Əliyevə çatdırdı və dövlətimizin başçısının Çinə rəsmi səfərini xatırlatdı. Dövlətlərimiz arasında diplomatik əlaqələr qurulmasının on beşinci ildönümünün olduğunu bildirən qonaq Azərbaycanı bütün məsələlərdə, o cümlədən ərazi bütövlüyü məsələsində bundan sonra da dəstəkləyəcəklərini xüsusi vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanın da Çinə eyni münasibət bəslədiyini bildirdi, özünün də salamının cənab Xu Szintaoya çatdırılmasını xahiş etdi.*

*Moldova parlamentinin deputatı, kommunist fraksiyasının təmsilçisi Semyon Qraqan prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının belə mötəbər beynəlxalq konfransı yüksək səviyyədə təşkil etdiyini vurğuladı. O, builki quraqlıq dövründə Azərbaycanın Moldovaya yaxından köməyinə görə Moldova xalqı adından dərin minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev bunu Azərbaycanın dövlət siyasətinin, eləcə də Moldova ilə münasibətlərə verdiyi mühüm önəmin bariz nümunəsi kimi səciyyələndirdi.*

*Rumıniya parlamentinin deputatı Danut Liqa Azərbaycanın bu konfransı keçirməyə hərtərəfli haqqı çatdığını söylədi. Bütün dövlətlərin ilk növbədə, ərazi bütövlüyü məsələsinə xüsusi diqqət yetirmələrinin vacibliyini vurğuladı.*

*Rumıniyaya işgüzar səfərinin ugurla keçdiyini, prezident Trayan Besesku ilə səmərəli danışıqlar apardıqlarını deyən prezident İlham Əliyev ölkələrin ərazi bütövlüyü məsələsində bütün dövlətlərin vahid mövqedən çıxış etməsinin zəruriliyini xüsusi vurğuladı.*

*İran Partiyaları Evinin Beynəlxalq əlaqələr komitəsinin sədri İslami Sivilizasiya Partiyasının Baş katibi, doktor Seyid Məhəmməd Mir Məhəmmədi Azərbaycan prezidenti İlham Əliyevin bu yaxınlarda İrana edəcəyi səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafına əlavə təkan verəcəyinə əminliyini bildirdi. Bakı konfransının əhəmiyyətini qeyd etdi.*

*Dövlətimizin başçısı gələn ay İrana səfər edəcəyini və iki ölkə arasında əlaqələrin möhkəmlənməsi üçün Azərbaycanın səylərini əsirgəmədiyini söylədi.*

*Azərbaycanda səmimiyyətin və demokratiyanın şahidi olduqlarını söyləyən Yaponiya parlamentinin deputatı Asahiko Mihara prezident İlham Əliyevin ölkəsinə səfərini xatırlatdı və Azərbaycanın dövlət başçısını bir daha Yaponiyada görmək istədiklərini dedi.*

*Prezident İlham Əliyev beynəlxalq konfransın iştirakçılarına ən səmimi arzularını çatdırdı, onlara bu nəcib işlərində uğurlar arzuladı.*

*Görüşün sonunda xatirə şəkli çəkdirdilər.*

## «ŞEVRON» KORPORASİYASININ İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU DEVİD OREYLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında «Şevron» Korporasiyasının İdarə Heyətinin sədri və Baş icraçı direktoru Devid Oreylin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanın «Şevron» şirkəti ilə uzun illər səmərəli əməkdaşlıq etdiyini bildirdi və şirkətin İdarə Heyətinin növbəti toplantısının ölkəmizdə keçirilməsini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev «Şevron» şirkəti ilə uğurlu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Devid Oreyl təmsil etdiyi şirkətin Azərbaycanı mühüm ölkə hesab etdiyini bildirdi və əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğuladı.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir.*

*Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış və əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə edilmişdir.*

## NOBEL MÜKAFATI LAUREATLARI JORES ALFYOROV, İVAR QİAVERİ VƏ YÜKSƏK TEXNOLOGİYALAR ÜZRƏ ALİM YOŞİKAZU NAKAYAMA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Nobel mükafatı laureatları Jores Alfyorovu, İvar Qiaverini və yüksək texnologiyalar üzrə alim Yoşikazu Nakayamanı qəbul etmişdir.*

*Qonaqlar ölkəmizdə böyük inkişafın şahidi olduqlarını bildirdilər və Azərbaycanda keçirilən* «Materialşünaslıq və informasiya elmləri yüksək texnologiyalarda» *mövzusunda birinci beynəlxalq konfransın işində iştirak etmələrindən məmnunluqlarını ifadə etdilər.*

*İlk belə beynəlxalq konfransın ölkəmizdə keçirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Nobel mükafatı laureatlarının, görkəmli elm xadimlərinin ölkəmizə gəlməsini Azərbaycan elminin beynəlxalq əlaqələrinin genişlənməsi işinə töhfə verəcəyini bildirdi.*

## HİNDİSTANIN YERLİ ÖZÜNÜİDARƏ, GƏNCLƏR VƏ İDMAN, ŞİMAL-ŞƏRQ REGİONU NAZİRİ MANİ ŞANKAR AİYAR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Hindistanın Yerli Özünüidarə, Gənclər və İdman, Şimal-Şərq Regionu naziri Mani Şankar Aiyarı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Hindistan münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ ƏRTOĞRUL GÜNAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Prezident sarayında Türkiyənin Mədəniyyət və Turizm naziri Ərtoğrul Günayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev dost və qardaş Azərbaycan və Türkiyə xalqlarının qədim tarixi və mədəni köklərə malik olduğunu qeyd edərək, mədəniyyət sahəsində əlaqələrimizin daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladı. Turizm sahəsində Türkiyənin böyük təcrübəyə malik olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanda da zəngin turizm potensialının olduğunu və bu istiqamətdə mühüm işlərin görüldüyünü bildirdi.*

*Türkiyənin Mədəniyyət və Turizm naziri Ərtoğrul Günay Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gülün salamlarını dövlətimizin başçısına çatdırdı. O, Mədəniyyət və Turizm naziri kimi, Azərbaycana ilk dəfə səfər etməsindən məmnun olduğunu dedi və Türkiyənin Azərbaycanla bütün sahələrdə, o cümlədən mədəniyyət və turizm sahəsində əməkdaşlığın daha da genişləndirilməsinə böyük önəm verdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Türkiyə prezidenti Abdullah Gülün salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı qonaqdan xahiş etdi.*

## BAKIDA MÜASİR TİPLİ BİR KÖRPÜ VƏ İKİ YERALTI PİYADA KEÇİDİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*29 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikası Prezidentinin «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər planının təsdiq edilməsi haqqında» 2006-cı il 2 fevral tarixli sərəncamına uyğun olaraq, paytaxtda 9 yol qovşağı – körpünün və 13 piyada keçidinin tikilməsi nəzərdə tutulmuşdur. Sentyabrın 29-da daha bir körpü və iki yeraltı piyada keçidi istifadəyə verilmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Ziya Bünyadov və Azadlıq prospektlərinin kəsişməsində tikilən yol qovşağının yerləşdiyi əraziyə gəldi. İnşaatçılar, şəhər sakinləri dövlətimizin başçısını hörmətlə qarşıladılar.*

*Prezident İlham Əliyev yol qovşağının layihəsi və göstəriciləri ilə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov və «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov prezident İlham Əliyevə ölkəmizdə nəqliyyat sektorunun inkişafına, yolların təmirinə və yeni infrastrukturun yaradılmasına göstərdiyi diqqət və qayğıya görə təşəkkür edərək məlumat verdilər ki, qovşağın birinci kompleksi üzrə körpü keçidinin uzunluğu 653 metr, o cümlədən yolötürücüsünün uzunluğu 293 metr, eni 23,4 metr, dördzolaqlı hərəkət hissəsinin eni isə 19 metrdir. Körpünün ümumi smeta qiyməti 22,1 milyon manatdır və dünya standartları ilə müqayisədə çox səmərəli və ucuz başa gəlmişdir. Yeni körpü ilə hər gün on minlərlə avtomaşın hərəkət edəcək və Ziya Bünyadov prospektində tıxacların qarşısı alınacaqdır. Estetik və memarlıq baxımından gözəl təsir bağışlayan, indiyədək istifadəyə verilmiş sayca*

*beşinci olan bu körpü Bakı şəhər sakinlərinə, nəqliyyat vasitələrindən istifadə edən insanlara layiqincə xidmət edəcəkdir.*

*Yol qovşağının birinci kompleksi Türkiyənin «Yapılar» şirkəti tərəfindən 16 ay ərzində inşa edilmişdir. Bu işlərdə 300 nəfərdən çox adam çalışmışdır. İşin keyfiyyətlə, layihəyə uyğun yerinə yetirilməsinə xüsusi diqqət yetirilmiş, körpünün ətrafı abadlaşdırılmış, yaşıllıq zolağı salınmış, işıqlandırma sistemi yenidən qurulmuşdur. Bu isə şəhərimizə xüsusi yaraşıq verir.*

**Ziya Məmmədov:** Cənab Prezident, körpülərin hamısı istismara verildikdən sonra şəhərdə nəqliyyat vasitələrinin hərəkəti xeyli asanlaşacaqdır. Sizin tapşırığınıza uyğun olaraq yeni layihələr hazırlayıb təqdim etmişik və razılığınızla gələn ildən onların tikintisinə başlamaq mümkün olacaqdır.

**İlham Əliyev**: Nəqliyyatın hərəkətinin tənzimlənməsində körpülərin müsbət rolu indidən hiss olunur. Əminəm ki, bütün 9 körpü və yolötürücüləri istismara veriləndən, ikinci mərhələdə yeni körpülərin tikintisindən sonra vəziyyət daha da yaxşılaşacaqdır.

**Ziya Məmmədov:** Cənab Prezident, istəyirəm bir layihəni diqqətinizə təqdim edim. Sizin tapşırığınıza uyğun olaraq, biz Bakının mərkəzindən, Heydər Əliyev prospektindən keçməklə hava limanına qədər yolun yenidən qurulması ilə məşğuluq. Yəni yol Sabunçu dairəsinə qədər 12 zolaqlı, oradan hava limanına qədər isə 8 zolaqlı olacaqdır. Biz gələn ilin yanvar ayından bu işlərə başlamaq niyyətindəyik. Digər bir layihə Bakıdan Hövsan istiqamətində yeni magistral yolun tikilməsi ilə bağlıdır və Sizin icazənizi istəyirik. Çünki Heydər Əliyev prospektini bağlayıb işlərə başlayanda alternativ yol hazırlanmalıdır. Məsafə baxımından hər iki yol eynidir. Hövsan ərazisinin əksər hissəsi hazırda boşdur.

**İlham Əliyev**: Hövsanın içindən keçən köhnə bir yol var.

**Z i y a  M ə m m ə d o v:** Bəli. Siz tapşırıq verdiniz ki, yol Hövsanın içərisindən keçməsin. Ona görə bu marşrut daha uyğun oldu. Yəni, əgər Hövsan qəsəbəsinin içindən keçsəydi, məsafə 24 kilometr uzanacaqdı. Bu da məqsədəuyğun deyildir.

**İ l h a m  Ə l i y e v:** Bütövlukdə, ikinci yola böyük ehtiyac var. Çünki indi şəhəri aeroportla birləşdirən yeganə yol Heydər Əliyev prospektidir. Təhlükəsizlik baxımından ancaq o yolla getmək mümkündür. Nəzərə alsaq ki, Heydər Əliyev prospektində genişləndirmə işləri aparılacaq, ikinci yola böyük ehtiyac var. Deyirsiniz, yanvar ayına qədər alternativ yol istismara verilə bilər?

**Z i y a  M ə m m ə d o v:** Bəli.

**C a v i d  Q u r b a n o v:** Cənab Prezident, Hövsandan keçən yolu genişləndirmək mümkün deyil, çünki orada tikinti işləri çox gedir.

**İ l h a m  Ə l i y e v:** Mən bilirəm, o yolu getmişəm.

**C a v i d  Q u r b a n o v:** Fəhlə prospektində bəzi yerlərdə tikililər var, yolu genişləndirmək çətindir.

**H a c ı b a l a  A b u t a l ı b o v** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, bu gün mənə dedilər, sabahdan bu işlə məşğul olacağam.

**İ l h a m  Ə l i y e v:** Şəhərdən aeroporta gərək bu yolla gedib sonra aeroporta dönəsən?!

**Z i y a  M ə m m ə d o v:** Bəli. Alternativ yolun layihəsinə əsasən, bu yol Mərdəkana gedəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Yəni bu, Mərdəkan dairəsinə bağlanacaqdır.

**Z i y a  M ə m m ə d o v:** Bəli, arxa hissədən keçməklə bu dairəyə bağlanacaq və Qalaya gedən yolla birləşəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Oradan da aeroporta gediləcəkdir. Qala yolundan oraya iki dəqiqəlik yoldur.

**Z i y a  M ə m m ə d o v:** Bəli. Ən optimal variant budur.

**C a v i d  Q u r b a n o v:** Bu yolun keçəcəyi ərazini piyada gəzmişik. Hövsanda bəzi yerlərdən qaz, neft boruları,

elektrik xətləri keçdiyindən, yolun tikilməsi üçün problemlər yaranacaqdı. Ona görə bu marşrutu seçdik və o, heç nəyə mane olmur.

**İ l h a m Ə l i y e v:** Təzə yol neçə kilometr olacaqdır?

**C a v i d Q u r b a n o v:** 18 kilometr.

**İ l h a m Ə l i y e v:** Bəs bütövlükdə şəhərdən aeroporta?

**C a v i d Q u r b a n o v:** 40 kilometr. Yəni əvvəlki ilə eyni.

**İ l h a m Ə l i y e v:** Neçə zolaqlı yol olacaq?

**Z i y a M ə m m ə d o v:** Cənab Prezident, 6 zolaqlı etmək istəyirik.

**İ l h a m Ə l i y e v:** Altı yaxşıdır, genişdir. Yolun sağını, solunu abadlaşdırmaq, ağac əkmək lazımdır.

**H a c ı b a l a A b u t a l ı b o v:** Heç bir problem olmayacaq. Yolun bir hissəsi zeytunluğun içindən keçəcəkdir. Ona görə hər iki tərəf yaşıllıq olacaqdır.

**Z i y a M ə m m ə d o v:** Bir hissədə vəziyyət yaxşıdır, amma digər hissə bir az bərbaddır, onu da düzəldəcəyik.

**C a v i d Q u r b a n o v:** Bu yol Bilgəh tərəfə də gedəcək, dənizkənarı ilə Sumqayıta çatdırılacaqdır.

**Z i y a M ə m m ə d o v:** Hazırda iş gedir, dəmir yolu sökülür. Sovet İttifaqı dağılan zaman bu xətti də dağıtmışdılar.

**İ l h a m Ə l i y e v:** Bəli, bilirəm, o xətti görmüşəm. Demək, buradan Mərdəkan dairəsinə birləşəcək və Sumqayıta gedəcəkdir.

**Z i y a M ə m m ə d o v:** Bəli, şimal istiqamətinə gedəcəkdir.

**İ l h a m Ə l i y e v:** Bütün bu bölgədən şimala doğru getmək üçün daha şəhərə gəlməyə ehtiyac olmayacaq, birbaşa gedəcəklər.

**Z i y a M ə m m ə d o v:** Bəli. Eyni zamanda, Sizin yeni tapşırığınızla Sumqayıtdan dənizkənarı ilə şimal sərhədinə qədər yolun layihəsi üzərində də iş gedir.

**İ l h a m Ə l i y e v:** Bəli, onu da hazırlayın.

**C a v i d   Q u r b a n o v:** Cənab Prezident, Sizin sərəncamınıza əsasən, Babək prospektində tikilən körpüdən keçməklə yol Qaraçuxur qəsəbəsinə birləşəcək və oradan Suraxanıya gedəcəkdir. Beləliklə, dairəvi yol tamamlanır. Alternativ üç yol alınır.

**İ l h a m   Ə l i y e v:** O, yaxşı layihədir. Bu yol isə sonra yenə işləyəcək, camaat qəsəbələrə buradan gedəcək.

**Z i y a   M ə m m ə d o v:** Bəli, indi bir hissəsi aeroport, bir hissəsi Hövsan yolundan istifadə edir. Amma bu yol olanda bütün qəsəbələr istifadə edəcəklər. Bu yol çəkiləndən sonra ətrafdakı boş torpaqlardan da istifadə olunacaqdır.

**İ l h a m   Ə l i y e v:** Bu yolu iki aya necə çəkmək olar?!

**Z i y a   M ə m m ə d o v:** Cənab Prezident, Sizin tapşırığınızla Xınalığa iki aya yol çəkmişiksə, bunu da çəkəcəyik. Gələn ilin yanvar ayına hazır olacaqdır.

*Dövlətimizin başçısına xəritələr vasitəsilə bu layihə barədə daha konkret məlumat verildi.*

*Prezident İlham Əliyev körpünün rəmzi açılışını bildirən lenti kəsdi, körpünü gəzdi, işin keyfiyyəti ilə maraqlandı, körpünün alt hissəsinin göstəriciləri ilə tanış oldu.*

*Körpünün divarına «Yolötürücü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı əsasında 2007-ci ildə inşa edilmişdir» sözləri yazılmış xüsusi lövhə vurulmuşdur.*

*Dövlətimizin başçısı Ziya Bünyadov prospekti ilə Azadlıq prospektində inşa olunan yol qovşağının ikinci kompleksinə daxil olan tunelin tikintisi ilə də maraqlandı. Məlumat verildi ki, uzunluğu 300 metr olacaq tunelin tikintisinin smeta dəyəri 17,1 milyon manatdır. Tunelin istifadəyə verilməsi nəqliyyat vasitələrinin həm körpünün üstündən, həm də yerin altı ilə maneəsiz gediş-gəlişi üçün gözəl şərait yaradacaq, müxtəlif istiqamətlərə hərəkətin intensivliyi təmin olunacaqdır. Hazırda işlər gedir. Müəyyən səbəblərdən iş uzansa da, tikintinin 2008-ci ildə başa çatdırılması nəzərdə tutulmuşdur. İkinci*

*komplekslə birlikdə yol qovşağının smeta dəyəri 39,2 milyon manat təşkil edir.*

*Bu əzəmətli yol qovşağının da müasir standartlara cavab verdiyini, xarici görünüşünün də gözəl olduğunu vurğulayan prezident İlham Əliyev müxtəlif istiqamətlərdə salınan ikinci dərəcəli yeni yollara baxdı, paytaxtda avtomobillərin sayının artmasını nəzərə alaraq, nəqliyyat vasitələrinin hərəkətinin asanlaşdırılması, tıxacların aradan qaldırılması məqsədi ilə əlavə tədbirlərin görülməsi, xüsusi planın hazırlanması barədə lazımi tövsiyə və tapşırıqlarını verdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 29-da Heydər Əliyev sarayının qarşısındakı ərazidə, Rəşid Behbudov və Məhəmməd Füzuli küçələrinin kəsişməsində tikilmiş yeraltı piyada keçidinin açılışında iştirak etmişdir. Buraya toplaşan inşaatçılar və paytaxt sakinləri dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər planı»na uyğun tikilən və sayca istifadəyə verilən dördüncü keçidin yerüstü məkanı, ətrafda aparılan yenidənqurma işləri ilə tanış oldu.*

*Bildirildi ki, üst hissədə əraziyə Avropa şəhərləri üçün xarakterik tərzdə, yonulmamış təbii qranit parçalar döşənmişdir. Bir vaxtlar bu, Bakıda da ənənə şəklini almışdı. Bunun yenidən dirçəldilməsi müsbət hal kimi qiymətləndirilə bilər.*

*Dövlətimizin başçısı keçidin rəmzi açılışını bildirən lenti kəsdi, keçidin planı ilə tanış oldu, ərazinin əvvəlki və indiki görünüşünü əks etdirən fotoşəkillərə, texniki otaqlara, kiçik ticarət obyektlərinə baxdı.*

*Məlumat verildi ki, «Akkord» şirkətlər qrupunun inşa etdiyi bu keçid müasir standartlara tam cavab verir. Eni 17 metr, uzunluğu 36 metr olan keçidin dörd çıxışı vardır. Onların hər birində ABŞ-ın «Otis» firmasının istehsalı olan 2 eskalator quraşdırılmışdır. Açıq hava şəraiti üçün nəzərdə tutulmuş*

*eskalatorlar çox etibarlıdır və elektrik enerjisi sərfi azdır. Sərnişin olmadıqda eskalator özü dayanır, sərnişin yaxınlaşdıqda isə yenidən hərəkətə gəlir.*

*Yüksək mühəndis qurğularının tətbiq olunduğu keçidin dünya standartlarına cavab verən isitmə-soyutma, ventilyasiya və yanğın mühafizəsi sistemləri vardır. Paslanmayan materiallardan, güzgü əksi verən alüminium lövhələrin ahəngi açıq zümrüd rəng çalarları ilə harmoniya yaradır. Keyfiyyətli, təbii və süni üzlük materialların tətbiqi yeraltı məkanda gün işığı effekti verir. «Philips» firmasının ən yeni məhsulu olan işıqlandırma sistemi diqqəti cəlb edir. Burada 14 kiçik ticarət dükanı fəaliyyət göstərəcəkdir. Mühafizə və texniki nəzarət də yüksək səviyyədə olacaqdır. Bunun üçün xüsusi nəzarət kameraları qurulmuşdur. Keçiddə daimi olaraq həzin musiqi səsləndirilməsi üçün avadanlıq quraşdırılmışdır. Cari ildə İSO beynəlxalq sertifikatına layiq görülən «Akkord» şirkətlər qrupu tikintidə ən son yeniliklərdən geniş istifadə etmişdir. İnşaat işlərində 50-dən çox adam çalışmışdır.*

*Görülən işləri yüksək qiymətləndirən prezident İlham Əliyev keçidlə Heydər Əliyev adına parka çıxaraq buranı gəzdi, ulu öndərin abidəsini ziyarət etdi. Paytaxtda yenidənqurma işləri zamanı keyfiyyətin və müasirliyin başlıca meyar kimi götürülməsinin zəruriliyini vurğulayan dövlətimizin başçısı parkın ətrafında yerləşən binaların xarici görünüşünün müasirləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verdi.*

* * *

*Prezident İlham Əliyev daha sonra paytaxtın mərkəzində, Bülbül prospekti və Nizami küçəsinin kəsişməsində yerləşən yeraltı piyada keçidinin açılışına gəldi. Buraya toplaşanlar dövlətimizin başçısını hərarətlə salamladılar.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, keçidin tikintisinə 2006-cı il sentyabrın 20-də başlanmış, bu günlərdə işlər tamamlanmışdır. Uzunluğu 45 metr, eni 8 metr, hündürlüyü isə 3 metrdir. Bu keçiddə tikinti işlərini İranın «Saako» şirkəti*

*aparmışdır. Keçidin Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Gənc Tamaşaçılar, Opera və Balet teatrları tərəfə iki çıxışı vardır. Burada müasir işıqlandırma sistemi, təhlükəsizliyin təminatı üçün kameralar və yanğından mühafizə qurğuları qoyulmuşdur. Keçidin smeta dəyəri 3,3 milyon manatdır.*

*Dövlətimizin başçısı keçidin açılışını bildirən lenti kəsdi və yaxından tanış oldu. Bildirildi ki, inşaat işlərində əsasən yerli materiallardan istifadə olunmuş, quraşdırılan dörd eskalator isə Almaniya istehsalıdır. Çıxışlardakı işıqlandırılan ağaclar isə buraya xüsusi yaraşıq verir.*

*Ən gediş-gəlişli yerlərdən birində tikilmiş keçid səliqə-sahmanı, orijinal memarlıq tərtibatı və dizaynı ilə də seçilir. İrandan gətirilmiş yüksək keyfiyyətli material üzərində döymə üsulu ilə hazırlanmış və Nizami Gəncəvinin «İsgəndərnamə», «Sirlər xəzinəsi», «Leyli və Məcnun», «Xosrov və Şirin» və «Yeddi gözəl» poemalarına aid süjetlər keçidin yan divarlarına xüsusi gözəllik verir.*

*Prezident İlham Əliyev ətraf ərazidə aparılan abadlıq işləri ilə maraqlandı, gələcəkdə paytaxtda əlavə 10 yol qovşağının və 3 piyada keçidinin tikilməsi barədə tapşırıq verdi.*

## Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzal Kompleksində tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 29-da Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzal Kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı Bakı–Sumqayıt yolunun üzərində inşa edilən avtovağzalın yerləşdiyi əraziyə gəldi, kompleksin baş planına və maketinə baxdı. Prezidentə məlumat verildi ki, kompleksin inşasına 2004-cü ilin mayından başlanmışdır. Tikinti üçün 3,7 hektar sahə ayrılmışdır. Sifarişçi Nəqliyyat Nazirliyi, Baş podratçı isə «Bakı XXI əsr» şirkətidir. MDB məkanında analoqu olmayan bu avtovağzal kompleksi respublikanın rayonlarına və xarici ölkələrə sərnişin daşınmasını*

*təmin etmək üçün nəzərdə tutulmuşdur. Burada gün ərzində 18–20 min sərnişinə xidmət etmək, 800–950 avtobusu yola salmaq və qəbul etmək mümkün olacaqdır.*

*Əraziyə baxdıqdan sonra dövlətimizin başçısı kompleksin ayrı-ayrı mərtəbələrini gəzdi. Bildirildi ki, kompleksdə 1100 yerlik yeraltı avtomobil dayanacağı, ticarət köşkləri, sərnişin avtobuslarının dayanması üçün meydançalar, müxtəlif xidmət otaqları olacaqdır. Kompleksdə ümumi istilik və ventilyasiya sistemi, videomüşahidə, siqnalizasiya sistemi, işıqlandırma, lift və eskalatorlar proqramlaşdırılaraq bir məntəqədən idarə olunacaqdır. Ümumi sahəsi 164 min kvadratmetr olan kompleksə ibadət otağı, ana və uşaq üçün otaq, poçt, teleqraf, bank, VİP otağı, gözləmə salonu, yeməkxana da daxildir.*

*Ümumiyyətlə, kompleksdə əsas işlərin 70 faizi görülmüşdür. 96 yerlik beşmərtəbəli 3 ulduzlu mehmanxanada tamamlanma işləri gedir. MDB məkanında ilk dəfə olaraq, burada şüşədən asma tavan quraşdırılacaqdır. Ətraf ərazidə böyük istirahət zonası yaradılacaqdır. Havalandırma sistemi və kompozit panel örtüklər Almaniyadan, lift və eskalatorlar Yaponiyadan, nəhəng şüşə asma tavan Birləşmiş Ərəb Əmirliklərindən, mərmər isə İrandan gətirilmişdir. Obyektdə 450-dək işçi çalışır, orta aylıq əməkhaqqı 350–400 manatdır. Kompleks istismara veriləndən sonra burada ümumilikdə 2500–3000 yeni iş yeri açılacaqdır. Avtovağzalın gələn ilin birinci rübündə istifadəyə verilməsi planlaşdırılır.*

*Prezident İlham Əliyev tikinti işlərinin yüksək səviyyədə aparılması və vaxtında başa çatdırılması barədə tapşırıq və tövsiyələrini verdi.*

## MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayi*

*1 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Prezident sarayında qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə müsəlman ölkələrinin Bakıdakı fövqəladə və səlahiyyətli səfirlərini qəbul etmişdir.*

**İlham Əliyev**: Hörmətli səfirlər, sizi görməyimə çox şadam. Mən sizin hamınızı müqəddəs Ramazan bayramı münasibətilə təbrik etmək istəyirəm və təmsil etdiyiniz ölkələrin xalqlarına, dövlət və hökumət başçılarına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmağınızı xahiş edirəm.

Ölkələrimiz arasında çox fəal və səmərəli əməkdaşlıq mövcuddur. Müsəlman ölkələrinin Azərbaycanda fəaliyyət göstərən səfirlikləri Azərbaycan ilə təmsil etdiyiniz ölkələr arasında əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayır. Bildiyiniz kimi, Azərbaycan qarşılıqlı əməkdaşlığın sürətləndirilməsi, tərəfdaşlığın və dostluğun inkişafı üçün xarici ölkələrdə fəal şəkildə yeni səfirliklərini açır. Biz islam həmrəyliyi işinə öz tərəfimizdən töhfə veririk və hesab edirik ki, müsəlman ölkələri arasındakı siyasi münasibətlər, iqtisadi əməkdaşlıq çətinlikləri aradan qaldırmağa və iqtisadiyyatı daha güclü şəkildə inkişaf etdirməyə imkan yaradacaqdır. Fikrimcə, bu da öz növbəsində regional iqtisadi proseslərin sürətləndirilməsi işinə xidmət edəcəkdir. Bu baxımdan Azərbaycan bu sahədə oynadığı rolu bundan sonra da davam

etdirəcəkdir. Biz beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirdiyimiz əməkdaşlıqdan razıyıq, İslam Konfransı Təşkilatı çərçivəsində işbirliyi qurmuşuq və ümid edirəm ki, bu təşkilat gələcəkdə beynəlxalq səviyyədə öz rolunu və mövqeyini daha da möhkəmləndirəcəkdir.

Bildiyiniz kimi, ötən il Azərbaycanda İKT nazirlərinin iki mühüm görüşü keçirilmişdir və bu tədbirlər Azərbaycana hələ səfər etməmiş müsəlman ölkələrinin nazirləri üçün ölkəmizlə daha yaxından tanış olmaq imkanını yaratdı. İslam Konfransı Təşkilatı həmçinin Birləşmiş Millətlər Təşkilatında sarsılmaz həmrəylik mövqelərimizi daha da gücləndirir. İstər Birləşmiş Millətlər Təşkilatında, istərsə də hər hansı digər beynəlxalq təşkilatlarda müxtəlif məsələlər üzrə müzakirələr və səsvermələr zamanı Azərbaycan müsəlman ölkələrini dəstəkləyir. Biz qardaş müsəlman ölkələri tərəfindən Azərbaycana da eyni münasibəti görürük. Mövqeyimiz dəstəklənir, Azərbaycan özünün bir nömrəli problemi olan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq təşkilatlarda müzakirə olunarkən hər zaman müsəlman ölkələrinin dəstəyini hiss edir. Bildiyiniz kimi, İslam Konfransı Təşkilatı münaqişənin Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həllinə dair bir sıra qətnamələr qəbul etmişdir.

Mən bir daha bildirmək istəyirəm ki, biz ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən məmnunuq. Qeyd edərdim ki, gələcək xarici siyasət gündəliyimizdə də islam həmrəyliyi məsələsi önəmli rol oynayacaq və bu cür məsələlər hər zaman bizim diqqət mərkəzimizdə qalacaqdır.

Mən bir daha tərəfdaşlığımızdan məmnunluğu ifadə edərək ölkələrinizin dövlət və hökumət başçılarına, xalqlarınıza şəxsi təbriklərimi çatdırmağınızı xahiş edirəm. Mən prezidentliyimin 4 ili ərzində müsəlman dünyasının bir çox ölkələrinə səfər etmişəm və eyni zamanda, bir çox müsəlman ölkələrinin rəhbərləri burada mənim qonağım olmuşlar. Bu proses davam edir və əminəm ki, gələcəkdə də uğurla davam edəcəkdir.

**Ə l i  H ə s ə n  Ə h m ə d  C ə f ə r** (*Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri, ölkəmizdəki diplomatik korpusun duayeni*): Cənab Prezident, mən və səfir həmkarlarım zati-alilərininiz tərəfindən qəbul olunmağımızdan və müqəddəs Ramazan bayramı münasibətilə Sizi və Sizin simanızda Azərbaycan xalqını təbrik etməkdən şərəf duyuruq.

Cənab Prezident, icazə verin, səfirlər tərəfindən hazırlanmış birgə bəyanatı diqqətinizə çatdıraq. Zati-aliləri, səfirlər arasında əldə olunmuş razılığa görə, həmin birgə bəyanatı oxumaq üçün, icazənizlə, sözü Misir səfirinə verim.

**İ b r a h i m  ə l - Ş ə r k a v i** (*Misirin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri)*: Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Zati-aliləri, Azərbaycan Respublikasında akkreditə olunmuş müsəlman ölkələrinin səfirləri adından və şəxsən öz adımdan böyük məmnuniyyətlə müqəddəs Ramazan ayı və qarşıdan gələn iftar münasibətilə Sizə və qardaş Azərbaycan xalqına ən xoş arzuları və səmimi təbrikləri çatdırmaq istəyirəm.

Eyni zamanda, bu fürsətdən istifadə edərək, müsəlman ölkələrinin səfirləri ilə keçirdiyiniz ənənəvi görüşlərə görə zati-alilərinizə minnətdarlığımızı bildiririk.

Azərbaycanın bütün Qafqaz regionunun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildiyi bir vaxtda ölkənizdə olmağımızdan şərəf və fərəh hissi duyuruq.

Azərbaycan iqtisadiyyatı bütün istiqamətlərdə inkişaf etməkdədir. Bu gün ölkədə həyata keçirilən iqtisadi islahatlar nəticəsində neft və qeyri-neft sektorları uğurla inkişaf edir. Son illər ərzində iqtisadi potensialını möhkəmləndirən Azərbaycan illik iqtisadi artımını təqribən 40 faiz səviyyəsinə qaldıra bilmişdir və bu rəqəm beynəlxalq iqtisadi təşkilatlar tərəfindən təsdiq edilir.

Eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycanda bərqərar olunmuş daxili sabitlik və əmin-amanlıq böyük əhəmiyyət kəsb edir.

Zati-aliləri, hər zaman olduğu kimi, müsəlman ölkələri indi də Dağlıq Qarabağ probleminin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq normaları əsasında həllini və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini dəstəkləyir.

Azərbaycan tolerantlığın bariz nümunəsidir. Bu, burada əyləşən həmkarlarımız, səfirlər, eləcə də bir çox yerli və beynəlxalq müşahidəçilər və təşkilatlar tərəfindən qeyd edilir.

Zati-aliləri, icazə verin, müqəddəs bayram münasibətilə Sizə həmkarlarımız, müsəlman ölkələrinin səfirləri adından bir daha ən səmimi təbriklərimi çatdırım və məmnunluq hisslərimizi Sizinlə bölüşək.

Qadir Allahdan qardaş Azərbaycan Respublikasının xalqına və böyük müsəlman ümmətinə daimi sülh, tərəqqi və rifah diləyirəm.

Zati-aliləri, Ramazan bayramınız mübarək!

**İlham Əliyev**: Xoş sözlərinizə görə sağ olun, cənab səfir.

Mən bütün qardaş müsəlman ölkələrinin istəklərini əks etdirən bu bəyanatı dinləməkdən çox məmnun oldum. Müstəqilliyin lap başlanğıcından biz müsəlman ölkələrinin dəstəyini hər zaman hiss etmişik. Həmin vaxt Azərbaycan bir çox problemlərlə – siyasi, sosial, iqtisadi problemlərlə üzləşmiş gənc ölkə idi. O dövrdə Azərbaycan Ermənistanın hücumu və erməni terror təşkilatlarının terror aktları hədəfində idi. Daxili vəziyyət çox mürəkkəb idi. Vətəndaş müharibəsi gedirdi. Müstəqilliyimizin əvvəlində və hazırda müsəlman ölkələri tərəfindən möhkəm dəstək bizə əlavə güc verir. Beynəlxalq təşkilatlarda biz hər zaman sizin dəstəyinizə arxalanırıq və bunu həmişə görürük.

Vaxt keçdikcə Azərbaycan üzləşdiyi çətinlikləri aradan qaldıra bildi. Ölkəmiz öz növbəsində müsəlman həmrəyliyinin gücləndirilməsi işinə töhfəsini verməyə başladı. Bu gün siz də bizə arxalana bilərsiniz. Biz beynəlxalq təşkilatlarda müxtəlif məsələlər üzrə müsəlman ölkələrini dəstəkləyirik.

Bu bizim aydın siyasi xəttimizdir, səmimi münasibətimizdir. Mən qəti şəkildə inanıram ki, hamımız tərəfdaşlığımızı gücləndirmək, bir-birimizə dəstək vermək üçün çalışmalıyıq. Çünki ölkələrimiz yalnız qarşılıqlı dəstək mühitində uğurla inkişaf edə bilər.

Çox şadam ki, müsəlman ölkələri ilə iqtisadi, mədəni sahələrdəki əməkdaşlığımız və siyasi münasibətlərimiz möhkəmlənir. Mən məmnunluqla qeyd etmək istərdim ki, burada təmsil etdiyiniz ölkələrin, demək olar ki, hamısına səfər etmişəm. Eyni zamanda, bu ölkələrin rəhbərləri də Azərbaycanda səfərdə olmuşlar. Əminəm ki, bu səfərlər gələcəkdə də davam etdiriləcəkdir.

Qeyd etdiyiniz kimi, indi Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilmişdir. Gələcəkdə geniş perspektivlərimiz var. Ölkəmizdə tam siyasi sabitlik, millətlərarası sülh mövcuddur. Azərbaycanda bir çox millətlərin və dinlərin nümayəndələri yaşayır. Hər bir vətəndaşımız bərabər hüquq və azadlıqlara malikdir. Biz bununla fəxr edirik. 15 il böyük tarix, vaxt bölümü deyil, lakin bu illər ərzində müstəqilliyimiz və iqtisadi inkişafımız daha da möhkəmlənmişdir.

Mən sizi bir daha təbrik etmək istəyirəm, sizin hamınıza və xalqlarınıza uğurlar, ölkələrinizə sülh, islam dininin və müsəlman xalqlarının sivilizasiyaların inkişafında oynadığı rolun dünyada daha yaxşı anlaşılmasını arzulayıram. Əminəm ki, birgə səylərlə bütün məqsədlərə nail olacağıq.

## YORK HERSOQU ENDRYU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Böyük Britaniyanın «British Midlənd» avia-şirkətinin Azərbaycanda fəaliyyətə başlaması ilə əlaqədar ölkəmizə gəlmiş York hersoqu Endryunu qəbul etmişdir.*

*Görüş zamanı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olunmuş, «British Midlənd» aviaşirkətinin Azərbaycanda fəaliyyətə başlamasının bu əlaqələrin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminlik vurğulanmışdır.*

## «QARA DƏNİZ VƏ XƏZƏR DƏNİZİ REGİONUNDA BİRBAŞA XARİCİ İNVESTİSİYALAR» BEYNƏLXALQ KONFRANSININ VƏ BİZNES-FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli konfrans və forum iştirakçıları!

Sizi – «Qara dəniz və Xəzər dənizi regionunda birbaşa xarici investisiyalar» Beynəlxalq Konfransının və biznes-forumunun iştirakçılarını salamlayır, işlərinizdə müvəffəqiyyətlər arzulayıram!

Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatlar nəticəsində iqtisadi inkişafda nəzərəçarpan irəliləyiş əldə olunmuşdur. Qeyri-neft sektorunun genişləndirilməsi, iqtisadiyyatın diversifikasiyası, müasir infrastrukturun qurulması ölkədə sosial-iqtisadi inkişafın dinamikliyini təmin edən əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

Ölkəmizdə bərqərar olmuş siyasi sabitlik və demokratik mühit bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan iqtisadi sistemin formalaşmasına güclü təkan vermişdir.

Azərbaycanda xarici investisiya yatırımları üçün əlverişli şərait yaradılmış və bu proses dövlət tərəfindən daim dəstəklənir. Bu gün respublikamızın mövcud iqtisadi durumu və investisiya mühiti iş adamlarına sərbəst şəkildə fəaliyyət göstərmək imkanı verir. Tarixi «Böyük İpək Yolu» kimi tanınmış şərq–qərb, habelə şimal-cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz regionda əhəmiyyətli sənaye-ticarət mərkəzinə çevrilməkdədir.

Uğurla həyata keçirilən «Bakı–Tbilisi–Ceyhan», «Bakı–Tbilisi–Ərzurum» və «Bakı–Tbilisi–Qars» kimi meqalayihələr nəinki region miqyasında, habelə bütün Avrasiya məkanı üçün xüsusi əhəmiyyətə malikdir. Bu qlobal partnyor-

luq Qara dəniz və Xəzər dənizi regionunu ədalətli və bərabər əməkdaşlıq meydanına çevirmiş, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsini təmin etmişdir.

Ümidvaram ki, bu konfrans və biznes-forum həm Azərbaycan, həm də regionun digər ölkələri üçün maraqlı və faydalı olacaq, gələcək birgə layihələrimizin gerçəkləşdirilməsinə əsaslı zəmin yaradacaqdır.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 oktyabr 2007-ci il*

## QARA DƏNİZ VƏ XƏZƏR DƏNİZİ SAHİBKARLAR KONFEDERASİYALARI BİRLİYİNİN VƏ TÜRK SƏNAYEÇİLƏRİ VƏ İŞ ADAMLARI BİRLİYİNİN PREZİDENTİ ARZUXAN DOĞAN, MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ AKKAN SUVERİ VƏ ATA HOLDİNQİN BAŞ DİREKTORU ƏHMƏD ERENTOK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayinda Qara Dəniz və Xəzər Dənizi Sahibkarlar Konfederasiyaları Birliyinin və Türk Sənayeçiləri və İş Adamları Birliyinin prezidenti Arzuxan Doğanı, Mərmərə qrupu vəqfinin sədri Akkan Suveri və ATA Holdinqin Baş direktoru Əhməd Erentoku qəbul etmişdir.*

*Azərbaycan prezidenti ölkəmizdə "Qara dəniz və Xəzər dənizi regionunda birbaşa xarici investisiyalar" mövzusunda beynəlxalq konfransın keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu qeyd etdi və konfrans iştirakçılarına təbrik məktubu ünvanladığını bildirdi. Prezident İlham Əliyev belə tədbirlərin regional əməkdaşlıq məsələlərinə dəyərli töhfə verdiyini dedi.*

*Arzuxan Doğan bu konfransın keçirilməsini yüksək qiymətləndirdiklərini qeyd etdi. O, konfransın istər bütövlükdə region üçün, istərsə də Azərbaycan–Türkiyə əlaqələrinin inkişafı baxımından əhəmiyyətli olacağını vurğuladı.*

## XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STEPAN MESİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 oktyabr 2007-ci il*

*Oktyabrın 2-də Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiç Azərbaycana rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Xorvatiyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Xorvatiya dövlətinin başçısını təyyarənin pilləkəni yanında Azərbaycanın Baş naziri Artur Rasizadə və digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli uşaqlar Xorvatiya prezidentinə gül dəstəsi təqdim etdilər.*

*Hava limanının ali qonaqlar üçün salonunda prezident Stepan Mesiç və Baş nazir Artur Rasizadə arasında qısa protokol söhbəti oldu.*

*Xorvatiya prezidenti hava limanından Fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə şəhərə yola düşdü.*

* * *

*Oktyabrın 2-də Prezident sarayında Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiçin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın qarşısındakı rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Xorvatiya prezidenti Stepan Mesiçi səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Xorvatiya prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Xorvatiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Xorvatiya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın rəsmi şəxsləri Xorvatiya prezidenti Stepan Mesiçə, Xorvatiya nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim edildi.*

*Dövlət başçıları Prezident sarayında xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STEPAN MESİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

*2 oktyabr 2007-ci il*

*Oktyabrın 2-də Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiçin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iqtisadi əməkdaşlığın genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi. Prezidentlər əminliklə vurğuladılar ki, ölkələrimizin iqtisadi və digər sahələrdə əlaqələri bundan sonra da genişlənəcəkdir.*

*Görüşdə həmçinin bildirildi ki, Azərbaycan və Xorvatiya beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edirlər.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olundu.*

## AZƏRBAYCAN VƏ XORVATİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Oktyabrın 2-də Prezident sarayinda Azərbaycan prezidenti İlham Əliyevin və Xorvatiya prezidenti Stepan Mesiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Mən əminəm ki, Sizin səfəriniz və burada aparılacaq danışıqlar, imzalanacaq sənədlər bizim aramızda olan münasibətləri daha da yüksək pilləyə qaldıracaqdır.

Ölkələrimiz arasında siyasi əlaqələr çox sürətlə inkişaf edir. Mən iki il bundan əvvəl Sizin ölkənizə səfərimi xatırlayıram və o səfərdən sonra müxtəlif səviyyələrdə əlaqələr xeyli dərəcədə genişlənmişdir.

Sizin səfəriniz çərçivəsində həm yeni sənədlər imzalanacaq, eyni zamanda, sabah iş adamlarının biznes-forumu keçiriləcəkdir. O da öz növbəsində iqtisadi əlaqələrin inkişafı üçün çox önəmli bir vasitə olacaqdır. Bir sözlə, mən əminəm ki, Sizin səfəriniz çox uğurlu olacaq və səfərdən sonra əlaqələrimiz daha da sürətlə irəliyə gedəcəkdir.

**Stepan Mesiç:** Cənab Prezident, çox sağ olun.

Biz təkbətək görüşdə çox mövzuları müzakirə etdik. İndi isə bu məsələlər barədə daha geniş müzakirələr aparmaq imkanı qazandıq. Hər iki tərəfin çox böyük potensialı var və eyni zamanda, əməkdaşlıq üçün siyasi iradə də var. Lakin bu günə qədər hər iki ölkə arasında iqtisadi təmaslar o qədər də çox olmamışdır.

Siz tamamilə düzgün qeyd etdiniz ki, nümayəndə heyətlərimiz arasında uğurlu və intensiv danışıqlar aparılacaq və

təbii ki, fikir mübadiləsi hər iki tərəfin keçirəcəyi biznes-forumun çərçivəsində davam etdiriləcəkdir.

## Sənədlərin imzalanma mərasimi

*Oktyabrın 2-də Prezident sarayında, Azərbaycan prezidenti İlham Əliyevin və Xorvatiya prezidenti Stepan Mesiçin geniş tərkibdə görüşündən sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan–Xorvatiya sənədlərinin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında birgə bəyannaməni Azərbaycan prezidenti İlham Əliyev və Xorvatiya prezidenti Stepan Mesiç imzaladılar.*

*Azərbaycanın Ticarət və Sənaye Palatası və Xorvatiyanın İqtisadiyyat Palatası arasında sazişi Azərbaycan tərəfindən Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Tatlıyev, Xorvatiya tərəfindən İqtisadiyyat Palatasının prezidenti Nadan Vidoşeviç imzaladılar.*

*Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi yanında Diplomatik Akademiya ilə Xorvatiya Respublikası Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyinin Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Xarici İşlər Nazirliyi yanında Diplomatik Akademiyanın rektoru Hafiz Paşayev, Xorvatiya tərəfindən Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyinin Dövlət katibi Zeljko Kuperşak imzaladılar.*

*Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Xorvatiya Respublikasının İqtisadiyyat, Əmək və Sahibkarlıq Nazirliyi arasında əməkdaşlıq haqqında memorandumu, habelə Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Heydər Babayev, Xorvatiya tərəfindən Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyinin Dövlət katibi Zeljko Kuperşak imzaladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STEPAN MESİÇİN BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident sarayı*

*2 oktyabr 2007-ci il*

*Oktyabrın 2-də Prezident sarayında, sənədlərin imzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Xorvatiya prezidenti Stepan Mesiçin birgə mətbuat konfransı keçirilmişdir.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün Xorvatiyanın prezidenti cənab Mesiçin Azərbaycana ilk rəsmi səfəridir və deyə bilərəm ki, səfərin yekunları çox uğurludur. Bu gün biz çox geniş fikir mübadiləsi apardıq. İkitərəfli münasibətlər geniş təhlil edildi. Gələcək əməkdaşlığımızın perspektivləri müəyyən olundu. Bildiyiniz kimi, iki il bundan əvvəl mən Xorvatiyaya rəsmi səfər etmişdim və o səfərdən sonra keçən dövr ərzində bizim aramızda həm siyasi, həm iqtisadi əlaqələr inkişaf etməkdədir. Bu gün həm də ikitərəfli münasibətlər, regional vəziyyət geniş şəkildə müzakirə olundu. Beynəlxalq məsələlərə diqqət yetirildi. Bildiyiniz kimi, sabah Xorvatiya–Azərbaycan biznes-foru-

mu keçiriləcək və əminəm ki, forumun yekunları uğurlu olacaq və bizim aramızda iqtisadi əməkdaşlıq daha da sürətlə artacaqdır. Bunu deməyə böyük əsas var. İqtisadi potensial hər iki ölkədə artmaqdadır. İqtisadi islahatlar uğurla davam etdirilir. Qarşılıqlı maraq doğuran iqtisadi məsələlər kifayət qədər çoxdur. Mən əminəm ki, sabah keçiriləcək tədbirdə iqtisadi əməkdaşlığın yeni sahələri üzə çıxacaqdır. Biz bunda maraqlıyıq. Hesab edirik ki, çox fəal siyasi dialoqun aparılması ilə bərabər, iqtisadi əlaqələr də inkişaf etməlidir. Əlbəttə ki, forumda Xorvatiyanın potensialı Azərbaycan biznesmenləri üçün, Azərbaycanın potensialı Xorvatiya biznesmenləri üçün təqdim olunacaqdır.

Bu gün imzalanmış sənədlər də ölkələrimiz arasında münasibətlərin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Həm iqtisadi sazişlər, həm də ki, birgə bəyannamə. Bəyannamədə bizim siyasi niyyətlərimiz ifadə edilir. İkitərəfli münasibətlər, bizim beynəlxalq təşkilatlarda əməkdaşlığımız əks olunur. Xorvatiya və Azərbaycan Avroatlantik strukturlarına inteqrasiya siyasətini uğurla aparır. Eyni zamanda, bölgənin ən böyük təhlükə mənbəyi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları da müştərək bəyannamədə göstərilmiş və münaqişənin ölkələrin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı çərçivəsində həll olunması vurğulanmışdır. Hesab edirəm ki, bu çox önəmli məsələdir, ikitərəfli münasibətlərimizin çox vacib elementidir və əlbəttə ki, gələcək birgə fəaliyyətimizdə bəyannamədə əks olunan bütün müddəaları həyata keçirəcəyik.

Mən demək istəyirəm ki, ikitərəfli münasibətlərin çox gözəl perspektivləri var. Bizim ölkələrimiz yeni müstəqil dövlətlərdir. Hər ikisi vaxtilə başqa ölkələrin tərkibində olmuşdur və sadəcə, 15 ildən bir az çox müddət ərzində biz müstəqil ölkələr kimi yaşayırıq, inkişaf edirik. Artıq bütün dünya görür ki, müstəqil ölkələr kimi, biz böyük uğurlar əldə edə bilmişik. Bu müddət ərzində münasibətlərimiz inkişaf edibdir. Ancaq ən sürətli inkişaf son bir neçə il ərzində

olmuşdur və dövlət başçılarının qarşılıqlı səfərləri bunun əyani sübutudur. Aramızda imzalanmış sənədlər, aparılan danışıqlar və əməkdaşlığımızın gələcəyi deməyə əsas verir ki, iki ölkə öz aralarında münasibətlərin inkişafında bundan sonra da əməli səylər göstərəcəkdir. Mən bir daha hörmətli prezident Mesiçi və nümayəndə heyətini Azərbaycanda salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, səfər çox uğurlu olacaq və bizim qonaqlarımız öz vətəninə ən xoş təəssüratlarla qayıdacaqlar.

Sağ olun.

**Xorvatiya prezidenti Stepan Mesiçin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Prezident Əliyevlə və onun əməkdaşları ilə danışıqlarımız indicə başa çatdı. Mən istər ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri məsələsinə dair, istərsə də hər iki dövlət üçün maraq doğuran geniş formatlı beynəlxalq münasibətlər məsələlərinə dair fikir mübadiləsi apardığımız dostluq və səmimiyyət şəraitindən məmnun qaldım.

Bu mənim Azərbaycan Respublikasına ilk rəsmi səfərimdir, lakin əslində prezident Əliyev və mən iki il bundan əvvəl, cənab prezidentin Zaqrebə səfərinin gedişində əsası qoyulmuş danışıqları bu gün yalnız davam etdirdik. Prezident Əliyevin səfəri ölkələrimizin qarşılıqlı münasibətləri inkişaf etdirməyə hazır olmaları barədə müəyyən mənada işarə idisə, mənim Bakıya səfərim təkcə Xorvatiyanın deyil, həm də Azərbaycanın bu qarşılıqlı münasibətlərin daha da yaxşılaşdırılmasına yeni, güclü təkan vermək arzusunu nümayiş etdirməlidir.

Biz ümumi fikirdəyik ki, belə demək olarsa, ikitərəfli münasibətlərin genişlənməsinin açarı iqtisadi əməkdaşlıqdır.

Biz hər ikimiz razılaşırıq ki, indiki məqamda iqtisadi əməkdaşlıq lazımi səviyyədə deyil, məsələyə hər iki ölkənin

obyektiv mövcud imkanları və maraqları baxımından yanaşdıqda isə, bu əməkdaşlıq qənaətbəxş deyildir. Məhz buna görə də mənimlə birlikdə Xorvatiyanın aparıcı şirkətlərinin nümayəndələri də gəlmişlər. Onlar iqtisadi forumda öz azərbaycanlı həmkarları ilə iqtisadiyyat sahəsində daha yaxşı, daha geniş və daha çoxşaxəli əməkdaşlıq imkanlarını müzakirə edəcəklər.

Mənə xoşdur ki, bu səfərim həm də Xorvatiya–Azərbaycan tərəfdaşlıq münasibətlərinin genişlənməsi üçün zəruri tədbir olan hüquqi çərçivələri genişləndirəcək dövlətlərarası saziş imzalanması üçün bir fürsətdir.

Bizim ölkələrimizin münasibətlərində açıq qalan və ya həll edilməmiş məsələlər yoxdur. Biz razılaşdıq ki, ölkələrimizin əməkdaşlığı tam hüquq bərabərliyi və qarşılıqlı mənafelərin təmin edilməsi çərçivəsində həyata keçirilir. Biz həmçinin ümumi fikrə gəldik ki, çoxtərəfli münasibətlər baxımından, ilk növbədə BMT çərçivəsində əməkdaşlıq üçün imkan vardır. Bununla əlaqədar bəri başdan deyirəm ki, Xorvatiya Respublikası BMT-nin yaşadığımız dünyanın çağırışlarının öhdəsindən daha yaxşı gələ bilməsi üçün əsaslı dəyişikliklər tələb olunduğunu başa düşərək, bu təşkilatda islahatlar aparılması prosesini tamamilə dəstəkləyir.

Biz ölkələrimizin yerləşdiyi regionlarda vəziyyəti də müzakirə etdik. Öz regionlarımızda vəziyyətin sabitləşdirilməsinə konstruktiv töhfəmizi verməyə hazırıq və fikirlərimiz tamamilə üst-üstə düşür ki, gələcəkdə qarşılaşa biləcəyimiz potensial böhranlarla yanaşı, açıq qalan məsələlər və böhran ocaqları mövcuddur, bunları dinc yollarla, danışıqlar vasitəsilə, beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsində təsbit olunmuş prinsiplərə, eləcə də BMT-nin, digər beynəlxalq idarə və təşkilatların mühüm qətnamələrində nəzərdə tutulan müddəalara əsaslanmaqla tənzimləmək lazımdır.

Bu prinsipial mövqe həm regionlardakı vəziyyətə, həm də beynəlxalq aləmdəki şəraitə münasibətdə düzgün mövqedir.

Bu gün burada olduğuma görə şadam və hesab edirəm ki, danışıqlarımız faydalı olmuşdur. Arzum budur ki, bizim qarşılıqlı münasibətlərimiz hər iki ölkənin xeyrinə, bu ölkələrin yerləşdiyi regionların xeyrinə, bütövlükdə beynəlxalq birliyin xeyrinə daha da inkişaf etsin. Bütün səviyyələrdə əlaqələrimizin davam etdirilməsini zəruri sayıram, prezident Əliyevi isə onun özü üçün münasib hesab etdiyi vaxtda Xorvatiyaya səfərə dəvət etmək istərdim.

Sağ olun!

* * *

*Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.*

**– Mənim sualım Xorvatiya prezidentinədir. Cənab Prezident, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın konkret hansı sahələrdə perspektivləri var?**

**S t e p a n  M e s i ç**: Danışıqlar zamanı mən qeyd etdim ki, bizim üçün Azərbaycanla əməkdaşlıq çox vacibdir. Söhbət ondan ibarətdir ki, bütün Avropada ən yüksək iqtisadi artıma malik olan ölkənizlə əməkdaşlıq istənilən bir ölkə üçün, o cümlədən Xorvatiya üçün maraqlıdır. Azərbaycan bu gün böyük potensiala malikdir. Eyni zamanda, Xorvatiyanın da elə potensialları var ki, bunlar Azərbaycan üçün maraqlı ola bilər. Biz əməkdaşlığımızın konkret imkanları haqqında danışdıq. Əczaçılıq, tikinti, neft və qaz ehtiyatlarının işlənilməsi, gəmiqayırma sahələrinə toxunduq. Bir sözlə, maraq doğuran çox sahələr var və biz o sahələrdə əməkdaşlıq edə bilərik. Prezident Əliyevin Xorvatiyaya səfərindən və mənim bu səfərimdən sonra əməkdaşlığı genişləndiririk. Bizim siyasi iradəmiz real əməkdaşlıq formasını almalıdır.

**– Mənim sualım Azərbaycan prezidentinədir. Cənab Prezident, ölkələrimiz arasındakı fəal siyasi dialoq Xəzər hövzəsi ilə bağlı əməkdaşlığa hansı töhfəni verəcək? Çox sağ olun.**

**İ l h a m  Ə l i y e v:** Bu barədə biz bu gün prezident Mesiçlə geniş fikir mübadiləsi apardıq. Hazırda Avropanın

enerji təhlükəsizliyinin təmin olunmasında Xəzər dənizinin rolu artmaqdadır və Xəzəryanı ölkə kimi, Azərbaycan bu sahədə öz töhfəsini verir. Bildiyiniz kimi, keçən ilin sonunda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Bununla yanaşı, Azərbaycan Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə qoşulmuşdur. İndi biz öz neft-qaz resurslarımızı yeni tikilmiş neft və qaz kəmərləri vasitəsilə dünya bazarlarına çatdırırıq, artıq Gürcüstan və Türkiyə bazarlarını Azərbaycan qazı ilə təmin edirik. Bizim planlarımızda qaz hasilatını artırmaq və onu Avropanın başqa ölkələrinə çatdırmaq durur. Bu baxımdan Mərkəzi Avropa ölkələri ilə əməkdaşlığımız bizim üçün yeni imkanlar açır. Eyni zamanda, Balkan yarımadasında yerləşən ölkələrlə bu sahədə əməkdaşlıq mümkündür və bu, qarşılıqlı maraqlar əsasında qurulmalıdır. Azərbaycanın çox böyük və zəngin neft-qaz yataqları vardır. Azərbaycan öz neft-qaz strategiyasını uğurla icra edir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır. Üç neft kəməri, bir qaz kəməri Azərbaycan neftini və qazını müxtəlif yollarla dünya bazarlarına çatdırır. Əminəm ki, gələcək əməkdaşlıq perspektivləri daha da geniş olacaqdır. İndi Xəzər dənizi və Qara dəniz hövzələri arasında çox ciddi enerji dialoqu aparılır. Nəqliyyat infrastrukturu yeniləşir. Şübhəsiz ki, Adriatik dənizi sahillərində yerləşən ölkələr də bu dialoqa fəal şəkildə qoşula bilər. Bizim buna marağımız var və bu sahədə əməkdaşlığın praktik məqamları, əlbəttə ki, çox ciddi araşdırılmalıdır. Burada həm siyasi, həm də iqtisadi məsələlər öyrənilməlidir.

Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STEPAN MESİÇİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Gülüstan sarayı*

*2 oktyabr 2007-ci il*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli cənab Prezident!
Xanımlar və cənablar!
Cənab Prezident, ilk növbədə Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və «Xoş gəlmisiniz!» deyirəm.

Xorvatiya və Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra bu, Xorvatiya prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. İnanıram ki, Sizin səfəriniz ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm rol oynayacaqdır.

Biz bu gün ikitərəfli münasibətlərimizin bir çox aspektlərini nəzərdən keçirdik. Ümid edirəm ki, bundan sonra bizim münasibətlərimiz bütün sahələrdə daha sürətlə inkişaf edəcəkdir. İmzalanmış sənədlər, iki ölkənin iş adamlarının keçirəcəkləri biznes-forum əməkdaşlığımızın inkişafına və genişlənməsinə öz töhfəsini verəcəkdir.

Xorvatiya–Azərbaycan əlaqələrinin tarixi ötən əsrlərdən başlayır. XV–XVI əsrlərdə Azərbaycanın Ağqoyunlular və Səfəvilər dövlətlərinin Xorvatiya ilə ticarət və diplomatik əlaqələr yaratması haqqında məlumatlar vardır. 1878-ci ildə

görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazehin şeirləri xorvat dilinə tərcümə olunmuşdur. Tanınmış xorvat şairləri İvan Kovaçiçin, Stanislav Novakın, Qustav Kirlesin və başqalarının əsərləri müxtəlif vaxtlarda Azərbaycan dilində nəşr edilmişdir.

Azərbaycan xalqının övladları İkinci dünya müharibəsi illərində Xorvatiyada faşizmə qarşı mübarizədə fəal iştirak etmişlər. Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə Balkan yarımadasının, o cümlədən Xorvatiyanın faşizmdən azad olunmasında əfsanəvi şücaətlər göstərərək həlak olmuşdur.

Regional və beynəlxalq siyasətə dair bir çox məsələlərdə, Avropa İttifaqı və NATO ilə əməkdaşlıq, beynəlxalq terrorizmə qarşı mübarizə, yaşadığımız regionlarda sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərində mövqelərimiz üst-üstə düşür.

Energetika, enerji resurslarının nəqli, turizm, ekologiya, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya, yol və infrastruktur obyektlərinin tikintisi, gəmiqayırma, kimya sənayesi və digər sahələrdə əməkdaşlığımızın yaxşı perspektivləri var.

Azərbaycan eyni zamanda, regionda təhlükəsizliyin, sabitliyin, inkişafın və beynəlxalq əməkdaşlığın dayağıdır. Lakin artıq iyirmi ilə yaxındır ki, Azərbaycan Respublikası Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Bu təcavüz və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Dünya birliyi və beynəlxalq təşkilatlar münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını dəstəkləyir. Bununla bağlı BMT Təhlükəsizlik Şurasının, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri var. Biz münaqişənin bu qərar və qətnamələrə uyğun, ölkəmizin ərazi

bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını tələb edirik və heç şübhə yoxdur ki, buna nail olacağıq.

Hörmətli cənab Prezident!

Xorvatiyanın son illərdə əldə etdiyi uğurlar, ölkənizin və xalqınızın rifahı və tərəqqisi naminə göstərdiyiniz fəaliyyət bizdə məmnunluq doğurur. Bütün bunlar iqtisadi və sosial inkişafa, demokratik prinsiplərin möhkəmlənməsinə kömək göstərir, Avropa standartlarına və dəyərlərinə sadiqliyinizi bir daha təsdiq edir.

Azərbaycana rəsmi səfər etməyinizdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Bu badəni Sizin şərəfinizə, Xorvatiya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırıram!

## Xorvatiya prezidenti Stepan Mesiçin nitqi

Çox hörmətli cənab prezident Əliyev!

Hörmətli Azərbaycan Respublikasının nümayəndələri!

Xanımlar və cənablar!

İlk növbədə, icazə verin, mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilmiş səmimi qonaqpərvərliyə görə öz minnətdarlığımı bildirim. Bakıya gəldiyimiz anlardan özümüzü dostların əhatəsində hiss edirik və deməliyəm ki, elə dostluq mühiti bu gün axşam qeyri-rəsmi şəraitdə davam etdirəcəyimiz danışıqlarımızın uğurlu olmasına zəmin yaradır.

Azərbaycana səfər edən Xorvatiya Respublikasının ilk prezidenti olmaq şərəfinin mənim qismətimə düşməsindən son dərəcə məmnunam. Bugünkü rəsmi danışıqlardan sonra mətbuat üçün verdiyim bəyanatda dediyim kimi, cənab prezident Əliyev, ikitərəfli münasibətləri inkişaf etdirməyə hazır olduğunuza dəlalət edən ilk işarəni iki il bundan əvvəl Zaqrebə etdiyiniz səfərlə məhz Siz verdiniz.

Mən isə öz növbəmdə, bu səfərimlə Xorvatiya Respublikasının Azərbaycan–Xorvatiya münasibətlərinin inkişafı prosesinin davam etdirilməsinə, onların hər iki ölkənin rifahı naminə yeni səviyyəyə qaldırılmasına, təkmilləşdirilməsinə və genişləndirilməsinə olan möhkəm istəyini və əzmini bildirmək istəyirəm.

Ölkələrimizin zəngin və kəşməkəşli tarixində təmas nöqtələri və hətta oxşarlıq da var. Bu, qurduğumuz əməkdaşlığın bünövrəsinin bir hissəsini təşkil edir. Lakin həmin əməkdaşlığın əsl və möhkəm bünövrəsi obyektiv şəkildə mövcud olan imkanlar, heç də tükənməmiş potensial, hər iki dövlətin maraqlarına cavab vermək məqsədi ilə tərəfdaşlıq və bərabərhüquqlu əməkdaşlıq münasibətlərinin qurulmasına hər iki tərəfin iradəsinin olmasıdır.

Müstəqilliyin qazanılması prosesinin gedişində Xorvatiya zorla cəlb olunduğu qanlı müharibədən keçmişdir. Həmin müharibənin nəticələrini biz bu gün də hiss edirik. Lakin məhz həmin təcrübə sayəsində sülh və əməkdaşlıq bizim xarici siyasətimizin əsas məqsədinə çevrilmişdir.

Çox şadam ki, deyə bilərəm: bu cür konsepsiya Xorvatiya vətəndaşlarının tam əksəriyyəti tərəfindən bəyənilir və qəbul olunur.

Biz regionumuzda son müharibələr zamanı törədilmiş cinayətlərə görə dəqiq məsuliyyət tələb edirik, lakin biz bunu sırf fərdi əsasda müəyyən edirik. Biz kollektiv məsuliyyəti ən qəti şəkildə rədd edirik və tam əminik ki, bu konsepsiya indi və təbii ki, gələcəkdə xalqlar və dövlətlər arasında qurulmalı olan əlaqələr üçün fəlakətlidir.

Avropa İttifaqına qoşulmaq barədə danışıqlar aparmağımıza baxmayaraq, biz Avropa İttifaqına üzv olmayan ölkələrlə, habelə dünyanın digər hissəsindəki dövlətlərlə əməkdaşlığa açığıq. Biz Avropa dövlətiyik, lakin maraqlarımız Avropanın hüdudlarının qurtardığı yerlə məhdudlaşmır.

Beynəlxalq terrorçuluğa qarşı mübarizənin, o cümlədən terrorçuluğu yaradan şəraitlərin aradan qaldırılmasının

qətiyyətli tərəfdarıyıq, lakin bununla belə, mübahisələrin, hətta uzun illər ərzində həlli yollarının araşdırılması yolu ilə də olsa, dincliklə aradan qaldırılmasını dəstəkləyirik.

Biz iqlim dəyişiklikləri və qlobal istiləşmə problemlərinin həllinin başlanmasını alqışlayırıq, ancaq eyni zamanda, azad bazar şəraitində enerji təhlükəsizliyinin təmin edilməsinin zəruriliyini bildiririk. Bu sahədə tarazlıq təmin edilməlidir, çünki enerji resurslarına nə qədər ehtiyacımız olsa da, bir o qədər də bəşəriyyətin sağ qalmasının əsasını təşkil edən təbii ətraf mühitin dəstəklənməsi və qorunub saxlanmasına ehtiyacımız vardır. Biz bütün bu məsələlərdə əməkdaşlıq edə bilərik və əminəm ki, bu cür işbirliyinə doğru aparan düzgün yoldayıq.

Mən prezident Əliyevin uğurları və möhkəm cansağlığı şərəfinə, dost Azərbaycanın və onun vətəndaşlarının tərəqqisi şərəfinə, Azərbaycan–Xorvatiya münasibətlərinin inkişafı şərəfinə, sülh, təhlükəsizlik və sabitliyin hökm sürdüyü dünyanın şərəfinə badə qaldırıram.

Sağ olun.

# XORVATİYA RESPUBLİKASININ PREZİDENTİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ DAVAM EDİR

*2 oktyabr 2007-ci il*

## Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət

*Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiç oktyabrın 2-də Fəxri xiyabana gəlmişdir.*

*Burada ali qonağı və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Vaqif Sadıqov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar.*

*Xorvatiya dövlətinin başçısı türk dünyasının görkəmli oğlu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoydu.*

*Xorvatiya prezidenti görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər gül dəstəsi qoydu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verdi.*

## Heydər Əliyev Fondu ilə tanışlıq

*Xorvatiya prezidenti Stepan Mesiç oktyabrın 2-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Xorvatiya dövlətinin başçısını burada səmimiyyətlə qarşıladı.*

*Ölkəmizin rəhbəri Xorvatiya prezidentinə ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.*

*Xorvatiya prezidenti Stepan Mesiç fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin, dövlət və hökumət rəhbərlərinin müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu haqqında fikirləri ilə tanış oldu, onların ümummilli liderimizlə müxtəlif görüşlərdə birgə çəkdirdikləri fotoşəkillərə böyük maraqla baxdı.*

*Prezidentlər Bakı–Tbilisi–Ceyhan neft kəmərinin maketinə də baxdılar.*

*Xorvatiya prezidenti Stepan Mesiç fondun Xatirə kitabına ürək sözlərini yazdı, görkəmli siyasi xadim Heydər Əliyevin şəxsiyyətinə dərin hörmətini ifadə etdi, Azərbaycan dövlətinin tərəqqisi naminə dəyərli fəaliyyətində fonda uğurlar arzuladı.*

*Xorvatiya dövlətinin başçısına xatirə hədiyyələri təqdim edildi.*

*Ali qonaq fonddan zəngin təəssürat aldığını söylədi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN–XORVATİYA BİZNES-FORUMUNDA

*«Excelsior» mehmanxanası*

*3 oktyabr 2007-ci il*

*Oktyabrın 3-də Bakıda, «Excelsior» mehmanxanasında Azərbaycan və Xorvatiya iş adamlarının biznes-forumu keçirilmişdir.*

*Forum iştirakçıları Azərbaycan prezidenti İlham Əliyevi və Xorvatiya prezidenti Stepan Mesiçi alqışlarla qarşıladılar.*

*Azərbaycanın İqtisadi İnkişaf naziri Heydər Babayev forumu açaraq, ali qonaqları və iş adamlarını salamladı. O, məlumat verdi ki, nazirliyin dəstəyi ilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Xorvatiyanın İqtisadi Palatası tərəfindən təşkil olunan bu forum ölkələrimiz arasında işgüzar əməkdaşlığın möhkəmləndirilməsinə və genişləndirilməsinə kömək edəcəkdir. Forumda Azərbaycan və Xorvatiyanın sosial-iqtisadi vəziyyəti, investisiya mühiti, ticarət və biznes imkanları barədə çıxış və təqdimatlar olacaq, ikitərəfli görüşlər zamanı aparıcı iş adamları əməkdaşlıq perspektivlərini müzakirə edəcəklər. Nazir xüsusi vurğuladı ki, hər iki ölkə prezidentinin forumda iştirakı Azərbaycanla Xorvatiya arasında iqtisadi əməkdaşlığın inkişafına ən yüksək səviyyədə verilən dəstəkdir.*

*Azərbaycan və Xorvatiya prezidentləri forumun açılışında çıxış etdilər.*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Xorvatiya prezidenti cənab Mesiçin Azərbaycana rəsmi səfərinin ikinci günüdür və deyə bilərəm ki, biz dünən çox geniş müzakirələr apardıq, ikitərəfli münasibətlərin bütün aspektlərini təhlil etdik. Bizim aramızda güclü siyasi dialoq mövcuddur. İki il bundan əvvəl mən Xorvatiyaya rəsmi səfər etmişdim. O vaxt mənimlə bərabər, Azərbaycandan iş adamları da getmişdilər və ilkin biznes əlaqələri məhz onda yaranmışdır. Son iki il ərzində müxtəlif sahələrdə əlaqələrimizdə canlanma müşahidə olunur. Amma mən hesab edirəm ki, iqtisadi sahədə daha da böyük işlər görmək mümkündür.

Bizim aramızda siyasi cəhətdən heç bir fikir ayrılığı yoxdur, əksinə, biz dost ölkələrik və həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyən ölkələrik. Bunun əsasında çox güclü iqtisadi əlaqələrin yaranması mümkündür və biz bunu arzulayırıq.

Mən çox şadam ki, prezident Mesiçlə bərabər, Azərbaycana Xorvatiyadan iş adamlarından ibarət böyük bir nümayəndə heyəti də gəlmişdir. Əminəm ki, burada onlar yerli həmkarları ilə müştərək iqtisadi işlərin aparılması üçün zəruri tədbirlər görəcəklər. Mən ümid edirəm ki, bu forumdan sonra bizim aramızda çox güclü iqtisadi əlaqələr yaranacaq və iş adamlarımız hər iki ölkənin artan iqtisadi potensialından istifadə edəcəklər.

Əfsuslar olsun, hələ ki, ölkələrimizdə bir-birimiz haqqında kifayət qədər məlumat yoxdur. Biz bu yaxınlarda qərar qəbul etmişik ki, Xorvatiyada Azərbaycanın səfirliyi açılsın və əminəm ki, səfirlik işə başlayandan sonra ölkələrimizin potensialı daha da dolğun şəkildə təqdim olunacaqdır. Azərbaycanda son illər ərzində iqtisadi artım çox sürətlə gedir. Deyə bilərəm ki, iqtisadiyyatımız son üç il ərzində

dünyada analoqu olmayan sürətlə artır. Üç il ərzində ümumi daxili məhsulun artımı 96 faiz olmuşdur və bu proseslər davam edir. İqtisadiyyatın həcminin artması ilə bərabər, sənaye istehsalı da artır, yeni iş yerləri açılır, böyük infrastruktur layihələri həyata keçirilir.

Mən dünən prezident Mesiçə bildirdim ki, gələn ilin büdcəsində təkcə dövlət xətti ilə dövlət investisiyalarının həcmi ən azı 3 milyard dollar təşkil edəcəkdir. Artıq Azərbaycanda yerli investisiyalar həcm baxımından xarici investisiyalardan daha böyükdür. Bu onu göstərir ki, Azərbaycanda həm xarici investorlar üçün, həm də yerli şirkətlər üçün çox gözəl biznes mühiti var. İqtisadiyyatımız tam liberallaşıbdır. Ölkəmizdə müşahidə olunan inkişaf hər sahədə özünü büruzə verir və Azərbaycanda artıq uzun illərdir ki, çox gözəl investisiya mühiti yaradılmışdır. Məhz buna görə adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə Azərbaycan bölgədə lider ölkədir.

Biz artıq etibarlı tərəfdaş kimi, özümüzü dünyanın ən böyük şirkətlərinə təqdim edə bilmişik. Azərbaycanda xarici investisiyaların qorunması siyasəti gələcəkdə də davam etdiriləcəkdir. İmzalanan hər bir saziş, hər bir müqavilə icra olunur, onlara heç bir dəyişiklik edilmir və ən böyük əhəmiyyət kəsb edən strateji müqavilələr hətta parlamentin ratifikasiyasından keçərək, prezident tərəfindən qanun kimi imzalanır. Beləliklə, xarici investorlarda tam zəmanət var ki, razılaşdırılmış şərtlərə heç kim heç vaxt müdaxilə etməyəcəkdir.

Biz hesab edirik ki, iqtisadi sahədəki əməkdaşlığımız bir neçə istiqamətdə gedə bilər. Birinci növbədə, əlbəttə, biz çox şad olardıq ki, Xorvatiyadan Azərbaycana sərmayə qoyulsun. Xüsusilə də nəzərə alsaq ki, indi bütün sahələrə sərmayə qoymaq üçün imkanlar yaxşıdır və Azərbaycana sərmayə qoymaq çox gəlirli bir işdir. İkinci istiqamət ondan ibarət ola bilər ki, Xorvatiyanın tanınmış şirkətləri Azərbaycanda müxtəlif işlərdə podratçı kimi iştirak edə bilərlər. Yenə də demək istəyirəm ki, gələn il Azərbaycanda çox böyük işlər görüləcəkdir: böyük

infrastruktur layihələri, yol tikintisi, kəmərlərin tikintisi, digər infrastruktur layihələri. Xorvatiya şirkətləri bu layihələrdə fəal iştirak edə bilərlər. Eyni zamanda, Azərbaycanda müştərək müəssisələrin yaradılması da mümkündür.

Biz Xorvatiyanın sənaye potensialının imkanlarından daha da səmərəli istifadə etməliyik. Azərbaycana lazım olan mallar, o cümlədən, Xorvatiyadan da alına bilər. Biz bilirik ki, Xorvatiyada çox inkişaf etmiş gəmiqayırma sənayesi var. Nəzərə alsaq ki, Azərbaycan ərazisi ilə yükdaşımalar ildən-ilə artır və biz gələn il Bakıda yeni beynəlxalq dəniz limanının tikintisinə başlayacağıq, Azərbaycanın yeni tankerlərin və yük gəmilərinin alınmasına böyük ehtiyacı var.

Xorvatiyada əczaçılıq sənayesi çox inkişaf etmişdir. Biz hələ bunu Sovet İttifaqının vaxtından bilirik. Bilirik ki, bu sahə son illər ərzində çox inkişaf edib və Azərbaycanda bunun üçün çox cəlbedici bazar var. Həm ticarət aparmaq mümkündür, həm də müştərək istehsal da təşkil etmək olar. Başqa sahələr də var. Turizm baxımından Xorvatiya çox gözəl ölkədir. Mən bunu bir daha iki il bundan əvvəl gördüm və prezident Mesiçin qonaqpərvərliyini hiss etdim. Biz həm Zaqrebdə görüşdük, ondan sonra Brioni adasında olduq və Xorvatiyanın nadir turizm imkanlarını seyr etdik. Bu sahə də cəlbedici ola bilər – kənd təsərrüfatı, emal sənayesi. Yəni bir sözlə, biz istənilən sahədə əməkdaşlığa hazırıq, bunun tərəfdarıyıq.

Bizim ölkələrimiz arasında çox böyük oxşarlıq var. Ölkələrimiz vaxtilə başqa dövlətlərin tərkibində olmuşdur. Biz müstəqilliyimizi də təxminən eyni vaxtda qazandıq, bərpa etdik və müstəqillik dövründə siyasi və iqtisadi islahatların aparılması nəticəsində çox böyük uğurlara nail olduq. İndi Xorvatiya NATO ilə üzvlük haqqında danışıqların son mərhələsindədir. Avropa İttifaqı ilə də həmçinin. Azərbaycanın Avroatlantik strukturlarına inteqrasiya siyasəti də uğurla gedir. Yəni, həm iqtisadi, həm siyasi, həm də tarixi nöqteyi-nəzərdən bizi birləşdirən amillər çoxdur. Mən arzu edirəm ki, bu biznes-forumun nəticələri çox uğurlu olsun. Bu fo-

rumdan sonra bizim iqtisadi əlaqələrimiz daha da möhkəmlənsin və hər iki tərəf bundan fayda, səmərə götürsün.

Mən forum iştirakçılarını salamlayıram, forumun işinə uğurlar diləyirəm.

Sağ olun.

**Xorvatiya prezidenti Stepan Mesiçin çıxışı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, sizin hamınızı burada salamlayım. Mən olduqca şadam ki, bu gün burada, iqtisadi forumda sizinlə görüşmək imkanımız oldu. Burada çox sayda iş adamları toplaşıb və onların müəyyən hissəsini Xorvatiyanın iş adamları təşkil edir. Ən mühümü isə odur ki, prezident Əliyev bu tədbirdə bizimlə birlikdə iştirak edir. Mən onun çıxışına diqqətlə qulaq asdım. O, Xorvatiya–Azərbaycan iqtisadi əməkdaşlığına dair, demək olar ki, bütün maraqlı məqamları vurğuladı.

O ki qaldı ikitərəfli münasibətlərimizin inkişafına, biz buna lazımi diqqəti yetiririk. Biz bu əməkdaşlığı fəallaşdırırıq. İstəyirik ki, bu əməkdaşlığı gücləndirək və BMT vasitəsilə bunu daha yüksək səviyyəyə qaldıraq. Biz bu gün cəmiyyətimizin bütün sahələrində bu əməkdaşlığı inkişaf etdirmək arzusundayıq. Sadəcə, hesab edirəm ki, biz təkcə dövlət-hökumət səviyyəsində səfər mübadiləsi ilə kifayətlənməməli, digər təmasları da axtarmalıyıq. Misal üçün, bizim iki səfərimizdən sonra prezident Əliyevlə qurduğumuz şəxsi dostluq münasibətləri bunun üçün yaxşı bir əsasdır. İstəyirik ki, bizim parlamentlər, nazirliklər arasında əməkdaşlıq baş tutsun. Ən əsası isə, istəyirik ki, bizim işgüzar dairələr əməkdaşlıq etsin.

Bir sözlə, bu məntiqi bir əlaqədir ki, bizim ölkələrimizin vətəndaşları da bir-birini tanısınlar. Prezident Əliyevin qeyd etdiyi kimi, Xorvatiya turizm ölkəsidir. Biz, sözün əsl məna-

sında, qonaqpərvər millətik, sizin turistlərinizi də qəbul etməyə hazırıq. İstəyirik ki, bizim də turizm təşkilatları sizin təşkilatlarla əməkdaşlıq etsin. Çünki biz Azərbaycanda gördüyümüzü, təbii ki, öz vətəndaşlarımıza tövsiyə edə bilərik. Yaxşı olardı ki, bizim turistlər də Azərbaycanı ziyarət etsinlər. Hesab edirəm ki, biz turizm sahəsində böyük nailiyyətlər əldə edə bilərik. Xorvatiya vasitəsilə Azərbaycan və onun iqtisadiyyatı nəinki bizim bazarımıza, eyni zamanda, qonşularımızın bazarına da çıxış əldə edə bilər.

Bildiyiniz kimi, biz keçmiş Yuqoslaviyanın bir hissəsi olmuşuq. Yuqoslaviya dağıldıqdan sonra orada olan bütün respublikalar müstəqilliyini qazandı. Amma əfsuslar olsun ki, Çexiya və Slovakiyada olduğu kimi, bizdə bütün işlər o qədər də hamar getmədi. Çünki onlar sülh yolu ilə ayrıldılar. Biz isə öz ərazilərimizi hərbi yolla qorumalı idik, ordumuzu qurmalı idik. Müharibə başa çatdı, digərləri kimi, biz də çox böyük itkilər verdik, amma sərhədlərimiz bir millimetr də dəyişmədi. Hərbi müdaxilə nəticəsində dağıntılara baxmayaraq, biz öz ölkəmizin ərazisində bərpa işlərini apara bildik, çox işlər gördük. Biz sənayemizin yeni imkanlarını yaratdıq. Ən vacibi isə ondan ibarətdir ki, biz öz yeni mütəxəssislərimizi öyrətdik. Ona görə də biz indi digər ölkələrlə uğurlu əməkdaşlıq apara bilərik.

Prezident Əliyev burada qeyd etdi ki, biz Avropa İttifaqı ilə danışıqlar aparırıq. Bu, təbii faktdır. Biz istəyirik Avropa İttifaqının üzvünə çevrilək. Əslində bu, əsrin bir hadisəsi olardı. Biz 2010-cu ildə Avropa İttifaqına üzv ola bilərik. Danışıqlar hazırda çox uğurla gedir. Amma bu, qapalı dairə deyil, Avropa birləşməlidir. İndi Avropa, sözün əsl mənasında, birləşməkdədir. Bir vaxt gözəl bir gün gələcək və bütün sərhədlər açılacaq, Avropa böyük bir vahid məkana çevriləcəkdir. Onda müharibə hər hansı bir münaqişənin həlli vasitəsinə, alətinə çevrilməyəcəkdir. Avropa digər regionlara da yaxınlaşmalıdır, oradakı münaqişələr də bu yolla aradan qalxa bilər, ölkələr daha uğurla əməkdaşlıq edə

bilər. Avropada tarixdə baş vermiş müharibələr, o cümlədən Avropanın sərhədlərindən kənarlarda olmuş münaqişələr və toqquşmalar hər zaman ya enerji resurslarına və yaxud da ərzaq məhsullarına görə aparılırdı. Ərzaq məhsulları və energetika təbii ki, vacib bir məsələdir. Amma bununla təcavüzü əsaslandırmaq olmaz. Təcavüzkar deyir ki, mən öz milli azlığımı müdafiə edirəm və digər ölkəyə hücum edir. Amma bu, sadəcə, bir səbəb kimi gətirilir. Əslində bu, digər ərazini tutmaq üçündür. Hitler də o vaxt digər ölkələrin ərazilərini ələ keçirəndə bunu onunla əsaslandırırdı ki, misal üçün, guya Dunay almanlarını və yaxud da pomor almanlarını qoruyur. Yaxud, sadəcə, bir səbəb kimi gətirilir ki, Miloşeviç Serbiyanın ərazilərini hərbi vasitə ilə genişləndirmək fikrinə düşəndə, yəni, Bosniya və Herseqovinanı ələ keçirməklə deyirdi ki, oradakı serbləri qoruyur. Amma serbləri qorumaq lazım deyildi, onların xorvatlar kimi eyni hüquqları vardı. Onlar Xorvatiya Respublikasının bərabərhüquqlu vətəndaşları idi. Bu bizə çox baha başa gəldi. Eyni zamanda, serblər üçün də belə oldu. Çünki yekunda sərhədlər dəyişilmədi. Biz çalışdıq ki, bu problemləri danışıqlar yolu ilə həll edək. Amma yekunda məcbur olduq hərbi vasitələrə əl ataq.

İndi biz ümumi regionda yaxşı əməkdaşlıq aparırıq, mən bunu xüsusilə qeyd etmək istəyirəm. Biz istəyirik ki, müharibə zamanı törədilmiş bütün cinayətlərə görə konkret insanlar məsuliyyət daşısınlar. Bu cinayətlər xalqların adına yazılmalı deyil.

Biz bu gün əməkdaşlığımızı davam etdiririk. Baxmayaraq ki, çox ağır, qanlı müharibə getmişdir, yüzlərlə müəssisəmiz Serbiyada işləyir. Onların da firmaları Xorvatiyada fəaliyyət göstərir. Biz hökumət, işgüzar dairələr səviyyəsində qarşılıqlı səfərlər edirik. Onların turistləri Xorvatiyaya gəlir. Praktiki olaraq, münasibətlərimizi normal məcraya gətirmişik. İndi bizim keçmiş Yuqoslaviyanın digər ölkələri ilə çox yaxşı

əməkdaşlığımız var. Eyni zamanda, digər qonşu ölkələrlə də əməkdaşlıq edirik.

Azərbaycana gəldikdə, yaxşı olardı ki, Azərbaycan Xorvatiya vasitəsilə digər bazarlara çıxış əldə etsin. Siz öz işgüzar təmaslarınızı ölkəmiz vasitəsilə genişləndirə bilərsiniz. Həm sizin ölkəniz, həm də bizim ölkəmiz yüksələn xətlə inkişaf edir. Mənə çox böyük təəssürat bağışlayır ki, sizin ölkə iqtisadi baxımdan ötən ilin göstəricilərinə görə ən uğurlu dövlət hesab edilir. Hesab edirəm ki, əməkdaşlıq üçün müəyyən bir təşkilat, baza yaradılmalıdır ki, bunun əsasında bizim ümumi iqtisadiyyatlarımız inkişaf etsin.

Düzünü deyim, mən hər şeyi görə bilmədim. Amma gördüklərimi deyirəm ki, bütün şəhər yeniləşir, yeni obyektlər tikilir. Bu şəhərə 3-4 ildən sonra gələn şəxs sizin şəhərinizi çətin ki, tanısın. Biz Azərbaycanın və Xorvatiyanın inkişaf sürətini nəzərə alsaq, özümüz bir neçə ildən sonra ölkələrimizi tanıya bilməyəcəyik. Bütün bunlara çox böyük vəsait lazımdır. Biz inkişaf etməliyik, şərtləri formalaşdırmalıyıq, biliklərimizi təkmilləşdirməliyik, infrastrukturumuzu inkişaf etdirməliyik. Təbii ki, bu sahələrdə əməkdaşlıq edə bilərik. 2010-cu ildə biz avtomobil yollarımızın sonuncu kilometrlərini çəkəcəyik. Beləliklə, bizim bütün şəhərlərimiz birbiri ilə avtomobil yolları ilə bağlanacaqdır. Bu, turizm üçün olduqca vacibdir. Amma avtomobil yolunu çəkərək, infrastrukturu quraraq çox güclü inşaat firmaları formalaşdırmışıq. Onlar sizin firmalarınızla əməkdaşlıq edə bilər. Biz birgə müəssisələr yarada bilərik. Bizim böyük təcrübəmiz var, yaxşı Avropa avadanlığımız var. Biz dünyada tanınmış bir çox şirkətlərlə – Mavritaniya, Misir, Əlcəzair, Liviya, Albaniya kimi ölkələrdə neft və qaz yataqlarının işlənilməsi sahəsində işləyən şirkətlərlə əməkdaşlıq edirik. Şirkətlərimiz həmin ölkələrdə özlərini uğurlu tərəfdaş kimi göstəribdir.

Bizim öz enerji resurslarımız yoxdur. Təbii ki, biz bu baxımdan digər ölkələrdən asılıyıq. Ona görə biz digər ölkələrdən, o cümlədən sizin ölkənizdən, Azərbaycandan enerji məhsullarının idxalında maraqlıyıq. Təbii ki, Avropanın bir

yox, bir çox enerji təchizatı mənbəyi olmalıdır ki, biz enerji təhlükəsizliyimizi təmin edək. Yalnız bu yolla gedərək, biz güclü iqtisadiyyatı qura bilərik.

Cənab prezident burada bizim sənayemizin digər sahələrini də qeyd etdi. Bunları yenidən xatırlatmağa ehtiyac yoxdur. Bizim əczaçılıq sənayemiz çox yaxşı inkişaf edibdir. Burada yeni zavodlar tikə bilərik. Onda bir çox dərmanların xaricdən idxalından asılı olmayacaqsınız. Biz Astanada iki böyük xəstəxana tikirik. Belə xəstəxananı burada da tikə, bu sahədə əməkdaşlıq edə bilərik. Eyni zamanda, kənd təsərrüfatı və emal sahəsində işbirliyi qurmaq olar. Bütün bunlar sizdən və işgüzar dairələrdən asılı olacaqdır. Siz bir-birinizi yaxşı tanımalısınız. Bilirsiniz, riyaziyyat hamı üçün eynidir. Özünüz hesablaya bilərsiniz ki, sizin üçün nə faydalıdır, nə yox, hansı sahədə əməkdaşlıq edə bilərsiniz, hansı sahədə isə əməkdaşlıq etməyəcəksiniz. Siz işgüzar dairələrsiniz. İşgüzar dairələr hər zaman yeni təmasların qurulmasına imkanlar tapacaqlar və bunlar həm sizin firmanız üçün, həm sizin rəhbərliyiniz altında işləyənlər üçün maraqlı olacaqdır. Bu, bütövlükdə ölkəniz üçün vacibdir. Biz iqtisadiyyatdan tutmuş hərbi sənaye kompleksinə qədər bütün sahələrdə işləyə bilərik.

Biz ərazi baxımından bir-birimizdən o qədər də çox fərqlənmirik. Ona görə bizim əməkdaşlıq imkanlarımız daha çoxdur. Biz keçmişdə daha böyük ölkələrin daxilində idik, indi isə müstəqil ölkələrik və biz öz potensialımıza əsaslanırıq. Bu bizi bir-birimizə yaxınlaşdırır, birləşdirir və bir-birimizə bələdçi rolunu oynayır. Ona görə mən işinizdə sizə böyük uğurlar arzulamaq istəyirəm. İstəyirik ki, belə bir görüş Xorvatiyada baş tutsun. Çünki yaxşı olardı ki, belə bir forum Xorvatiyada da təşkil olunsun, deyərdim ki, daha geniş tərkibdə baş tutsun.

Mən prezident Əliyevi Xorvatiyaya dəvət etdim. O, Xorvatiyada artıq olub, amma mən hesab edirəm ki, belə səfərlər daha tez-tez baş tutmalıdır. Xorvatiya dost ölkədir, Azərbaycanla münasibətlərin inkişafında maraqlıdır.

Çox sağ olun və Sizə böyük müvəffəqiyyətlər arzulayıram.

**Səfər başa çatdı**

*Oktyabrın 3-də Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiçin Azərbaycan Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Xorvatiyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Xorvatiya prezidenti Stepan Mesiçi Azərbaycanın Baş naziri Artur Rasizadə və digər rəsmi şəxslər yola saldılar.*

**İSPANİYANIN KRALI ƏLAHƏZRƏT**
**I XUAN KARLOSA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – İspaniyanın Milli günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvar olduğumu bildirirəm ki, Azərbaycan ilə İspaniya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, dost İspaniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 oktyabr 2007-ci il*

**İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA**

Hörmətli cənab Sədr!

Milli bayramınız – İspaniyanın Milli günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–İspaniya dostluğu və əməkdaşlığının inkişafı yolunda atdığımız addımlar xalqlarımızın iradəsini əks etdirərək, ikitərəfli münasibətlərimizin səviyyəsini gündən-günə yüksəldəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 oktyabr 2007-ci il*

## LİTVANIN MİLLİ MÜDAFİƏ NAZİRİ YUOZAS OLEKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında Litvanın Milli Müdafiə naziri Yuozas Olekasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Litvanın Milli Müdafiə naziri Yuozas Olekas Litva prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Qonaq sentyabr ayında Azərbaycan prezidenti İlham Əliyevin Litvaya rəsmi səfərinin uğurlu keçdiyini vurğulayaraq dövlətimizin başçısının Vilnüsə bu yaxınlarda gözlənilən işgüzar səfərinin də əlaqələrimizin genişləndirilməsi işinə xidmət edəcəyini qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycanla Litva arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi.*

*Prezident İlham Əliyev ötən ay Litvaya rəsmi səfərini məmnunluqla xatırlayaraq səfər zamanı keçirilən görüşlərin və aparılan danışıqların əməkdaşlığımızın daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı. O, Litvanın Milli Müdafiə nazirinin ölkəmizə bu səfərinin də ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı Litva prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Litvanın dövlət başçısına çatdırmağı qonaqdan xahiş etdi.*

# MOSKVA MERİNİN BİRİNCİ MÜAVİNİ, AZƏRBAYCAN–MOSKVA HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYANIN HƏMSƏDRİ LYUDMİLA ŞVETSOVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında Moskva merinin birinci müavini, Azərbaycan ilə Moskva hökuməti arasında hökumətlərarası iqtisadi komissiyanın həmsədri Lyudmila Şvetsovanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanda Moskvanın mədəniyyət günlərinin və Azərbaycan–Moskva hökumətlərarası iqtisadi komissiyanın iclasının keçirilməsinin əhəmiyyətinə toxundu və bu tədbirlərin Azərbaycan ilə Rusiya arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət göstərdiyini bildirdi.*

*Lyudmila Şvetsova Moskva meri Yuri Lujkovun salamlarını prezident İlham Əliyevə çatdırdı. 1997-ci ildən Azərbaycan ilə Moskva hökuməti arasında əməkdaşlıq haqqında müqavilənin olduğunu qeyd edən qonaq ölkəmiz ilə əlaqələrin inkişafına önəm verdiklərini söylədi.*

## BAKININ XƏTAİ RAYONUNDA HEYDƏR ƏLİYEV PARKININ AÇILIŞ MƏRASİMİ

*Xətai rayonu, Əhmədli qəsəbəsi*

*3 oktyabr 2007-ci il*

*Oktyabrın 3-də Bakının Xətai rayonunun Yeni Əhmədli yaşayış sahəsində, Ukrayna meydanı yaxınlığında yenidən qurulmuş Heydər parkının, habelə ümummilli liderin abidəsinin təntənəli açılışı olmuşdur.*

*Mərasimə toplaşan minlərlə sakin Azərbaycan prezidenti İlham Əliyevi hərarətli, sürəkli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev ulu öndərin abidəsinin üzərindən ağ örtüyü götürdü, heykəlin önünə gül dəstəsi qoydu, parkla yaxından tanış oldu. Məlumat verildi ki, 2000-ci il iyunun 3-də prezident Heydər Əliyev bu parkın açılışında olmuş, sakinlərlə görüşmüşdür. Ərazinin genişləndirilməsi və əhalinin mənalı istirahətinin müasir tələblərə cavab verən səviyyədə təmin olunması məqsədi ilə bu ilin əvvəlindən parkda abadlıq, əsaslı yenidənqurma işlərinə başlanmış, ulu öndərin abidəsi ucaldılmışdır. Heykəlin müəllifi Aslan Rüstəmovdur.*

*Ümumilikdə 13 hektar ərazisi olan parkın 5 hektarı rayonun daxili imkanları hesabına abadlaşdırılmışdır. Gələcəkdə digər sahələr də müasir səviyyəyə çatdırılacaqdır. Çin texnologiyası əsasında musiqili, rəngli fəvvarə quraşdırılmış, on mindən çox ağac, bəzək kolu, gül-çiçək əkilmiş, çoxlu oturacaq qoyulmuş, iki min kvadratmetr sahədə yaşıllıq salınmış, sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Parkın yuxarı hissəsindəki yamacda düzəldilmiş süni şəlalə buraya*

*xüsusi gözəllik verir. Parkın girəcəyində isə milli memarlıq üslubunda hazırlanmış böyük giriş qapısı tikilmişdir.*

*Prezident İlham Əliyev burada belə bir istirahət guşəsinin yaradılmasından məmnun qaldığını bildirdi. Dövlətimizin başçısı şəlalənin yaxınlığında vaxtilə ulu öndərin əkdiyi ağacın yanında ağac əkdi və onu suvardı. Şəlalə «Koroğlu» operası uvertürasının sədaları altında işə salındı.*

*Videogörüntülər vasitəsilə ulu öndərin burada sakinlərlə görüşündə söylədiyi* «Vaxtilə Əhmədli qəsəbəsi deyəndə, şəhərin mərkəzində yaşayanlar buranı kənd hesab edirdilər. Bəziləri deyirdi ki, yox, mən gərək şəhərin mərkəzində yaşayam. Amma mən o vaxt da buranı görmüşdüm və indi də baxıram ki, bura şəhərin mərkəzindən nə qədər gözəldir. Çünki buranın havası yaxşıdır, bura yüksəklikdədir, belə gözəl ağaclar əkilib, yaşıllaşıbdır, insanlar da məskunlaşıblar. Ona görə də şəhərin mərkəzində yaşayanlar səhv edirlər. Gəlib burada yaşamaq lazımdır. Mən xahiş edəcəyəm ki, mənə burada bir mənzil versinlər» *sözləri maraqla dinlənildi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev Xətai rayonunun sakinləri ilə görüşdü, onları təbrik etdi.*

**İlham Əliyev:** Yeddi il bundan əvvəl ulu öndər burada olmuşdu, həm ağac əkmiş, həm də parkın açılışını etmişdir. İndi park yenidən qurulmuşdur. Rayon icra hakimiyyəti burada böyük işlər görübdür. Burada istirahət etmək üçün bütün imkanlar var. Çox gözəl yerlər, fəvvarələr var, oturmaq üçün yer kifayət qədərdir. Həm də çox müasir, gözəl parkdır, çox nadir xüsusiyyətləri var və belə də olmalıdır. Çünki bura çox böyük bir yaşayış massividir. Burada minlərlə insan yaşayır. Onlar üçün belə gözəl parkın yaradılması böyük işdir. Mən də məhz parkın yenidən açılışına və sizinlə görüşə gəlmişəm.

*Sakinlər prezident İlham Əliyevə Bakı şəhərinin, o cümlədən bu qəsəbənin abadlaşdırılmasına göstərdiyi diqqət və*

*qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər, ulu öndərin tarixi xidmətlərini xatırladılar.*

*Sonra prezident İlham Əliyev Ukrayna meydanına gəldi. Buraya rayonun on minlərlə sakini toplaşmışdı. Gurultulu, hərarətli alqışlarla qarşılanan dövlətimizin başçısı sakinləri səmimiyyətlə salamladı, onlarla xatirə şəkilləri çəkdirdi.*

*Açılış mərasimi geniş konsert proqramı ilə başa çatdı.*

## MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ AÇILAN İFTAR SÜFRƏSİNDƏ NİTQ*

*Qafqaz Müsəlmanları İdarəsi*

*4 oktyabr 2007-ci il*

*Oktyabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev iftar mərasimində nitq söyləmişdir.*

Hörmətli şeyx həzrətləri!
Hörmətli din xadimləri!
Hörmətli səfirlər!
Hörmətli xanımlar və cənablar!

Şeyx həzrətləri, ilk növbədə, mənim ünvanıma deyilən bütün xoş sözlərə görə Sizə və din xadimlərinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, mən bundan sonra da doğma xalqımın etimadını doğrultmağa çalışacağam.

Dörd il bundan əvvəl Azərbaycan xalqı mənə öz etimadını göstərdi, ölkəmizin ən yüksək vəzifəsinə seçdi. Əlbəttə, o vaxt Azərbaycan xalqı yaxşı bilirdi ki, Heydər Əliyevin siyasi xətti davam etdiriləcəkdir. Amma necə, hansı formada

---

* Mərasimdə Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının başçısı Aleksandr ata, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Semyon İxiilov çıxış etdilər və Vatikanın Azərbaycandakı Apostol nunsisi Klaudio Qucerottinin təbrik məktubu oxundu.

davam etdiriləcək, uğurlar necə əldə olunacaq, ümumiyyətlə, idarəçilik üslubu hansı şəkildə inkişaf edəcək – yəqin ki, bunları bilmək mümkün deyildi. Mən çox şadam ki, dörd il ərzində görülən bütün işlər, aparılan siyasət Azərbaycanı daha da inkişaf etdirdi, ölkəmiz daha da qüdrətləndi, gücləndi, öz mövqelərini möhkəmləndirdi, ölkəmizdə vətəndaş birliyi tam şəkildə bərqərar olundu. Xalqla iqtidar arasında münasibətlər ən yüksək səviyyədədir. Bizim bütün planlarımız, nəzərdə tutduğumuz proqramlar həyatda öz əksini tapdı. Bundan sonra da biz hamımız çalışmalıyıq ki, doğma vətənimizi daha da sürətlə inkişaf etdirək, mövcud olan bütün problemləri həll edək. Elə edək ki, Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşasın.

Müqəddəs ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır və mən hörmətli şeyx həzrətlərinə öz minnətdarlığımı bildirmək istəyirəm ki, o, bu tədbirləri keçirir. Bundan başqa, gündəlik həyatda öz fəaliyyəti ilə Azərbaycanda dini tolerantlığın möhkəmlənməsinə çox böyük töhfə verir. Azərbaycan xalqı bunu bilir, qiymətləndirir və bu, ölkəmizin hərtərəfli inkişafı üçün çox vacibdir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, nadir bir təcrübədir. Düzdür, biz buna öyrəşmişik və hesab edirik ki, belə də olmalıdır. Təsəvvür edə bilmərik ki, başqa cür ola bilər. Amma biz bilirik ki, başqa cür də olur. Bəzi hallarda dinlərarası münasibətlərə gərginlik gətirilir, süni şəkildə qarşılıqlı ittihamlar irəli sürülür. Bəzi hallarda müxtəlif ölkələrdə islam dini haqqında çox yanlış təsəvvür yaradılır. Biz bunun qarşısına öz təcrübəmizi qoymalıyıq, görülən işləri qoymalıyıq.

Azərbaycanın timsalında görülən işləri qoymalıyıq və bunu edirik. Bu bizim ölkəmiz üçün lazımdır, bölgə üçün lazımdır və dinlərarası münasibətlərin inkişafı, sivilizasiyalararası dialoqun möhkəmlənməsi üçün lazımdır. Azərbaycan bu sahədə öz töhfəsini verir və əminəm ki, bundan sonra da ölkəmizdə dinlərarası münasibətlər yalnız və yalnız

yüksələn xətlə inkişaf edəcəkdir. Əlbəttə, bu işlərdə dövlət siyasəti və yenə də qeyd etmək istəyirəm ki, din xadimlərinin birgə fəaliyyəti çox mühüm rol oynayır. Mən eyni zamanda, bizim yəhudi, xristian, o cümlədən katolik qardaşlarımızın fəaliyyətini də yüksək qiymətləndirmək istəyirəm. Şeyx həzrətlərinin rəhbərliyi ilə bütün bu işlər məqsədyönlü şəkildə, çox böyük dəqiqliklə, çox böyük mədəniyyətlə aparılır və Azərbaycanın inkişafında, ölkəmizin möhkəmlənməsində bunun çox böyük rolu var.

Bizim ölkəmizin çox böyük imkanları var və ildən-ilə bu imkanlar artır. İqtisadi potensial güclənir, Azərbaycanda demokratikləşmə prosesləri çox sürətlə gedir. Biz dünyaya çox sürətlə inteqrasiya edən ölkəyik. Demək olar ki, Azərbaycanda hər bir sahə inkişaf edir. Hər bir sahənin inkişafı üçün dövlət və hökumət proqramları var və bunlar icra olunur. Ancaq əgər ictimai-siyasi ab-hava yaxşı olmasa, Azərbaycanda millətlərarası münasibətlər yüksək səviyyədə olmasa, bizim uğurlarımız yarımçıq olardı. Yalnız bütün bu amillərin sintezi ölkəmizi daha da irəliyə aparacaq və bunlar bizdə var. Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir, sabitlik ölkəmizin inkişafına ən böyük töhfədir. Biz görürük, o ölkələrdə ki, sabitlik pozulur, orada daim böhran hökm sürür, inkişafdan söhbət gedə bilməz, vəziyyət gərginləşir və ölkə daim ziddiyyətlər içərisindədir.

Əlbəttə, Azərbaycanda problemlər, iqtisadi, sosial problemlər var. Amma onlar aradan qaldırılır. Bundan başqa, cəmiyyəti narahat edən problemlər yoxdur. Ölkə hansı istiqamətdə inkişaf edir, düzgün istiqamətdə, yaxud da səhv istiqamətdə – bu barədə cəmiyyətdə diskussiyalar aparılmır. Bu bizim böyük nailiyyətimizdir. Yəni Azərbaycan xalqı tam şəkildə bu ideyalar ətrafında, azərbaycançılıq fəlsəfəsi ətrafında, dövlətçilik ideyaları ətrafında birləşir. Bu birlik bizim gücümüzdür və bizə, iqtidara imkan verir ki, çox sakit, rahat şəkildə öz siyasətini ardıcıl surətdə həyata keçirsin və Azərbaycanın hərtərəfli inkişafına nail olunsun. Biz bunu görü-

rük. Mən din xadimlərinin bu sahədəki fəaliyyətini çox yüksək qiymətləndirirəm.

Azərbaycanda din dövlətdən ayrıdır. Bu bizim Konstitusiyamıza görə belədir. Amma eyni zamanda, din dövlətlə birdir. Çünki bizim amalımız birdir. O da ondan ibarətdir ki, ölkəmizin müstəqilliyi daha da möhkəmlənsin. Azərbaycanda bütün sosial problemlər öz həllini tapsın, işsizlik aradan qaldırılsın, yoxsulluq aradan qaldırılsın, ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənsin, regional müstəvidə aparıcı rol oynayaq. Bu fikirlər, bu ideyalar bütün Azərbaycan xalqını birləşdirən ideyalardır.

Mən çox şadam ki, indi Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyət var, çox gözəl ab-hava var. Xalqımız da gələcəyə çox böyük nikbinliklə baxır və buna əsas var. Bizim iqtisadi uğurlarımız dünyanın heç bir başqa ölkəsində heç vaxt olmamışdır. Heç bir ölkədə üç il ərzində iqtisadiyyat iki dəfə artmamışdır. Dörd il ərzində büdcə xərcləri təxminən 10 dəfə artmışdır. Bu yaxınlarda Milli Məclisdə deputatlar gələn ilin büdcəsinə baxacaqlar, müzakirə edəcəklər və hökumət tərəfindən təklif olunan paket çox genişdir. Yəni ilkin təklif ondan ibarətdir ki, bizim icmal büdcəmiz 12 milyard dollara bərabər olsun. Beş il bundan əvvəl bizim büdcəmiz cəmi 1,5 milyard dollar idi. Yəni bu reallıqdır və özünü hər bir sahədə göstərir. Gələn il təkcə dövlət investisiya xərcləri 3 milyard dollar olacaqdır. Haraya xərclənəcək?! İnfrastruktur layihələrinə, su kəmərlərinə, elektrik stansiyalarına, qaz xətlərinə, məktəblərə, xəstəxanalara, yollara, körpülərə. Bizim bütün rayonlarımızda bu işlər davam edir.

Biz regional inkişaf proqramını dörd il bundan əvvəl qəbul etmişik. Mən əmin idim ki, biz bunu icra edəcəyik. Yadımdadır, o vaxt deyəndə ki, Azərbaycanda 600 min iş yeri yaradılacaq, bəzi hallarda buna inanmırdılar. Amma reallıq bundan ibarətdir. Hələ ki, proqramın icrası başa çatmayıb, ancaq 570 min iş yeri açılmışdır. 570 min insan işlə təmin olunmuşdur, öz ailəsinə pul gətirir. Bu iş yerləri öz

növbəsində, yeni istehsalların yaranmasına gətirib çıxarır. Yəni qeyri-neft sektoru inkişaf edir. Bütün bunlar bir-biri ilə sıx bağlı olan məsələlərdir. Yəni ki, iqtisadi sahədə bizim apardığımız siyasət özünü tam sübut edir.

Siyasi sahədə müstəqil siyasət Azərbaycan xalqı tərəfindən bəyənilir, dəstəklənir. İqtisadi güc bizə imkan verir ki, xarici siyasətimiz Azərbaycan xalqının maraqları əsasında, yalnız və yalnız bu amillər əsasında qurulsun.

Sosial məsələlərin həlli müşahidə olunur və bu iş daha da sürətlə gedəcəkdir. Bir sözlə, mən Dağlıq Qarabağ problemindən başqa, Azərbaycanın qarşısında heç bir problem görmürəm. O problemi də biz həll etməyə çalışırıq və çalışacağıq. Haqq-ədalət bizim tərəfimizdədir, bütün beynəlxalq hüquq normaları bizim tərəfimizdədir və biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Buna şübhəm yoxdur və bunu etmək üçün mən gecə-gündüz çalışıram. Həm diplomatik səylər, həm siyasi səylər, həm xarici səfərlər, beynəlxalq təşkilatlarla əməkdaşlığımız, Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və eyni zamanda, iqtisadi və hərbi güc, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması – biz bu işləri paralel şəkildə aparırıq.

Mən əminəm ki, ölkəmiz ildən-ilə möhkəmlənəcək, qüdrətlənəcəkdir. Biz öz gələcəyimizi çox aydın görürük. Azərbaycan inkişaf etmiş ölkəyə çevrilməlidir. Yəni dünyada inkişaf etmiş ölkələr o qədər də çox deyil, biz onlardan biri olmalıyıq. Bütün imkanlar var, xalqımız istedadlıdır, biliklidir, iqtisadi potensial güclənir, siyasi proseslər müsbət istiqamətdə inkişaf edir, regional mövqeyimiz möhkəmlənir, güclü sənaye potensialı yaranır.

Biz ölkəmizi müasirləşdirməliyik. Biz öz tarixi keçmişimizə, milli-mənəvi dəyərlərə bağlıyıq. Öz dinimizə, milli ənənələrimizə bağlıyıq. Bu, uzun illər, onilliklər ərzində müstəmləkə vəziyyətində yaşayanda bizi, Azərbaycan xalqını bir xalq kimi qorudu. Keçmişimiz, mədəniyyətimiz, dilimiz,

dinimiz bizim tariximizdir. Amma biz gərək gələcəyə bunun əsasında baxaq. Biz gərək bütün dünyada müsbət olan yenilikləri Azərbaycana gətirək, tətbiq edək. Biz gərək gənclərimizi maarifləndirək, xarici ölkələrin aparıcı ali məktəblərinə göndərək ki, onlar orada yaxşı bilik alsınlar, ondan sonra gəlib öz doğma xalqına peşəkarlıqla xidmət etsinlər. Yəni müasirlik, çox güclü mənəvi bazanın üzərində qurulan müasirlik bizim ölkəmizin gələcəyidir. Mən bu gələcəyi çox açıq görürəm. Əminəm ki, biz buna nail olacağıq və ölkəmiz daha da sürətlə inkişaf edəcəkdir. Hər bir ölkənin vətəndaşı istəyir ki, onun ölkəsində sülh, əmin-amanlıq olsun, maddi rifah olsun və insanlar rahat, yaxşı yaşasınlar, işsizlik, yoxsullar olmasın. Biz də bunu istəyirik, mən də bunu istəyirəm və bunu edirik.

Mən əziz şeyx həzrətlərinə bir daha öz məhəbbət duyğularımı bildirmək istəyirəm. O, bu gün ulu öndər haqqında danışdı. O da sirr deyil ki, məhz Heydər Əliyevlə şeyx həzrətlərinin dostluğu Azərbaycanda bu dini tolerantlığın inkişafına çox böyük təkan vermişdir. Onların dostluğu, onların arasında olan səmimi münasibət bütün cəmiyyətə öz müsbət təsirini göstəribdir. Bizim aramızda da dostluq var və bu indi yaranmayıbdır. Mən prezident olandan əvvəl yaranıbdır. Hətta yadımdadır ki, hələ prezident seçilməmişdən burada buna bənzər bir məclisdə olmuşdum. Mən prezident seçiləndən sonra şeyx həzrətləri dedi ki, Siz prezidentsiniz, yəqin gəlməzsiniz. Dedim ki, bizim dostluğumuzda heç nə dəyişməmişdir. Prezident müvəqqəti bir vəzifədir, bir müddət var, ondan sonra yoxdur. Ancaq insani münasibətlər əbədidir, dostluq əbədidir. Biləndə ki, bu dostluq ölkəmizin mənafeyinə xidmət edir, mən daha da çox sevinirəm.

Əziz dostlar, bu gözəl gündə, müqəddəs ramazan ayında sizin hamınızı bir daha ürəkdən salamlayıram, xoşbəxtlik və cansağlığı arzulayıram. Sağ olun.

* * *

**Şeyxülislam Allahşükür Paşazadə:** Hörmətli Prezident həzrətləri, Siz mənim haqqımda xoş sözlər dediniz. Bayaq dediniz ki, dostluq daimidir, prezidentlik daimi deyil. Amma mən elə bilirəm, prezidentlik də daimidir.

**İlham Əliyev:** Yox, Sizin vəzifəniz elədir.

**Allahşükür Paşazadə:** Bizim fikrimizcə, elə hər ikisi daimidir.

Prezident həzrətləri, Allah-təala Sizdən razı olsun. Çox gözəl tövsiyələr verdiniz və elə bilirəm ki, bizim üçün, biz dindarlar üçün bu bir proqram oldu ki, gələcəkdə işlərimizi o şəkildə quraq.

Bu gün 11 ayın sultanı ramazan ayı – Quranın nazil olduğu aydır. Biz bayaq Heydər Əliyev həzrətlərindən danışdıq, bu gün onun ruhu bizimlədir. Allah Zərifə xanıma da rəhmət eləsin. Onun da zəhməti çox olubdur. Allah-təala ona da rəhmət eləsin.

İstərdim ki, Qurani-Şərifdən ayələr dinləyək, onların ruhuna dua edək. Mənim ürəyim onda sakit olacaqdır.

* * *

*Sonra Quran oxundu, iftar süfrəsi açıldı.*

*İftar mərasimində xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş səfirləri, dini icmaların nümayəndələri, Milli Məclisin deputatları iştirak edirdilər.*

## «XƏZƏR DƏNİZİNİN DAVAMLI İNKİŞAFI ÜÇÜN STRATEGİYALAR» MÖVZUSUNA HƏSR OLUNMUŞ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi, «Xəzər dənizinin davamlı inkişafı üçün strategiyalar» mövzusuna həsr olunmuş konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı, işlərinizdə uğurlar arzulayıram.

Xəzər dənizi geostrateji mövqeyinə görə Azərbaycan və bütövlükdə region üçün mühüm əhəmiyyət kəsb edir. Regiondakı ölkələrin iqtisadi dirçəlişində böyük neft-qaz yataqlarına malik olan Xəzər xüsusi rol oynayır. Karbohidrogen ehtiyatlarının intensiv işlənilməsi şəraitində dənizin biomüxtəlifliyinin qorunması, ekoloji vəziyyətinin yaxşılaşdırılması daim bizim diqqətimizdədir.

Qeyd etmək lazımdır ki, Xəzər dənizinin ətraf mühitinin vəziyyəti ilə bağlı problemlər regionun davamlı inkişafına təsir göstərən əsas amillərdəndir. Bu baxımdan Azərbaycan Xəzər dənizi regionunda ekoloji problemlərin ciddiliyini və onların sosial-iqtisadi inkişafa təsirini nəzərə alaraq, bu problemlərin daha geniş miqyasda həlli üçün ümumi yanaşma prinsipləri əsasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir.

«Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası»nın bütün Xəzəryanı dövlətlər tərəfindən imzalanması da öz növbəsində bu dövlətlərin Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi istiqamətində birgə fəaliyyətə hazır olduğunu göstərir.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, hazırda Azərbaycanda Xəzər dənizinə antropogen təsiri azaltmaq məqsədi ilə dəniz sularının çirklənməsinə qarşı mühafizə sistemi

yaradılır və artıq bu işin ilk mərhələsi həyata keçirilməkdədir.

Ümidvaram ki, konfransınız qarşıda duran məsələlərin həlli naminə bütün səy və imkanların birləşdirilməsinə yeni təkan verəcək, dəniz mühitinin mühafizəsində maraqlı olan bütün tərəflər arasında əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2007-ci il*

## AVROPA İTTİFAQI ÖLKƏLƏRİNİ TƏMSİL EDƏN JURNALİSTLƏR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Prezident sarayında Avropa Jurnalistika Mərkəzinin təşkil etdiyi Avropa Qonşuluq siyasəti seminarında iştirak edən Avropa İttifaqı ölkələrinin jurnalistlərini qəbul etmişdir.*

*Görüş zamanı dövlətimizin başçısı Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal enerji layihələri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın beynəlxalq aləmdə mövqeyi, regional əməkdaşlıq və digər məsələlərlə bağlı suallara ətraflı cavab vermişdir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANA SƏFƏRİ

*5 oktyabr 2007-ci il*

*Prezident İlham Əliyev oktyabrın 5-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbəyə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Həmin gün Azərbaycan prezidenti İlham Əliyev Tacikistan paytaxtına gəlmişdir.*

*MDB üzvü olan ölkələrin dövlət bayraqları ilə bəzədilmiş Düşənbə hava limanında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul düzülmüşdü. Azərbaycan dövlətinin başçısını Tacikistanın Nəqliyyat və Kommunikasiyalar naziri Əbdürəhim Aşur, MDB İcraiyyə Komitəsinin sədri – icraçı katib Vladimir Ruşaylo və digər rəsmi şəxslər qarşıladılar.*

*Azərbaycan prezidenti onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*5 oktyabr 2007-ci il*

*Oktyabrın 5-də Düşənbədə hökumət iqamətgahında Azərbaycan prezidenti İlham Əliyevin və Tacikistan prezidenti Emoməli Rəhmonun təkbətək görüşü olmuşdur.*

*Dövlət başçıları qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin inkişafı və əldə edilmiş razılaşmaların reallaşdırılması üçün böyük əhəmiyyətini vurğuladılar, Azərbaycan və Tacikistan arasında bütün sahələrdə əməkdaşlığın perspektivlərini, regional qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etdilər.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MDB-nin DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA

*Oktyabrın 5-də Azərbaycan prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən iclasında iştirak etmişdir. Ukrayna dövlətinin başçısı Viktor Yuşşenkodan başqa, MDB-nin üzvü olan bütün ölkələrin prezidentlərinin iştirak etdiyi iclasın gündəliyinə 20 məsələ daxil idi.*

*Gündəliyin əsas bəndi MDB-nin gələcək inkişafı haqqında Konsepsiya və onun həyata keçirilməsinə dair Əsas Tədbirlər planı idi. Konsepsiyanın layihəsi Dövlət Başçıları Şurasının 2006-cı il 28 noyabr və Xarici İşlər Nazirləri Şurasının 2007-ci il 5 yanvar tarixli qərarlarına müvafiq olaraq yaradılmış işçi qrupu tərəfindən işlənib hazırlanmışdır. Konsepsiyaya görə, Birlik üçün birinci dərəcəli məsələ iqtisadi əməkdaşlıq – tam-miqyaslı azad ticarət rejiminin tətbiq edilməsi, müəssisələr arasında istehsal kooperasiyası əlaqələrinin genişləndirilməsi, kənd təsərrüfatı məhsullarının ümumi bazarının inkişafı, nəqliyyat, energetika və başqa sahələrdə qarşılıqlı fəaliyyət məsələləridir. Siyasi və parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi, humanitar sahədə, miqrasiya siyasətində, təhlükəsizlik məsələlərində əməkdaşlığın inkişaf etdirilməsi tədbirləri də nəzərdə tutulmuşdur.*

*MDB dövlətlərinin razılaşdırılmış miqrasiya siyasətinə dair təkliflər Düşənbə zirvə toplantısının əsas məsələsi oldu. Hazırda miqrasiya sahəsində əməkdaşlıq məsələləri ilə Birliyin sahəvi əməkdaşlıq üzrə iki orqanı – Əmək, Miqrasiya və Əhalinin Sosial Müdafiəsi üzrə Məşvərət Şurası və MDB-nin üzvü olan dövlətlərin qanunsuz miqrasiyaya qarşı mübarizədə*

*əməkdaşlığı haqqında Sazişin iştirakçısı olan dövlətlərin Birgə Komissiyası məşğul olur. Ona görə də MDB ölkələrinin qarşılıqlı əlaqələri prosesinə bir sıra düzəlişlər etmək zərurəti ilə bağlı razılaşdırılmış miqrasiya siyasətinə dair təkliflər hazırlamaq üçün qrup yaradılmışdır. «Kohi Somon» sarayında keçən zirvə toplantısı başlanmazdan əvvəl dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

*Zirvə toplantısı dövlət başçılarının məhdud tərkibdə görüşü ilə açıldı.*

*Sonra iclas öz işini geniş tərkibdə davam etdirdi. Geniş tərkibdə iclasın açılışında çıxış edən Tacikistan prezidenti Emoməli Rəhmon zirvə görüşünün iştirakçılarını salamladı və əmin olduğunu bildirdi ki, aparılan müzakirələr və əldə edilmiş razılaşmalar MDB-nin fəaliyyəti üçün yeni platforma yaradacaq, Birlik xalqlarının rifahına xidmət edəcəkdir.*

*MDB-nin sədri, Qazaxıstan prezidenti Nursultan Nazarbayev Tacikistan rəhbərliyinin qonaqpərvərliyinə və sammitin işinin yaxşı təşkilinə görə təşəkkürünü bildirdi. O, Emoməli Rəhmonu doğum günü – zirvə toplantısının iş günü ilə eyni vaxta düşmüş 55 yaşının tamam olması münasibətilə təbrik etdi və bildirdi ki, Tacikistan dövlətinin başçısı MDB-nin inkişafında xidmətlərinə görə Birliyin yüksək mükafatına – Fəxri nişana layiq görülmüşdür.*

*Nursultan Nazarbayev iclas iştirakçılarına MDB-nin üzvü olan dövlətlərin başçıları tərəfindən məhdud tərkibdə müzakirə edilmiş məsələlər, zirvə toplantısının müzakirəsinə çıxarılmış sənədlər – MDB-nin gələcək inkişaf konsepsiyası və onun reallaşdırılmasına dair əsas tədbirlər planı, eləcə də MDB dövlətlərinin razılaşdırılmış miqrasiya siyasəti proqramı barədə məlumat verdi. Qazaxıstan prezidenti MDB-nin işinin yeni – «Bir il, bir mövzu» forması barədə təşəbbüs irəli sürdü. O, 2008-ci ilin MDB-nin «Tranzit-nəqliyyat potensialının inkişafı ili» elan olunmasını təklif etdi.*

*MDB İcraiyyə Komitəsinin sədri – icraçı katib Vladimir Ruşaylo bildirdi ki, MDB ölkələrinin bəziləri müzakirə olun-*

*muş bir sıra məsələlərə dair təkliflər vermişdir. Məsələn, Azərbaycan tərəfi Razılaşdırılmış miqrasiya siyasəti proqramı barədə xüsusi rəy bildirmişdir.*

*İclasda təşkilati məsələlərə də baxıldı.*

*Dövlət başçıları sammitin sənədlərini – Razılaşdırılmış miqrasiya siyasəti haqqında bəyannaməni və MDB-nin gələcək inkişaf konsepsiyasını qəbul etdilər. Bəyannamədə vurğulanır ki, MDB ölkələri «MDB-nin üzvü olan dövlətlərin vətəndaşlarının etnik, dil, mədəni və dini özgürlüyünü dəstəkləmək, onlarda yaşadıqları ölkənin qanunvericiliyinə, dilinə və mədəniyyətinə hörmət münasibəti formalaşmasına şərait yaratmaq» niyyətindədirlər. Tərəflər həmçinin «əmək miqrasiyası proseslərinin qaydaya salınması və tənzimlənməsi məsələləri sahəsində əməkdaşlığı dərinləşdirmək, üzv dövlətlərin vətəndaşlarının qarşılıqlı səfərləri üçün əlverişli şərait təmin edilməsinə çalışmaq» əzmindədirlər.*

*Sənədin digər iki bəndində deyilir ki, MDB ölkələri qanunsuz miqrasiyanın qarşısının alınmasına və belə hallara yol verilməməsinə yönəlmiş tədbirlər həyata keçirəcək, qanunsuz miqrasiyanın qarşısının alınması, aşkar olunması və ona son qoyulması məsələlərində bir-birinə kömək edəcək, miqrasiya sahəsində qanunvericiliyin yaxınlaşdırılması, miqrasiya proqramlarının işlənib hazırlanması və onların praktik şəkildə reallaşdırılması məsələlərində əməkdaşlığa çalışacaqlar.*

*Zirvə toplantısı başa çatdıqdan sonra keçirilmiş mətbuat konfransında MDB-nin sədri Nursultan Nazarbayev dedi ki, MDB Dövlət Başçıları Şurasının növbəti iclası 2008-ci ilin sentyabr ayında Bişkekdə keçiriləcəkdir. O bildirdi ki, MDB-də sədrlik Qırğızıstana keçir. Nursultan Nazarbayev MDB İcraiyyə Komitəsinin sədri Vladimir Ruşayloya bu vəzifədə səmərəli fəaliyyətinə görə təşəkkür etdi. Eyni zamanda dedi ki, V.Ruşaylonun səlahiyyət müddətinin başa çatması ilə əlaqədar, bundan sonra bu vəzifəni Rusiya Xarici Kəşfiyyat Xidmətinin indiki rəhbəri Sergey Lebedev tutacaqdır.*

*Elə həmin gün Tacikistan prezidenti Emoməli Rəhmonun adından MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının şərəfinə rəsmi ziyafət verildi.*

## Səfər başa çatdı

*Oktyabrın 5-də Azərbaycan prezidenti İlham Əliyevin Tacikistana səfəri başa çatdı.*

*Düşənbə hava limanında Azərbaycan dövlətinin başçısını Vladimir Ruşaylo və digər rəsmi şəxslər yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtdı. Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «BİLGƏH» VƏ «BUZOVNA» YARDIMÇI STANSİYALARININ AÇILIŞ MƏRASİMİNDƏ

*6 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 6-da «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin «Bilgəh» və «Buzovna» yardımçı stansiyalarının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə 35/10/6 kilovoltluq «Bilgəh» yardımçı stansiyasına gəldi. Burada dövlətimizin başçısını inşaatçılar və paytaxt energetikləri səmimiyyətlə qarşıladılar. «Bakıelektrikşəbəkə» ASC İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına məlumat verdi ki, 5 ay ərzində inşa edilmiş yardımçı stansiya ən müasir standartlara cavab verir. Burada 3 transformator quraşdırılmış, ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılmışdır. Stansiya Bilgəh qəsəbəsinin və ətraf ərazilərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatına tam imkan verir.*

*Prezident İlham Əliyev yardımçı stansiyadakı 35 kilovoltluq paylayıcı qurğu ilə tanış oldu. Bildirildi ki, burada quraşdırılan daxili avadanlıq Almaniyanın tanınmış «Siemens» firmasının istehsalıdır və Bakıda yığılıbdır. Bütün inkişaf etmiş ölkələrdə bu avadanlıq geniş tətbiq olunur. Yaxın vaxtlarda Azərbaycan özü də belə avadanlığın ixracına başlamaq imkanına malik olacaqdır.*

**İ l h a m Ə l i y e v :** Əlbəttə, biz belə avadanlığı qonşu ölkələrə ixrac edə bilərik.

**B a b a R z a y e v :** Cənab Prezident, mən təsəvvür edirəm ki, bir ildən sonra region ölkələrinə ixrac edə biləcəyik.

**İ l h a m Ə l i y e v :** İlk növbədə, gərək öz tələbatımızı təmin edək. Ondan sonra, əlbəttə, ixrac məhsullarının yaranması çox böyük əhəmiyyət kəsb edir.

*Dövlətimizin başçısına bildirildi ki, prezidentin tapşırığına əsasən, 2008-ci ilin sonunadək «Bakıelektrikşəbəkə»nin balansında olan bütün obyektlər tam müasirləşdiriləcək, yeniləri inşa olunacaqdır.*

**İ l h a m Ə l i y e v :** «Barmek»in bizim energetika sisteminə vurduğu zərbə çox böyük oldu. İndi bunu aradan qaldırmaq, vəziyyəti sağlamlaşdırmaq üçün nə qədər böyük işlər görürük. Bax, reallıq budur. Gələn ilin sonuna qədər çalışın ki, maksimum dərəcədə bütün infrastrukturu yeniləşdirin, həm xətlərin çəkilişini, həm də yardımçı stansiyaların tikintisini başa çatdırın. İndi bizim kifayət qədər enerji gücümüz var. Yəni, biz stansiyaları əsasən ona görə tikirik ki, əhali tam şəkildə, fasiləsiz elektrik enerjisi alsın.

*Bildirildi ki, hava xətlərinin yeraltı kabellərlə əvəzlənməsi də diqqətdə saxlanılır. İndiyə qədər 700 kilometr uzunluğunda 35 kilovoltluq hava xətti yüksək keyfiyyətli yeraltı kabellə əvəzlənibdir. Bütün işlər perspektiv nəzərə alınmaqla görülür.*

**İ l h a m Ə l i y e v :** Yəni, burada gələcək inkişafı da nəzərə almısınız?!

**B a b a R z a y e v:** Bəli, güc 3,6 dəfə artırıla bilər. Bu parametrlərə malikdir və gələcək planlar nəzərə alınıbdır.

**İ l h a m Ə l i y e v :** Bilgəh gözəl bir yerdir. Burada həm çoxlu binalar var, bağ evləri var, həm də yeni mehmanxana tikilib və tikiləcəkdir. Elə etməliyik ki, burada gələcəkdə də təminat tam şəkildə yüksək səviyyədə olsun. İlk növbədə bu, burada yaşayan əhali üçün lazımdır. Biz bunu təmin etməliyik.

Energetika sisteminin müasirləşdirilməsinə dövlətin köməyi ilə yanaşı, istifadə olunan elektrik enerjisi haqqının tam toplanması da zəruridir. İndi gərək yığım problemini də aradan qaldırasınız. Son bir neçə ay ərzində bütövlükdə Azərbaycanda elektrik enerjisi haqqının yığılmasında böyük irəliləyiş var. Ölkə üzrə təxminən 80–85 faiz təşkil edir. Ən

ucqar rayonlarda misal üçün 100 faiz, 95 faiz yığılır. Amma Bakıətrafı qəsəbələrdə – mən adlarını çəkmək istəmirəm – yığım 6 faiz, 10 faiz, 15 faizdir. Burada insanlar ən ucqar kəndlərdəki insanlardan pis yaşamırlar. Sadəcə olaraq, elektrik enerjisinin haqqını ödəmək lazımdır. Onda bu sahədə Azərbaycanda heç bir problem yaranmayacaqdır. Onda enerji təminatı da lazımi səviyyədə olacaqdır. Siz çalışın ki, bunu təmin edin. Mən başa düşürəm, bəzi hallarda insanlar çətinlik çəkirlər, hələ yoxsul təbəqə var. Biz onlara da öz qayğımızı göstərməliyik. Amma elə adamlar var ki, hər şeyi – bağı da, maşınları da var, ancaq elektrik enerjisinin pulunu ödəmir. Bax, bunlara qarşı ciddi mübarizə aparılmalıdır. Çalışın maksimum dərəcədə, ilk növbədə imkanı olan adamlardan yığın. Azərbaycanda işlər yaxşı gedir, insanların həyat səviyyəsi yaxşılaşır. Elə olmalıdır ki, hər bir insanın imkanı olsun ki, elektrik enerjisinin pulunu ödəsin. «Bilgəh» yardımçı stansiyasındakı digər 10 kilovoltluq paylayıcı qurğu da ən müasir standartlara uyğundur.

*Prezidentə bildirildi ki, «Bakıelektrikşəbəkə»nin investisiya proqramına uyğun olaraq, bu ilin sonuna qədər daha bir neçə belə yardımçı stansiya istifadəyə veriləcəkdir. Bütün görülən işlər nəticəsində Bakıda və ətraf qəsəbələrdə elektrik enerjisi təchizatı ilə bağlı problemlər tam aradan qaldırılacaqdır.*

*Yardımçı stansiya ilə tanışlıqdan razılığını bildirən dövlətimizin başçısı bu tədbirlərin ildən-ilə daha da gücləndiriləcəyini vurğuladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev 110/35/10 kilovoltluq «Buzovna» yardımçı stansiyasında görülən işlərlə tanış olmaq üçün əraziyə gəldi. Energetiklər dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

*Bu obyekt də dövlət başçısının tapşırığına əsasən, paytaxtın elektrik enerjisinə olan tələbatının tam ödənilməsi, şəbəkələrin yenidən qurulması və modernləşdirilməsi məqsədi ilə «Bakıelektrikşəbəkə»nin reallaşdırdığı yeni inkişaf proqramı çərçivəsində tikilmişdir. Yardımçı stansiya Bakının Sabun-*

*çu və Əzizbəyov rayonlarının elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılmasına sanballı töhfədir. Proqram iki mərhələdə həyata keçirilir və 2020-ci ilə qədər davam edəcəkdir.*

*Prezident İlham Əliyev yardımçı stansiyanın texniki-iqtisadi göstəriciləri ilə tanış oldu. Burada görülmüş abadlıq və yaşıllaşdırma işləri də göz oxşayır.*

*Dövlətimizin başçısına Buzovna–Bilgəh zonasının elektrik enerjisi təchizatının sxemi barədə məlumat verildi. Bildirildi ki, prezidentin ehtiyat fondundan ayrılan vəsait indiyə qədər əsaslı tədbirlərin həyata keçirilməsində böyük rol oynamışdır. Həmin vəsait hesabına 35/10 kV-luq «Amburan» yardımçı stansiyası tikilmiş, 110/35/6 kV-luq «Maştağa» yardımçı stansiyasının isə genişləndirilməsi nəzərdə tutulmuşdur. Ümumi gücü 148 meqavat təşkil edən yardımçı stansiyaların tikintisinə bu ilin aprelində başlanmışdır. Tikinti-quraşdırma işlərinin ümumi smeta dəyəri 8 milyon 774 min 177 manatdır. Bu yardımçı stansiyaların tikintisi və yenidən qurulması Maştağa, Nardaran, Buzovna və Bilgəh qəsəbələrinin, hazırda istifadədə olan və tikilən turizm-istirahət mərkəzlərinin etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsinə imkan verəcəkdir.*

*«Bakıelektrikşəbəkə»nin rəhbəri bütün bunlara görə prezidentə şəbəkənin kollektivi adından minnətdarlığını bildirdi.*

**İlham Əliyev:** Siz də yaxşı işləyirsiniz. Dövlət də sizə həm prezidentin ehtiyat fondundan, həm başqa mənbələrdən kömək göstərir. İndi artıq özünüz də pul qazanır, onu investisiya şəklində belə işlərə yönəldirsiniz. Bu bir daha onu göstərir ki, «Bakıelektrikşəbəkə» şirkətinin yaradılması, dövlətin nəzarətinə keçməsi barədə qəbul etdiyimiz qərar düzgün idi. İndi işlər yaxşı gedir. Həm dövlət nəzarəti, həm də dövlətin köməyi var və görülən işlər də göz qabağındadır.

*Sonra dövlətimizin başçısı yardımçı stansiyanın idarəetmə otağına gəldi, düyməni basaraq stansiyanı işə saldı.*

*Prezident İlham Əliyev paylayıcı qurğuların iş prinsipləri ilə də maraqlandı. Bildirildi ki, digər paylayıcı qurğularda olduğu kimi, burada da Bakıda yığılan ən müasir avadanlıq*

*quraşdırılmışdır. Hazırda paytaxtın bütün yerlərində bu cür tədbirlər görülür.*

*Dövlətimizin başçısı ulu öndərin və özünün energetiklərlə keçirdiyi görüşləri, yeni elektrik stansiyalarının təməlqoyma və istifadəyə verilməsi mərasimlərini əks etdirən fotoşəkillərə də baxdı, görülən işlərdən razılığını bildirdi, kollektivə yeni uğurlar arzuladı.*

# İSVEÇRƏNİN ƏTRAF MÜHİT, NƏQLİYYAT, ENERGETİKA VƏ RABİTƏ ÜZRƏ FEDERAL DEPARTAMENTİNİN RƏHBƏRİ, NAZİR MORİTZ LEUNBERQERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Prezident sarayında İsveçrənin Ətraf Mühit, Nəqliyyat, Energetika və Rabitə üzrə Federal departamentinin rəhbəri, nazir Moritz Leunberqerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–İsveçrə ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanmış, bu səfərin ölkələrimiz arasında əlaqələrin, o cümlədən nəqliyyat, ətraf mühit və energetika sahələrində əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyi qeyd edilmişdir.*

## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN YENİ KORPUSUNUN AÇILIŞ MƏRASİMİ

*Bakı, Nərimanov rayonu*

*8 oktyabr 2007-ci il*

*Oktyabrın 8-də Bakının Nərimanov rayonunda, akademik Həsən Əliyev küçəsində Azərbaycan Dövlət İqtisad Universitetinin yeni korpusunun açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Universitetin professor-müəllim heyəti və tələbələri dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev yeni korpusun açılışını bildirən qırmızı lenti kəsdi, binanın birinci mərtəbəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünə baxdı, iqtisadi təhsilin yeni innovasiya modeli ilə tanış oldu.*

*Səkkizmərtəbəli yeni tədris korpusunun ümumi sahəsi 5 min kvadratmetrdir. Burada 41 tədris auditoriyası, o cümlədən tədris-metodiki laboratoriya, 100 nəfərlik konfrans salonu, 120 nəfərlik yeməkxana, ən müasir tələblərə uyğun kitabxana-informasiya mərkəzi yerləşir.*

*Dövlətimizin başçısı universitetin ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş salonunda Moskva Dövlət Universiteti, Türkiyənin Bilkənd Universiteti və Gəncədəki Azərbaycan Texnologiya Universiteti ilə birbaşa təşkil olunmuş video-konfransa qoşuldu, azərbaycanlı tələbələri salamladı.*

**N i k o l a y  S y o m i n** (*Moskva Dövlət Universitetinin prorektoru*): Hörmətli Prezident! Moskva Universiteti adından, bizim bütün çoxminlik kollektiv adından Sizi salamlamağa şadıq. Biz Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən bu video-konfransı səbirsizliklə gözləyirdik.

**İ l h a m  Ə l i y e v**: Sağ olun. Mən də sizi salamlayıram. MDU ilə bizim müvafiq ali məktəblərimiz arasında əməkdaşlığın inkişafı məni sevindirir. Bildiyiniz kimi, biz MDU-nun Azərbaycanda filialının yaradılması barədə ilkin razılığa gəlmişik. Humanitar sahədə əməkdaşlığın yaxşı səviyyədə olması bizim tələbələrin Azərbaycanın hüdudlarından kənara getmədən MDU-da oxumasına, təhsil almasına imkan verəcəkdir. Düzdür, biz çalışırıq ki, tələbələrimiz dünyanın aparıcı ali məktəblərində təhsil alsınlar – MDU isə məhz belə ali məktəblərdəndir – lakin biz həm də öz ölkəmizdə yüksək səviyyəli təhsil almaq üçün zəruri şərait yaratmağa çalışırıq. Mən bu video-konfransda iştirak edən bizim gənclərdən çoxlarını görürəm. Onların hamısını salamlamaq və demək istəyirəm ki, Azərbaycan gənclərinin dünyanın aparıcı ali məktəblərində təhsil alması bizi sevindirir və ümidvarıq ki, bu gənclər yaxşı təhsil aldıqdan sonra ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.

**N i k o l a y  S y o m i n**: Çox sağ olun, İlham Heydəroviç. Bu gün bu salonda həqiqətən Azərbaycan Respublikasından olan tələbələr toplaşmışdır, onlar MDU-nun ən yaxşı tələbələrindəndir. Buna gənclərin xarici ölkələrdə təhsil almasına dair Sizin təsdiq etdiyiniz və bu ildən fəal surətdə həyata keçirilən Dövlət Proqramı çox kömək edir. Hazırda həmin proqram bizim universitetdə də reallaşdırılır. Artıq yeddi nəfər gəlmişdir, biz digərlərini də gözləyirik. Əlbəttə, əminik ki, həm bu proqram, həm də bizim hazırda yaxşı inkişaf etməkdə olan filialın fəaliyyəti – biz zəruri sənədləri öz tərəfimizdən imzalayaraq təsdiq olunmaq üçün Sizə göndərmişik – əməkdaşlığımızın daha da möhkəmlənməsinə, in-

kişafına və səylərimizin birləşdirilməsinə xidmət edəcəkdir. Buna görə də təhsil sahəsində birgə fəaliyyətimiz ən mühüm və prioritet istiqamətlərdən biridir. Bu, heç şübhəsiz, nəinki bizim indiki qarşılıqlı münasibətlərimizə, həm də və ən başlıcası, bu münasibətlərin gələcəyinə müsbət təsir göstərəcəkdir. Bu, gələcək dünyanın qurulmasına bizim töhfəmizdir.

**Şəmsəddin Hacıyev** *(Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru)*: Sağ olun. Orada kimsə çıxış etmək istəyir?

**MDU-nun tələbəsi**: Salam, hörmətli cənab Prezident, biz çox şadıq ki, bu il bizim azərbaycanlı tələbələrə xarici ölkələrin ən yaxşı ali məktəblərində təhsil almaq imkanı təklif edən proqram qəbul olunmuşdur. Bilmək istərdik, Azərbaycan hökuməti «qara qızıl»ı intellektual sərvətə çevirmək üçün daha hansı addımları atacaqdır? Sağ olun.

**İlham Əliyev:** Biz bu məsələ üzərində çox ciddi işləyirik və belə hesab edirik ki, ölkəmizin əsas sərvəti məhz onun intellektual potensialıdır. Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, təhsilə çox diqqət yetirilən, bu sahəyə investisiyalar qoyulan, çox güclü intellektual potensial yaradılan ölkələrdə bütün sahələrdə inkişaf baş verir. Bizim ölkəmizdə bundan ötrü hər cür şərait var – maliyyə vəziyyətimiz yaxşılaşır, bizim gənclər istedadlıdır və biz hazırda sizinlə bərabər istifadə etdiyimiz informasiya-kommunikasiya texnologiyalarının güclü bazasının yaradılması üzərində fəal iş aparırıq. Ona görə də biz bundan sonra da çalışacağıq ki, Azərbaycanda illər boyu, onilliklər boyu təbii ehtiyatlarla əsla bağlı olmayan davamlı inkişafı təmin edəcək güclü intellektual potensial yaradılsın.

Təbii ehtiyatlar, sadəcə olaraq, bizə inam və maliyyə imkanları verən üstünlükdür. Ölkəmizin gələcəyi həm Azərbaycanda, həm də xaricdə oxuyan və ümidvaram ki, gələcəkdə ölkəmizin inkişafında fəal iştirak edəcək tələbələrin aldıqları biliklərdir. Mən sizi bir daha salamlayıram, yaxşı oxumağınızı, ölkəmizi Rusiyada ləyaqətlə təmsil etməyinizi

arzulayıram. Bir daha demək istəyirəm: ümidvaram ki, siz yaxşı biliklər əldə edəndən sonra Azərbaycana qayıdacaqsınız. Orada qalmağa üstünlük verənlər isə – mən bunda da elə bir böyük problem görmürəm – bizim Rusiyadakı elçilərimiz, nümayəndələrimiz olacaq və hər halda, gec-tez Azərbaycana qayıdacaqlar.

* * *

*Sonra Türkiyənin Bilkənd Universiteti ilə birbaşa bağlantı oldu. Universitetin nümayəndəsi Azərbaycan prezidentini və mərasimə toplaşanları İqtisad Universitetinin yeni korpusunun açılışı münasibətilə Bilkənd Universitetinin kollektivi və azərbaycanlı tələbələri adından salamladı.*

**İ l h a m Ə l i y e v:** Mən də sizi ürəkdən salamlayıram. Bütün müəllim heyətinə, bütün tələbələrə öz salamlarımı, hörmətimi bildirmək istəyirəm. Mən çox böyük qürur hissi ilə Bilkənd Universitetinin Fəxri doktoru adını daşıyıram. Bu yüksək ad mənə üç il bundan əvvəl verilmişdir və əminəm ki, Bilkənd Universitetində təhsil alan Azərbaycan gəncləri həm Türkiyə–Azərbaycan münasibətlərinin inkişafında öz rolunu oynayacaq, həm də çox gözəl bilik alıb, doğma vətənimizin inkişafı yolunda çalışacaqlar.

Bilkənd Universitetinin qurucusu hörmətli İhsan Doğramacıya mən öz dərin hörmət və məhəbbətimi bildirmək istəyirəm. Xahiş edirəm ki, mənim səmimi salamlarımı İhsan bəyə çatdırasınız. Bilirsiniz ki, İhsan bəy Azərbaycan xalqının çox böyük dostudur, onun Azərbaycan xalqı qarşısında çox böyük xidmətləri olmuşdur və İhsan bəy Azərbaycan dövlətinin ən ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. Biz İhsan bəyi hər zaman Azərbaycanda görməyimizdən çox şadıq, çox məmnunuq. Ona cansağlığı, yeni-yeni uğurlar diləmək istəyirəm. Eyni zamanda, universitetin rektoru hörmətli Əli bəyə öz salamlarımı çatdırmaq istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Bilkənd Universiteti ilə Azərbaycanın təhsil sahəsi arasında yaranmış

bu gözəl münasibətlər, əlaqələr daha da inkişaf edəcək, Azərbaycan gəncləri universitetdə çox gözəl təhsil alacaqlar və beləliklə, gələcəkdə doğma Azərbaycanın inkişafında daha da fəal iştirak edəcəklər.

İstəyirəm onu da biləsiniz ki, Bilkənd Universitetinin qurucusu hörmətli İhsan bəylə Heydər Əliyev Fondu arasında Azərbaycanda yeni müasir təhsil ocağının yaranması haqqında artıq danışıqlar gedir. Biz ümid edirik ki, Bakıda da Bilkənd Universiteti kimi beynəlxalq ali məktəb yaranacaq və ondan sonra əlaqələr daha da sürətlə inkişaf edəcəkdir.

Bir sözlə, əziz dostlar, həm universitetin kollektivinə, həm də universitetdə təhsil alan Azərbaycan gənclərinə bir daha öz salamlarımı çatdırmaq istəyirəm, sizə uğurlar arzulayıram. Arzu edirəm ki, universitetin şöhrəti daim yüksək zirvələrə ucalsın.

**Gürşad Aydoğan** (*Bilkənd Universitetinin rektor vəkili)*: Hörmətli prezident İlham Əliyev, Bilkənd Universitetindən Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına ən dərin hörmətimizi, ehtiramımızı və sevgimizi çatdırmaq istəyirik. Hazırda burada, bu salonda Bilkənd Universitetində oxuyan azərbaycanlı tələbələrlə birlikdəyik. Bildirmək istəyirəm ki, hamımız Sizinlə görüşməkdən böyük qürur duyuruq.

Hörmətli Prezident, Sizin və mərhum atanız Heydər Əliyevin Bilkənd Universitetində çox önəmli yeri vardır. Sizlər hər zaman bizi ən güclü şəkildə dəstəklədiniz. Bunu universitetimizin qurucusu İhsan Doğramacı və rektorumuz Əli Doğramacı hər yerdə ifadə etməkdədirlər. Bu baxımdan Sizə minnətdarıq.

Bizim qəlbən yaxın olduğumuzu hər kəs bilir. İndi texnologiya sayəsində eyni məsələ ətrafında bu cür müzakirə aparmaq imkanına nail olduq. Bir-birimizlə eyni vaxtda görüşə bilirik. Biz istəyirik ki, bu video-konfransın imkanından istifadə edərək başqa sahələrdə də işbirliyi həyata

keçirək, birlikdə daha gözəl layihələrə imza ata bilək. Düşünürəm ki, bu, böyük hədəfli işbirliyinin başlanğıcı olacaqdır.

**Ramazan Taşdurmaz** (*Bilkənd Universitetinin professoru*): Hörmətli Cümhur başqanı, Sizə ehtiramımı bildirirəm.

İcazənizlə, İqtisad Universitetinin dəyərli rektoru, professor Şəmsəddin Hacıyevi təbrik etmək istəyirəm. Azərbaycanda çağdaş universitet qurmaqla bütün dünyaya inteqrasiya olunmuş bir ali təhsil ocağı yaratmışdır. Onları təbrik edirəm. Mən İqtisad Universitetində dərs deyirəm. Onun bu xidmətlərindən qürur duyuram. Zati-alinizin diqqət və qayğısı ilə insana qoyulan sərmayənin ən qiymətli sərmayə olduğuna və təhsilə göstərilən qayğıya görə Sizə təşəkkürümüzü, minnətdarlığımızı çatdırır və «Çox sağ olun!» deyir, dərin hörmətimizi bildirirəm.

**İlham Əliyev**: Sağ olun, təşəkkür edirəm.

Artıq bizim aramızda belə bağlantı olduğu halda, əlbəttə, təmaslar daha da sıx olacaqdır. Bu video imkanlardan istifadə edib tələbələr də öz aralarında əlaqə yaradacaqlar, eyni zamanda, qarşılıqlı əməkdaşlıq da sürətlə davam edəcəkdir. Siz qeyd etdiyiniz kimi, Azərbaycan Dövlət İqtisad Universiteti də çox mötəbər ali məktəbdir. Burada çox böyük işlər görülür. Mən bu gün universitetin yeni korpusunun açılışında iştirak edirəm və bir neçə dəqiqə bundan əvvəl qırmızı lenti də kəsdim. Həm maddi-texniki baza möhkəmlənir, həm də tədris prosesi mükəmmələşir, müasirləşir. Beləliklə, əminəm ki, bu qarşılıqlı əlaqələr çox böyük uğurlara gətirib çıxaracaqdır.

Sizi bir daha salamlayır, uğurlar arzulayıram. Sağ olun.

*Gəncədəki Azərbaycan Texnologiya Universiteti ilə yaradılan video-konfrans da maraqla keçdi. Universitetin tələbəsi dövlətimizin başçısına müraciətlə dedi:*

Hörmətli cənab Prezident, ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmış Azərbaycan Texno-

logiya Universitetinin professor-müəllim heyəti və tələbələri adından Sizi ürəkdən salamlayırıq.

Dahi rəhbərimiz Heydər Əliyev demişdir: «Gələcək elmli, bilikli gənclərin çiyinləri üzərində qurulacaqdır». Cənab Prezident, bu siyasət Sizin tərəfinizdən uğurla həyata keçirilir. Sizin Azərbaycanda bütün sahələrdə, eləcə də ali təhsilin inkişafı üçün gördüyünüz işlərinizi bəyənir və dəstəkləyirik. Universitetimizin müəllim və tələbə heyəti qarşıdan gələn prezident seçkilərində Sizə, lider ölkənin yeganə liderinə səs verəcəkdir.

**İ l h a m  Ə l i y e v :** Sağ olun. Mən də sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycan Texnologiya Universitetinin bütün kollektivinə – tələbələrə, professor-müəllim heyətinə öz salamlarımı çatdırmaq istəyirəm. Mən əminəm ki, Azərbaycanın gələcəyi biliklə bağlıdır, təhsillə bağlıdır və gənc peşəkar kadrlar, vətənpərvərlik ruhunda böyümüş, eyni zamanda, böyük peşəkarlığa malik olan insanlar lazımdır. Azərbaycanın indiki sürətli  inkişafı bunu tələb edir. Azərbaycanda bütün sahələr inkişaf edir və bütün sahələr üzrə bizə müasir, dünyada gedən proseslərə bələd olan, peşəkar mütəxəssislər lazımdır. Ona görə mən bütün tələbələrə tövsiyə edirəm ki, öz təhsillərinə çox böyük diqqət göstərsinlər, bilikli, savadlı olsunlar. İndi cəmiyyətdə yaxşı yer tutmaq, böyük imkanlara malik olmaq üçün bir nömrəli amil bilikdir, savaddır. Ona görə, biz bu sahəyə çox böyük diqqət göstəririk.

Mən istəyirəm ki, Azərbaycanın bütün ali məktəbləri ən müasir texnologiyalarla, avadanlıqla təmin edilsin, tədris prosesi müasir səviyyədə qurulsun və bütün ali məktəbləri bitirən məzunlar işləmək üçün hazır olsunlar. Yəni onlar istənilən sahələrdə öz biliklərini göstərməlidirlər. Həm özlərinin həyatını təmin etməli, həm də doğma vətəninin inkişafında fəal şəkildə iştirak etməlidirlər. Ona görə mən bütün tələbələrə bir daha tövsiyə edirəm ki, təhsilə çox böyük diqqət göstərsinlər, yaxşı oxusunlar və bilikli olsunlar, Azərbaycanın inkişafında fəal iştirak edə bilsinlər.

Bu fürsətdən istifadə edib bütün Gəncə əhalisinə öz salamlarımı çatdırmaq istəyirəm. Bilirsiniz ki, mən sizin şəhərinizdə dəfələrlə olmuşam və onun inkişafı ilə bilavasitə məşğul oluram. Çox şadam, çox böyük qürur hissi ilə demək istəyirəm ki, Gəncə bu gün Azərbaycanda ən sürətlə inkişaf edən şəhərlərdən biridir. Çox böyük quruculuq, abadlıq işləri aparılır, müasir infrastruktur yaradılır, yeni müəssisələr işə salınır. Eyni zamanda, təhsil sahəsinə böyük diqqət göstərilir, məktəblər təmir olunur. Bir sözlə, Azərbaycanın ikinci şəhəri öz yüksəliş dövrünü yaşayır və bu məni də sevindirir, əlbəttə, sizi də sevindirir. Biz elə etməliyik ki, qədim Gəncə öz tarixi simasını saxlamaqla, müasir şəhərə çevrilsin və bu istiqamətdə bütün addımlar atılır. Yeni aeroport, aeroport yolunun bərpası, müasir binalar, təhsil ocaqları – bütün bunlar Gəncənin bugünkü reallıqlarıdır.

Mən sizə, bütün gəncəlilərə öz salamlarımı çatdırmaq istəyirəm və demək istəyirəm ki, biz birlikdə doğma vətənimizi daha da gücləndirəcək və irəliyə aparacağıq. Bunu etmək üçün gənclərdən bir şey tələb olunur – yaxşı oxumaq, yaxşı oxumaq və bilikli, peşəkar mütəxəssislərə çevrilmək ki, gələcəkdə öz vətəninizə peşəkarlıqla xidmət edəsiniz.

Sağ olun.

*Tələbələr Azərbaycan prezidentinin onlara göstərdiyi etimadı doğrultmağa çalışdıqlarını bildirdilər.*

* * *

*Sonra prezident İlham Əliyev ADİU–Fujitsu–Siemens–PRONET birgə layihəsi olan «Kitabxana-informasiya mərkəzi» tədris laboratoriyasına gəldi. Videogörüntülər vasitəsilə məlumat verildi ki, ölkəmizdəki iqtisadi qurumlarla birgə reallaşdırılan belə layihələr nəzəri biliklərin praktik vərdişlərlə möhkəmləndirilməsinə geniş imkanlar açır. Burada əsasən, vergi-tədris modeli tətbiq olunur. Vergilər Nazirliyi ilə birgə həyata keçirilən bu model həm bakalavr və magistr hazırlığı zamanı, həm də vergi orqanları əməkdaşlarının peşə hazırlığının*

*təkmilləşdirilməsi və ixtisaslarının artırılması zamanı istifadə edilir. Layihə tədris, test tapşırıqları, qiymətləndirmə və elektron kitabxana modullarından ibarətdir. Tədris moduluna bütün tədris planları, materialları, vergi əməkdaşları üçün müxtəlif funksional fəaliyyət istiqamətləri üzrə ixtisasartırma kursları, ikinci modula tədris olunan fənlər üzrə testlər və müvafiq cavablar yerləşdirilmişdir. Üçüncü modul tədris prosesinin səmərəli təşkilini, istifadəçilərin bilik və peşə hazırlığı səviyyəsinin qiymətləndirilməsini nəzərdə tutur. Dördüncü modul isə bütün normativ-hüquqi aktları özündə birləşdirir, tədris kitabları, materialları universitetin elektron kitabxana moduluna inteqrasiya edilir.*

*«Azərfon» MMC-nin tədris-treninq laboratoriyası ilə tanışlıq zamanı bildirildi ki, ölkəmizdə mobil operatoru rolunu oynayan «Azərfon» MMC İqtisad Universiteti ilə birgə «Karyeraya doğru irəli» layihəsini həyata keçirir. Bu layihə əsasında hazırlanan və lazımi avadanlıqla təmin olunmuş laboratoriyada yerli və xarici mütəxəssislər tələbələrlə müxtəlif təlim-məşqlər keçəcəkdir.*

*Bu layihə əsasında 8 seminar təşkil olunacaq və bir il ərzində başa çatdırılacaqdır. Gələcəkdə Gəncə və Naxçıvanda da bu layihə əsasında işlər görüləcəkdir. İyunun 22-də universitetdə yarmarka keçirilmiş, 6 tələbə «Azərfon»a işə qəbul olunmuşdur. İstedadlı tələbələrin işlə təminatına bundan sonra da ciddi fikir veriləcəkdir.*

*Virtual bank tədris laboratoriyasının iş prinsipi ilə maraqlanan prezident İlham Əliyevə məlumat verildi ki, burada əsas məqsəd tələbələrin tədris prosesində əldə etdikləri nəzəri bilikləri təcrübədə yoxlamaq və universiteti bitirdikdən sonra onların əmək fəaliyyətinə başlamasına kömək etməkdir. Son vaxtlar universitetin tələbələri, əsasən Milli Bank, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi və digər qurumlar tərəfindən işə cəlb edilir. Məzunlar nəinki daxili bazarın tələbatını təmin edir, hətta beynəlxalq bazarda rəqabətədavamlı insan kapitalına çevrilirlər.*

*Universitet xarici əlaqələri də genişləndirir, təhsilin beynəlxalq səviyyədə qurulmasına görə müxtəlif beynəlxalq mükafatlara layiq görülübdür. Təhsil ocağının kitab fondu tamamilə təzələnibdir. Heydər Əliyev Fondunun köməyi ilə 50-yə qədər fundamental dərslik Azərbaycan dilinə tərcümə olunmuş, 120-dən çox yeni dərslik və dərs vəsaiti yazılmışdır.*

*Prezident İlham Əliyev dərsliklərə, universitetin idmançılarının qazandıqları kubok və medallara da baxdı, burada təhsil alan məşhur idmançılarla görüşdü. Dövlətimizin başçısı olimpiya və dünya çempionu Fərid Mansurova məzun diplomunu təqdim etdi.*

*Universitetin maliyyə kafedrasının ixtisaslaşdırılmış tədris laboratoriyası da müasirliyi ilə seçilir. Burada tələbələrə Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sistemində yeri, ulu öndərin iqtisadi irsi, o cümlədən yeni neft strategiyası, Azərbaycanda investisiya mühiti, ölkəmizin kapitalının beynəlxalq miqrasiyası və sair barədə geniş biliklər verilir.*

*Azərbaycan Dövlət İqtisad Universitetinin İsveçrənin İnkişaf və Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birgə layihəsi olan «Kitabxana-informasiya mərkəzi» də tələbələrə əvəzsiz töhfədir. Prezidentə məlumat verildi ki, layihə iştirakçılarının kitabxanalarının birləşmiş kataloqunda iqtisadiyyat, siyasət, sosiologiya və təhsilə dair çap materialları ilə tanış olmaq mümkündür. Elektron kitabxana vasitəsilə dünyanın əksər ölkələrinin kitabxanaları ilə əlaqə yaradıla bilər.*

*Yeni korpusla tanışlıq dövlətimizin başçısında razılıq doğurdu, Azərbaycanda təhsilin inkişafı, maddi-texniki bazanın möhkəmləndirilməsi üçün Azərbaycan Dövlət İqtisad Universitetində cəmi bir neçə il ərzində görülən işlər yüksək qiymətləndirildi.*

*Sonra təntənəli mərasim keçirildi.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN YENİ KORPUSUNUN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*8 oktyabr 2007-ci il*

Əziz müəllimlər!

Əziz tələbələr, əziz dostlar!

Mən sizin hamınızı Azərbaycan Dövlət İqtisad Universitetinin yeni korpusunun açılışı münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

Bu gün universitetin həyatında çox gözəl və əlamətdar bir gündür. Yeni, gözəl korpus tələbələrin sərəncamına verilir. Mən bu gün bu gözəl bina ilə hərtərəfli tanış oldum və gördüm ki, sözün əsl mənasında, ən yüksək dünya standartlarına cavab verən binadır. Bunun xarici görünüşü çox gözəldir və ən önəmlisi isə, burada quraşdırılan avadanlıq ən müasir tələblərə cavab verir. Bu çox vacibdir. Çünki ölkəmiz müasirləşir, dünya birliyinə inteqrasiya edir, Azərbaycanın iqtisadi potensialı artır. Biz çox istəyirik ki, gənc nəsil dünyanın ən müasir standartlarına cavab verən şəraitdə oxusun, bilikli, savadlı olsun.

Azərbaycanda indi ali məktəblərdə böyük quruculuq işləri gedir. Bu yaxınlarda Azərbaycan Dövlət Tibb Universitetinin yeni terapevtik klinikasının təməl daşını qoyduq. Başqa ali məktəblərdə də buna oxşar proseslər gedir. Yəni, Azərbaycanda bütövlükdə təhsil sahəsi müasirləşir, yeniləşir. Həm təhsilin maddi-texniki bazası möhkəmlənir, həm də tədris prosesi müasirləşir. Bu sahəyə çox böyük diqqət verməliyik. Maddi-texniki bazanın möhkəmləndirilməsi işlərində Azərbaycanın iqtisadi imkanları, ildən-ilə artan büdcəmiz, investisiya xərclərinin artırılması aparıcı rol oynayır.

Əlbəttə, dövlət siyasəti ondan ibarətdir ki, ilk növbədə, təhsil sahəsinə böyük diqqət göstərilir. Ancaq tədris prosesinin təkmilləşdirilməsi, əlbəttə ki, sizdən – müəllimlərdən asılıdır, rəhbərlikdən asılıdır. Mən istəyirəm ki, həm maddi-texniki bazanın möhkəmləndirilməsi, həm də tədris prosesinin müasirləşməsi paralel şəkildə aparılsın. Məhz o təqdirdə biz istədiyimizə nail ola biləcəyik. Tələbələr yaxşı şəraitdə oxuyacaqlar. Müəllimlərin iş şəraiti yaxşı olacaq və bilikli gənc nəsil yetişəcəkdir. Bax, bu binada, İqtisad Universitetinin yeni korpusunda bütün bunlara nail olmaq mümkündür. Bu binanın timsalında, demək olar ki, Azərbaycanın bütövlükdə təhsil sahəsindəki inkişaf strategiyası həyatda öz əksini tapır.

Burada informasiya-kommunikasiya texnologiyalarına çox böyük yer ayrılıbdır. Bu gün mən Moskva Dövlət Universitetində, Bilkənd Universitetində Azərbaycan gəncləri ilə, orada oxuyan tələbələrlə video-bağlantı yaratdım. Eyni zamanda, Gəncədə fəaliyyət göstərən Azərbaycan Texnologiya Universitetinin tələbələrilə də. Yəni bunlar gözəl imkanlardır. Kitabxana ilə tanış oldum, dünyanın istənilən aparıcı ali məktəblərinin kitabxanalarına daxil olmaq mümkündür, bu imkanlar var. Beləliklə, burada oxuyan tələbələr dünyada gedən bütün prosesləri izləmək iqtidarında olacaqlar.

Əsas məsələ odur ki, biz dünyada mövcud olan ən müsbət təcrübəni götürək, Azərbaycanda tətbiq edək, mövcud olan vəziyyətə uyğunlaşdıraq. Beləliklə, gənc nəsil peşəkar kadrlara çevriləcəkdir. Mən sizi bu gözəl nailiyyətlə bağlı bir daha təbrik etmək istəyirəm. Universitetin rəhbərliyinə öz minnətdarlığımı bildirmək istəyirəm ki, onlar bu işi çox yüksək səviyyədə aparırlar.

Təhsil bizim gələcəyimizdir, inkişaf perspektivlərimizi müəyyən edən ən başlıca sahədir. Təsadüfi deyil ki, təhsil sahəsinə Azərbaycanda indi çox böyük diqqət göstərilir. Orta məktəblərdə böyük quruculuq işləri gedir. Azərbaycanda son illər ərzində 1200-dən artıq məktəb tikilibdir, yüzlərlə

məktəb təmir olunur və bu proses gələn il də davam etdiriləcəkdir. Bütün məktəblərdə kompyuterləşmə prosesi gedir ki, uşaqlar gənc yaşlarından artıq kompyuterlə tanış olsunlar və sonra ali məktəblərə daxil olanda bu onlar üçün yenilik olmasın. Ali məktəblərdə də təhsil prosesinin inkişafında böyük işlər görülməlidir. Bir daha demək istəyirəm ki, bu sahədə aparılan işlər bütövlükdə məni qane edir, ancaq, əlbəttə ki, islahatlar davam etdirilməlidir. Ən qabaqcıl, dünya miqyaslı ali məktəb heç vaxt əldə edilmiş nailiyyətlərlə kifayətlənmir. Bu, daimi islahat tələb edən sahədir. Əlbəttə ki, dünyada elmi-texniki tərəqqinin bütün yeniliklərini bilmək, onları qavramaq, qabaqcıl ali məktəblərlə əlaqə yaratmaq təhsil prosesinin inkişafında mühüm rol oynayacaqdır. Azərbaycan da bu yolu seçibdir.

Biz hamımız öz vətənimizi çox sevirik, gənclərimiz də vətənpərvərlik ruhunda tərbiyə alırlar. Bu, böyük bir inkişaf prosesinin başlanğıcıdır. Mən əminəm ki, biz qarşıda duran bütün vəzifələrə nail olacağıq. Azərbaycanda çox peşəkar kadr təbəqəsi, bütün müasir tələblərə cavab verən kadrlar yaranacaqdır. Bu sahəyə böyük diqqət göstərilir.

Bildiyiniz kimi, indi dünyada gedən proseslər onu göstərir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələr dünyada öz yerini daha da möhkəm tuturlar, öz siyasətini daha da cəsarətlə aparırlar. İqtisadi müstəqillik siyasi müstəqilliyə öz töhfəsini verir. İqtisadi cəhətdən heç kimdən asılı olmayan ölkə öz siyasətini də müstəqil şəkildə apara bilər və Azərbaycanın timsalında biz bunu görürük.

Bizə yeni, bilikli, dünyada biznes mühitini yaxşı bilən peşəkar menecerlər lazımdır. Azərbaycanın iqtisadi inkişafı o qədər sürətlə gedir ki, hər sahədə yeni kadrlar lazımdır. Bildiyiniz kimi, bəzi hallarda Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərdə, yaxud da Azərbaycan şirkətlərində menecer vəzifələrinə xaricdən mütəxəssislər dəvət olunur. Bəlkə də ilkin mərhələdə buna ehtiyac var, amma mən hesab edirəm ki, ən aparıcı vəzifələrdə Azərbaycan kadrları

olmalıdır. Bunu etmək üçün onların bilik səviyyəsi yüksək olmalıdır, onlar dünya miqyasında biznes menecmentinin nə olduğunu yaxşı bilməlidirlər və öz peşəkarlıqlarını göstərməlidirlər. Bax, Azərbaycan Dövlət İqtisad Universitetinin bu işdə çox böyük əməyi var və çox böyük töhfəsi olacaqdır.

Bu gün rektor Şəmsəddin Hacıyev mənə məlumat verdi ki, əmək yarmarkalarında universitetin məzunlarına çox böyük maraq, çox böyük tələbat var. Həm dövlət qurumları, həm özəl şirkətlər görəndə ki, bilikli, savadlı gənc mütəxəssislər var, əlbəttə, onları çox böyük həvəslə işə cəlb edirlər. İndi Azərbaycanda iqtisadi artım o səviyyəyə çatıb ki, bizdə maaşlar da qalxır, biznes imkanları yaxşılaşır, investisiya mühiti inkişaf edir. İndi ölkəmizdə iqtisadi artım bu gün dünyada analoqu olmayan sürətlə gedir və siz də bunu çox yaxşı bilirsiniz. Bizim vəzifəmiz ondan ibarətdir ki, bu gözəl dinamikanı daha da yüksəldək. İqtisadi proqramların həyata keçirilməsi, siyasi xəttin uğurla davam etdirilməsi eyni zamanda, gənc, peşəkar kadrların yetişdirilməsi ilə müşayiət olunmalıdır. Məhz bu təqdirdə biz istəyimizə nail ola bilərik.

Bizim çox zəngin neft-qaz ehtiyatlarımız var. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və uğurla davam etdirilən neft strategiyamız Azərbaycana həm ölkə daxilində, həm də beynəlxalq əməkdaşlıq müstəvisində çox böyük nailiyyətlər gətiribdir. Bizim iqtisadi uğurlarımız sosial məsələlərin həllinə də öz təsirini göstərir. Bütün bunlarla bərabər, humanitar sahəyə böyük diqqət göstərilməlidir və ilk növbədə, təhsilə. Mən buna bir də qayıtmaq istəyirəm, tam əminəm ki, bizim gələcəyimiz təhsillə bağlıdır. Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkələrin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir,

elmi-texniki tərəqqidir, yeni texnologiyalardır. Bizdə də belə olmalıdır. Biz də buna hazırıq. Belə gözəl təhsil ocaqları var.

İndi informasiya-kommunikasiya texnologiyalarına böyük diqqət göstərilir və Azərbaycan bu sahədə regionda artıq liderlik mövqeyini gücləndirir. Yəni bütün imkanlar var. Ölkəmizdə çox gözəl ab-hava var. Çox gözəl işlər görülür. Bütün ölkə, həm Bakı şəhərimiz, həm də rayonlar hər bir sahədə və hər bir istiqamətdə yeniləşir. Mən bu gözəl gündə sizinlə bərabər bu yeniliklərə sevinirəm. Bir daha demək istəyirəm ki, bu gün burada gördüklərim məni çox sevindirir. Mən arzu edirəm ki, Azərbaycanın bütün ali məktəbləri bu səviyyədə olsun.

Ancaq bu o demək deyil ki, siz bu görülən işlərlə kifayətlənməlisiniz. Daha da inamla irəliyə getməliyik. Azərbaycan xalqı indi çox sürətlə gedən bütün bu gözəl işləri görür. Ölkəmiz çox sürətlə inkişaf edir və bu inkişafda hər bir vətəndaşın öz payı vardır. Xüsusilə də müəllimlərin, gənc nəslin. Belə olan halda, ölkəmizin gələcəyi çox parlaq və uğurlu olacaqdır.

Mən sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

**Şəmsəddin Hacıyev:** Möhtərəm cənab Prezident, deyərdim ki, bu gün Azərbaycan Dövlət İqtisad Universitetinin tarixində ən əlamətdar gündür. Vaxtınızın məhdud, işinizin isə hədsiz dərəcədə çox olduğu vaxtda bizim üçün vaxt ayırdığınıza, bu böyük etimada görə, icazə verin, bütün kollektivimiz adından Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirim. Sizi əmin edirəm ki, İqtisad Universitetinin bütün kollektivi Sizin Azərbaycanda təhsilin inkişaf etdirilməsi, onun modernləşdirilməsi, dəyişən, sürətlə inkişaf edən iqtisadiyyatımız üçün lazımi kadr hazırlığının təmin olunması sahəsində qarşıya qoyduğunuz bütün vəzifələri

layiqincə yerinə yetirəcək, Sizi bütün sahələrdə dəstəkləyəcəyik.

Cənab Prezident, Azərbaycan Dövlət İqtisad Universitetinin 20 minlik professor, müəllim və tələbə kollektivi həmişə Sizinlədir.

* * *

*Prezident İlham Əliyev Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivinə bir daha ən xoş arzularını yetirdi, işlərində uğurlar arzuladı.*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNZ FİŞERƏ**

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Avstriya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 oktyabr 2007-ci il*

## QAZAXISTANIN MÜDAFİƏ NAZİRİ DANİAL AXMETOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında Qazaxıstanın Müdafiə naziri Danial Axmetovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Qazaxıstan ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı. Qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edilərək Qazaxıstan Müdafiə nazirinin səfərinin ölkələrimizin müdafiə nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə xidmət edəcəyi bildirildi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVAYA İŞGÜZAR SƏFƏRİ

*10 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Vilnüs enerji təhlükəsizliyi konfransı–2007: Məsul tərəfdaşlar üçün məsul energetika» mövzusunda beynəlxalq tədbirdə iştirak etmək üçün oktyabrın 10-da Litva paytaxtına işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

### Hava limanında qarşılanma

*Oktyabrın 10-da Azərbaycan prezidenti İlham Əliyev Vilnüsə gəlmişdir.*

*Vilnüs Beynəlxalq Hava Limanında Azərbaycan dövlətinin başçısını Litvanın rəsmi şəxsləri qarşıladılar.*

*Azərbaycan prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VİLNÜSDƏ ENERGETİKA SAHƏSİNDƏ TƏHLÜKƏSİZLİYƏ DAİR KONFRANSDA İŞTİRAK ETMİŞDİR

*Oktyabrın 10-da Azərbaycan prezidenti İlham Əliyev Vilnüsdə energetika sahəsində təhlükəsizlik məsələlərinə həsr edilmiş «Məsul tərəfdaşlar üçün məsul energetika» mövzusunda konfransın işində iştirak etmişdir.*

*Litvanın Xarici İşlər Nazirliyi, Strateji Araşdırmalar Mərkəzi və ABŞ-ın Hadson İnstitutu tərəfindən təşkil edilmiş ikigünlük konfransda energetika sahəsində beynəlxalq təhlükəsizlik problemləri və Avropa İttifaqının energetika sahəsində xarici siyasətinin əsas istiqamətləri ilə bağlı məsələlərin müzakirə edilməsi planlaşdırılır.*

*Forum iştirakçıları energetika sahəsində transatlantik dialoq, Aİ-nin Rusiya, Xəzər dənizi və Qara dəniz regionları ilə energetika sahəsində əməkdaşlığı, Baltikyanı ölkələrin enerji strategiyasının inkişafı məsələlərini də nəzərdən keçirəcəklər. Konfrans çərçivəsində energetika müəssisələrinin və ekspert-energetiklərin «Enerji təhlükəsizliyi: satış, tələbat və şaxələndirmə» mövzusunda xüsusi beynəlxalq forumu da keçirilir.*

*Konfransın işinin ilk günü başa çatandan sonra Azərbaycan prezidenti İlham Əliyev, Ukrayna prezidenti Viktor Yuşşenko, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Litva prezidenti Valdas Adamkus, Polşa prezidenti Lex Kaçinski və Qazaxıstanın Energetika və Mineral Ehtiyatlar naziri Sauat Minbayevin iştirakı ilə çoxtərəfli sənədlər imzalandı. Energetika sahəsində əməkdaşlıq haqqında müqaviləni Azərbaycan, Gürcüstan, Litva, Polşa və Ukraynanın energetika nazirləri imzalamışlar. «Sarmatiya» məhdud məsuliyyətli dövlətlərarası cəmiyyətinin yaradılması barədə müqa-*

*viləni Azərbaycan, Litva, Gürcüstan, Polşa və Ukrayna neft şirkətlərinin rəhbərləri imzaladılar.*

*Sonra dövlət başçıları mətbuat konfransı keçirərək kütləvi informasiya vasitələrinin nümayəndələri qarşısında bəyanatlarla çıxış etdilər.*

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Cənab Prezident, ilk növbədə, Vilnüsdə enerji konfransını təşkil etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Tədbir çox uğurlu oldu. Bu, cari ilin may ayında Krakovda ölkələrimiz arasında başlanmış çox fəal əməkdaşlığın davamı oldu. Ötən vaxt ərzində nazirlərimiz, müvafiq struktur və şirkətlərimiz əməkdaşlıq prosesinin sürətləndirilməsi məqsədilə bir-birilə çox fəal işləmişlər.

Bu gün keçirilmiş konfrans zamanı biz gələcək addımlarımızı, əməkdaşlığımızı müzakirə etdik və gələcək üçün qarşıya qoyduğumuz bütün vəzifələrin öhdəsindən gəlmək barədə yekdil fikirdə olduq.

Mən əlavə etmək istəyirəm ki, bu gün gələcək regional inkişafın olduqca mühüm başlanğıcıdır. Xəzər dənizi, Qara dəniz və Baltik dənizi regionu əməkdaşlığın olduqca vacib mərhələsinə qədəm qoyur. Üzərində işlədiyimiz enerji dəhlizi və bu gün imzaladığımız sənədlər əməkdaşlığımız üçün yeni perspektivlər açacaqdır.

Xəzər dənizi, Qara dəniz və Baltik dənizi regionunda səylərin səfərbər olunması ölkələrimiz və xalqlarımız arasında daha çox proqnozlaşdırma, əməkdaşlıq, qarşılıqlı yardım və dostluqla, eləcə də iqtisadi rifah və inkişafla nəticələnəcəkdir. Eyni zamanda, bu daha sıx inteqrasiyamıza töhfə verəcəkdir.

Çox məmnunuq ki, Avropa İttifaqının üzvü olan ölkələr, xüsusən də, Litva və Polşa bütün bu layihələrdə fəal iştirak edir. Biz hazırkı inkişafı Avropa İttifaqı ilə Azərbaycan arasında geniş enerji əməkdaşlığının elementi hesab edirik.

Ötən ilin noyabrında biz Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalamışıq. Bu gün isə biz həmin fəaliyyətin praktik baxımdan həyata keçirilməsini görürük.

Azərbaycan zəngin neft tarixi və ənənələri ilə tanınan ölkədir. Azərbaycan Xəzər dənizini xarici sərmayədarlar üçün açıq elan etmişdir. Son on il ərzində biz Xəzər dənizindəki yataqlara on milyardlarla dollar sərmayə cəlb etmişik. Azərbaycanda neft hasilatı artır, gələn il 55 milyon tondan çox olacaqdır.

Azərbaycan neftini üç istiqamətdə nəql edən boru kəmərlərimiz var, ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Azərbaycan qazının qonşu ölkələrə – Gürcüstan və Türkiyəyə, daha sonra isə Avropa bazarına çıxışını təmin edən boru kəmərimiz var.

Başqa sözlə desək, Azərbaycan qarşısına qoyduğu bütün vəzifələri – böyük həcmdə neft və qaz hasil etmək, əvvəllər, ümumiyyətlə, mövcud olmayan yeni daşınma yollarını açmaq, Xəzər dənizini neft kəmərləri vasitəsilə Qara dəniz və Aralıq dənizi ilə birləşdirmək və Xəzərin enerji resurslarını Avropa bazarlarına çıxarmaq vəzifələrini çox qısa müddət ərzində yerinə yetirdi. Hazırda bu reallıqdır. İndi biz əməkdaşlığımızı genişləndirəcək əlavə layihələr üzərində işləyirik. Odessa–Brodı–Plotsk–Qdansk layihəsinə bu gün çox güclü siyasi dəstək verildi və bizim artıq həyata keçiriləcək praktik elementlərimiz var.

Əminəm ki, gələn il Ukraynada keçiriləcək növbəti görüşdə bizim yeni nailiyyətlərimiz olacaqdır. Tərəfdaşlığımız artacaq, qarşılıqlı münasibətlər inkişaf edəcəkdir. İşbirliyimiz yalnız və yalnız sülhə, təhlükəsizliyə, sabitliyə və xalqlarımızın, ölkələrimizin rifahına doğru aparır.

Mən bu gün qəbul olunmuş qərarları yüksək dəyərləndirirəm. Bu, cari ilin may ayında Krakovda razılaşdırılmış məsələlərə bizim birmənalı sadiqliyimizi nümayiş etdirir. Ümidvaram ki, gələcəkdə bu əməkdaşlıq uğurla davam edə-

cək və ölkələrimizin ümumi işlərdə daha geniş iştirakına zəmin yaradacaqdır.

Mən bu cür mühüm görüşü təşkil etdiyinə görə prezident Adamkusa bir daha minnətdarlığımı bildirirəm. Eyni zamanda, demək istəyirəm ki, bu gün biz GUAM-ın onilliyini qeyd etdik. Ola bilsin ki, bu tədbirin burada, Vilnüsdə keçirilməsi həm də rəmzi xarakter daşıyır. Mən həm də bu layihə ilə bağlı təşəbbüsünə və fəaliyyətinə görə prezident Kaçinskiyə təşəkkür edirəm. Belə tarixi, mühüm nailiyyət münasibətilə hamını təbrik edirəm.

Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

*10 oktyabr 2007-ci il*

*Oktyabrın 10-da Vilnüsdə Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur.*

*Görüşdə bildirildi ki, Azərbaycan–Ukrayna əlaqələri bütün sahələrdə uğurla inkişaf edir, iki ölkənin beynəlxalq təşkilatlar, o cümlədən GUAM çərçivəsində fəal əməkdaşlığı artır.*

*Dövlət başçıları GUAM-ın Vilnüsdə keçirilmiş yubiley sammitinin ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi üçün əhəmiyyətini vurğuladılar, qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da dərinləşəcəyinə əmin olduqlarını söylədilər.*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ KLEYTON SELL İLƏ GÖRÜŞÜ**

*11 oktyabr 2007-ci il*

*Oktyabrın 11-də Azərbaycan prezidenti İlham Əliyev Vilnüsdə ABŞ Energetika nazirinin müavini Kleyton Sell ilə görüşmüşdür.*

*Görüşdə energetika sahəsində Azərbaycan–Amerika əməkdaşlığının uğurla inkişaf etdiyi vurğulandı, işbirliyinin gələcəkdə daha da genişlənəcəyinə əminlik bildirildi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VİLNÜS ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ DAİR BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR

*11 oktyabr 2007-ci il*

*Oktyabrın 11-də «Vilnüs enerji təhlükəsizliyi konfransı 2007: Məsul tərəfdaşlar üçün məsul energetika» mövzusunda beynəlxalq konfrans öz işini davam etdirmişdir. Azərbaycan prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.*

*Konfransda həmçinin Litva, Ukrayna, Polşa, Rumıniya prezidentləri, Avropa İttifaqının, ABŞ-ın və bəzi başqa ölkələrin yüksək vəzifəli nümayəndələri iştirak edirdilər.*

*Litva prezidenti Valdas Adamkus «Avropa İttifaqının energetika sahəsində xarici siyasətinin inkişafına dair təkliflər» mövzusunda məruzə ilə çıxış etmişdir. O dedi ki, Vilnüs konfransında Avropa və dünya siyasətinin prioritet məsələləri müzakirə olunur, müasir dövrün energetika problemlərinin, o cümlədən enerji resurslarının ixracçılarından asılılıq, vasitəçilərin şübhəli xidmətləri, qlobal istiləşmə problemi kimi məsələlərin həlli axtarılır. «Qlobal problemlərin qlobal həllərə ehtiyacı var» – deyən Valdas Adamkus bildirdi ki, Litva razılaşdırılmış energetika siyasəti sahəsində region ölkələri ilə, o cümlədən Rusiya ilə də əməkdaşlıq etmək niyyətindədir, bu ölkənin rəhbərliyinə konfransın işində iştirak etmək üçün dəvət göndərilmişdir.*

*Polşa prezidenti Lex Kaçinski Xəzər dənizi, Qara dəniz və Baltik dənizi regionu ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə dair təkliflərlə çıxış etdi.*

*Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun konfrans iştirakçılarına videomüraciəti təqdim olundu.*

*Sonra ümumi iclasda sədrlik edən Litvanın Baş naziri Azərbaycan prezidenti İlham Əliyevə söz verdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Sağ olun, cənab sədr!

Hörmətli dövlət başçıları!

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri!

İlk növbədə, mən bu cür vacib beynəlxalq tədbiri ölkəsində keçirdiyinə görə və konfransımızı yüksək səviyyədə təşkil etdiyinə görə prezident Adamkusa minnətdarlığımı bildirmək istəyirəm.

Bu konfrans hamımız – istehlakçı və hasilatçılar, o cümlədən gələcəyini Avropaya inteqrasiyada görən tərəflər üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan öz enerji strategiyasının həyata keçirilməsinə enerji təhlükəsizliyi məsələlərinin Avropa bazarı üçün bu dərəcədə vacib olmasından bir çox illər əvvəl başlamışdır. 1994-cü ildə biz əsas neft şirkətlərini Xəzərin Azərbaycan sektoruna gəlməyə və sərmayə qoymağa dəvət etdik. Bunu etməklə, biz Xəzər dənizini və onun resurslarını beynəlxalq əməkdaşlıq üçün açdıq və bütün vəzifələrimizi yerinə yetirdik.

Hazırda neft və qaz hasilatını artırırıq və karbohidrogen ehtiyatlarımızı müxtəlif bazarlara çıxarmaq məqsədi ilə bir neçə boru kəmərlərini çəkmişik. Nisbətən qısa müddət ərzində Azərbaycanda neft hasilatının gündəlik həcmi təqribən 1 milyon barrelə çatmışdır və gələn illərdə onun səviyyəsi artırıla bilər. Biz dörd boru kəmərini çəkmişik. Üç neft kəməri Azərbaycan neftini Qara dəniz və Aralıq dənizi sahillərinə nəql edir. Qaz kəməri isə Azərbaycan qazını qonşu ölkələrin və Avropanın bazarlarına çıxarmağa imkan verir. Ölkəmizdə olduqca əlverişli biznes mühitini yaratmaq, çoxmilyardlı transmilli layihələrin həyata keçirilməsində bizə yardım etmək üçün

beynəlxalq maliyyə təsisatlarını dəvət etmək məqsədi ilə on milyardlarla dollar birbaşa xarici sərmayə cəlb etmişik.

Bir daha qeyd etmək istəyirəm, enerji siyasətimizi və layihələrin həyata keçirilməsini başlayanda, həmin vaxt Avropa İttifaqının bazarı bizim üçün uzaq olan məsələ idi. Biz diqqəti əsasən qonşu bazarlara, qonşu ölkələrə yönəldirdik. Lakin əsas enerji layihəmiz reallığa çevrildiyi bir vaxtda gördük ki, Avropaya, Avropa İttifaqına alternativ təchizat lazımdır.

Hasilatçı ölkə kimi, biz artıq həmin məqsədə nail olmuşuq. Bizim enerji resurslarımızın şaxələndirilmiş nəqletmə yolları var. Qeyd etdiyim kimi, bu, müxtəlif istiqamətdə dörd boru kəməri ilə həyata keçirilir. İstehlakçıların təchizat yollarının şaxələndirilməsinə duyduğu ehtiyacı da aydın şəkildə başa düşürük, çünki belə olarsa, enerji təhlükəsizliyi artır və bazarda daha ədalətli qiymətlər təmin edilir.

Bu baxımdan, Avropa İttifaqının üzvü olan ölkələrlə ikitərəfli səviyyədə əməkdaşlığı və ümumilikdə, Avropa İttifaqı ilə işbirliyimizi yüksək qiymətləndiririk. Ötən il biz Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalamışıq. Hesab edirəm ki, bu sənəd bütün gələcək birgə işləri əhatə edəcəkdir.

Azərbaycan nəhəng neft və qaz ehtiyatlarına malikdir. Hazırda təsdiq edilmiş neft ehtiyatlarımız ən azı 15 milyard barrel səviyyəsindədir. Bu yaxınlarda Azərbaycan həm də qaz ixrac edən ölkəyə çevrilmişdir. Biz artıq Gürcüstan və Türkiyə bazarlarına qaz ixrac edirik. Hesab edirəm ki, yaxın vaxtlarda, Azərbaycan qazı Avropa İttifaqının bazarına da çıxarılacaqdır.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları ən azı 2 trilyon kubmetrə bərabərdir və bu bizim daxili tələbatımız üçün azı 150 ilə kifayətdir. Hasilat apardığımız yataqlardan danışdığımı nəzərə alaraq bildirirəm ki, bizim bir çox digər neft və qaz yataqlarımız da var və əminəm ki, gələcəkdə onlar da işləniləcəkdir. Bunlar nəhəng ehtiyatlardır.

Hazırda Azərbaycan Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»ndə iştirak edən ölkədir. Biz Avropaya inteqrasiyanı xarici siyasətimizin prioriteti hesab edirik. Bundan əlavə, qeyd etdiyim kimi, bizim çox yaxşı enerji əməkdaşlıq çərçivəmiz var. Ehtiyatlarımız və boru kəmərlərimiz mövcuddur. Digər tərəfdən isə Avropada artan tələbatlar var. Bütün bu elementləri bir-birilə uyğunlaşdıraraq, biz olduqca güclü tərəfdaşlığımızı qura bilərik.

Deyə bilərəm ki, bu gün enerji tərəfdaşlığımız sürətlə inkişaf edir. Biz Vilnüs enerji konfransını keçirdik. Bu, 2007-ci ilin may ayında Krakovda keçirilmiş sammitin davamı idi. Alternativ enerji təchizatı yollarını təmin etmək məqsədi ilə mühüm sazişlər imzalamışıq. Odessa–Brodı–Plotsk–Qdansk boru kəməri mühüm enerji layihəsi kimi, bizim üçün vacibdir. Bu layihə Azərbaycana öz neftini nəinki Qara dəniz və Aralıq dənizinə, həm də Baltik dənizi bazarına çıxarmaq imkanını verəcəkdir. Bu layihə eyni zamanda, regional tərəfdaşlıq işinə də töhfə verir.

Xəzər dənizi, Qara dəniz, Baltik dənizi regionundakı tərəfdaşlığı biz gələcək əməkdaşlığın, ölkəmizin Avropa strukturlarına fəal inteqrasiyasının, Azərbaycan xalqının inkişaf və rifahının çox mühüm aləti kimi dəyərləndiririk.

Neftimizi, yəni «qara qızılı» insan kapitalına çevirə bildik. Siyasi və iqtisadi islahatlar sahəsində fəal siyasət və enerji siyasəti nəticəsində biz son üç il ərzində iqtisadi artımı 96 faiz səviyyəsinə qaldıra bildik. Həmin dövr ərzində, əsasən, iqtisadi islahatlar siyasəti və enerji strategiyası sayəsində biz dünyada iqtisadiyyatı ən sürətlə inkişaf edən ölkə olmuşuq.

Bu gün biz müxtəlif yeni variantları nəzərdən keçiririk. Qeyd etdiyim kimi, bu yaxınlarda Azərbaycan mühüm qaz hasilatçısına və ixrac edən ölkəyə çevrilmişdir. Biz qonşularımız – Gürcüstan və Türkiyə, eləcə də Yunanıstan və digər ölkələr ilə danışıqlar aparırıq. «Nabukko» layihəsində iştirak etmək imkanlarını lazımınca nəzərdən keçiririk. Həmin

layihə Azərbaycana öz enerji resurslarından daha geniş istifadə imkanı yaradacaq və Avropaya alternativ enerji təchizatını təmin edəcək. Yeri gəlmişkən, bildirmək istəyirəm ki, Xəzər regionu Avropa İttifaqı üçün yeganə yeni alternativ potensial qaz təchizatçısıdır, çünki bütün digər təchizat mənbələri artıq istifadə olunur.

Düzdür, Avropaya ənənəvi təchizat yolları ilə nəql olunan enerji daşıyıcılarının hasilat həcmi artmaqdadır, lakin yeni alternativ variant yalnız Xəzər regionu sayılır.

Biz bu yolu yaradırıq. Bu, yeni enerji dəhlizidir. Gələcəkdə olduqca uğurlu əməkdaşlığa nail olmaq üçün biz Avropa İttifaqı ilə sıx əlaqələndirmə işi aparmalıyıq.

Çox məmnunam ki, prezident Adamkus, prezident Kaçinski və cənab Barrozu öz çıxışlarında Avropa üçün vahid enerji siyasətinin vacibliyini vurğuladılar. Bu nəinki Avropa İttifaqının üzvü olan dövlətlər, həm də hasilatçılar üçün əhəmiyyətlidir. Hasilatçılar həmçinin gələcəyi və bazarları görməlidirlər. Qaz bazarı neft bazarından tamamilə fərqlidir. O, müxtəlif bazarlarla bağlıdır. Ona görə enerji proqramımızı, qaz hasilatını artırmaq məqsədi ilə böyük sərmayələr proqramını planlaşdırmaq üçün biz Avropa İttifaqının tələbatlarını və onun hasilatımıza necə təsir göstərəcəyini bilməliyik.

Bu gün ilk addım kimi, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum vacib başlanğıcdır. Lakin hesab edirəm ki, biz bu prosesi uğurla və ardıcıl şəkildə davam etdirməliyik və müəyyən mərhələlərdə daha vacib uzunmüddətli sazişlərə qoşula bilərik. Belə olan halda, istehlakçılar da, hasilatçılar da – hər ikisi məmnun qalacaqlar.

Biz qəti şəkildə inanırıq ki, yalnız və yalnız istehlakçı və hasilatçıların ümumi maraqları fayda gətirə bilər. Enerji daşıyıcıları – neft və qaz toqquşma və ya hər hansı digər məsələ yox, əməkdaşlıq və dostluğun vasitələri olmalıdır. Bizim timsalımızda Azərbaycan Avropa İttifaqının dostudur. Öl-

kəmiz özünün Avropaya inteqrasiya siyasətinə sadiqdir. Artıq mövcud infrastruktura və böyük neft-qaz yataqlarına malikdir. Ölkəmiz açıq ürəklə yaxından işləməyə hazırdır.

Mən bu təşəbbüsə görə prezident Adamkusa və prezident Kaçinskiyə bir daha minnətdaram. Bu gün səhər buraya gəlmiş prezident Beseskuya təşəkkür edirəm. O, özünün sıx iş cədvəlinə baxmayaraq hər zaman bizi dəstəkləyir. Prosesə verdikləri dəstəklərinə görə bütün digər prezidentlərə və nümayəndə heyətlərinin başçılarına minnətdaram və konfransın işinə uğurlar arzulayıram.

Çox sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GUAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ BU TƏŞKİLATIN YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMİŞDİR

*11 oktyabr 2007-ci il*

*Oktyabrın 11-də Azərbaycan prezidenti İlham Əliyev GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının bu təşkilatın 10 illiyinə həsr olunmuş zirvə görüşündə iştirak etmişdir.*

*GUAM-da sədrlik edən Azərbaycan prezidenti Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatın üzvü olan ölkələrin dövlət başçılarını – Ukrayna prezidenti Viktor Yuşşenkonu, Gürcüstan prezidenti Mixeil Saakaşvilini, habelə Litva prezidenti Valdas Adamkusu, Latviya prezidenti Valdis Zatlersi, Moldovanın Litvadakı müvəqqəti işlər vəkili İon Siornini, ABŞ-ın Energetika nazirinin müavini Kleyton Selli Vilnüsdə Hökumət qonaq evinin binası önündə səmimiyyətlə qarşıladı.*

*Prezident İlham Əliyev zirvə görüşünü açaraq giriş nitqi söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Hörmətli cənab prezidentlər!

Əziz dostlar!

İlk növbədə, mən GUAM ölkələrinin dövlət başçıları üçün Litvada görüşmək və təşkilatın on illiyini qeyd etmək məqsədi ilə yaratdığı imkana görə prezident Valdas Adamkusa minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, bütün qonaqlarımıza, GUAM-ı dəstəkləyənlərə, xüsusən də,

görüşdə ilk dəfə iştirak edən Latviya prezidentinə öz təşəkkürümü bildirirəm.

10 il bundan əvvəl GUAM yaradıldığı vaxt üzv ölkələr müstəqilliyin, demək olar ki, başlanğıc mərhələsində idilər. Bu gün isə 10 il ərzində ölkələrimiz arasında fəal tərəfdaşlıq və əməkdaşlıqdan sonra biz aydın şəkildə deyə bilərik ki, GUAM öz aralarında ikitərəfli və çoxtərəfli səviyyədə güclü əməkdaşlıq edən ölkələrdən ibarət mühüm beynəlxalq təşkilata çevrilmişdir. Bu təşkilat öz strukturlarını olduqca fəal şəkildə inkişaf etdirir. Bu gün biz beynəlxalq təşkilat kimi fəaliyyət göstərmək məqsədi ilə bütün lazımi elementlərə malikik. Avropa İttifaqı bizə böyük dəstək verir. Aİ-nin üzvü olan ölkələrin prezidentləri sammitimizdə tez-tez iştirak edən qonaqlardır.

Bizim GUAM–Birləşmiş Ştatlar, GUAM–Yaponiya, GUAM–Polşa formatı kimi çox faydalı işbirliyimiz var. Bütün bunlar təşkilatımıza verilən güclü dəstəkdir. Biz eyni fikirləri və dəyərləri bölüşürük. Bunlar Avroatlantik strukturlarına inteqrasiya, ölkələrimizdə demokratiyanın inkişaf etdirilməsi, iqtisadi inkişaf və əməkdaşlıqdan ibarətdir. Əminəm ki, üzv ölkələrin davamlı birgə səyləri, dostlarımız və tərəfdaşlarımızın güclü dəstəyi sayəsində qarşıya qoyduğumuz bütün məqsədlərə nail olacağıq.

Bu gün biz ikitərəfli ticarət, iqtisadi inkişaf, siyasi islahatlar və əməkdaşlıq, daşıma kimi məsələlər üzərində çalışırıq. Bu məsələlərin hamısı beynəlxalq strukturların gündəliyində əsas yer tutur.

Qeyd etdiyim kimi, bizim ümumi məqsədlərimiz və ideyalarımız var. Amma əfsuslar olsun ki, bizim ümumi problemlərimiz də mövcuddur. Üzv ölkələrin üçündə həll olunmamış münaqişələr var: Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Dnestryanı bölgə. Bunlar ölkələrimizin xalqlarına qarşı aparılmış təcavüzkar separatizm, etnik təmizləmə siyasətinin nəticəsidir.

Bu aspektdə səylərimizi birləşdirərək, biz beynəlxalq hüququn prinsipləri, ölkələrimizin ərazi bütövlüyü prinsipi əsasında həmin münaqişələri dinc yolla həll etməyə ümid edirik.

Ümid edirik ki, geniş beynəlxalq dəstək, Birləşmiş Millətlər Təşkilatı və tərəfdaşlarımız qeyd etdiyim prinsiplər əsasında münaqişələrin sülh yolu ilə həllinə töhfə verəcəkdir. Həmin münaqişələrin eyni səbəbləri və nəticələri var: separatizm, etnik təmizləmə, milyonlarla qaçqın və ərazi bütövlüyünün pozulması.

Lakin əminəm ki, tərəfdaşlığımızı artırmaqla və iqtisadiyyatımızı gücləndirməklə, eləcə də Avroatlantik strukturlarına çox fəal şəkildə inteqrasiya etməklə ölkələrimiz həmin çətin münaqişələrin həllinə nail olacaq, o cümlədən siyasi və iqtisadi inkişafımızı uğurla davam etdirə biləcəkdir.

Mən üzv ölkələrin bütün xalqlarını təşkilatın 10 illiyi münasibətilə bir daha təbrik etmək istəyirəm və məmnunluq hissi ilə qeyd edirəm ki, ötən 10 il ərzində GUAM inkişaf etdi və beynəlxalq səviyyədə tanınan təşkilata çevrilə bildi. Bu gün həmin təşkilat «Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat» adlanır, məqsədlərimiz və planlarımızı aydın şəkildə nümayiş etdirir.

Mən sizi bir daha təbrik edir, GUAM-ı dəstəkləyənlərə və bu gün keçirilən sammitin ev sahibinə minnətdarlığımı bildirirəm. Bu gün çox nadir bir hadisə baş verir: mən prezident Adamkusu Litvada qəbul edirəm. Bəlkə də bu, analoqu olmayan diplomatik hadisədir, lakin eyni zamanda, görüşümüzün nə qədər yaxın olduğunu aydın şəkildə göstərir və ölkələrimiz arasında dostluq ilə tərəfdaşlığın hər hansı formallığının və hüdudlarının olmadığını nümayiş etdirir.

Ümidvaram ki, bu tərəfdaşlıq davam edəcəkdir.

*Sammitdə Gürcüstan prezidenti Mixeil Saakaşvili, Ukrayna prezidenti Viktor Yuşşenko, Litva prezidenti Valdas Adamkus, Moldovanın Litvadakı müvəqqəti işlər vəkili İon Siorni də çıxış etdilər.*

*Prezident Viktor Yuşşenko GUAM-ın başqa dövlətlərlə əməkdaşlığından bəhs edərək bildirdi ki, Ukrayna Baltikyanı ölkələrə elektrik enerjisi satmaq niyyətindədir. O öz ölkəsinin GUAM məkanında münaqişələrin həllinə görə məsuliyyət hiss etdiyini vurğulayaraq, bu istiqamətdə görülən tədbirlər barədə məlumat verdi.*

*Litva prezidenti Valdas Adamkus Avroatlantik inteqrasiyası məsələsində GUAM ölkələri arasında əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirdi. Litva dövlətinin başçısı onu da vurğuladı ki, son vaxtlar Vilnüs müasir dövrün qlobal problemlərinə, o cümlədən enerji təhlükəsizliyi məsələsinə həsr edilmiş irimiqyaslı beynəlxalq tədbirlərin keçirildiyi yerə çevrilmişdir.*

*Zirvə toplantısının yekunlarına dair bəyanat imzalandı.*

*Azərbaycan prezidenti İlham Əliyev zirvə görüşündə yekun nitqi söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin yekun nitqi

İlk növbədə, mən səylərimizin daha da möhkəmləndirilməsi, eləcə də beynəlxalq təşkilatlarla və GUAM-a güclü dəstək verən ölkələrlə əməkdaşlığın gücləndirilməsi baxımından vacib olan maraqlı ideya və bəyanatlara görə bütün natiqlərə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün çıxış edən bir sıra tərəflərin artıq qeyd etdiyi kimi, GUAM 10 il ərzində ciddi beynəlxalq təşkilata çevrilmişdir. Beynəlxalq təşkilat beynəlxalq münasibətlər, əməkdaşlıq və regional təhlükəsizlik kimi sahələrə müəyyən töhfə verəcək bir qurumdur. Bu təşkilat beynəlxalq ictimaiyyət tərəfindən tanınır. GUAM çərçivəsində biz həmin məqsədlərə nail olduq. Biz beynəlxalq ictimaiyyət və tərəfdaşlarımız tərəfindən tanınırıq.

Eyni zamanda, təşkilatımız regional əməkdaşlığa böyük töhfə verir. Bu gün burada qeyd edildi ki, Xəzər, Qara dəniz və Baltik dənizi regionu xüsusən də GUAM-ın fəaliyyəti

sayəsində bir-birinə daha da yaxınlaşır. Prezident Adamkus ən ilk vaxtlardan işimizə böyük dəstək vermişdir. Baltikyanı digər ölkənin başçısı, Latviya prezidenti Valdis Zatlers, Avropa İttifaqına üzv olan Rumıniyanın prezidenti Besesku, Polşanın prezidenti Kaçinski isə Bakıda iyunda keçirilmiş zirvə görüşünün qonaqları idilər. Bakı sammiti və bəyannaməsi əməkdaşlığımız üçün yeni perspektivlər açan, irəliyə doğru atılan çox mühüm addım oldu.

Biz təşkilatımız daxilində tərəfdaş və dost kimi işləyirik. Ölkələrimiz arasında çox yaxşı ikitərəfli münasibətlər var. Artıq qeyd etdiyim kimi, bu gün ən vacibi isə ondan ibarətdir ki, məqsədlərimiz, ideyalarımız və gələcək üçün baxışlarımız üst-üstə düşür.

Biz artıq enerji təchizatının şaxələndirilməsi prosesinə töhfə veririk. Hasilatçı və istehlakçılar üçün təchizatın şaxələndirilməsi çox vacibdir. Təşkilatımızda hasilatçı və istehlakçılar var və biz vahid heyət kimi işləyirik. Belə hallar dünyada heç də həmişə olmur.

Başqa sözlə desək, artıq təşkilatımız təhlükəsizlik, sabitlik, əməkdaşlıq, ticarət münasibətləri, enerji tərəfdaşlığı, daşıma sahələrində mühüm rol oynaya bilər. Biz enerji dəhlizini açmışıq, indi isə Xəzər dənizi regionundan Qara dəniz və Baltik dənizi regionuna doğru daşıma dəhlizini açmaqdayıq.

Bu baxımdan, hesab edirəm və əminəm, siz də bu fikirlə razısınız ki, GUAM-ın çox parlaq gələcəyi var. Əminəm ki, Avropa İttifaqı ilə yanaşı, digər tərəfdaşlarımız ilə də əməkdaşlığımız daha da artacaqdır. Prezident Adamkusun qeyd etdiyi kimi, Avropa İttifaqı GUAM ilə daha fəal tərəfdaşlıq etməyi nəzərdən keçirir və bu bizə əlavə güc verir.

Mən ev sahibi olan Litva tərəfinə və bütün iştirakçılara bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bizə etimad göstərən, təşkilatımızın gələcəyinə inanan tərəflərin hamısına təşəkkür edirəm. Əminəm ki, bu tərəfdaşlıq genişlənəcəkdir. Bu gün bizim təşkilatımızın daxilində güclü təşkilati quruluş

var. Bizim tərəfdaşlarımız və güclü dəstək verənlərimiz, o cümlədən gələcək işlərimiz barədə aydın baxışlarımız var.

Zirvə görüşünün bütün iştirakçılarına minnətdarlığımı bildirmək istəyirəm və sizin ölkələrinizə, xalqlarınıza uğurlar arzulayıram. Əminəm ki, gələcək tərəfdaşlığımız bugünkü kimi uğurlu olacaqdır.

Nəhayət, sonda mən GUAM-ın Vilnüs zirvə görüşünün birgə bəyanatının qəbul olunmasını təklif edirəm. Bəyanatın layihəsi sizin qarşınızdadır. Əgər hər hansı şərhləriniz və ya qeydiniz varsa, onları bildirə bilərsiniz. Onun mətni əvvəlcədən razılaşdırılıb və zənnimcə, tam aydındır. Belə olan halda, icazənizlə, mən bu bəyanatı qəbul olunmuş kimi hesab edirəm.

Çox sağ olun.

## Səfər başa çatdı

*Oktyabrın 11-də Azərbaycan prezidenti İlham Əliyevin Vilnüsə işgüzar səfəri başa çatmışdır.*

*Vilnüs Beynəlxalq Hava Limanında Azərbaycan dövlətinin başçısını Litvanın rəsmi şəxsləri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı elə həmin gün Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.

Dünya müsəlmanlarının müqəddəs kitabı Qurani-Kərimin nazil olduğu mübarək ramazan ayı insanları xeyirxah niyyətlər naminə birliyə dəvət edir, onlara əxlaqi saflığın və zənginliyin, cismani-ruhi kamilliyin fərəhini yaşadır, mənəvi ucalığın nəfs üzərində qələbə təntənəsini nümayiş etdirir.

Xalqımız tarixi boyu həmişə Uca Tanrıya tapınmış, milli köklərinə, dini-mənəvi ənənələrinə daim sadiq olmuşdur. Müstəqillik illərində mütərəqqi islami dəyərlərə qayıdış cəmiyyətimizin əxlaqi-mənəvi yüksəlişinə, xalqımızın bütövlüyü və birliyinə xidmət göstərmişdir. Azərbaycan övladlarının yüksək vətənpərvərliyi, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi uğrunda sarsılmaz mübarizə əzmi də məhz belə milli-mənəvi dəyərlərə sadiqliyin nümunəsidir.

Öz canlarını ölkəmizin müstəqilliyi və torpaqlarımızın azadlığı uğrunda qurban vermiş Azərbaycanın qəhrəman övladlarının əziz xatirəsini bu mübarək bayram günlərində bir daha böyük ehtiramla yad edir, onlara Allahdan rəhmət diləyirəm.

Əziz bacı və qardaşlarım!

Siz mübarək ramazan günlərini böyük məmnunluq və fərəh hissləri ilə başa vurursunuz. İnanıram ki, müqəddəs dinimiz yolunda nəcib əməlləriniz, Azərbaycanın əmin-amanlığı və tərəqqisi naminə etdiyiniz dualar sayəsində Ulu Tanrı öz mərhəmətini və şəfqətini xalqımızdan əsirgəməyəcəkdir.

Bu əziz bayram günündə sizin hamınızı və ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızı bir daha təbrik edir, hər birinizə firavanlıq, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 oktyabr 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA BUNDESTAQININ ALMANİYA–CƏNUBİ QAFQAZ PARLAMENTLƏRARASI QRUPUNUN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*15 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Prezident sarayında Almaniya Bundestaqının Almaniya–Cənubi Qafqaz parlamentlərarası qrupunun üzvlərini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Almaniya arasında siyasi və iqtisadi sahədə əməkdaşlığın uğurla həyata keçirildiyini vurğulayaraq dedi: «Ümid edirəm ki, sizin səfəriniz ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etməsinə, habelə Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığın daha da genişlənməsinə öz töhfəsini verəcəkdir». Gələn il Almaniyada «Azərbaycan İli»nin keçiriləcəyini xatırladan prezident İlham Əliyev bunun ölkəmiz haqqında Almaniyada daha dolğun məlumatın yayılması üçün yaxşı imkan yaradacağına əminliyini söylədi.*

*Almaniya–Cənubi Qafqaz parlamentlərarası qrupunun rəhbəri Şteffen Rayxe rəhbərlik etdiyi nümayəndə heyəti üzvlərinin artıq bir neçə dəfə ölkəmizdə səfərdə olduqlarını bildirdi. Qonaq Azərbaycan ilə əlaqələrin səviyyəsindən razılıqlarını ifadə etdi və gələn il Almaniyada «Azərbaycan İli»nin keçirilməsinin ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf etdirilməsi baxımından mühüm hadisə olacağını vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA SƏFƏRİ

*16 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının II zirvə toplantısında iştirak etmək üçün oktyabrın 16-da İrana səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

# XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli cənab prezident Mahmud Əhmədinejad!
Hörmətli dövlət başçıları!
Əziz dostlar!

Mən sizin hamınızı Xəzəryanı dövlətlərin başçılarının zirvə görüşünün keçirilməsi münasibətilə ürəkdən salamlayır və zirvə görüşünün işinə uğurlar arzulayıram.

Bizə göstərilən qonaqpərvərliyə və zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejada minnətdarlığımı bildirirəm.

Xəzəryanı dövlətlərin başçılarının 2002-ci ildə Aşqabadda keçirilmiş ilk zirvə görüşü ölkələrimizin həyatında mühüm hadisə olmuşdur. Bu görüş Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsinə dair bir çox prinsipial məsələlər üzrə fikir mübadiləsi aparmağa imkan vermişdir.

Ötən müddət ərzində Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri formatında ekspert qrupları səmərəli iş aparmışlar. Xarici işlər nazirləri, dövlət başçıları səviyyəsində ikitərəfli əsasda bir çox görüşlər keçirilmişdir. Hesab edirəm ki, Xəzər dənizinin hüquqi statusu kimi mühüm məsələnin müzakirəsi və bu barədə qərar qəbul olunması üçün xeyli təcrübə toplanmış və yaxşı şərait yaranmışdır.

Ümidvaram ki, hazırda toplaşdığımız Tehran görüşü bu mühüm məsələ ilə bağlı qarşıda duran məsələlərin həlli naminə bütün səy və imkanların birləşməsinə, mövqelərin daha da yaxınlaşmasına, ciddi nəticələr əldə edilməsinə imkan verəcəkdir.

Qeyd etmək lazımdır ki, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi yalnız region dövlətlərinin inkişafı və çiçəklənməsi, dövlətlərarası münasibətlərin möhkəmlənməsi baxımından deyil, eyni zamanda, onun biomüxtəlifliyinin, flora və fauna zənginliyinin qorunub saxlanması, ekoloji durumunun yaxşılaşdırılması baxımından da çox vacibdir.

Xəzər dənizi yerləşdiyi mövqeyə görə bütövlükdə region üçün xüsusi əhəmiyyət kəsb edir. Heç şübhə yoxdur ki, regionun gələcək inkişafı baxımından Xəzərin statusunun müəyyənləşməsi istiqamətində anlaşma və razılığın əldə edilməsi Xəzər regionunda qarşılıqlı etimadı, sülhü və təhlükəsizliyi daha da möhkəmləndirəcək, daha sıx əməkdaşlığa zəmin yaradacaqdır.

Xəzərdə əməkdaşlığın ümumi prinsiplərinin formalaşması istiqamətində mühüm addımlar hələ ötən əsrin ortalarından etibarən atılmışdır. Qarşılıqlı razılaşmaya uyğun olaraq, Xəzər dənizi orta xətt prinsipi əsasında müttəfiq respublikalar arasında sektorlara bölünmüşdür. Xəzər dənizinin sektorlara bölünməklə istifadə edilməsi sahilyanı ölkələr arasındakı müqavilə təcrübəsində istifadə olunmuşdur.

Ötən əsrin 40-cı illərindən başlayaraq Xəzər dənizindəki bütün neft və qaz yataqlarının kəşfiyyatı və istismarı Azərbaycan neftçiləri tərəfindən həyata keçirilmişdir. Xəzər dənizində sənaye üsulu ilə neft və qaz hasilatına Azərbaycan 1949-cu ildə başlamışdır.

Son illərdə Xəzəryanı dövlətlər Xəzər dənizində təşəkkül tapmış praktikanı davam etdirərək, müvafiq ekoloji, iqtisadi, elmi-texniki tədbirlər həyata keçirirlər. Lakin Xəzər dənizinin nadir xarakterinin qorunub saxlanması zərurəti daha səmərəli tədbirlər görülməsini tələb edir.

Biz Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlayırıq. Bu baxımdan Azərbaycan, Rusiya və Qazaxıstan arasında dənizin dibinin bölünməsinə dair imzalanmış sazişlərə böyük əhəmiyyət veririk. Bu sazişlər ümumi razılaşmaların əldə olun-

masının təməlini qoyaraq Xəzərin hüquqi statusunun mühüm tərkib hissəsini təşkil edir.

Xəzərin əsrlərdən bəri dostluq və əməkdaşlıq dənizi olduğunu nəzərə alaraq, ondan yalnız dinc məqsədlərlə istifadə olunmasını, hüquqi status çərçivəsində silahsızlaşdırma və təhlükəsizlik prinsiplərinin müəyyən edilməsini, eyni zamanda, digər dənizlərə və dünya okeanına çıxışı olmayan sahilyanı ölkələrin gəmilərinə ümumi razılaşmalar çərçivəsində azad tranzit imkanlarının saxlanmasını vacib hesab edirəm.

Azərbaycan Xəzər dənizinin bioloji ehtiyatlarının və ətraf mühitinin qorunmasının vacibliyini vurğulayaraq, Xəzərin bioloji müxtəlifliyinin, təbii ehtiyatlarının istifadəsi və çoxaldılması məqsədi ilə ekoloji problemlərin həllində də əməkdaşlığın genişləndirilməsinin tərəfdarıdır.

Bu istiqamətdə «Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası»nın imzalanmasını, qüvvəyə minməsini və Birinci Tərəflər konfransının cari ilin may ayında Bakı şəhərində keçirilməsini alqışlayıram.

Azərbaycan «Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası»nın Katibliyinin Bakıda yerləşməsinə hazır olduğunu bəyan edir.

Azərbaycan etibarlı qonşu və tərəfdaşdır. Biz bunu dəfələrlə nümayiş etdirmişik. Qonşu ölkələrlə dostluq və əməkdaşlıq əlaqələrinin daim inkişafı və genişlənməsi bizim xarici siyasət xəttimizin əsas istiqamətlərindən biridir.

İnanıram ki, Tehran zirvə görüşü və burada qəbul edəcəyimiz bəyannamə Xəzəryanı dövlətlərin əməkdaşlığını bütün sahələrdə daha da inkişaf etdirmək, regionumuzda sabitliyi və sülhü təmin etmək işində mühüm dönüş mərhələsi olacaqdır və Xəzər sülh, dostluq və əməkdaşlıq dənizinə çevriləcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN GÖRÜŞÜ

*Tehran*

*16 oktyabr 2007-ci il*

*Oktyabrın 16-da Tehranda Xəzəryanı ölkələrin dövlət başçılarının ikinci zirvə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın görüşü olmuşdur.*

*Prezidentlər siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin hər iki tərəfin mənafeyinə uyğun şəkildə uğurla inkişaf etdiyini vurğuladılar. Bildirildi ki, əlaqələr həm də regional əməkdaşlığın genişlənməsinə xidmət edir. Xəzərətrafı ölkələrin dövlət başçılarının zirvə toplantısı sahilyanı dövlətlər arasında əlaqələri genişləndirməklə yanaşı, bölgədə əməkdaşlığa da töhfə verir.*

*Dövlət başçıları Azərbaycan və İran prezidentlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətinə toxunaraq bunun münasibətlərin daha da möhkəmlənməsində rolunu vurğuladılar, ikitərəfli əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminliklərini bildirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRANIN ALİ DİNİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİNİN GÖRÜŞÜ

*Tehran*

*16 oktyabr 2007-ci il*

*Oktyabrın 16-da Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının ali dini rəhbəri Seyid Əli Xameneinin görüşü olmuşdur.*

*Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı.*

*Seyid Əli Xamenei xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini məmnunluqla xatırladı. O, zirvə toplantısının uğurla keçdiyini, ikitərəfli və regional əməkdaşlıq üçün faydalı olduğunu söylədi.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik vurğulandı.*

## QEYDLƏR

**1. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17, 1 milyon $km^2$, əhalisi 146, 3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 6–10, 23–24, 27, 33, 34, 35, 36, 109, 144, 183, 259, 309.

**2. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 6–10, 192–200.

**3. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1, 65 milyon $km^2$, əhalisi 62, 2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 6, 95, 185, 307–312.

**4. Dəvəçi** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Abşeron rayonuna verilmişdir. 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1739 $km^2$, əhalisi 55,5 min

nəfərdir. Hazırda adı dəyişdirilərək Şabran adlandırılmışdır. – 6–10.

**5. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – mühəndis. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya məsələləri daimi Komitəsinin üzvüdür. – 6–10, 192–200.

**6. Hüseynqulu Bağırov,** H ü s e y n q u l u S e y i d o ğ l u (d.1955) – iqtisadçı. 2000-ci ildə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. – 10.

**7. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Meh-

riban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 10, 14, 18, 80, 89, 97, 19, 122, 125, 126, 130, 131, 137, 138, 139, 140, 142, 151, 171, 174, 267.

**8. Cənubi Koreya** – bax Koreya Respublikası. – 11-12, 157.

**9. Roh Mu-Hyun** (H o M u X e y n) (1946–2009) – 2003–2008-ci illərdə Koreya Respublikasının prezidenti.

Dövlət başçısı olduğu dövr Cənubi Koreyada iqtisadiyyatın inkişafı və artım dövrü olmuşdur. – 11–12, 157.

**10. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312, 7 min km$^2$, əhalisi 38, 7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 13, 27, 32, 107, 161, 286, 292, 302.

**11. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780, 6 min km$^2$, əhalisi 76, 5 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 13, 27, 33, 34, 36, 81, 151, 184, 191, 270, 288, 294, 295.

**12. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-nin üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin prezidenti olmuşdur. – 13, 191.

**13. Türkiyə Ədalət və İnkişaf Partiyası** (Adelet və Kalkinma Partisi) – hal-hazırda Türkiyədə hakimiyyətdə olan partiya. 2002-ci ildə Rəcəb Tayyib Ərdoğan və Abdullah Gül tərəfindən yaradılmışdır. – 13, 184.

**14. Türkiyə Böyük Millət Məclisi** (TBMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. – 13.

**15. Qətər,** Q ə t ə r  d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11 min km$^2$, əhalisi 59 min nəfərdir. Dövlət başçısı əmirdir. Paytaxtı Doha. – 14–18.

**16. Həməd bin Xəlifə əl-Tani** (d.1952) – 1995-ci ildən Qətər əmiri, 1997-ci ildə regionda – ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ verdi. – 14–18.

**17. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 14, 18, 84, 130, 131, 133, 137, 138, 139, 163–164, 168, 226–227, 271, 276.

**18. Şeyxa Moza bint Nasir əl-Misnəd** (1959) –Qətərin birinci xanımı. Xanım Şeyxa Moza 1995-ci ildə Qətər Elm, Təhsil və İctimai Fondunun sədri, 1998-ci ildən Ərəb Demokratiya Fondunun rəhbəri və Ailə məsələləri üzrə Şuranın sədri, 2002-ci ildən Ali Təhsil Şurasının vitse-prezidenti, 2003-cü ildən İSESKO-nun Xoşməramlı səfiridir. – 14–18.

**19. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 14, 18.

**20. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl Tüveyjridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 14.

**21. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 14, 18, 101.

**22. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 16, 117, 202, 300.

**23. Azərbaycan Ticarət və Sənaye Palatası –** 1960-cı ildən fəaliyyət göstərir. Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə ticarət, iqtisadi və elmi-texniki əlaqələrinin inkişafına kömək edir. 1980-ci ildə palata istehsalın və beynəlxalq əməkdaşlığın inkişafında əldə etdiyi müvəffəqiyyətlərə görə «Qızıl Merkuri» beynəlxalq mükafatına layiq görülmüşdür. – 17.

**24. Heydər Babayev,** Heydər Aydın oğlu (d.1957) – iqtisadçı. 1999–2005-ci illərdə Azərbaycan Respublikası Prezidenti Yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-ci ilin oktyabrından 2008-ci ilə qədər Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri olmuşdur. – 17, 204, 228.

**25. Süleyman Tatlıyev,** Süleyman Bayram oğlu (1925–2014) – Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti olmuşdur. Müxtəlif illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində işləmişdir. – 17.

**17. Fazil Məmmədov,** Fazil Əsəd oğlu (d.1964) – iqtisadçı. 2000-ci ildən Azərbaycan Respublikasının Vergilər naziridir. – 17, 101.

**26. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9, 14 milyon km$^2$, əhalisi 319 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 22, 33, 144, 178, 184, 291, 292, 298.

**27. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin

noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun

müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 22–23, 37, 38, 39, 60, 83, 84, 138, 141, 151, 165–172, 226, 242, 245, 251, 271, 272, 273.

**28. Sergey Narışkin** (d.1954) – Rusiya dövlət xadimi. 2008–2011-ci illərdə Rusiya Federasiyası Prezidenti Admi-

nistrasiyasının rəhbəri, 2011-ci ildən Rusiya Federasiyası Dövlət Dumasının sədridir. – 23–24.

**29. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 61,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 27, 156, 206.

**30. Pekin** – Çinin paytaxtı (1949-cu ildən). Ölkənin siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzi. Əhalisinin sayına görə ölkənin ikinci (Şanxaydan sonra) şəhəri, Böyük Çin düzənliyində, Yundinxe çayı hövzəsindədir. Sahəsi 17,8 min $km^2$, əhalisi 19, 7 milyon nəfərdir.

Pekin haqqında ilk məlumat e.ə.ikinci minilliyə aid edilir. Pekin Çinin ən iri sənaye mərkəzlərindəndir. – 27, 29, 30.

**31. Litva,** Litva Respublikası – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min $km^2$, əhalisi 3,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdur. – 27, 31–44, 97–129, 240, 285–303.

**32. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min $km^2$, əhalisi 8,34 milyon nəfərdir. Dövlət başçısı prezident,

qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. – 27, 152, 283.

**33. Beynəlxalq Olimpiya Komitəsi (BOK)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un tərkibində 200 üzv (70-dən artıq ölkədən) var idi. BOK-u 200-ə yaxın Milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 29.

**34. Olimpiya oyunları** – Qədim Yunanıstanda Olimpiya şəhərində b.e.ə.776-cı ildən Zevsin şərəfinə (ənənəyə görə 4 ildən bir) keçirilən ümumyunan bayramı və yarışları. Olimpiya oyunlarının keçirildiyi müddətdə bütün yunanlar üçün «Müqəddəs sülh» məcburi idi.

Müasir dövrdə ən böyük beynəlxalq kompleks idman yarışları. P.de Kubertenin təşəbbüsü ilə 1896-cı ildən keçirilir. Olimpiya oyunları proqramına Beynəlxalq Olimpiya Komitəsinin təsdiq etdiyi idman növləri daxil edilə bilər. – 29–30.

**35. Sidney** – Avstraliyada şəhər. Yeni Cənubi Uels ştatının inzibati mərkəzi. Əsası 1788-ci ildə qoyulmuşdur. – 29.

**36. Vilnüs** – Litvanın (1940-cı ildən) paytaxtı. Əhalisi 590 min nəfər. 1939-cu ilə qədər Vilno adlanırdı. – 31, 32, 97–129, 240, 285–303.

**37. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının prezidenti olmuşdur. – 31, 32, 98–114, 119–128, 286, 289, 292, 293, 296, 297, 298, 300, 301, 302.

**38. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 27, 33, 34, 36, 38, 188, 286, 288, 294, 295, 298, 300.

**39. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,7 min km$^2$, əhalisi 46,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – RADA – 27, 36, 107, 257, 286, 288, 290, 292, 298, 300, 301.

**40. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57, 5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 27, 33, 153.

**41. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 27, 57, 154, 155, 199, 200, 261, 306.

**42. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58, 4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat)

ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 27, 144.

**43. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km², əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 27, 33, 34, 36, 295.

**44. Elçin Cəfərov** (d.1959) – Yunan-Roma güləşi üzrə Əməkdar idman ustası. Azərbaycan Respublikasının Əməkdar məşqçisi. Bədən tərbiyəsi və idman xadimi. Azərbaycan Respublikası Güləş Federasiyasının vitse-prezidenti və Baş məşqçi. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 30, 145.

**45. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan qurumu tərk etdi. – 31, 120, 123, 124, 289, 298–303.

**46. Krakov** – Polşanın cənubunda, Visla çayının yuxarı axınında şəhər və liman. Krakov şəhər voyevodalığının inzibati mərkəzi. Əhalisi 713 min nəfərdir.
Şəhər VIII–X əsrlərdə salınmış, XI–XVI əsrlərdə Polşa dövlətinin paytaxtı olmuşdur. – 33, 107, 123, 124, 288.

**47. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandi-

ya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox Avropa dövlətləri də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 33, 36, 37, 39, 43, 96, 103, 104, 107, 108, 110, 112, 117, 122, 124, 128, 220, 222, 224, 231, 233, 254, 286, 287, 288, 292, 294, 295.

**48. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. Layihənin qiyməti *bp* şirkətinin hesablamasına görə 14 milyard avro olmalıdır. – 33, 295.

**49. «Şahdəniz»** –Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 33, 38.

**50. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 34.

**51. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 35, 49, 72–76, 78, 199, 200, 255–260.

**52. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası Hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. –35.

**53. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan

prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 37, 38, 60, 84, 107, 207, 227.

**54. Bakı–Tbilisi–Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. –37, 38, 60, 85, 207.

**55. Şevardnadze** E d u a r d A m v r o s i y e v i ç (1928–2014) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 37.

**56. Süleyman Dəmirəl** (1924–2015) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 37.

**57. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri»,

«Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. –38.

**58. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanmışdır. Yolun uzunluğu 826 km-dir. Gürcüstanın Axalkalaki stansiyasından Qars şəhərinə qədər olacaqdır. – 38, 60, 85, 106, 207.

**59. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 40, 41, 43, 49, 55, 56, 57, 58, 59, 105, 107, 108, 124, 170, 202, 204, 216, 249, 254, 299.

**60. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 16,7 milyon nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 40, 258, 259, 284, 286, 309.

**61. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm or-

qanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 41, 204, 218, 222.

**62. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 41, 43, 65.

**63. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton-Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 41, 91.

**64. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə,

Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 42, 43, 56, 144.

**65. Kosovo problemi** – 80-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Herseqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 1999-cu ildən sonra Serbiya hökuməti Kosovo ərazisinə de-fakto nəzarətini itirdi. 2008-ci ildə Kosovo özünü birtərəfli şəkildə müstəqil dövlət elan etdi. Hazırda BMT üzv-ölkələrinin 99-u, o cümlədən NATO ölkələri Kosovonun müstəqilliyini tanıyır. – 43.

**66. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın si-

yasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 43, 144.

**67. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarəetməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 47.

**68. Saatlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1943-cü ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilib ərazisi Sabirabad rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1135 $km^2$, əhalisi 100 min nəfərdir. – 48.

**69. Əli Həsənov,** Əli Şamil oğlu (d.1948) – mühəndis-mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 50, 52.

**70. Sabirabad** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1598 $km^2$, əhalisi 164, 6 min nəfərdir. – 48.

**71. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 $km^2$, əhalisi

188, 4 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 51.

**72. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1386 km$^2$, əhalisi 123, 3 min nəfərdir. – 51, 53.

**73. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmiş Horadiz altı ay sonra Azərbaycan ordusu tərəfindən azad edilmişdir. – 53.

**74. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 55, 56.

**75. Nizami Bəhmənov,** Nizami Keykavuş oğlu (1948–2009) – Dağlıq Qarabağın azərbaycanlılar icmasının başçısı olmuşdur. – 56.

**76. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1990-cı ildən Ermənistan silahlıları tərəfindən işğal edilmişdir. – 57.

**77. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 86,7 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 55, 57.

**78. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 55, 56, 57.

**79. «Azərenerji»** – dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisinin ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 60.

**80. «Azəriqaz» İstehsalat Birliyi** – «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 60.

**81. «Azərsu» Səhmdar Cəmiyyəti** – 2004-cü ildə Abşeron Regional Su Cəmiyyəti «Azərsu» Səhmdar Cəmiyyətinə çevrildi. Bakı Şəhər İcra Hakimiyyətinin «Bakıkanalizasiya» İstehsalat Birliyinin və Dövlət Tikinti və Arxi-

tektura Komitəsinin ləğv edilmiş «Azərsukanaltəmir» və «Azərkəndsutəchizat» istehsalat birliklərinin respublikanın şəhər və rayonlarındakı müəssisə və təşkilatları onun tabeliyinə verilmişdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. – 60.

**82. Tomas Hammarberq** (d.1942) – İsveç diplomatı. 2006-cı ildən Avropa Şurasında İnsan hüquqları üzrə komissarıdır. Nobel sülh mükafatı laureatıdır. – 65.

**83. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1958 min km$^2$, əhalisi 91,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar palatası və Senat). Paytaxtı Mexikodur. – 66.

**84. İnoxosa Felipe** (d.1962) – Meksika siyasi xadimi. 2006–2012-ci illərdə Meksikanın prezidenti olmuşdur. Prezident seçildikdən sonra narkotik mafiyaya qarşı qətiyyətlə mübarizə aparmışdır. –

**85. Çili,** Ç i l i R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-qərbində dövlət. Sahəsi 756, 9 min km$^2$, əhalisi 14,4 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı ikipalatalı parlament (Senat və Deputatlar Palatası). Paytaxtı Santyaqodur. – 67.

**86. Baçelet Mişel** (d.1951) – 2006–2010 və 2014-cü ildən Çili prezidenti. Çili tarixində ilk qadın prezidentdir. Həkim-cərrah və epidemioloq. – 67.

**87. Malta,** Malta Respublikası – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 $km^2$, əhalisi 372 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 68.

**88. Edvard Feneç Adami** (d.1934) – Malta siyasətçisi. 1987–1996, 1998–2004-cü illər Maltanın Baş naziri, 2004–2009-cu illərdə Maltanın prezidenti olmuşdur. – 68.

**89. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon $km^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Riyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 69, 70.

**90. Abdullah ibn Əbdüləziz,** Al Səud (1924–2015) – 2005-ci illərdə Səudiyyə Ərəbistanı əmiri. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 69.

**91. Sultan bin Əbdüləziz Al Səud** (1928–2011) – Səudiyyə Ərəbistanı şahzadəsi, vəliəhd. 1962-ci ildən Səudiyyə Ərəbistanı Krallığının Hərbi və Aviasiya naziri, həmçinin 1982-ci ildən 2005-ci ilə qədər Baş nazirin 2-ci müavini,

2005-ci ildən birinci Baş vitse-nazir və krallığın Baş inspektoru olmuşdur. – 70.

**92. Mali,** M a l i  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1240 min km$^2$, əhalisi 9,2 milyon nəfərdir. İnzibati ərazisi 8 vilayətə və Bamako rayonuna bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclis. Paytaxtı Bamakodur. – 71.

**93. Ture Amadu** (d.1948) – general. 2002–2007 və 2007-ci ildən Malinin prezidentidir. – 71.

**94. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 73.

**95. Tacikistan,** T a c i k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 73, 255–260.

**96. Vladimir Ruşaylo** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildə Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildə nazir, 2001-ci ildə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 73, 74, 78, 255–260.

**97. Rəşid Nurqaliyev** (d.1956) – Rusiya dövlət xadimi, ordu generalı. 2004–2012-ci illərdə Rusiya Federasiyasında

Daxili İşlər naziri olmuşdur. 2012-ci ildən Rusiya Təhlükəsizlik Şurası Katibinin müavinidir. – 75.

**98. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 55 ixtisas üzrə 18 minə yaxın tələbə təhsil alır. – 79, 120, 123.

**99. Ramil Usubov,** R a m i l İ d r i s o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 76.

**100. «Citiqroup»** – maliyyə xidməti sahəsində dünyada ən böyük Beynəlxalq maliyyə konqlomeratı. Kompaniya 1998-ci ildə «Citicorp» və «Travelers Group»un birləşməsi nəticəsində yaradılmışdır. Bankın ümumi gəliri 1, 9 trilyon dollardan çox aktivləri idarə edir. «Citiqroup» ABŞ-da qiymətli kağızların ilk diler xəzinədarıdır.

Bank 2010-cu ilin hesabatına görə dünyanın 139 ölkəsinin 200 milyon müştərisinə xidmət etmişdir. Dünyanın 5 qitəsində Bankın 2 mindən çox şöbəsi olmuşdur. Bank özünün şəxsi qərargahları olmayan ölkələrə belə, kredit kartları verir. – 77.

**101. Cavad Heyət,** C a v a d Ə l i o ğ l u (1925–2014) – dünya şöhrətli həkim, filosof, istedadlı dilçi, görkəmli ədəbiyyatşünas və publisist. C.Heyət əsasən cərrahlıqla məşğul olur, elmi-təcrübi araşdırmalar aparırdı, müasir cərrahlıqda bir sıra nadir cərrahi əməliyyatları uğurla başa çatdırmışdır. O 1979-cu ildən İran İslam Respublikasında Azərbaycan dilində «Varlıq» jurnalını nəşr edir. Cavad Heyət Paris

Cərrahlıq Akademiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının üzvüdür. – 79.

**102. Heydər Əliyev Mərkəzi** – Bakıda inşa edilmiş araşdırma və beynəlxalq dialoq mərkəzi. Mərkəz böyük bir kompleksdən ibarət olmaqla, özündə iri konqres zalı, Heydər Əliyev Muzeyi, sərgi salonları, administrativ ofisləri birləşdirir. Mərkəz Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adını daşıyır. Mərkəzin layihəsi 2007-ci ildə məşhur memar Zaha Hadid tərəfindən işlənmişdir. Mərkəz ulu öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği, Azərbaycan tarixi və dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin yaşadılması istiqamətində fəaliyyət göstərir. – 80–89, 90.

**103. Zaha Hadid,** Zaha Məhəmməd Hadid (d.1950) – ərəb mənşəli Britaniya memar və dizayneri, dekonstruktivizmin nümayəndəsi. Zaha Hadid, demək olar ki, gənc yaşlarından çoxlu layihələri özünün fantaziyası əsasında – dekonstruktivizm üslubunda işləyir. Zaha Hadidin ən gözəl layihələrindən biri də Bakıda inşa edilmiş Heydər Əliyev Mərkəzidir. – 80, 82, 88, 89, 90.

**104. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16, 5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtə-

bələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 83.

**105. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 93, 274.

**106. Cavad xan** (? – 1804) – Gəncə xanı (1785–1804), Ziyadoğluları nəslindən idi. Cavad xan dövründə Qazax, Borçalı, Şəmsəddil, Şamxor və s. yerlər Gəncə xanlığına daxil idi. Gürcüstan Rusiyaya birləşdikdə (1801) Cavad xanın qoşunu Şəmsəddilin 29 kəndini Gəncə xanlığına qatdı. 1803-cü ilin noyabrında çar generalı P.D.Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. P.D.Sisianovun tabe olmaq tələbini rədd edən Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. – 93.

**107. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 95, 308, 311.

**108. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri,

1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 97, 129, 162, 174, 255, 285, 303, 307.

**109. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 97, 129, 162, 174, 192–200, 226, 255, 285, 303, 307.

**110. Əbülfəs Qarayev,** Ə b ü l f ə s M ü r s ə l o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 101.

**111. NATO** (*Şimali Atlantika Müqaviləsi Təşkilatı*) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə

İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzilqərargahı Brüsseldədir. – 103, 104, 107, 108, 124, 128, 222, 231.

**112. İpək Yolu**, B ö y ü k  İ p ə k  Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 106, 180, 207.

**113. Odessa–Brodi–Qdansk** – Odessa, Brodi və Qdansk şəhərləri arasında çəkilən və «Drujba» kəməri ilə birləşdirilən neft kəməri. Kəmərin uzunluğu 667 km-dir. 2001-ci

ildə axıdılan neftin miqdarı 14, 5 milyon ton olmuşdur. Bu kəmərlə Xəzər və Qazaxıstan neftinin Türkiyə boğazlarından ötürülməklə Şərqi, Mərkəzi və Şimali Avropaya çatdırılması da nəzərdə tutulurdu. – 107.

**114. Azərbaycan Dövlət İnvestisiya Şirkəti** (AİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-nin məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. – 113.

**115. Mahir Həmzəyev,** M a h i r C a n m i r z ə o ğ l u (d.1958) – Litvada Azərbaycan diasporasının nümayəndəsi, Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, Avropa Azərbaycanlıları Konqresinin vitse-prezidenti, Litva Respublikası Baş nazirinin yanında Litva Milli Azlıqlarının Məsələləri üzrə Koordinasiya Komissiyasının üzvü. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif olunmuşdur. – 116.

**116. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 117, 183.

**117. Vintsas Kreve-Mitskyaviçyus** (1882–1954) – Litva ədəbiyyatının ən məşhur klassik yazıçılarından biri, eyni zamanda, görkəmli ədəbiyyatşünas və dilçi alim, Kaunas və Vilnüs universitetlərinin professoru (1922–1943), ictimai-siyasi xadimi, Litva Elmlər Akademiyasının ilk prezidenti. Vintsas Kreve Mitskyaviçyus Litva– Azərbaycan ədəbi-mədəni əlaqələrində və ictimai-siyasi münasibətlərində müstəsna xidmət göstərmiş şəxsiyyətdir. Onun həyat və yaradıcılı-

ğının, elmi-pedaqoji, mədəni-maarif və ictimai-siyasi fəaliyyəti (1909–1920) sıx şəkildə Azərbaycanla bağlı olmuşdur. V.Kreve Mitskyaviayus 1919–20-ci illərdə Litva dövlətinin Azərbaycan Xalq Cümhuriyyətində konsulu olmuşdur. – 120, 121, 123, 128.

**118. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batumi neft kəməri bərpa edildi. – 120, 123.

**119. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-

Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 123.

**120. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 123.

**121. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmaga, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 124, 220, 295.

**122. NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı»** – 2008-ci ildən Azərbaycan Respublikası bu planın həyata keçirilməsində iştirak edir. – 124.

**123. Mətyu Brayzə** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi olmuşdur. Sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 144.

**124. Fərid Mansurov,** Fərid Salman oğlu (d.1982) – Yunan-Roma güləşi üzrə Əməkdar idman ustası. 2002-ci ildə dünya çempionatında ikinci yeri, 2004-cü il olimpiadasında birinci yeri tutmuşdur. 2007, 2008-ci illərdə isə dünya çempionu olmuşdur. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 145.

**125. Azərbaycan Dövlət Tibb Universiteti** – respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı universitetinin nəzdində tibb fakültəsi, 1920-ci ildə isə həmin fakültənin əsasında müstəqil tibb institutu yaradılmışdır. Universitetin 8 fakültəsi var. Universitetdə 6700 tələbə təhsil alır. – 146–151.

**126. Əhliman Əmiraslanov,** Əhliman Tapdıq oğlu (d.1947) – cərrah-onkoloq, tibb elmləri doktoru, professor. AMEA-nın akademik-katibi. Əməkdar elm xadimi. SSRİ Dövlət mükafatı laureatı, RF Təbiət Elmləri Akademiyasının üzvü seçilmişdir. 1992-ci ilə kimi SSRİ TEA-nın ÜOEMD-də işləyib. 1992-2015-ci illərdə Azərbaycan Tibb Universitetinin rektoru olmuşdur. Klinik onkologiya sahəsində tədqiqatlar aparır. «Onkologiya», «Sümük şişləri», «Bədxassəli sümük şişlərinin xüsusi müalicəsinin proqnozları» kitablarının müəllifidir. Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. – 146–151.

**127. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 148.

**128. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min $km^2$, əhalisi 89,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 148, 149.

**129. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1539 $km^2$, əhalisi 218 min nəfərdir. – 148, 149.

**130. Zərifə xanım,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əmək-

dar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 151, 251.

**131. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əhalisi 12,2 milyon nəfərdir. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 151, 241.

**132. Martin Bartenştayn** (d.1953) – avstriyalı siyasətçi. 2007–2008-ci illərdə Avstriyanın İqtisadiyyat və Əmək naziri olmuşdur. – 152.

**133. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2000-ci ildən Almaniyanın Federal kansleridir. – 155.

**134. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı-politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004-cü ildən Almaniyanın prezidentidir. – 154.

**135. Koreya,** K o r e y a   R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min km$^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 157.

**136. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,22 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 158, 185.

**137. Xu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nın sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007-ci ildən Ümumçin Xalq Nümayəndələri Məclisinin sədridir. – 158, 185.

**138. Nigeriya,** N i g e r i y a   F e d e r a t i v   R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 140,4 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abucadır. – 159.

**139. Umaru Yaradua** (1951–2010) – dövlət xadimi, 2007–2010-cu illərdə Nigeriya prezidenti olmuşdur. – 159.

**140. Qvineya,** Qvineya Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 246 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Konakri. – 160.

**141. Lansana Konte** (1934–2008) – Qvineya siyasi, dövlət və hərbi xadimi, general. 1984–2008-ci illərdə Qvineya Respublikasının prezidenti olmuşdur. – 160.

**142. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşa Respublikasının prezidenti. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 161, 286, 289, 292, 296, 297, 302.

**143. Rumıniya,** Rumıniya Respublikası – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 162–174, 185, 292, 302.

**144. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 162, 174, 210, 238, 255, 285, 303, 307.

**145. Buxarest** – Rumıniya Respublikasının paytaxtı (1861-ci ildən). Ölkənin cənubunda, aşağı Dunay ovalığında, Dimbovitsa çayı sahilindədir. Tarixi-memarlıq abidələri, müxtəlif üslubları əks etdirən eklektik tikililəri ilə zəngindir. Şəhər XIV əsrdən məlumdur. Əhalisi 2 milyon nəfərdir. – 162–174.

**146**. **Trayan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının prezidenti olmuşdur. – 162–174, 185, 296, 302.

**147. Corce Enesku** (1881–1955) – rumın bəstəkarı, skripkaçı, pianoçu, dirijor, pedaqoq, musiqi xadimi. Müasir rumın bəstəkarlıq banisi Eneskunun əsərləri rumın musiqisinin klassik nümunələridir. – 167, 171.

**148. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min $km^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 179, 186, 200.

**149. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yek-

dilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 182, 183, 184.

**150. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 183, 298, 299, 302.

**151. Dövlət Duması** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 183.

**152. «Yedinaya Rossiya»,** Ü m u m r u s i y a  S i y a s i  P a r t i y a s ı – Rusiyada sağ mərkəzçi sosial-mühafizəkar partiya, Rusiyanın ən böyük partiyası. 2003-cü il seçkilərinə görə partiya Rusiya Dövlət Dumasında parlament çoxluğu, 2007-ci il seçkilərinə görə isə Konstitusiya çoxluğu əldə etmişdir. 2010-cu ildə hökumətin beş üzvü, ölkənin 83 subyektinin 75-nin rəhbəri «Yedinaya Rossiya»nın nümayəndəsi olmuşdur. – 183.

**153. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş

naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin prezidenti seçilmişdir. – 184.

**154. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 184, 203, 204, 235.

**155. Hüsnü Mübarək,** S e y i d M ə h ə m m ə d (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 184.

**156. Demokratlar Partiyası** – ABŞ-ın iki əsas partiyasından biri. Əsası 1828-ci ildə qoyulmuşdur. XIX əsrin birinci yarısında Cənub plantasiyaçılarının və bankirlərin mənafeyini müdafiə edirdi. 1829–41, 1845–49, 1853–61, 1885–89, 1893–97, 1913–21, 1933–53, 1961–69, 1977–81, 1993–2001-ci illərdə hakimiyyətdə olmuş, hazırda da hakimiyyətdədir. – 184.

**157. Respublikaçılar Partiyası** – ABŞ-ın iki əsas partiyasından biri. 1854-cü ildə yaradılmışdır. 1861-ci ildən 2001-ci ilədək bir neçə dəfə hakimiyyətdə olmuşdur. – 184.

**158. Hindistan,** H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1,2 milyard nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 184, 190.

**159. «Şevron»** – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-

Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41 000 işçisi var. – 187.

**160. Zurab Noğaideli** – Gürcüstan siyasi xadimi. 2005–2007-ci illərdə Gürcüstan Respublikasının Baş naziri olmuşdur. – 188.

**161. Nobel mükafatı** – illik beynəlxalq mükafat; onları təsis etmiş İsveç mühəndis-kimyaçı, ixtiraçı və sənayeçi Alfred Bernhard Nobelin adınadır. 1901-ci ildən verilir. Nobelin vəsiyyətinə əsasən onun ölümündən sonra qalan kapital Nobel fondunu təşkil etmişdir. Onlardan götürülən gəlir hər il bərabər hissəyə bölünür və Nobel mükafatı formasında fizika, kimya, fiziologiya, tibb, ədəbiyyat sahəsində ən yeni nailiyyətlər və həmçinin sülhü möhkəmləndirmək sahəsindəki fəaliyyətə görə verilir. Nobel mükafatı üzərində Alfred Nobelin təsviri və müvafiq yazı olan qızıl medal, diplom və müəyyən məbləğdə pul çekindən ibarətdir. Sülh mükafatından başqa, mükafatlar yalnız fərdi və ancaq bir dəfə verilir. Nobel mükafatı yalnız sağ olan şəxslərə verilir. – 189.

**162. Jores Alfyorov** (d.1930) – rus fiziki, akademik. Lenin, SSRİ Dövlət, Nobel mükafatları laureatı. 1958-ci ildə yeni texnologiya işləyib hazırlamış və germaniumdan ventillərin konstruksiyasını yaratmışdır. 1961-ci ildə yaratdığı güclü germanium düzləndiriciləri əsasında ölkədə yarımkeçirici elektronika meydana gəlmişdir. 1962-ci ildə Alfyorov heterokeçidlərin və heterostrukturların tədqiqinə rəhbərlik etmiş və 1967-ci ildə ideala yaxın heterokeçid yaratmışdır. Əməkdaşları ilə birlikdə yaratdığı heterostruktur-

lar, əsasən otaq temperaturunda fasiləsiz rejimdə işləyən lazerlər geniş tətbiq edilmişdir. – 189.

**163. Azərbaycan Dövlət Opera və Balet Teatrı –** Respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 199.

**164. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs ramazan ayında nazil olmuşdur. – 201, 203, 204, 304–305.

**165. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 202.

**166. Azərbaycan Diplomatik Akademiyası** (ADA) Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi, ətraf mühit və s. sahələr üzrə mütəxəssis hazırlayan elmi mərkəz. 2006-cı ildə təsis edil-

mişdir. Bakıdadır. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramını (beynəlxalq münasibətlər, beynəlxalq hüquq və iqtisadiyyat) doktorantlara dəstək proqramı çərçivəsində həyata keçirir. Dərslər ingilis dilində aparılır; Avropa, Afrika, Amerika ölkələrindən çoxlu sayda tələbə təhsil alır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 204.

**167. Endryu,** Y o r k h e r s o q u, ş a h z a d ə (d.1960) – Britaniya şahzadəsi, kontr-admiral. Britaniya kraliçası II Elizabetin ikinci oğlu. Kral ailəsinin üzvü olduğu üçün Böyük Britaniya gerbinə əsasən, öz xüsusi gerbi var. – 206.

**168. British Midlənd** 2012-ci ildə fəaliyyətini saxlamış Böyük Britaniya aviaşirkəti. 1949-cu ildə yaradılmışdır. Aviakompaniya Avropa, Şimali Amerika, Karib hövzəsinə, Yaxın Şərqə, Afrikaya, Mərkəzi Asiyaya sərnişin və yük daşımışdır. Aviaşirkət ilk vaxtlar çarter və yükdaşınmasında təyyarələrə texniki və broker xidməti və bütün dünyaya təyyarə mühərriki daşımışdır. – 206.

**169. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,8 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 210–237.

**170. Mesiç Stepan** (d.1934) – hüquqşünas. 2000–2008-ci illərdə Xorvatiya Respublikasının prezidenti olmuşdur. – 210–237.

**171. Vaqif Sadıqov,** V a q i f İ s m a y ı l o ğ l u (d.1956) – diplomat. Filologiya elmləri namizədi. 1995–

2004-cü illərdə Azərbaycan Respublikasının Avstriyada Fövqəladə və Səlahiyyətli səfiri, 2004–2010-cu illərdə Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini, 2010-cu ildən isə Azərbaycan Respublikasının İtaliyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 226.

**172. Hafiz Paşayev,** H a f i z M i r C ə l a l o ğ l u (d.1941) – diplomat. Fizika-riyaziyyat elmləri doktoru. 1992–2006-cı illərdə Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini və Diplomatiya Akademiyasının rektorudur. – 204.

**173. Zaqreb** – Xorvatiyanın paytaxtı. Sava çayı sahilindədir. Zaqreb tarixi-memarlıq abidələri ilə zəngindir. Zaqrebdə hər il beynəlxalq yarmarkalar keçirilir. – 217, 231.

**174. A ğ q o y u n l u l a r** (1370–1503) – Ağqoyunlu hökmdarları sülaləsi. Banisi Pəhləvan bəydir. Ağqoyunlular Uzun Həsənin (1453–78) hakimiyyəti illərində ərazicə genişlənmiş, Yaxın və Orta Şərqin ən güclü dövlətlərindən birinə çevrilmişdi. – 221.

**175. S ə f ə v i l ə r** (1501–1736) – Səfəvilər dövləti hökmdarları sülaləsi. Banisi I Şah İsmayıldır (Xətai) (1501–1524). Səfəvilər dövründə Azərbaycanın Cənub və Şimal torpaqları vahid dövlət çərçivəsində birləşmiş, ölkə iqtisadi, siyasi və mədəni cəhətdən inkişaf etmiş, beynəlxalq əlaqələr xeyli genişlənmişdi. – 221.

**176. Mirzə Şəfi Vazeh** (1812–1878) – Azərbaycan şairi, mütəfəkkir, maarifçi. Əlyazması halında olan şeir məc-

muəsini F.Bodenştedtə hədiyyə vermişdir. Almaniyaya qayıdan Bodenştedt həmin şeirləri almancaya çevirərək, «Şərqdə min bir gün», «Mirzə Şəfinin şərqiləri» kitablarında nəşr etdirmişdir. Vazehin şeirlərinin Avropada şöhrət qazandığını görən Bodenştedt 1875-ci ildə özünü onların müəllifi elan etmişdir. Əbədi irsinin cüzi hissəsi bizə çatmışdır. – 222.

**177. Mehdi Hüseynzadə,** M e h d i  H ə n i f ə  o ğ l u (1918–1944) – Yuqoslaviyada və Şimali İtaliyada Müqavimət hərəkatı iştirakçısı, məşhur partizan, Sovet İttifaqı Qəhrəmanı. Mehdi Hüseynzadə partizan hərəkatında fəal iştirak etmiş və hitlerçilərə qarşı mübarizədə cəsurluğu ilə əfsanəvi şöhrət qazanmışdı. –222.

**178. Mərmərə qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. –209.

**179. Akkan Süvər** (d.1942) – Türkiyə jurnalisti. Fəlsəfə elmləri doktoru. Mərmərə qrupunun sədridir. – 209.

**180. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 233.

**181. «Ata Holdinq»** – şirkət. İqtisadiyyatın müxtəlif sahələrinə kapital qoyur, pul və intellektual resurslarla təmin edir, həmçinin korporativ idarəetməyə kömək edir. 2003-cü ildə yaradılmışdır. Nizamnaməyə görə ASC «Ata Holdinq»in kapitalı 83,9 milyon manatdır. Əsasən, öz mühitində pul vəsaitini artırmaqla, informasiya texnologiyalarının, sənayenin xidmət və turizm sahələrini maliyyələşdirir.

2007-ci ildən «Ata Holdinq» və onun filialları beynəlxalq auditor kompaniyaları ilə maliyyə-təsərrüfat fəaliyyətinə başlamışdır. – 209.

**182. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min $km^2$, əhalisi 39,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatalı parlament). Mərakeş sahilindəki Seuta və Melilya şəhər rayonları İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 238, 239.

**183. I Xuan Karlos** (d.1938) – İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 238.

**184. Xose Luis Rodriges Sapatero** (d.1960) – İspaniya siyasətçisi. 2004-cü ildən İspaniyada Baş nazirdir. – 239.

**185. Slovakiya,** S l o v a k i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min $km^2$, əhalisi 3,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 233.

**186. Yuqoslaviya** – 1980-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Monteneqro Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə Serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları şerblərdən qorumaq üçün Kosovoya girdi. 2006-cı ildə keçirilən referendum nəticəsində Monteneqro da Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 233.

**187. Adolf Hitler** (1889–1945) – Nasional-Sosialist Partiyasının füreri (rəhbəri), alman-faşist dövlətinin başçısı (1933-cü ildən reyxkansler). Almaniyada faşist rejiminin yaradıcısı. İkinci dünya müharibəsinin əsas təşkilatçısı olmuşdur. İşğal olunmuş ərazilərdə hərbi əsirlərin və dinc əhalinin kütləvi surətdə məhv edilməsinin başçısıdır. Sovet ordusu Berlinə girəndə özünə qəsd etmişdir. Nürnberq prosesində hərbi cani elan edilmişdir. – 234.

**188. Miloşeviç Slobodan** (1941–2006) – 1992–97-ci illərdə Serbiyanın, 1997–2000-ci illərdə Yuqoslaviya Respublikası İttifaqının prezidenti olmuşdur. – 234.

**189. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman, serb və xorvat) milli-dini zəmində

qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə, Birləşmiş Bosniya-Herseqovinadan ibarət federativ respublika yarandı, sahəsi 51 $km^2$, əhalisi 3,84 milyon nəfərdir. – 234.

**190. Lyudmila Şvetsova** ( 1949–2014) – Moskva hökumətində Moskva merinin birinci müavini və Azərbaycan–Moskva hökumətlərarası iqtisadi komissiyasının həmsədri olmuşdur. – 241.

**191. Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın ictimai və dövlət xadimi. 1992–2010-cu illərdə Moskva şəhərinin meri olmuşdur. – 241.

**192. Ramazan ayı** – Qurani-Kərimin nazil olduğu ay. – 245–251.

**193. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 245–251.

**194. Qurani-Şərif,** əl-Quran – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 251, 304.

**195. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 257, 286, 290, 298, 300, 301.

**196. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. Həmin ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 258, 260.

**197**. **Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 258, 259.

**198. Sergey Lebedev** (d.1948) – Rusiya dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidməti direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 259.

**199. «Siemens»** – alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda nümayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elektrik avadanlıqlarının hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 261.

**200. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parla-

ment Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 266.

**201. Moritz Leunberger** (d.1946) – hüquqşünas. İsveçrə dövlət və siyasi xadimi. 2001–2006-cı illərdə İsveçrənin prezidenti, 2000, 2009-cu illərdə İsveçrənin vitse-prezidenti olmuşdur. – 266.

**202. Azərbaycan Dövlət İqtisad Universiteti** – respublikada iqtisadçı mütəxəssis hazırlayan ali tədris müəssisəsi. 12 fakültəsi (beynəlxalq iqtisadi münasibətlər, maliyyə, ümumi iqtisadiyyat, uçot-iqtisad və s.), 41 kafedrası, 21 ixtisaslaşdırılmış tədris laboratoriyası, 4 oxu zalı və kitabxanası, eyni zamanda, elektron resursları və virtual kitabxanası var. Universitetdə 800 nəfərdən çox professor-müəllim, o cümlədən AMEA-nın 10 həqiqi və müxbir üzvü, 100-dən artıq e.d. və professor və s. çalışır. 22 ixtisas üzrə 18 mindən çox bakalavr və 47 ixtisas üzrə magistr təhsil alır. Əcnəbi tələbələr üçün hazırlıq şöbələri var. – 267–282.

**203. Moskva Dövlət Universiteti**, M. V. Lomonosov adına Moskva Dövlət Universiteti – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 rəsədxana, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyat var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. 2009-cu ildə Bakıda filialı açılmışdır. – 267, 268, 269.

**204. Bilkənd Universiteti** – Türkiyənin görkəmli xadimi İhsan Doğramacı tərəfindən əsası 1984-cü ildə qoyulmuş ali

təhsil müəssisəsi. Universitetin 1000-dən çox akademik heyəti, 539 doktoru, 13100 tələbəsi var. – 267, 270, 271, 272.

**205. Azərbaycan Texnologiya Universiteti** – Gəncədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisəsi. 2000-ci ildə Azərbaycan Texnologiya İnstitutu əsasında yaradılmışdır. Universitetdə hazırda 4 fakültə, 19 kafedra, bakalavr və magistratura şöbələri, elmi-tədqiqat bölməsi, hazırlıq kursları, mərkəzi kitabxana, İnformasiya Hesablama Mərkəzi və s. fəaliyyət göstərir. – 267, 272.

**206. Şəmsəddin Hacıyev,** Şəmsəddin Hümmət oğlu (d.1950) – iqtisadçı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı. Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, iqtisad elmləri doktoru, professor. Azərbaycan Dövlət İqtisad Universitetinin sabiq rektoru (2004–2014), Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər kafedrasının rəhbəri. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 267–282.

**207. İhsan Doğramacı** (1915–2010) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin Fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə Fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidenti, 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvü, iki dəfə Bilkənd Universitetinin sədri və rektoru, 1975-ci ildən isə universitetin Fəxri rektoru olmuşdur. İ.Doğramacı Azərbaycan MEA-nın Fəxri üzvü, Azərbaycan Dövlət Tibb Universitetinin Fəxri doktoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif olunmuşdur. – 270, 271.

**208. Hayns Fişer** (d.1938) – Avstriya dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004-cü ildən Avstriyanın Federal prezidentidir. – 283.

**209. Danial Axmetov** (d.1954) – Qazaxıstan dövlət xadimi. 2003–2007-ci illərdə Qazaxıstan Respublikasının Baş naziri, 2007–2009-cu illərdə Müdafiə naziri olmuşdur. İqtisad elmləri doktorudur. – 284.

**210. Saut Minbayev** (d.1962) – iqtisad elmləri namizədi. 2007–2010-cu illərdə Qazaxıstan Energetika və Mineral Ehtiyatlar naziri. 2010–2013-cü illərdə Neft və Qaz naziri, 2013-cü ildə AO «NL Kaz Munay Qaz» İdarə heyətinin sədridir. – 286.

**211. Joze Manuel Barrozu** (d.1959) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri olmuşdur. 2004-cü ilin noyabrından J.M.Barrozu Avropa parlamenti tərəfindən Avropa Komissiyasının sədri seçilmişdir. – 293, 296.

**212. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının prezidenti olmuşdur. Peşəsi həkim travmotoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. – 298, 302.

**213. Almaniya Bundestaqı** – Almaniyada parlamentin aşağı palatası. – 306.

**214. Xamenei,** Seyid Əli (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. –312.

## Şəxsi adlar göstəricisi


Abdullah Məhəmməd – 184
Abutalıbov Hacıbala – 97,129,162,174,192–200,226, 255,285,303,307
Adami Edvard – 68
Adamkiene Alma – 112,124,126
Adamkus Valdas – 31,32,98–114,119–128,286, 289,292,293,296,297,298, 300,301,302
Axmetov Danial – 284
Al Səud Abdullah bin Əbdüləziz– 69
Al Səud Sultan bin Əbdüləziz – 70
Alfyorov Jores – 189
Aşur Əbdürəhim – 255
Auyar Mani – 184,190
Aydogan Gürşad – 271
Babayev Heydər – 17,204,228
Baçelet Mişel – 67
Bağırov Hüseynqulu – 6–10
Barrozu Joze – 293,296
Bartenstayn Martin – 152
Beqə Mari – 96
Bendek Yozef – 176
Besesku Mariya – 171,174
Besesku Trayan – 162–174,185,296,302
Bəhmənov Nizami – 56
Bişof Uinfred – 77
Brayzə Mətyu – 144

Cavad Heyət – 79
Cavad Xan – 93
Cavadxani – 93
Cəfərov Elçin – 30,145
Çinq–Kuo Vin – 25
De Popa İoan – 165–172
Dəmirəl Süleyman – 37
Dimitraşku Mixay – 172–174
Doğan Arzuxan – 209
Doğramacı İhsan – 270,271
Draba Robert – 161
Ellenbogen Mark – 5
Enesku Corce – 167,171
Endryu – 206
Erentok Əhməd – 209
Eyyubov Yaqub – 14,18
Əhmədinejad Mahmud – 95,308,311
Əl-Müsnəd Moza – 14–18
Əl-Şərkavi İbrahim – 203
Əl-Tani Həməd – 14–18
Əli Həsən Əhməd Cəfər – 203
Əliyev Heydər – 22–23,37,38,39,60,83,84,138, 141,151, 165–172,226,242, 245, 251,271,272,273
Əliyeva Mehriban – 10,14,18,80,89,97,119,122, 125,126,130,131,137,138, 139,140,142,151,171,174,267
Əliyeva Zərifə xanım – 151,251
Əmiraslanov Əhliman – 146–151
Ərdoğan Rəcəb Tayyib – 184
Əsgərov Cahangir – 17

Fasye Bernar – 144
Felipe İnoxosa – 66
Fişer Haynz – 283
Fukuda Yasuo – 179
Günay Ərtoğrul – 191
Gül Abdullah – 13,191
H.Şeyklforfd Lotti – 184
Hacıyev Şəmsəddin – 267–282
Hadid Zaha – 80,82,88,89,90
Hammarberq Tomas – 65
Həmzəyev Mahir – 116
Həsənov Əli – 50,52
Həsənov Rəşad – 28
Hitler Adolf – 234
Hüseynzadə Mehdi – 222
Xamenei Əli Seyid – 312
Xu Szintao – 158,185
I Xuan Karlos – 238
İpək Haluk – 184
Kaçinski Lex – 161,286,289,292,296,297,302
Kamal Yusif – 17
Kaselyauskas Modestas – 101
Kaspşik Anji – 144
Kirles Qustav – 222
Konte Lansana – 160
Kosaçov Konstantin – 183
Kovıçiç İvan – 222
Köler Horst – 154
Kreve-Mitskyaviçyus Vintsas – 120,121,123,128
Kuel Şeyla – 178
Kuperşak Zeljko – 204

Qarayev Əbülfəs – 101
Qəzai Əhəd – 95
Qraqan Semyon – 185
Quaverin İvar – 189
Quliyev Ramil – 28
Qurbanov Cavid – 6–10,192–200
Lebedev Sergey – 259
Leunberger Moritz – 266
Li Çje Nun – 11–12
Liqa Danit – 185
Lubis Bronislovas – 109
Lujkov Yuri – 241
Mansurov Fərid –145
Martinetti Rafael – 143
Merkel Angela – 155
Merzlyakov Yuri – 144
Mehdiyev Ramiz – 97,129,162,174,255,285,303, 307
Mesiç Stepan – 210–237
Miloşeviç Slobodan – 234
Minbayev Sauat – 286
Mihara Asahiko – 186
Mir Məhəmmədi Seyid Məhəmməd – 185
Mirzə Şəfi Vazeh – 222
Məmmədyarov Elmar – 14,18,101
Məmmədov Fazil – 17,101
Məmmədov Yaqub – 30
Məmmədov Ziya – 6–11,192–200
Mübarək Hüsnü – 184
Nakayama Yoşikazu – 189

Narışkin Sergey – 23–24
Nazarbayev Nursultan – 258,259
Nizami – 123
Noğaideli Zurab – 188
Novak Stanislav – 222
Novruzov Novruz – 6–10,199
Nurqaliyev Rəşid – 73,75
Olekas Yuozas – 240
Ontani Nekulai – 165–172
Oreyl Devid – 187
Paşayev Hafiz – 204
Paşazadə Hacı Allahşükür – 245–251
Petersone Karina – 183
Putin Vladimir – 34
R.Staselis – 31– 44
Ramsey Uilyam – 92
Ranieri Umberto – 153
Rasizadə Artur – 162,174,210,237,255,285, 303,307
Rayxe Steffen – 306
Rəhmon Emoməli – 258,260
Roh Mu-Hyun – 11,12,157
Ruşaylo Vladimir – 73,74,78,255–260
Rüstəmov Aslan – 242
Rzayev Baba – 261,262
Saakaşvili Mixeil – 286,298,300
Sadıqov Vaqif – 226
Sapatero Xose – 239
Sell Kleyton – 291,298
Süvər Akkan – 209
Syomin Nikolay – 268

Şevardnadze Eduard – 37
Şvetsova Lyudmila – 241
Taşdurmaz Ramazan – 272
Tatlıyev Süleyman – 17,214
Tomson Peter – 91
Ture Amadu – 71
Uiks Malkolm – 156
Usubov Ramil – 76
V.İvanovas – 31–44
Vaytekunas Pyatras – 97,101
Vidoşeviç Nadan – 204
Yaradua Umaru – 159
Yuпas Yonas – 101
Yuşşenko Viktor – 257,286,290,298,300,301
Zatlers Valdis – 302

## Coğrafi adlar göstəricisi


Abxaziya – 299
Abşeron – 6
Ağdam – 51
Adriatik dənizi – 220
Albalılıq – 130–137,141
Albaniya – 235
Almaniya – 27,57,154,155,199,200,261, 306
Amerika (qitə) – 125
Amerika Birləşmiş Ştatları – 22,33,144,178,184,291,292, 298
Aralıq dənizi – 37,107,288,293
Asiya – 38,106,121,180
Avrasiya – 209
Avropa – 33,36,38,58,91,99,106,109, 112,121,122,167,180,219, 220, 235, 288,293,295,296, 297
Avstriya – 27,152,283
Bakı – 6–10,13,39,66,67,68,70,71, 72,76,79,80,84,85,86,87,94, 120,121,123,128,131,141, 146,148,149,150,154,155, 157,158,159,160,167,173, 175,179,180,181,182,184, 185,193,197,201,208,217, 238,239,242,253,261,263,

| | |
|---|---|
| | 264,267,281,283,305 |
| Balkan (yarımada) | – 121,220,222 |
| Baltik dənizi | – 106,108,121,125,287,292, 295,301 |
| Belçika | – 6,27 |
| Belarus | – 27 |
| Bilgəh | – 261,262 |
| Binə | – 130,139,141 |
| Bişkek | – 259 |
| Bolqarıstan | – 27 |
| Birləşmiş Ərəb Əmirlikləri | – 200 |
| Bosniya və Herseqovina | – 27,234 |
| Böyük Britaniya | – 27,156,206 |
| Buxarest | – 162–174 |
| Buzovna | – 130,131,141 |
| Cənub-Şərqi Avropa | – 32 |
| Cənubi Asiya | – 6 |
| Cənubi Koreya | – 11–12,62–64 |
| Cənubi Osetiya | – 299 |
| Çexiya | – 27,233 |
| Çili | – 67 |
| Çin | – 158,185 |
| Dağlıq Qarabağ | – 40,41,43,49,55,56,57,58,59, 105,107,108,124,170,202,204, 216,249,254,299 |
| Danimarka | – 27 |
| Dəvəçi | – 6–10 |
| Dnestryanı | – 299 |
| Düşənbə | – 255–260 |
| Estoniya | – 27 |
| Əlcəzair | – 235 |

Ələt – 62,63
Finlandiya – 27
Fransa – 27,144
Füzuli – 51,53
Gəncə – 93,274
Gürcüstan – 27,33,34,36,38,188,286,288, 294,295,298,300
Hindistan – 184,190
Hollandiya – 27
Horadiz – 53
Hövsan – 193,194
Xaçmaz – 6
Xankəndi – 57
Xəzər dənizi – 5,32,39,106,126,169,207–209,219,220,252–253,286, 288,292,293,295,296,301, 308–310
Xırdalan – 8
Xızı – 6
Xorvatiya – 27,210–237
İran – 6,95,185,307–312
İrlandiya – 27
İspaniya – 27,238,239
İsrail – 27
İsveç – 27
İsveçrə – 266
İtaliya – 27,33,153
Kaliforniya – 178
Kəlbəcər – 55,57
Klaypeda – 106,109,110,121,125
Koreya Respublikası – 157

Kosovo – 43
Krakov – 33,107,123,124,288
Qafqaz – 32,121,203
Qala – 194
Qara dəniz – 5,39,106,107,121,126,169, 207–209,220,286,287,288, 292,293,295,301
Qaraçuxur – 196
Qazaxıstan – 40,258,259,284,286,309
Qərbi Avropa – 6
Qətər – 14–18
Qırğızıstan – 73
Quba – 6
Qvineya – 160
Laçın – 55,56,57
Latviya – 183,298,299,302
Lənkəran – 148,149
Litva – 27,31–44,97–129,240,285–305
Liviya – 235
Lüksemburq – 28
Macarıstan – 27
Mali – 71
Malta – 68
Mavritaniya – 235
Mehdiabad – 9
Meksika – 66
Mərkəzi Asiya – 38,91
Mərkəzi Avropa – 220
Misir – 184,203,204,235
Moldova – 185,298,300

Moskva – 24,151,241
Naxçıvan – 148,149
Nigeriya – 159
Norveç – 26
Palanqa – 125–128
Pirəbədil – 9
Pirşağı – 9
Pekin – 27,29,30
Polşa – 27,32,107,161,286,292,302
Portuqaliya – 27
Rumıniya – 27,162–174,185,292,302
Rusiya –6–10,23–24,27,33,34,35,36, 109,144,183,259,309
Saatlı – 48
Sabunçu – 190
Sabirabad – 48
Serbiya – 234
Səudiyyə Ərəbistanı – 69,70,203
Sidney – 29
Slovakiya – 27,233
Sloveniya – 27
Sumqayıt – 8,195
Şərqi Avropa – 38
Şimali Atlantika – 99
Şuşa – 55,56
Şüvəlan – 130,137,141
Tacikistan – 73,255–260
Tehran – 310
Türkiyə – 13,27,33,34,36,81,151,184, 191,270,288,294,295
Ukrayna – 27,36,107,257,286,288,290,

292,298,300,301
Vilnüs – 31,32,97–129,240,285–303
Yaxın Şərq – 80
Yaponiya – 179,186,200
Yuqoslaviya – 233
Yunanıstan – 27,33,34,36,295
Zaqreb – 217,231

**MÜNDƏRİCAT**

QARA DƏNİZ TƏŞƏBBÜS QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*24 avqust 2007-ci il*..........5

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «BAKI–RUSİYA FEDERASİYASI İLƏ DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN YENİDƏN QURULMASI» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*24 avqust 2007-ci il*..........6

CƏNUBİ KOREYANIN TİCARƏT, SƏNAYE VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ Lİ ÇJE HUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 avqust 2007-ci il*..........*11*

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*28 avqust 2007-ci il*..........*13*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 avqusr 2007-ci il*..........*14*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*28 avqust 2007-ci il*.........................................................................16

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PAYTAXTDA TİKİLMƏKDƏ OLAN ÇOXMƏRTƏBƏLİ YAŞAYIŞ BİNASININ UÇDUĞU YERƏ GƏLMİŞDİR

*29 avqust 2007-ci il*.........................................................................19

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*30 avqust 2007-ci il*.........................................................................21

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ APARATININ RƏHBƏRİ – HÖKUMƏT SƏDRİNİN MÜAVİNİ SERGEY NARIŞKİN İLƏ SÖHBƏT

*31 avqust 2007-ci il*.........................................................................23

BEYNƏLXALQ HƏVƏSKAR BOKS ASSOSİASİYASININ PREZİDENTİ ÇİNQ-KUO VUN İLƏ GÖRÜŞ

*31 avqust 2007-ci il*.........................................................................25

YENİYETMƏLƏRİN IX AVROPA OLİMPİYA FESTİVALININ QALİBLƏRİ VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2007-ci il* ........................................................ *26*

GÜLƏŞ VƏ TAEKVONDO ÜZRƏ MİLLİ KOMANDALARIN ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2007-ci il* ........................................................ *29*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVADA ÇIXAN «VERSLO ZİNİOS»/ «BUSİNESS NEWS» QƏZETİNİN VƏ «VERSLO KLASE» / «BUSİNESS CLASS» JURNALININ MÜXBİRLƏRİNƏ MÜSAHİBƏSİ

*3 sentyabr 2007-ci il* ........................................................ *31*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ERMƏNİSTANIN ÖLKƏMİZƏ HƏRBİ TƏCAVÜZÜ NƏTİCƏSİNDƏ DOĞMA TORPAQLARINDAN DİDƏRGİN DÜŞMÜŞ SOYDAŞLARIMIZIN PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*4 sentyabr 2007-ci il* ........................................................ *45*

YEKUN NİTQİ

*4 sentyabr 2007-ci il* ........................................................ *50*

CƏNUBİ KOREYANIN «GS E&S» ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2007-ci il* ........................................................................ *62*

AVROPA ŞURASININ İNSAN HÜQUQLARI ÜZRƏ KOMİSSARI TOMAS HAMMARBERQİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2007-ci il* ........................................................................ *65*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

*5 sentyabr 2007-ci il* ........................................................................ *66*

ÇİLİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MİŞEL BAÇELETƏ

*5 sentyabr 2007-ci il* ........................................................................ *67*

MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDVARD FENEK ADAMİYƏ

*5 sentyabr 2007-ci il* ........................................................................ *68*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*5 sentyabr 2007-ci il* ........................................................................ *69*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*5 sentyabr 2007-ci il* ........................................................ *70*

MALİ RESPUBLİKASININ PREZİDENTİ ZATİALİLƏRİ CƏNAB AMADU TUMANİ TUREYƏ

*5 sentyabr 2007-ci il* ........................................................ *71*

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*6 sentyabr 2007-ci il* ........................................................ *72*

«CİTİGROUP»UN AVROPA REGİONU ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU UİNFRED BİŞOFUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 sentyabr 2007-ci il* ........................................................ *77*

MDB-nin İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*6 sentyabr 2007-ci il* ........................................................ *78*

GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM CAVAD HEYƏT İLƏ GÖRÜŞ

*6 sentyabr 2007-ci il* ........................................................ *79*

BAKIDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ NİTQ

*10 sentyabr 2007-ci il*........................................................................ *80*

MƏŞHUR MEMAR XANIM ZAHA HADİD İLƏ GÖRÜŞ

*10 sentyabr 2007-ci il*........................................................................ *90*

DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ DAVAMLI İNKİŞAF SEKTORUNUN DİREKTORU PETER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2007-ci il*........................................................................ *91*

BEYNƏLXALQ ENERJİ AGENTLİYİNİN İCRAÇI DİREKTORUNUN MÜAVİNİ UİLYAM RAMSEYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2007-ci il*........................................................................ *92*

GƏNCƏ XANI CAVAD XAN NƏSLİNİN NÜMAYƏNDƏSİ RZA CAVADXANİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2007-ci il*........................................................................ *93*

AZƏRBAYCANIN YƏHUDI İCMASINA

*11 sentyabr 2007-ci il*........................................................................ *94*

İRAN–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ ƏHƏD QƏZAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2007-ci il......................................................................95*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN HƏMSƏDRİ XANIM MARİ ANN İSLER BEQƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2007-ci il......................................................................96*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVAYA RƏSMİ SƏFƏRİ

*13 sentyabr 2007-ci il......................................................................97*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA RESPUBLİKASININ PREZİDENTİ VALDAS ADAMKUSUN TƏKBƏTƏK GÖRÜŞÜ

*13 sentyabr 2007-ci il......................................................................99*

AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*13 sentyabr 2007-ci il....................................................................100*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA RESPUB-

LİKASININ PREZİDENTİ VALDAS ADAMKUSUN BİRGƏ MƏTBUAT KONFRANSI

*13 sentyabr 2007-ci il*.................................................................. *102*

DÖVLƏT BAŞÇILARININ AZƏRBAYCAN–LİTVA BİZNES- FORUMUNDA ÇIXIŞLARI

*13 sentyabr 2007-ci il*.................................................................. *109*

LİTVADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2007-ci il*.................................................................. *115*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ VALDAS ADAMKUSUN VƏ XANIMI ALMA ADAMKİENENİN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*13 sentyabr 2007-ci il*.................................................................. *119*

PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ VALDAS ADAMKUSUN AZƏRBAYCANIN DÖVLƏT BAŞÇISININ LİTVAYA RƏSMİ SƏFƏRİNİN YEKUNLARINA DAİR MƏTBUAT ÜÇÜN BƏYANATLARI

*14 sentyabr 2007-ci il* ................................................................. *126*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «BİLİK GÜNÜ» MÜNASİBƏTİ İLƏ BAKININ BUZOVNA, ŞÜVƏLAN, BİNƏ QƏSƏBƏLƏRİNDƏ VƏ YASAMAL RAYONUNDA BİR NEÇƏ MƏKTƏBDƏ OLMUŞDUR

*15 sentyabr 2007-ci il.................................................................130*

BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYALARI ASSOSİASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİ İLƏ GÖRÜŞ

*17 sentyabr 2007-ci il.................................................................143*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*18 sentyabr 2007-ci il.................................................................144*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA VƏ OLİMPİYA ÇEMPİONU FƏRİD MANSUROVU VƏ AZƏRBAYCANIN YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ MİLLİ KOMANDASININ BAŞ MƏŞQÇİSİ ELÇİN CƏFƏROVU QƏBUL ETMİŞDİR

*18 sentyabr 2007-ci il.................................................................145*

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN TƏDRİS-TERAPEVTİK KLİNİKASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ NİTQ

*18 sentyabr 2007-ci il.................................................................146*

AVSTRİYANIN İQTİSADİYYAT VƏ ƏMƏK NAZİRİ MARTİN BARTENŞTAYNIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2007-ci il................................................................. 152*

İTALİYA PARLAMENTİ DEPUTATLAR PALATASININ XARİCİ İŞLƏR DAİMİ KOMİSSİYASININ SƏDRİ UMBERTO RANİERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2007-ci il................................................................. 153*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ

*21 sentyabr 2007-ci il................................................................. 154*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ XANIM ANGELA MERKELƏ

*21 sentyabr 2007-ci il................................................................. 155*

BÖYÜK BRİTANİYANIN ENERGETİKA ÜZRƏ DÖVLƏT NAZİRİ MALKOLM UİKSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 sentyabr 2007-ci il................................................................. 156*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RO MU HYUNA

*21 sentyabr 2007-ci il................................................................ 157*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA

*21 sentyabr 2007-ci il ................................................................ 158*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UMARU YARADUAYA

*21 sentyabr 2007-ci il................................................................ 159*

QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LANSANA KONTEYƏ

*21 sentyabr 2007-ci il................................................................ 160*

POLŞA PREZİDENTİ DƏFTƏRXANASININ RƏHBƏRİ VƏZİFƏSİNİ İCRA EDƏN DÖVLƏT KATİBİ ROBERT DRABA İLƏ GÖRÜŞ

*21 sentyabr 2007-ci il................................................................ 161*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYAYA İŞGÜZAR SƏFƏRİ

*24 sentyabr 2007-ci il................................................................ 162*

BUXARESTDƏ HEYDƏR ƏLİYEV ADINA XİYABANIN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*24 sentyabr 2007-ci il................................................................ 165*

BAKIDA KEÇİRİLƏN SƏRHƏD MƏSƏLƏLƏRİ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*26 sentyabr 2007-ci il................................................................ 175*

KALİFORNİYA SENATI VƏ ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2007-ci il................................................................ 178*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YASUO FUKUDAYA

*26 sentyabr 2007-ci il................................................................ 179*

«SİVİLİZASİYALARIN DİALOQU: SİYASİ PARTİYALARIN ROLU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*26 sentyabr 2007-ci il................................................................ 180*

BAKIDA KEÇİRİLƏN «SİVİLİZASİYALARIN DİALOQU: SİYASİ PARTİYALARIN ROLU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARININ BİR QRUPU İLƏ GÖRÜŞ

*27 sentyabr 2007-ci il................................................................ 182*

«ŞEVRON» KORPORASİYASININ İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU DEVİD OREYLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2007-ci il................................................................ 187*

GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2007-ci il................................................................ 188*

NOBEL MÜKAFATI LAUREATLARI JORES ALFYOROV, İVAR QİAVERİ VƏ YÜKSƏK TEXNOLOGİYALAR ÜZRƏ ALİM YOŞİKAZU NAKAYAMA İLƏ GÖRÜŞ

*27 sentyabr 2007-ci il................................................................ 189*

HİNDİSTANIN YERLİ ÖZÜNÜİDARƏ, GƏNCLƏR VƏ İDMAN, ŞİMAL-ŞƏRQ REGİONU NAZİRİ MANİ ŞANKAR AİYAR İLƏ GÖRÜŞ

*27 sentyabr 2007-ci il................................................................ 190*

TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ ƏRTOĞRUL GÜNAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2007-ci il................................................................ 191*

BAKIDA MÜASİR TİPLİ BİR KÖRPÜ VƏ İKİ YERALTI PİYADA KEÇİDİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*29 sentyabr 2007-ci il................................................................192*

MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2007-ci il................................................................... 201*

YORK HERSOQU ENDRYU İLƏ GÖRÜŞ

*1 oktyabr 2007-ci il....................................................................206*

«QARA DƏNİZ VƏ XƏZƏR DƏNİZİ REGİONUNDA BİRBAŞA XARİCİ İNVESTİSİYALAR» BEYNƏLXALQ KONFRANSININ VƏ BİZNES-FORUMUNUN İŞTİRAKÇILARINA

*2 oktyabr 2007-ci il....................................................................207*

QARA DƏNİZ VƏ XƏZƏR DƏNİZİ SAHİBKARLAR KONFEDERASİYALARI BİRLİYİNİN VƏ TÜRK SƏNAYEÇİLƏRİ VƏ İŞ ADAMLARI BİRLİYİNİN PREZİDENTİ ARZUXAN DOĞAN, MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ AKKAN SUVER VƏ ATA HOLDİNQİN BAŞ DİREKTORU ƏHMƏD ERENTOK İLƏ GÖRÜŞ

*2 oktyabr 2007-ci il....................................................................209*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STEPAN MESİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 oktyabr 2007-ci il....................................................................210*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STEPAN MESİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

*2 oktyabr 2007-ci il ................................................................212*

AZƏRBAYCAN VƏ XORVATİYA PREZİDENT-LƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*2 oktyabr 2007-ci il* ..................................................................213

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STEPAN MESİÇİN BİRGƏ MƏTBUAT KONFRANSI

*2 oktyabr 2007-ci il*..................................................................215

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STEPAN MESİÇİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*2 oktyabr 2007-ci il*..................................................................221

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ DAVAM EDİR

*2 oktyabr 2007-ci il* ..................................................................226

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN–XORVATİYA BİZNES-FORUMUNDA

*3 oktyabr 2007-ci il*..................................................................228

İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*3 oktyabr 2007-ci il*..................................................................238

İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA

*3 oktyabr 2007-ci il*......................................................................*239*

LİTVANIN MİLLİ MÜDAFİƏ NAZİRİ YUOZAS OLEKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2007-ci il*......................................................................*240*

MOSKVA MERİNİN BİRİNCİ MÜAVİNİ, AZƏRBAYCAN–MOSKVA HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYANIN HƏMSƏDRİ LYUDMİLA ŞVETSOVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2007-ci il*......................................................................*241*

BAKININ XƏTAİ RAYONUNDA HEYDƏR ƏLİYEV PARKININ AÇILIŞ MƏRASİMİ

*3 oktyabr 2007-ci il*......................................................................*242*

MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ AÇILAN İFTAR SÜFRƏSİNDƏ NİTQ

*4 oktyabr 2007-ci il*......................................................................*245*

«XƏZƏR DƏNİZİNİN DAVAMLI İNKİŞAFI ÜÇÜN STRATEGİYALAR» MÖVZUSUNA HƏSR OLUNMUŞ KONFRANSIN İŞTİRAKÇILARINA

*4 oktyabr 2007-ci il*......................................................................*252*

AVROPA İTTİFAQI ÖLKƏLƏRİNİ TƏMSİL EDƏN JURNALİSTLƏR İLƏ GÖRÜŞ

*4 oktyabr 2007-ci il*.................................................................. *254*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANA SƏFƏRİ

*5 oktyabr 2007-ci il*.................................................................. *255*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*5 oktyabr 2007-ci il*.................................................................. *256*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MDB-nin DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA

*5 oktyabr 2007-ci il*.................................................................. *257*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «BİLGƏH» VƏ «BUZOVNA» YARDIMÇI STANSİYALARININ AÇILIŞ MƏRASİMİNDƏ

*6 oktyabr 2007-ci il*.................................................................. *261*

İSVEÇRƏNİN ƏTRAF MÜHİT, NƏQLİYYAT, ENERGETİKA VƏ RABİTƏ ÜZRƏ FEDERAL DEPARTAMENTİNİN RƏHBƏRİ, NAZİR MO-

RİTZ LEUNBERQERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 oktyabr 2007-ci il*......................................................................*266*

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVER-SİTETİNİN YENİ KORPUSUNUN AÇILIŞ MƏ-RASİMİ

*8 oktyabr 2007-ci il*......................................................................*267*

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVER-SİTETİNİN YENİ KORPUSUNUN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*8 oktyabr 2007-ci il* ....................................................................*..277*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNZ FİŞERƏ

*9 oktyabr 2007-ci il* ....................................................................*283*

QAZAXISTANIN MÜDAFİƏ NAZİRİ DANİAL AXMETOV İLƏ GÖRÜŞ

*9 oktyabr 2007-ci il*......................................................................*284*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYE-VİN LİTVAYA İŞGÜZAR SƏFƏRİ

*10 oktyabr 2007-ci il*....................................................................*285*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VİLNÜSDƏ ENERGETİKA SAHƏSİNDƏ TƏH-

LÜKƏSİZLİYƏ DAİR KONFRANSDA İŞTİRAK ETMİŞDİR

*10 oktyabr 2007-ci il*.................................................................. *286*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

*10 oktyabr 2007-ci il*.................................................................. *290*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ KLEYTON SELL İLƏ GÖRÜŞÜ

*11 oktyabr 2007-ci il*.................................................................. *291*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VİLNÜS ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ DAİR BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR

*11 oktyabr 2007-ci il*.................................................................. *292*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GUAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ BU TƏŞKİLATIN YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ GÖRÜŞDƏ İŞTİRAK ETMİŞDİR

*11 oktyabr 2007-ci il*.................................................................. *298*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*11 oktyabr 2007-ci il*.................................................................. *304*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA BUNDESTAQININ ALMANİYA–CƏNUBİ QAFQAZ PARLAMENTLƏRARASI QRUPUNUN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

*15 oktyabr 2007-ci il* ........................................................ *306*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA SƏFƏRİ

*16 oktyabr 2007-ci il* ........................................................ *307*

XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVIN ÇIXIŞI

*16 oktyabr 2007-ci il* ........................................................ *308*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN GÖRÜŞÜ

*16 oktyabr 2007-ci il* ........................................................ *311*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRANIN ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİNİN GÖRÜŞÜ

*16 oktyabr 2007-ci il* ........................................................ *312*

*Q E Y D L Ə R* ........................................................ *315*

*Şəxsi adlar göstəricisi* ........................................................ *367*

*Coğrafi adlar göstəricisi* ........................................................ *373*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompyuter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,0. Uçot vərəqi 25,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.